# AZƏRBAYCAN

**2’2024**

**1923-cü ildən çıxır**

**AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN**
**AYLIQ ƏDƏBİ-BƏDİİ ORQANI**



**Baş redaktor:** **İntiqam QASIMZADƏ**

**Baş redaktor müavini: Südabə AĞABALAYEVA**

**Məsul katib:** **Vüsal NURU**

**Şöbə müdirləri:** **Məmməd ORUC,**
**Qəşəm NƏCƏFZADƏ,**
**Mübariz CƏFƏRLİ**



**Redaksiyanın ünvanı:**
Bakı - Az1000
Xaqani küçəsi, 25

**Telefonlar:**
*Redaksiya* –
498-78-10
493-75-81

*Mühasibat* –
493-29-41



**Çapa imzalanıb:**
23.02.2024
**Sifariş 224**
Tiraj 500
**Kağız formatı**
70x108 1/16 - 6,5
kağız vərəqi
13 çap vərəqi
18,2 şərti çap vərəqi



**E-mail:**
intigam.gasimzade@gmail.com
sudabe334@mail.ru
**www.azyb.az**



**Qiyməti**
**2 manat**

**Bakı şəhəri, “Azərbaycan”**
**nəşriyyatının mətbəəsində**
**ofset üsulu ilə çap olunur**



**Dərc olunmuş yazılar qəbul edilmir.**
**Əlyazmalara rəy verilmir və qaytarılmır.**
**Müəllifin fikirləri redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.**

## BU SAYIMIZDA:

## POEZİYA

VAQİF BƏHMƏNLİ – Şeirlər....................................................................3
RƏŞİD FAXRALI – Domokl qılıncı (Elegik poema)..................................83
ELÇİN İSGƏNDƏRZADƏ – Şeirlər.........................................................128
XƏYALƏ SEVİL – Şeirlər.......................................................................145
ELVİN İNTİQAMOĞLU – Şeirlər............................................................164
ƏDALƏT SALMAN – Şeirlər..................................................................169
SARA SELCAN – Şeirlər.......................................................................174

## NƏSR

MÜBARİZ CƏFƏRLİ. Zirvə (Roman – sonu).......................................... 95

## YENİ TƏRCÜMƏLƏR

CENGİZ DAĞÇI – Qorxunc illər (Roman – əvvəli. Türkcədən uyğunlaşdırdı: Vilayət Quliyev).................32
MƏHƏMMƏD ƏHMƏDOV – Şeirlər (Rus dilindən çevirən: Məmməd Oruc).......................................152
MARİO PYUZO – Xaç atası (Roman – davamı).......................................189

## TƏNQİD VƏ ƏDƏBİYYATŞÜNASLIQ

NİZAMİ MƏMMƏDOV-TAĞISOY – Anar yaradıcılığında keçmişlə müasirliyin simbiozu.................. 153
HACI FİRUDİN QURBANSOY – Poeziyamızda video-reportaj effekti........................183

## ƏDƏBİ PORTRETLƏR

VAQİF YUSİFLI. Akademikin yaddaş dünyası.........................................179

KİTAB RƏFİ .............................208

# ♦ Poeziya



***Vaqif BƏHMƏNLİ***

***Könlüm üzübərkdi; şüşə olsa da,***
***Sınmaz... yar əlindən düşər olsa da!***

## 1.YAR EŞQİNƏ

## GÖZƏL QONAQ

Bir yar qonaq oldu bizə –
adı elindən qəşəng!
Kirpikləri nizə-nizə,
zülfü belindən qəşəng!

Bənzəri yox...
nəzər saldım –
qızdan, gəlindən qəşəng!
Kəlmə kəsdi, mata qaldım;
sözü dilindən qəşəng!

Vaxta şükür, Tanrı verib –
Günüm, ilimdən qəşəng!
Hansı bağban gül becərib
Cənnət gülündən qəşəng?

Ərkan tutdu, yerin bildi,
duydu dərindən qəşəng!
Dodağını şirin bildim
şanın balından qəşəng.

Bu ki, odlar sultanıdı,
Oda salmaq... amandı.
Yanan Vaqifi tanıdı
soyuq külündən qəşəng!

## ÇƏTİN SINAQ

Kim bilir...
sevinc, qəm işartısının
işığı gözümdə haracan gedər?!
Ruhumda sayrışan eşq yaşantısı
candan gedənəcən...
candan can gedər!

Könlüm üzübərkdi;
şüşə olsa da,
Sınmaz...
yar əlindən düşər olsa da!
Qan salmaq gözələ peşə olsa da,
qanı salandan da gərək qan gedə!

Müşküllər içində naçar bizikmi?
Kilidli qismətə açar bizikmi?
Qatarı pozulan uçar bizikmi? –
Gör neçə milyarddı nigaran gedən?!

Sirli xəzinədi örtülü səbət;
Dəymə qapağına –
aşkar, ya xəlvət!
Tökülər səbətdən çiyin-çiyin dərd,
girib cənazənə…
goracan gedər!

Közü sönən ürək –
qaranlıq mağar,
İçini qəm nəmi qaraldar, ağam!
Nola, Rəbb bürüyə qaranı ağa,
boz üzlər dünyadan al-əlvan gedə…

Fərz olar mətləbin, Vaqif, haçana?
Demə ki, yar cövrü cəfadı cana!
Eşq olsun daş yarıb, düyün açana –
yar gərək sınana, imtahan gedə!

## MİSİLSİZ

Canıma toy tutan əllərdən keçsəm,
bəylik kəcavəmi udsa da dərə,
kükrəyən,
qorxulu sellərdən keçsəm,
səni qucağımdan qoymaram yerə!

Məni göylər salıb çətin oyuna –
Bu dünya mağardı,
hər cür toy olur!
Dik başım qurbandı bəstə boyuna,
Mən bilən,
Tanrı da bəstəboy olur!

Yansam cəhənnəmin alov düzündə
Qaçıb cənnətində haqlaram səni.
Fanidə nə dərd var,
düşər gözümdən,
Gözümün üstündə
saxlaram səni!

Vecimə almaram Nuh aləmini,
Qocaman sevgimiz ölə, ağlaram.
İçəri gülərəm vüsal dəmini,
hicrini gizlincə çölə ağlaram!

Qorxum yox,
tikəyə möhtac olaram,

Hüsnünlə toxtayar sərasər əsən.
Yolunun üstündə ağac olaram
kölgəmdə bir hovur nəfəs dərəsən!

Qeybə çəkilsən də nəzərimdəsən –
Surətin görünür qəlbi dağ kimi.
Qədəmin hayana dəysə,
o yerdən
çağlaram gur sulu saf bulaq kimi…

Yadımda min ad var,
şükür, başdayam,
Bizsiz bu aləm boş, bərbad küçədi.
Yalnız sən bilirsən neçə yaşdayam,
Heç kəsə söyləmə yaşım neçədi…

## GÖZƏLİM

Fələk olsam,
göydə çətin dözərdim,
çətin səndən gen düşərdim, gözəlim.
Tellərinə Ay qırığı düzərdim,
Qədəminə Gün döşərdim, gözəlim!

Rəbb yarındı,
ta nə qəmin, gül barı,
Güləş gözdən payım olsun gül barı.
Müdam solur – yoxdu gülün ilqarı;
Solmaz adı gülə şərdi, gözəlim.

Hardan bilsin qiymətini hər zayıl,
Sərraf olan qismətini zər sayır…
Sənə sarı görsəm gəlir Əzrayıl
durub onnan güləşərdim, gözəlim!

Tüm gözəllər təkrarındı, əsilsən!
Yaz, payız, qış, yaysan…
hansı fəsilsən?
Mən qəmə qul,
ya sən məndə əsirsən,

Dünya nədi,
xeyir-şərdi, gözəlim?

Şam tək damar hər cövrünə yanan can,
Kül gül açar pərvanəsi yanınca!
Qafı aşıb sürünərdim yanınca,
Çinə qədər yol aşardım, gözəlim!

Vəsfin bir az artıq oldu...
gülürsən,
Dediyindən dönməyənəm, bilirsən!
Xəbər tutsam son mənzilə gəlirsən,
Cənnətində gül açardım, gözəlim!

Qədəminə səpsəm nərgiz, yasəmən,
Nədən çönüb baxmırsan heç, ya sənəm?
Olmasaydıq bu dünyada mən ya sən,
onda kimnən dalaşardım, gözəlim!?

## PAYIZ GÜLÜ, QIŞ PAYI

Təbiət çevrəmi,
ya sirr adası? –
Var olmaq uğrunda cəngi özgədi!
Daş da çıçəkləyir yazda, qadası,
Payız çiçəyinin rəngi özgədi.

Bahar şehi yuyur ləçəkdə günah,
Yeldən havalanıb oynayır qovaq.
Yazda özü çıxır...
payızda Allah
dikəldən ağacın tingi özgədi.

Sevməmək xətadı, sevmək əndişə,
Pis odu, qismətin əlindən düşə...
Sıx kollar dibində gözdən gen düşən
həyalı çıçəyin zəngi özgədi.

Qəlbinə min alqış hicrə dözürsə,
Ahıl yaşda əlin çiçək üzürsə,

Rəbbin sevimlisi demək, özünsən
qışa var saxlayan zəngin... özgədi!

## ƏLDƏ QÜDRƏTƏ BAX...

***İstedadlı manual-terapevt Rəna xanımın
şəfalı əllərinə minnətdarlıqla***

Əla manuoloq deyirlər səni...
Yumşalt varlığımı, yağ-bal çək, gedim!
Yaxşı əzişdirib bu həyat məni,
belimə yaxşıca sığal çək, gedim!

Quluncum dağların son qarı – yoğur,
Rəndələ, buz tutan yonqarı yoğur,
Ərisin belimin donqarı, yoğur –
bişir əl odunda, qoğaltək gedim!

Yoğur qəm sarıqlı dükçə açılsın,
Təki tutuq damar tükcə açılsın!
Gözümün qıyığı türkcə açılsın,
qıyma qəbulundan monqoltək gedim!..

Gəldim hüzuruna bükülü qultək,
Düşdüm ayağına didilmiş çultək!
Əyrimçə qocaya düzünə yol çək;
o yolu qamətli oğultək gedim!

Əldə qüdrətə bax ... sümükdən duzu
qoparıb masaya şirnitək düzür!..
İsindir, ruhumun ərisin buzu –
“salamtək” gəlmişdim, “sağoltək” gedim!

Gələndə sanırdım falçı tasıyam,
Bozarıq-bulanıq bir dolça suyam...
Gedirəm, maşallah, buz baltasıyam –
Ecazkar əlinə necə şəkk edim!?

# 2. ALLAH EŞQİNƏ

## AĞ ÜZ

Dünyanın divarını əhəngləyir Yaradan,
Diksinir quş səsindən ağarır Göyün üzü!
Soyuq, qara daşa da nurdan don biçir zaman,
Çəmən qızın saçına Günəş nənə gül düzür!

Günün gündüzü qalır kimlərin vicdanına? –
Kimsə duymur Gün söndü, yetişdi axşam haçan.
Kül başına adamın, qəsd eləyib canına
Allahın ağ üzünü qaraldır axşamacan!

## MƏRHƏMƏT DİLƏYİ

Hökmü-rəvansan, Allah, lütfünü dövrana səp,
Seldi, sudu dağların, qətrəni səhrana səp!

Qəfəsdəki qumrunun çöldədirsə naləsi,
Dənləməz, qənşərinə zər çilə, dürdanə səp!

Bazar bəlli bazardı, kimdi orda dərd alan? –
İstəyirsən çeşminin yaşını dörd yana səp!

İfrat görüş azdırır aşiqi haqq yolundan,
Ölüm hökmüdür vüsal, səbrini hicrana səp!

Ömür nədi, ocaqdı, var küləndə közərti,
Xışmala son tüstünü, hirsini qəlyana səp.

Heçdi işin əvvəli, heçdi son nədən, Allah,
Haram toxum cücərməz, təxti-Süleymana səp!

Zaman zalım əjdaha, əzir məğrur başları,
Hünər ver zəiflərə, qeyrəti meydana səp!

Sən ki, səxavətlisən, boldu havan, işığın
Haqqa məhkumdu Vaqif, nurunu zindana səp!

## TANRI DUALLIĞI

Daşın, quşun, adamın
sirrini bilir Allah,
Suyun, yelin, torpağın
dilini bilir Allah.

İtirmir haqq sayını
mömin, saleh kəslərin,
Ölüyə rəhmət verir,
dirini bilir Allah!

Qocanın hıqqıltısı
hansı çanaxdan çıxır,
Hər tifilin ağrıyan
yerini bilir Allah!

Kimlər iynəni sancıb
hal arvadın çiyninə,
Divar diki yeriyən
darını bilir Allah!

Gizli, mübhəm nəzərlə
mərdi seçir namərddən,
Çünki qanı, iliyi,
dərini bilir Allah!

Yerin dərin altını
üstünə çevirsə də
Enməz ucalığından –
yerini bilir Allah!

Topuqdaki zəncirin
səsindən qulaq batır,
Necə deyim mənimtək
dəlini bilir Allah?!

Məni O yaradıbsa
niyə çözmür sonacan? –

Min dərdim var, minindən
birini bilir Allah!

Səthi sərib önümə,
deyir, Vaqif, çabala,
Dayazla işi yoxdu,
dərini bilir Allah!

## AZAN SƏSİ

İlahi, sən səsdə məlahətə bax,
Elə bil yüksəlir göydən enən Səs...
Ağzı qova dəyir, alışır çaxmaq;
Bu sayaq hikmətin sirri nədir bəs? –
Azan yada salır müsəlmanlığı!

Otluqda mil durur qurbanlıq dana
dan üzü, günorta, şər-axşam çağı!
Cəllad baltasını atır bir yana,
Daxılda gizlədir qəssab bıçağı –
Azan yada salır müsəlmanlığı.

Quş kimi dikəlir yerindən mitil;
Göyləri bəzəyir qanadın izi.
Alnına dirəyib silahı qatil
özü öz başına sıxır gilizi –
Azan yada salır müsəlmanlığı.

Çin olur bir mağmın gəlin diləyi,
Quruyur dəsmalda gözündəki yaş.
Daha içməyəcək...
tövbə eləyib
divarda sındırır badəni əyyaş –
Azan yada salır müsəlmanlığı.

Keçidlər genəlir, su gəlir arxa,
örtür quraq yerin çatqınlığını.
Kələkbaz kələyə çevirir arxa,
satqınlar tərgidir satqınlığını –
Azan yada salır müsəlmanlığı.

Rişəsi çürüyür həyazsızlığın,
Göylər abır səpir, pərdə göndərir.
Qaytarır yoluna çapqın azğını,
Əbləhi, namərdi mərdə döndərir –
Azan yada salır müsəlmanlığı.

Dolur pürkamala dünənki dəli,
Qatı yalançının dili quruyur.
Yaltaq adamların qırılır beli,
rüşvət alanların əli quruyur –
Azan yada salır müsəlmanlığı.

Yer tapmır əlinə cibəgirənlər,
Sola meyl edənlər sağda dayaır.
Haram ağaclardan sərvət dərənlər,
axırda beş arşın ağda dayanır;
Azan yada salır müsəlmanlığı

Azan… Ətir verir tər nanə kimi,
Sonuncu nəfəsdi, müqəddəsdi o.
Uçur çevrəmizdə pərvanə kimi,
Tanrı varlığından qopan səsdi o –
Haçan azan səsi yüksəlsə, bilin,
Allah yada salır müsəlmanlığı.

## EŞQ – ALLAH, YAXUD ƏKSİNƏ

Tale tərəzisi iki əldədi –
Şəri şeytan çəkir, haqq çəkir Allah.
Şeytan qara yaxır haradan gedir,
O yerin üstünə ağ çəkir Allah!

Əgər qismətdisə, gələcək loxma,
Loxma hikmətini bilməyən… axmaq!
Əməlin düzdürsə, heç nədən qorxma,
arxanda dayanıb dağ təki Allah!

Yazıldı,
pozulmur kimsənin suçu,

Haqdan burulmasın bəndənin puçu!
Yolundan azanı qəhr etmək üçün
Adildi,
yüngülcə ah çəkir Allah!

Nəsil qanlısıdı haramla halal!
Deyim, bu sözü də kitabına sal –
Mərdin kürəyinə şəfqətli sığal
namərdin gözünə dağ çəkir Allah!

Olsa da sirrləri sıx ulduz sanı,
Dünya nəmənədi –
fəhm elə, tanı!
Gizlin sevgisi var hər bir insanın –
Onu insan bilir, bir də ki, Allah!

Göylər məhkumusan, varmı xəbərin? –
Əgər ki, Vaqifsən, ordadı yerin!
Canını yorma heç,
düşünmə dərin,
Eşq deyil, bəs nədi Yerdəki Allah?!

### ƏBƏDİYYƏT HAQQI

İlahi atadan sızır cana qan,
İlahi anadan doğulur insan.
Sonda ata ölür, ölür Yaradan,
adamın anası ölmür heç zaman!

## 3. İNSAN EŞQİNƏ

### İKİ... İKİ... İKİ...

Var olan hər nə ki var, bilginən, ondan ikidi,
Qoşadı ruh tən ilə, tək deyil insan, ikidi!

Kisə vermiş canı Rəbb, doldura bilsən içini,
Yaradansan deməli, bəxti yaradan ikidi.

Qırmızı, ağ kürəcik meydanıdı hər diri can,
Damarınca köpürüb buğlanan al qan ikidi.

Ora bax, Allahı gör, Göy üzünün sultanı tək,
Ata var, həm də ana – Yerdəki sultan ikidi.

Alnımızda qoşa xətt – orda "xeyir", "şər" yazılıb,
Xilqəti xəlq eləyən bəlli nam-nişan ikidi!

Dəmbədəm "bəli", "xeyir" hasil edən dil haçadı,
Varı yoxdan ayıran dar macal, imkan ikidi!

Kamalın varsa əgər şəxsini tut dərgaha tay,
Biri sən, bir də fəza – küllü-kəhkaşan ikidi.

Çoxluğu qoy qırağa, tünlük hələ məna deyil,
Qananı, qanmazı var, əhli-müsəlman ikidi!

Dikilib yar yoluna şeh sala sübhdən şamacan,
Ağı dibdən saralan gözdəki giryan ikidi!

Bağlıyıq başdan, ayaqdan, fələyin çarmıxına,
Cəhənnəm, cənnət ara; gorda da zindan ikidi!

Yaşayır cədd əbədi, qəm yemə taxt-tarac olur,
Bitmir əfsanələri – təxti-Süleyman ikidi.

Xain oxdan yaralı, qəlbi qırıq, taleyi kəm,
Köksünü Araz bölən Azəribaycan ikidi!

Həmdəmi qeyb olalı badə süzür cüt Vaqif,
Dərd içir dost yerinə…
onda istəkan ikidi!

## İNCİTMƏ

Didmə şalvar balağını,
köynək yaxasını didmə,
İnsana sataşma, tikan,
insana sataşan tikan

xeyir tapmaz
heç zaman!

Kor eləmə bostanı,
Əzmə güllüyü, ləki...
İncitmə insanı, heyvan,
insanı incidən heyvan
xeyir tapmaz
heç zaman!

Qırma qeybətini, qırma,
halal haqqını yemə,
Lənət yağdırma qarasına,
toxunma namusuna,
insanı alçatma, insan,
İnsanı alçaldan insan
xeyir tapmaz
heç zaman!

**BAKI**

Baş qoymuşam dizinə,
ülfətdə təksən, Bakı,
Min şükür ki, yuvadı mənə də köksün, Bakı.

Nələr vermisən bizə? –
ağıl, iş yeri, övlad...
Sehrli zümrüd quşu, bəlkə mələksən, Bakı?!

Solar gözümdə hər şey, gözüm də solar bir gün,
Solmaz axirətəcən qəlbimdə əksin, Bakı!

Yadın bircə çöpünə ehtiyacın olmayıb,
Görüm Allah ruzunu təpəndən töksün, Bakı!

Yaman gözə ox batsın, yalan dillər çürüsün,
Dəysə əgər xətrinə qumca, ya tükcən, Bakı.

Qarışıb boz qumuna yaşaram azı min il,
Qədim qala daşına rəsmimi çəksən, Bakı!

Haqqını halal elə Qarabağ bitsə əgər
Köçkün ruhumu hansı küncünə əksən, Bakı!

## ZƏHMƏTİN TABLOSU

Əkinçi rəssam kimidi;
Tarla – kətan,
əllər – fırça,
alın təri – rəng...
Hələ tələsmə,
incələmə bu təsvirdə
çirkin nədir,
nədir qəşəng.

Əkinçi-rəssam
eşənək atır
kətan məkanda,
yəni ki, torpaqda.

Bir ovuc ruzunu
Canlandırır göz önündə,
Düşünmür yaradıcılıq haqda.

Oranı qazır,
buranı qazır,
Əkinçi-rəssamın
pintiliyini lağa qoyur
qıraqdan baxan
qeybətcil kənd adamları,
paxıl qohum-qonşular,
ağızlarına gələni qonuşurlar!

Əkinçi-rəssam
şəhadət barmağını büküb
qırışlı alnının tərini silir,
Bərəkət təknəsinin rəsmini
sərgiləyib göz önündə
gülümsünür, gülür,
Qeybətcil kənd adamlarının

paxıl qohum-qonşuların deyil,
torpağın üzünə tüpürür!

Qazır oranı, buranı,
Hava qaralandan da sonra
işıqlı mənzərə yaranır.
Torpaq –
əl içi kimi hamar,
Ağac tingləri –
sıra-sıra;
dibində su da var.

Gecələr Aydan,
ulduzlardan,
gündüzlər Günəşdən
işıq,
qüvvət,
qüdrət alsın deyə
açıqlıqdı
ağacların başının üstü.
Üzərliyi də var
tarla-tablonun,
Ötən ilin
od vurulmuş xəzəli
tinglərin başı üstündə
burulur məzəli-məzəli,
dolaşır tüstü-tüstü!

## YAXŞILARIN YAXŞISI

***Qardaşım Umud Rəhimoğluna***

Həyat – əyrini yonan mahir əldə rəndədi,
Həyat – xalis rəng alan tutumlu yaxşı xına.
Bu dünyada nə qədər yaxşı var, çevrəndədi,
Çünki yaxşı seçirsən hər şeyin yaxşısını.

Hərdən qorxuzur bizi nəhayətsiz dərinlik,
Zirvənə də qalxırıq, heç demirik ərindik!

Qalın kölgənin nuru verir qəlbə sərinlik,
Qoymursan ki, çətrində ən xırda naxşı sına!

Hamıyla bir candadır, necə deyim gendədi? –
Üstümdə Allahım var, Umud yaxşı bəndədi!
Geri çəkiləndə də baxırsan ki, öndədi –
Yaxşılığı var axı Allahın naxşı sanı!

Halalın olsun, qardaş, sonu uğurlu hədəf,
Təmiz qandan su içir köksündəki saf sədəf.
Yoldaşı Allah seçir, düzür böyrünə səf-səf,
Sənə artıqdı demək – dostları yaxşı sına!

Əzizindi halallar, yaxın, ya uzaq olsun;
Təki yol gedən kəsin qəlbində çıraq olsun!
Yükü çəkən mərddirsə, düşünmə, iraq olsun,
Kotanın ağzı çönə, çətin ki, ya xış sına!

Aləm nahaqdan demir Umuddan bir dənədi,
Sadiq günəbaxandı, hər dəm üzü günədi!
Uşaq deyil ki, Allah, baxır, görür nə nədi,
Səni ürcah eyləyir hər şeyin yaxşısına!

## ORTAQ

Baş yaşı altmışdan aşan adamın
altıdan altmışa yaş ortağı var.
Əsir, yıxa bilmir qara yel, damın
dərin özülündə daş ortağı var!

Ha sürt, yeri qalır dəydi çamur ki!
Şaxtayla məzədi çapal narınkı...
Quduz özbaşına parçalamır ki,
əngində qan dəymiş diş ortağı var.

Rənginin nə fərqi – bozdu, ya kürən;
Halala qatildi haqqa tüpürən!
Əyilən, qatlanan, sərvət süpürən
yaltağın gizlində beş ortağı var!

Bitmir dramalar,
tamaşa uzun...
Finala qalmaz heç biçarə quzu!
Göyə cırmaq atan qara quzğunun
Yerdə sürü-sürü leş ortağı var!

Nemətin nurudu dad-tamlı şirə,
Yel dəyməsə qamış düşməz həşirə!
Dəmirdən üzüyü gözəlləşdirən
Qənirsiz almazdan qaş ortağı var.

Kiminin qisməti bostanda küdü,
Kiminin ox hökmü yarar üfüqü!
Kiminin can dostu, könül rəfiqi,
Kiminin tamahgir iş ortağı var.

Sağ ikən ölü var, ölü var diri,
Tapdanmış örüşə yol gedir sürü.
Sonda "ağ kəfənin küncünə bürün!",
"torpağın altına düş!" ortağı var...

Yeriş də gərəkdi, yolla deyil tək,
Əzrayillə güləş qolla deyil tək,
Yası yola verən molla deyil tək,
Ehsanat halva var, aş ortağı var.

Dağı əzəmətdi tanıdan nişan –
Haqqı var söykənsin qaya balışa.
Alçaqda baş hanı qoya balışa,
Ucanın çiynində baş ortağı var.

## UÇUŞ KƏDƏRİ

Qismət – qızaran ortadı,
can qabarır, qıraq sınır.
Ana bətni yumurtadı,
bəd nəzərdən iraq sınır.

İnsan kimdi –
deynən bilək;

Quş... bələkdə yuva qurmuş!
Hər doğulan,
eynən mələk –
Ötəri səs, uçarı quş!

Uçuşlar çox...
təkdi adı,
Fəza haqdan dualıdı.
Xəyal – adamın qanadı,
qanad – quşun xəyalıdı.

Göz suyudu tən yarısı,
üzügünə – candı, çıxır.
Dimdiyində qəm sarısı,
üstü-başı qanlı çıxır!

Hava dəyə, can qızına –
nəfəsə gəl, əs, çabala.
Şillə dəyir yanbızına,
civildəyir ətcəbala...

Bir daş altdan,
üstdən bir daş...
Həyat göylər yalanıdı.
Beşik –
beşik deyil, qardaş,
uçuş, eniş alanıdı!

Ömür şardı – ipdən qopuq,
Hər uçuşun bir sonu var.
Cüt qanadı dibdən qopan
daşa dönən quşdu məzar…

## KÖK ADAMLAR

Kökdən gələn dib su ən yaxşı sudu –
Tanrı qismətidi boy-buxun, çəki.
Kök adam adamın ən yaxşısıdı,
Çünki öz yükünü, o, özü çəkir!

Candan ruh da atır çəki atanlar,
Kim bilir nə dərdi yüklənir köklər.
Qamış qamətiylə bəbəyə batan
diklər tərəfindən təklənir köklər.

Kütlənin rişxəndli köhləni köklər
dərdi aşkar çəkir, büküb-bələmir.
Yükünü arığa yükləmir köklər,
Yüngül adamlardan imdad diləmir.

Dərələr ruhunda, dağ içindədir,
Köklərin ürəyi yüklü buluddu.
Ciyəri, böyrəyi yağ içindədi,
qarnı tar çanağı,
ya bəlkə uddu?

Baxma ki, arıqdı;
adamı tanı –
tondan ağır gələr içi şər bəlkə!..
Yüngül adamlara baxıb utanır
köklər xəcalətdən şişirlər bəlkə?

Can şişir qınaqlar aşanda həddən,
Yol itir,
cığır da tükənir bəzən.
Uşaqlar sərvətdən,
qadınlar dərddən,
kişilər hiddətdən kökəlir bəzən!

Kök adam qılıncdı,
sıxılır qında,
Haçansa sıyrılmaq ehtimalı var.
Təngnəfəs gombulun fısıltısında
Tanrı lənətlənir...
nə bilmək olar?!

Çəkinin nə fərqi, dərd çəkən çəkir,
Adbaad bölünüb yük adamlara.
Dizim cüt öküzdü –
dərdi tən çəkir,
arıq canım qurban kök adamlara!

## TƏZADLI QAFİYƏLƏR

Dərin duymur hay-küyü,
dayazlar fitə gedir,
Böyründən xəbis ötsə,
bil ki, ifritə gedir!

Qara qaba daş asıb,
sümük yandırır kasıb,
Ağ evdə aş qarası
pişiyə, itə gedir!

Oğru yellər aparır
zəmidə başaqları
Taxılın tən yarısı
birəyə, bitə gedir.

Heyvan heç... adamların
beyni tüstü, dumansa,
Demək, xalqın başının
üstündən xəta gedir!

Nədən Allaha çatır
bəndənin günah diki,
Gedir ana güzəştə,
üstəlik ata gedir!

Ayaq açıb yeriyən
yalanın səsi çıxmır,
Bağırdalaq doğrunun
harayı fövtə gedir!

Vaqif olan dərd etməz
talayan kim, çapan kim,
Çünki var olan sonda
beş arşın çitə gedir!

## DƏRSƏ GƏLİR HƏR GƏLƏN

Can nədirki? –
can da paydı, ruzudu,
Urvalıqdı,
bir ovucdan az undu!
Ötüb keçən dövran ki var;
mövzudu,
Çıxan canın yaxşı-pisi məzmundu!

Qanlar içən qatil... qanı su saymış,
Şər dinəndə xeyir nədən susaymış?
Axır mənzil yolu yaman qısaymış,
dərdin ipi niyə belə uzundu?

Can üşənir seyrəldikcə cərgələr,
Rəssam fələk həsrət rəsmi sərgilər...
Dərsə gəlir bu dünyaya hər gələn,
Gələn gedir, cümlə-xilqət məzundu!

## ÜÇ QAFİYƏ

İtdi, batdı, adı da qalmadı –
Bəlkə əzəl başdan yoxmuş heç kim?
Damağımda dadı da qalmadı;
ömrümün böyründən keçdi eşqim
ayaq barmaqlarının ucunda!

Tərəzinin gözünü əymədim,
Çəki daşım təndürüs daş idi
Dizim, dabanım yerə dəymədi,
Ağır bəxtimi yüngül daşıdım –
dualı, saf su kimi – ovcumda!

Ox keçdi köksümün iç qatından,
qanlı cücərtini ləkdə boğdum.
Abırın, həyanın ucbatından
diləik-kamımı bələkdə boğdum –
savabım budur, budur suçum da!..

## ƏYİLMƏYİN HALLARI

Fikir zəncirini hörmək hünərdi –
çilingər dəzgahın görün önündə!
Dəmirçi dəmiri əyə bilərmi
ərsin qızarmasa körük önündə?

Yarpızı görəndə şahmar baş əyir,
Bağbanın çiyninə şaxlar baş əyir,
Şahzada dizinə şahlar baş əyir,
Sultanlar qıvrılır hörük önündə!

Ahıl yaş –
son savaş,
tükənir insan,
Özü öz canına yük olur insan!
Qocalıq ki, gəldi...bükülür insan;
Adətdi baş əymək müdrik önündə!

## ŞƏRABNAMƏ

***Zarafat***

Yaxın qoyma, yad oğlunun yadıynan içmək olmaz,
Vur doğunun doğmasıyla, batıynan içmək olmaz.

Təvəqqem budu səndən, məclisi tanı dən-dən,
Oğruynan başkəsənnən, lotuynan içmək olmaz.

Çöl gəzib daban-daban, şaddı ovunu tapan,
Haramdı donuz, qaban... ətiynən içmək olmaz!

Söyüdnən göyrüş duldu, tut ağacı bara quldu,
Tutun arağı qəbuldu, tutuynan içmək olmaz.

Sarı sim nə deyir ki, ya həkim nə deyir ki,
Yüzə kim nə deyir ki, qutuynan içmək olmaz.

Tükənmir meylə savaş, can axır yavaş-yavaş,
Bir deyən yoxdu, qardaş, qətiyyən içmək olmaz!

## ƏRZİ-HAL

Can Allaha mehribandı –
o nə gəzir, bu nə gəzir?!
Ala gözdən axan qandı,
quraq canda su nə gəzir?!

Parçalayıb dərd sinəmi,
Can çürüdür dərdin nəmi!
Yar oxuyur son nəğməmi
ortalıqda qu nə gəzir?

Tuğçu gəzdirir tuğunu,
Dolaşır batı-doğunu...
Fələk düyüb yumruğunu
sındırmağa çənə gəzir!

Eşq odunu Vaqif bilər,
yandığını almaz dilə;
Canbirqəlbəm yarım ilə
əğyar ağzıgünə gəzir!

## BİRLİK, AYRILIQ

El eldən yarısa, murada çatar,
Başçısı bir heçdi miskin külfətin.
İntizar anadı, itkinlik ata;
Nə var ayrılığa, birlikdi çətin!

# 4. SÖZ EŞQİNƏ

## SÖZ İŞİ

İlahi nəğmə də heçdi – oxunsa,
Daşı, quşu susan bağımdı şeir.
Ölür, hansı sözə əlim toxunsa,
Ölür hansı sözə dilim toxunsa,
Sinəmdə çal-çarpaz dağımdı şeir!

Fələk ov payımı qızırğasa da
Dəryadı sızıltım, ruhum balıqdı.
Hələ bax, ceyran söz süzür talada,
Di gəl, barıtım nəm, oxum qırıqdı!

Şeir – evlər yıxan dəlicə devmi,
Havayı qopmur ha, dava, qalmaqal!
Dərdindən ölürəm... söz məni sevmir!
Neynək, söz oduna yansın can evi,
Kaş ki, tükənməsin goracan bu hal!

Qeybdən səda gəlir: – Yapış qələmdən,
Vərəqi qarşına düz! – deyir Allah.
Gərək eşq dərəsən dərddən, ələmdən,
Söz işi əzabdı, döz – deyir Allah!

## BƏND

Min mübhəm sirri var yanın-yörənin,
Gen yol saymayın heç, bilin tin məni!
Sizə demirəm ki, məndən öyrənin,
deyirəm ki, bir az öyrənin məni!

## ŞAİRLƏR

Susmaq yetər! – deyib ürəyim dindi:
Hansı qərib yolda azıb şairlər?
Bir gün görməyiblər tarixən, indi
nə günə düşüblər yazıq şairlər?

Kim var düşüncəli, kim var ki, ayıq,
bilə nədən sınır incə şairlər.
Nədən görülüblər cəzaya layiq,
nədən sıxılıblar küncə şairlər?

Şairlər çəkilır təmiz havatək,
Duyğular nə təhər nəfəs alacaq?
Şam hisdi... sönəcək pərvanə ürək,
uçanın nəsibi qəfəs olacaq.

Pəltək tüfənglərdən açılan güllə
şairə dəyirsə, dil şəhid olur.
Sinə paralanır, sökülür kəllə,
yanır söz damarı, döl şəhid olur!

Kəsilmiş burunun, şişik dodağın
vəsfi gülməlidi,
ağır yası var!
Şəhvətdən yanırsa Leyli yanağı
Məcnun şairliyin nə mənası var?

Mənasız, mənsəbsiz axarlar daşıb
Nəsimi, Füzuli daşqına düşüb?
Vergülün yerini bilməyən naşı
söz qəsri ucaltmaq eşqinə düşüb!

Batıb şeir dili, aləm laldı, lal,
Qaranlıq görünür işin ardı çox.
Həzm edib şairi siyasi dəllal,
Şairdən möhtəkir poplyardı çox!

Simruqdu, hifz edir kim düşsə dara,
Şoranda su gəzən turacdı şair.
Əvvəl axışardı çayxanalara,
indi çaypuluna möhtacdı şair!

Əsməri...
Yaradan əsmər bəzəyir,
Gərək fəfm eləyə hər kəs yerini.
“Nəşr evi” çiçəkli rəsmlə bəzəyir
Kötüyün “seçilmiş şeirlər”ini.

Çökəndə sinəsi sözlə dolu dağ
Bilmir duman hardan, çən hardan axır.
Köksü dağlı şair törətmir nifaq,
yeyilən haqqına kənardan baxır!

Məzara gömən var şairi diri,
Fani... şan-şöhrəti cana tən yazır.
Qırx il bundan əvvəl yazdığı şeiri
“Dahi” var gücənib təzədən yazır!

Demək özümüzük şeirə daş atan,
Şairi barmağa dolayan bizik.
Bizik qoyun sözü sürüyə qatan
Qanı it qanına calayan bizik!

Bu da "Filankəsli", işıldaq donu,
Xacə xadimləri qoyur geridə.
Şeirinə nəğmələr qoşurlar onun,
Bəllidi şəhərdə heykəl yeri də!

Gənc şair köksünü xal-xal eləyib,
Yetmir azadlığa qoca yaşında.
"Azadlıq" sözünü işğal eləyib
Nakam Eldar Baxış məzar daşında!

Xaqani küçəsi... gözətçi yeri...
Azman Tofiq Bayram şirdi tələdə!
Bağırır, tüpürür, diridi, diri,
Kütləri "Ulduz"dan qovur hələ də!

Dədəmiz Qorquddan qalmayıb bir iz,
Cüdayıq Nazimin nakam səsindən.
Məzənnə göz qırır... ana şeirimiz
qatqat ucuzlaşıb türk lirəsindən.

İnsanlıq binədən zülmün yaşıdı,
Bülbülü bülbültək ötməyə qoymur.
Şairə haqsızlıq el qarğışıdı
Dünyanı tərəqqi etməyə qoymur!

İstəsə bal alır, duz istəsə, duz
sözdən kasad, cibdən varlı şairlər.
Qoruqsuz, qaytaqsız, qarovulçusuz
bostantək talanır barlı şairlər.

Binəli ustadlar binədən yalqız,
Haqqını yeyirlər, tərpənmir dodaq.
Şairin sərvəti ürəkdi yalnız,
O da ki, dilsizdi, müsibətə bax!

Ondan da dərin get, ay şair əkən,
Saxsı küpdə çürü, cin olar olsan.
Fabrik cücələri xoruzlanırkən
şairin yuvası hin olar olsa...

Bu da dar ağacı hirsin, nifrətin...
Vaqifin fərmanı mütləq yazılsın;
Son qərar tanrının hökmütək qəti –
Şeir güllələnsin, şair asılsın!

## ROMAN ŞAİR

Bənd nədi – ya tilsim, ya da magiya,
Sətir –
qoca tarın sarı simidi.
Üç kəlmə –
iç-içə trilogiya,
Beş kəlmə –
beş günlük dünya kimidi!
Kəlmə hikmətində itib-azıram,
Mən şeir yazmıram, roman yazıram!

Nə hacət cümləni zəncir eləyim,
Nə hacət iydəni əncir eləyim?
Vaxt hanı zirvəni təsvir eləyim –
Son yurdum yarğandı,
dibi qazıram;
Mən şeir yazmıram, roman yazıram!

Günü yaşayıram milyon il kimi,
Bir damcı göz yaşım quduz sel kimi,
Özüm öz əlimlə yuyub çirkimi
o başdan dupduru axıb sızıram –
Mən şeir yazmıram, roman yazıram!

İkrahla tüpürüb ağ əndamlara,
Şəhvəti içimdə çəkirəm dara!
İlahi eşq hara,
fani eşq hara? –
Susuz səhralarda çeşmə gəzirəm,
Mən şeir yazmıram, roman yazıram!

Misra düzəmində həyatım durur,
Rədif zəncirində nicatım durur,
Arxamda gəraylı, bayatı durur,
Ahəng hüzurumda alışdırır şam –
Mən şeir yazmıram, roman yazıram!

Çapıb axirətə yorğun atımı
Yoluma həsr etdim at həyatımı!
Allah da bəyənir küllüyyatımı
Görür dərgahında hər an hazıram –
Mən şeir yazmıram, roman yazıram!

## GÜLMƏLİ ŞAİR

Zarafatı təklədi
şeirdə və həyatda.
Yaşadı gerçəkləri
yalan ədəbiyyatda.

Söylədiyi lətifə
sandılar ki, ağıdı.
Ox-ox güldü hədəfə –
dörd bir yanı yağıdı!

Gülüş yaraşmır ona –
küskündü, içi gülmür!
Nəşəni qatır qana,
şərabı içir, gülmür!

Dinsə bu dərdli "qutu"
məclisi yuxu basır.
O gülsə göy tutulur,
aləmi sel-su basır!

Dostluğu,
dəri kimi
kəsir, iti qayçıdı.
İlan zəhəri kimi
zarafatı acıdı!

Sözü silahdı əldə;
gülməz cəllad ortağı.

Baltanı endirəndə
azca qaçır dodağı!

Bardaş qurub içimdə
üzümə gülür daim
bu ciddi, şair adam!
Olsa da əkiz tayım,
ona tamamən yadam!

## HALBAHAL

Allah, yol ver yola gedim,
Yolumda iz qala gedim.
İstəyirəm sola gedim –
sağ başımı qarışdırır.

Quş dilindən söz tuturam,
Can odundan köz tuturam.
Dərə deyib üz tuturam,
dağ başımı qarışdırır.

Atdığım ox dəyir daşa,
Ömür fani, bəxt tamaşa...
Yaşıl yaşı vurdum başa,
ağ başımı qarışdırır.

Dayağım var dözüm təki,
Bəndə hanı özüm təki?!
Qan qaralır,
gözümdaki
yağ başımı qarışdırır.

Dərd içirtsəm tamahıma,
rəngi çıxar yanağıma...
Keyf çatanda damağıma
çağ başımı qarışdırır.

Cəminizə qurbandı can,
Ey Vaqifə könül açan!
Bilin, sizdən qaçdım haçan
bağ başımı qarışdırır.

# ♦ Yeni tərcümələr

*Cengiz DAĞÇI*

# QORXUNC İLLƏR



***♦ Roman***

## *CENGİZ DAĞÇI FENOMENİ*

Cengiz Dağçı XX yüzilliyin böyük Krım-tatar yazıçısı və Krım təəssübkeşidir – desəm, yəqin ki, yanılmaram. 1919-cu ildə Krımda, Qurzuf yaxınlığındakı Qızıldaş (indiki adı Krasnokamenka) qəsəbəsində doğuldu. 92 yaşında 1947-ci ildən bəri yaşadığı Londonda vəfat etdi. Yarım əsrdən çox sürən yaradıcılığı boyunca Krımdan, Krım türkünün dərdindən, ağrısından, gələcəklə bağlı ümid və arzularından söz açdı, məmləkətinin insanlarını və gözəlliyini vəsf etdi. Londonda da Krımsız yaşamadı, yaşaya bilmədi. Özünün də dediyi kimi: "Əlli il ərzində yaradıcılığımın əsas mövzusu Krım olub. Heç bir tatar Krımsız yaşaya bilməz. Onların mövcudluğunun kökü bu torpaqlardadır". Təsadüfi deyil ki, Krım haqda məşhur romanı da elə belə adlanırdı: "O torpaqlar bizimdir". Həyatı boyunca heç vaxt Türkiyədə olmasa da, əsərlərini "anasından öyrəndiyi dil" dediyi Anadolu türkcəsində yazdı. Dili və milli mənsubiyyəti məsələsinə aydınlıq gətirərkən özünü "türkcə yazan Krım-tatar yazıçısı" adlandırmışdı.

Uşaqlıq illəri doğulduğu kənddə keçmiş, ilk təhsilini də burada almışdı. 1937-ci ildə Simferopol (Ağməscid) Pedaqoji İnstitutunun tarix fakültəsinə daxil olmuşdu. 1940-cı ilin dekabrında ordu sıralarına çağırılmışdı. Altı aylıq tankçılar məktəbini bitirərək leytenant rütbəsi almışdı. Sovet-alman müharibəsini Ukraynada qarşılamışdı. Amma döyüşən ordudakı xidməti çox da uzun sürməmişdi. Müharibənin üçüncü ayında, 1941-ci ilin avqustunda əsir düşmüşdü. Ukraynadakı Kirovqrad və Uman hərbi əsir düşərgələrində saxlanmış, əsirlik həyatının bütün zillətlərini yaşamışdı.

Almanlar hərbi əsirlərdən milli mənsubiyyətlərinə görə legionlar təşkil etməyə başlayanda sovetlərə xüsusi rəğbəti ilə seçilməyən Cengiz Dağçı da legionerlər sırasında yer almışdı. Natamam ali təhsili olduğuna görə onu kiçik zabit kurslarına oxumağa göndərmişdilər. Məktəbi oberştrumfürer (baş leytenant) rütbəsi ilə bitirmiş və müharibənin sonuna qədər Krım legionunda xidmət etmişdi. Hətta 1942-ci ilin sentyabrında alman ordusunun zabiti kimi həmin vaxt faşistlərin nəzarətində olan Krıma məzuniyyətə gəlmişdi. Burada yaxınları və doğmaları ilə görüşmüşdü.

Türküstanlı legionerlər Polşada, Varşavanın 22 kilometrliyindəki Legionovo qəsəbəsində xidmət keçirdilər. Onların azərbaycanlı tale yoldaşlarının bir hissəsi də həmin qəsəbədə idi. Maraqlıdır ki, yerin adı da funksiyasına uyğun gəlirdi.

Burada tanış olduğu Regina Kletska adlı gənc polyak qızı Krımlı legionerin həyatının kökündən dəyişməsinə səbəb oldu. İlk vaxtlar onları daha çox ədəbiyyata, xüsusən də rus yazıçılarının yaradıcılığına olan ümumi maraqları birləşdirirdi. Sonra isə münasibətləri daha ciddi xarakter almağa başlamışdı. Cengiz Dağçı Reginanın əlaqələri sayəsində Polşanın şərqindəki Çenstaxova şəhərinə keçib D.Suvarski adı ilə almanlara qarşı vuruşan Armiya Krayovanın sıralarına yazıldı. Sonra Frankfurtda yerləşən Tatar Milli Komitəsində çalışdı. Bir müddət Türküstan legionerlərinin Berlində çıxan "Yaş Türküstan" ("Gənc Türküstan") qəzetinin redaksiyasında işlədi. Sovet ordu hissələrinin Berlin üzərinə hücumlarının intensivləşdiyi 1944-cü ilin sonunda neytral İsveçrəyə keçmək istəsə də, məqsədinə nail olmadı.

1945-ci ilin iyununda Avstriyanın amerikalıların nəzarətində olan Landesk müharibə qaçqınları düşərgəsində Regina Kleska ilə evləndilər və həyatlarının sonrakı 53 ilini birlikdə keçirdilər. Amerikan nəzarət zonasına düşməsi, üstəlik də, Armiya Krayova ilə əlaqələri Cengiz Dağçını qorxuncluğuna görə alman həbs düşərgələrindən geri qalmayan sovet ölüm düşərgələrində məhv olmaqdan xilas etdi. Bir müddət İtaliya və Şotlandiyadakı müharibə qaçqınları sığınacaqlarında qaldıqdan sonra xanımı və yeni doğulmuş qızı ilə 1947-ci ilin yanvarında Londonda yerləşdi.

Lakin dumanlı Albion xilas yolu axtaran gənc ailəni xoş qarşılamamışdı. Hər yerdə olduğu kimi müharibədən sonrakı Londonda da yaşam şərtləri son dərəcə ağır və dözülməz idi. Odur ki, dil bilməyən, dost-tanışı, peşəsi və sənəti olmayan Çengiz Dağçı Britaniyanı tərk edib qardaş Türkiyəyə köçməyi qərara almışdı.

Amma niyyəti uğurla nəticələnməmişdi. Türkiyədə qohumları, yaxud yaşaya biləcəyi bəlli bir ünvan olmadığından konsulluq viza istəyini rədd etmişdi. Əvəzində xeyirxah səfirlik əməkdaşlarından biri ona tanış restoran sahibinin telefon nömrəsini vermiş, etibarlılığına zamin durmuşdu. Beləcə, gələcəyin görkəmli yazıçısı kiçik London restoranlarından birində qabyuyan kimi işə başlamış, ofisiant olmuşdu. Bir neçə il sonra Londonda

aldığı kiçik ikimərtəbəli evin alt qatında xanımı ilə birlikdə ailə restoranını açmış və uğur qazana bilmişdilər.

Həyatının son illərini məşhur Uimbldon stadionunun yaxınlığında, Southfielddə yaşayırdı. 2011-ci ilin sentyabrında burada vəfat etmişdi. Vəsiyyətində doğulduğu Qızıldaş kəndində dəfn olunmasını istəmişdi. Krımlı mühacir yazıçının son arzusunu Böyük Britaniyadakı Türkiyə səfirliyi yerinə yetirmişdi. Dəfn mərasimində TC-nin o zamankı xarici işlər naziri Əhməd Davudoğlu, mədəniyyət və turizm naziri Ertoğrul Günay, Mustafa Cəmilov başda olmaqla Krım-Tatar Məclisinin nümayəndələri iştirak edirdilər. Cənazə namazını Türkiyə Diyanət İşləri Vəqfinin başkanı Mehmet Görməz qılmışdı. Türkiyədəki Krım Dərnəkləri Federasiyası və Kocaeli Krım Tatarları Dərnəyinin yardımı ilə yazıçının məzarı üzərində başdaşı ucaldılmışdı.

* * *

Cengiz Dağçı yaradıcılığa 1930-cı illərin ortalarında şeirlə başlamışdı. "Danışın, divarlar", "Dağlar", "Sevimli Yalta", "Duman" kimi ilk şeirləri Krım-Tatar Yazıçılar İttifaqının orqanı olan "Yaş kuvvet" ("Gənc qüvvə") jurnalında dərc edilmişdi. Türk ədəbiyyatına və Krım tarixinə marağı da həmin dövrə təsadüf etmişdi. Hətta Krım xanlarının – Gireylər sülaləsinin tarixini yazmaq fikrinə düşmüşdü. Maraqlıdır ki, şeir yaradıcılığında sovetlərin tərənnümçüsü kimi çıxış etməmişdi. Xalqının tarixi keçmişi ilə bağlı poetik hisslərin ifadəsinə və təbiət lirikasına üstünlük vermişdi.

İlk iri həcmli nəsr əsərini müharibə illərində, Krım legionunda xidmət etdiyi dövrdə yazmışdı. Bu, "Qorxunc illər" romanının qaralama variantı olan "Sadıq Turanın xatirələri" adlı yarımbədii memuarlar idi. Müəllif onu ana dilində, Krım-tatar türkcəsində qələmə almışdı. Lakin Londonda, özünü həmişəlik ədəbiyyata həsr etmək qərarına gələndə azsaylı Krım tatarlarının dilində yazılmış əsərlərlə böyük auditoriyaya yol tapa bilməyəcəyini düşünmüşdü. Ona görə xatirələrini avtobioqrafik romana çevirib bacardığı şəkildə Türkiyə türkcəsinə uyğunlaşdırmağa çalışmışdı. Daha öncə Türkiyənin "Varlıq" yayın evi ilə müəyyən əlaqələr yaratdığından (göndərdiyi hekayə əlyazması çap edilməsə də, müəllifə əməkdaşlıq təklifi gəlmişdi) "Qorxunc illər" adlandırdığı ilk romanını həmin nəşriyyata təqdim etmişdi. Türk yazıçısı, hekayə ustası kimi tanınan Ziya Osman Saba (1910-1957) romanın dili üzərində əsaslı redaktə işi aparandan sonra 1956-cı ildə oxuculara təqdim olunmuşdu.

Əsər Türkiyədə böyük uğur qazanmış, Cengiz Dağçının şəxsiyyətinə və bədii yaradıcılığına marağı artırmışdı. "Qorxunc illər" türk kinematoqrafiyasının da diqqətini çəkmişdi. 2014-cü ildə rejissor Burak Arlıel romanın motivləri əsasında baş rolda Murad Yıldırımın oynadığı "Krımlı" bədii filmini çəkmişdi.

"Qorxunc illər"in ardınca Cengiz Dağçı "Varlıq" və "Ötükən" nəşriyyatlarında ilk romanının davamı kimi düşünülmüş "Yurdunu itirən adam" (1957), habelə "Onlar da insandı" (1958), "Ölüm və qorxu günləri" (1962), "O torpaqlar bizimdir" (1966), "Dönüş" (1968), "Badam budağından asılan körpələr" (1970), "Üşüyən küçə" (1972), "Anama məktublar" (1988), "Biz bərabər keçdik bu yolu" (1996) və başqa kitablarını çap etdirmişdi. 1988-1993-cü illərdə "Yaddaşdakılar" adlı dörd cildlik düşüncə və xatirələri, 2000-ci ildə xanımına həsr olunan "Reqina" romanı işıq üzü görmüşdü. Cengiz Dağçı yaradıcılığını XX əsr Krım-tatar həyatının saf güzgüsü adlandıran krımlı ədəbiyyatşünas, professor Adilə Əmirovanın etiraf etdiyinə görə, müəllifin 1998-ci ildə çap etdirdiyi "Cengiz Dağçı haqda xatirələr. Öz qələmindən" adlı kitab "Avropa miqyaslı yazıçının" həyat yolunu işıqlandırmaqla bir sırada milli-mədəni düşüncə tarixində "Dağçı fenomenini" siqlət və genişliyi ilə başa düşməyə imkan yaradır.

Azərbaycan oxucularına ilk dəfə təqdim olunan "Qorxunc illər" romanında yazıçı öz ömür yolu əsasında Krım tatarlarının ötən əsrdə məruz qaldıqları haqsızlıq və zülmlərdən bəhs edir. Əsərin adındakı "Qorxunc" epiteti tam əsasla yalnız faşist həbs düşərgəsində deyil, inqilab və kollektivləşmə illərində Sovet İttifaqında yaşananlara da aid edilə bilər. Hər iki halda təqibə, ədalətsizliyə, işgəncəyə məruz qalan, milli varlığı üstündən xətt çəkilən digər milli azlıqlarla birlikdə həm də Krım tatarı idi. Bu xalqa münasibətdə faşistlər bolşeviklərin "dinc" 20-30-cu illərdə həyata keçirdikləri məhvetmə kampaniyasını müharibə illərində davam etdirmişdilər.

Taleyin hökmü ilə tarixi vətənindən kənarda yazıb-yaradan şairlər, yazıçılar az olmamışdı. Amma onların arasında Cengiz Dağçı qədər ana yurda bağlı olan ikinci bir qələm adamı tapmaq çətindir. 1944-cü ilin mayında on minlərlə Krım tatarı 72 saatın içərisində yüz illər boyu yaşadıqları torpaqlardan Qazaxıstan və Özbəkistanın insan ayağı dəyməmiş səhralarına köçürülmüşdü. Aradan yalnız yarım əsrə yaxın bir vaxt keçəndən sonra onların sözdə (1991-ci ildə İsmayıl Qaspralının 150 illik yubileyində iştirak etmək üçün Krımda olanda geri dönənlərin acınacaqlı vəziyyətini öz gözümlə görmüşdüm – V.Q.) vətənlərinə qayıtmasına izn verilmişdi. Geri dönənlərin həyatını təmin etmək üçün heç bir addım atılmamışdı. Bu dəhşətli illərdə Cengiz Dağçı cismən Londonda yaşasa da ürəyi və beyni ilə doğma xalqının yanında olmuşdu.

O, fəxr edirdi ki, mənsub olduğu xalq saysız-hesabsız təzyiq və haqsızlıqlara məruz qalmasına baxmayaraq, milli simasını qoruyub, tarixini yaşadıb, mübarizə əzmini itirməyib: "Krım tatarları saylarının azlığına, üz-üzə gəldikləri güclərin qəddarlığına rəğmən ayaqda qalmağı bacardılar. Əlli illik sürgündən Vətənə qayıdan soydaşlarım bütün dünyaya göstərdilər ki, Krım tatarsız qala bilmədiyi kimi, tatarlar da Krımdan kənarda yaşaya bilməzlər. Artıq Qızıldaşdakı Gəlinqaya zirvəsi, Soyuqsu çayının sahilləri, Ayı Dağının yamacları tənha deyildir. Doğrudur, mən orada de-

yildim, amma soydaşlarım səsimə, sözümə, fikrimə hər zaman olduğundan daha çox ehtiyac hiss edirdilər. Əslində onlar heç zaman mənsiz qalmamışdılar".

Tarixi vətənə qayıdışı hazırlayanlar, xalqı bu taleyüklü hadisəyə səfərbər edənlər sırasında heç şübhəsiz, Çingiz Dağçı da vardı. Krım tatarlarının yurda çətin qayıdışını, xalqının üzləşdiyi saysız-hesabsız məhrumiyyətləri ən azı soydaşları qədər yaşayırdı: "Mən əsərlərimi yazanda onlarla birlikdə vətənə qayıdırdım, onlarla birlikdə Tube təpəsinin yamacında öz çadırımı qururdum, onlarla birlikdə əlli il bizsiz qalmış Qurzuf və Qızıldaş küçələrini gəzirdim. Yurduna dönən tatarların vəziyyəti hər baxımdan acınacaqlı idi. İş yox idi. Yaşamağa yer yox idi. Uşaqlarını oxutmağa məktəb yox idi. Vətəndən sürgün olunandan sonra qəbiristanlıqları dağıdılmış, ata-babalarının məzar daşları sökülüb yol tikintisində, inşaatda istifadə edilmişdi. Yurdlarını tutan gəlmələr Krım tatarlarına düşmən kimi baxırdılar. Adları tarix səhifəsindən silinmişdi. "Krım tatarı" ifadəsi özü qadağa altında idi. Əcdadlarının əlləri ilə tikilən ev və mülklərdə Rusiyadan, Ukraynadan köçürülən insanlar məskunlaşdırılmışdılar".

* * *

Krımda Cengiz Dağçı şəxsiyyətinə və irsinə ilkin marağın yaranması ilə yazıçıya qarşı çevrilmiş qarayaxma kampaniyası eyni vaxta təsadüf etmişdi. Sovet imperiyası süqut mərhələsinə daxil olsa da, imperiya ideyaları tam şəkildə tarixin zibilliyinə atılmamışdı. Ona görə də 1990-cı illərin əvvəlindən başlayaraq krımlı müəllifi kollaborasionizmdə – vətənə xəyanətdə və faşistlərə xidmətdə ittiham edirdilər. Saxta ideologiya üzərində qurulan bu vətənin vur-tut yetmiş illik mövcudluqdan sonra süquta uğraması, Stalin repressiyası qurbanlarının sayının müharibə qurbanlarının sayından çox olması heç kimi maraqlandırmırdı. Çünki hədəfdə olan daim təqibə uğramış bir xalqın – Krım tatarlarının nümayəndəsi idi. Cengiz Dağçı isə Avropa paytaxtlarının birindən bu xalqın haqq səsini dünyaya çatdırmağa çalışırdı.

"Qorxunc illər" romanında "Krım tatarının düşməni kimdir?" sualına cavab axtaran müəllif bolşevizmlə faşizmi üz-üzə qoyur və onların birinin digərindən o qədər də yaxşı olmaması qənaətinə gəlirdi. Avtobioqrafik çalarlarla zəngin olan əsas qəhrəmanın – Sadıq Turanın fikrincə, yaranmış vəziyyətdə yeganə nicat yolu türkəsilli xalqların birləşərək bu "izmlərin" fövqünə dayanan milli istiqlala nail olmaları idi.

Cengiz Dağçı əsərlərində də təsvir etdiyi həqiqi tərcümeyi-halının sahibi idi. Krım legionu ilə bağlılığını da heç vaxt inkar etməmişdi. Legioner forması geyməklə qarşısına sadəcə faşist ölüm düşərgəsinin dəhşətlərindən xilas olmaq məqsədi də qoymamışdı. Müharibə bitdikdən

sonra müxtəlif türk boylarını birləşdirən vahid Türküstan – Turan dövlətinin qurulacağı, rus zülmünə son qoyulacağı xəyalı hər şeyin fövqündə dayanırdı. Əsas qəhrəmanın rəmzi soyadı – Turan da buna işarə idi.

Eyni zamanda, legioner olub nisbi azadlıq əldə edəndən sonra da özünü hürr, azad insan saymamışdı. Çünki doğma vətəni əsarət altında qalmaqda davam edirdi: "Mən hələ də əsir idim. Düzdür, qarnım toxdu. Uman düşərgəsindən kənardaydım. Amma yenə əsir idim. Yalnız ruhum azad idi. Ruhi sağlamlığımı qorumaq üçün yollar axtarmaqdan başqa bir çarəm qalmamışdı. Di gəl, nə etsəm də, nə danışsam da, ürəyim aram tapmırdı. Hər gün geydiyim forma dəmir çənbər kimi bədənimi sıxırdı. Ürəyim sıxılırdı, az qala boğulurdum. Məşğələlər bitəndən sonra həyətin dalda küncünə çəkilir, küknar ağacının altında oturub ağlayırdım. Bəzən gecələr yuxuya gedə bilmirdim. Mənə elə gəlirdi ki, hələ də Uman hərbi əsir düşərgəsindəyəm".

Çağdaş Krım-tatar nəsrinin diqqətəlayiq nümunələrindən olan "Qorxunc illər" romanını oxucularımıza təqdim etməyimin səbəblərindən biri də müəllifin böyük məhəbbət və ustalıqla yaratdığı azərbaycanlı obrazıdır. Əsərdə qırğız Kılıncbaydan, Krım tatarı Mustafa, yaxud İskəndərdən, özbək Xurşuddan fərqli olaraq onun konkret adı yoxdur. Sadəcə olaraq "azərbaycanlı" kimi təqdim edilir. Cengiz Dağçı uzaq Londondan xalqımıza bəslədiyi məhəbbəti ümumiləşdirilmiş "azərbaycanlı" surəti ilə əks etdirmişdi. Azərbaycanlı mərddir, cəsurdur, qorxmazdır. Əsirlikdə sonuncu tikə çörəyini Sadıq Turana təklif edir. Ölümdən qorxmur. Həyatının son anlarında faşistlərdən aman diləməyi ağlına da gətirmir. Əksinə, onlara qürurla, hətta yuxarıdan baxır. Cengiz Dağçı onun ölüm səhnəsini təsvir edərkən yazır: "Pəncərədən baxdım. Azərbaycanlı silahlı almanların arasında qanına boyanmış halda gedirdi. Şalvarı düşməsin deyə, bir əli ilə kəmər yerindən yapışmışdı. Millətimin övladlarının belə qürur və iftixarla ölümə getməsini həyatımda ilk dəfə görürdüm".

Maraqlıdır ki, XX yüzillikdə türk dünyasının yetirdiyi üç böyük söz ustası Çingiz adını daşıyır: Çingiz Aytmatov, Çingiz Hüseynov və nəhayət Cengiz Dağçı. Bu təsadüfdir, yoxsa hansısa bir qanunauyğunluq var? Kim bilir, bəlkə də adla tale arasında gözəgörünməz bağlılıq var? Ən azı bu sənətkarların birinin çox, birinin nisbətən az dərəcədə söz mülkünün Çingizi olmaları belə düşünməyə əsas verir.



***Vilayət QULİYEV***
***Oktyabr, 2023-cü il***

# BİRİNCİ HİSSƏ

## Giriş

– Adım Sadıqdır. Sadıq Turan. Bəs sənin?

– Cengiz, – dedim.

Adı kimi cəlbedici, mənalı görünüşü vardı. Üzündə keçmişin dərin izləri əks olunmuşdu. Gözlərində ötüb-keçənlərdən qalma ağrı-acı sezilirdi. Enli çiyinləri, qabarıq köksü ilə çox ağır həyat yükü daşımış insana bənzəyirdi. Küçə qapısı ağzındakı skamyada başını əlləri arasına alıb oturmuşdu. Elə bil için-için ağlayırdı. Yanında oturdum. Önümüzdən keçənlərin addım səslərini dinlərkən sanki nə isə düşünür, xatırlayırdı. “Dərdini danışsa, bəlkə bir az yüngülləşər”– deyə fikirləşdim. Yaxın oturub sakit səslə:

– Sadıq bəy, – dedim, – birlikdə əsgərlik çəkdiyiniz bizim kəndli Əhməd yadınızdadır?

Başını qaldırmadı.

– Rəhmətlik Əhməd? Xatırlamamaq mümkünmü? Pervomaysk civarında torpağa tapşırdıq. Yarası çox ağır idi. Sağalmadı.

Söhbətə tutdum. Müharibənin dəhşətlərindən xeyli danışdı. Özündən, ailəsindən söz açdı. Mənimlə maraqlandı. İşlərimi soruşdu.

Axşam düşürdü. Qərbin qırmızılaşmış üfüqlərindən[1] qaçıb Roma komalarına sığınmış qara kölgələr yavaş-yavaş küçələrdə görünürdü. Əlini uzatdı.

– Sabah gəlsən, sənə daha maraqlı söhbətlər edərəm, – dedi.

Əlini sıxdım. Mütləq gələcəyimi dedim. Ayrıldıq. Otelə döndüm. Səssiz, kədər dolu otağımın işığını yandırdım. Masanın üstündəki Türk şeirləri antologiyasını götürüb yatağa uzandım. Kitabı açdım. Səhifələri yavaş-yavaş çevirərkən bir şeirin son misrası diqqətimi çəkdi. “Türkəm və son nəfərimə qədər sənə düşmənəm!”[2] Kitabı, kitabla bərabər gözlərimi qapayıb Sadıq haqda düşündüm. Həyatdan, insanlardan bezmiş Sadığı göz önündə canlandırıb “Bu sınmış, sarsılmış adam indən sonra nə edə bilər?” – deyə fikirləşdim. “Bəs öz taleyim necə olacaq? Bizlərin – savaşdan sağ çıxanların aqibəti necə olacaq? Nə edəcəyik? Sonumuz harda, necə tamamlanacaq?”

Ertəsi gün verdiyi ünvana getdim. Qapını səksən, bəlkə də yüz yaşlarında bir qadın açdı.

Bürüşük üzündə bir şey gizlədirmiş kimi təbəssüm vardı.

– Bonjorno, sinyorina, – dedim.

– Bonjorno,– dedi. Sonra arxasında gizlətdiyi qalın zərfi mənə uzadıb:

– Sinyor Sadıq bunu sizin üçün qoydu, – dedi.

– Bəs özü haradadır?

– Getdi. Daha gəlməyəcək.

---

*[1] – Sovet işğalına uğramış Avropa ölkələri nəzərdə tutulur. Tərc.*

*[2] – Emin Bülənd Sərdaroğlunun “Kin” şeirindəndir. Tərc.*

Bir müddən heç nə demədən bir-birimizə baxdıq. Əlimi uzadıb zərfi aldım.

– Grasiya, sinyorina. Arrivederçi.[3]

– Preqo, preqo... Arrivederçi, sinyor.

Qapı bağlandı. Yaşlı qadının "Daha gəlməyəcək" sözləri daxilimdə bir yanğı oyatmışdı. Xeyli aralanandan sonra zərfi açdım. İçindən dörd dəftər çıxdı. Birinci dəftərin ilk səhifəsinə baxdım. İri hərflərlə "Xatirələr" yazılmışdı. Aşağıda Sadıq Turanın imzası vardı. Səhifələri çevirdim. Bir yerdə gözümə belə sətirlər sataşdı: "Allahım, varmısan? Haradasan? Məhv oluruq biz... Məhv oluruq, məhv oluruq..." Dəftərləri qoltuğuma vurub yaşlı, yorğun insan addımları ilə otelin yolunu tutdum. Ertəsi gün Sadığı hər yerdə aradım. Amma heç cür izinə düşə bilmədim. Hara getmişdi, başına nə iş gəlmişdi? Öyrənə bilmədim.

Aradan yeddi il keçdi. Londonda yaşayırdım. Pəncərəmin arxasında şəhərin rütubətli və qəmgin evləri qaralmaqda, yenə dərdli bir axşam düşməkdə idi.

Xanımım əlində zərf içəri girdi.

– Sənə məktub var, – dedi.

Zərfi açdım. Məktub savaşdan sonra köçüb Argentinaya gedən, əslən Polşa tatarı olan dostum Mirzə Sabirskidən idi. Mirzə Sabirski öz həyatından uzun-uzadı söz açandan sonra məktubunu belə bitirirdi: "Uruqvaydan aldığım xəbərə görə, orada ağır meşə işlərində çalışan Sadıq Turan adlı bir Krım tatarı Allahın rəhmətinə qovuşub. Tanıdığım, bildiyim adam olmasa da, qərib yerdə qəbri nurla dolsun".

Məktub əlimdən düşdü. Oturduğum kürsüdə qolların iki yana açıldı. Boğazıma qəhər tıxandı. Boğulurdum, danışa bilmirdim. Yavaş-yavaş özümə gəldim. Bu səfər anidən sifətimi isladan göz yaşları içərisində Sadığı andım. Ey gidi dünya! Tale onu haradan hara atmışdı... Xatirələri qarşımda idi. İçin-için ağlayaraq təkrar oxuyurdum.

* * *

## – 1 –

Yurdumdan sonuncu dəfə 1942-ci ilin payızında ayrıldım. Ayrılıq çox acı oldu. Vətənimə bir də dönə bilməyəcəyimi hiss etmişdim. Anam, atam, bacı-qardaşlarım, bütün qohum-əqraba stansiyaya toplaşmışdı. Vaqonun pəncərəsindən onlara baxa-baxa həyatımın şirinli-açılı günlərini yada salırdım. Bu doğmalarla son görüşüm idi. Anam sağ əlini mənə tərəf uzatmışdı. Sol əli ilə çiynindən sürüşən yaylığının ucu ilə gözlərinin yaşını silirdi. Qatar sonuncu dəfə fit verdi. Sonra sanki lokomotivin bağrının dərinliklərindən çıxan qara duman aramıza girib bizi bir-birimizdən ayırdı. Vaqonun pəncərəsindən əlimizdən alınmış ata yurduma baxdım. Bu torpaqlar vaqonun təkərləri altında illərin qanlı türküsünü oxuyurdu. O türkünü saatlarla dinlədim, sonra "Allahım! Allahım!" – deyə yalvardım. "Sən bizi bu torpaqlardan

*[3] – Sağ olun, xanım. Hələlik. Buyurun, buyurun, hələlik, sinyor (italyanca). Tərc.*

ayırma! Bu torpaqlar bizimdir! Atalarımızın mirasıdır! Ac-yalavac, çılpaq yaşasaq da, bu torpaqlarda qalaq. Ölsək də bu torpaqlarda ölək! Vətənim, Vətənim! Dünyanın hansı guşəsində olsam da, mən yaşadıqca sən də mənimlə yaşayacaqsan...”

* * *

Axşam düşürdü. Kəndin kənarında bir qaya üzərində dirəkdən yelkən asıb “kapitan-kapitan” oynayırdıq.

Uzaqdan anamın səsini eşitdim. Kiçik qardaşıma:

– Haydı, Bəkir. Axşam düşür, anamız gəlir! – desəm də aramızda ən inadcıl uşaq kimi ad çıxaran Bəkir heç nəyi vecinə almayıb oyuna dava edirdi. On-on beş dəqiqə sonra qarşı təpədə anam göründü.

– Sizi görüm... Sonra “Tövbə, ya Rəbb, ya Rəsulallah” deyə sözünün dalını gətirmədi. – Bu axşam yemək əvəzinə məndən yağlı kötək yeyəcəksiniz. Haydı, tez evə, yaramazlar!

Görünür, Bəkirin kötək qonaqlığına çox da iştahı olmadığından dərhal qayadan aşağı atıldı. Mən də arxadan özümü ona yetirdim. Anamız dalımızca:

– Biriniz inəyi tövləyə salın, o biriniz atanıza su gətirin,– deyə qışqırdı. Bəkir inəyimizi gətirib tövləyə salmaq üçün üzbəüzdəki məhəlləyə, naxırın gəldiyi səmtə getdi. Mən də evdən güyümü götürüb Məhərrəmin çeşməsindən su gətirmək üçün qəbiristanlıq tərəfə yollandım. Çeşməyə yaxınlaşanda təxminən iki yüz metrə qədər irəlidə, Kooperativin qarşısında üstü örtülü, qara yük maşınının dayandığını gördüm. Yolda rastlaşdığım tüfəngli, süngülü əsgərlər içimə qəribə bir qorxu salmışdı. Güyümü tələsik doldurdum. Atam tarladan gəlməmiş, evdə olmalı idim. Hər axşam süfrəyə soyuq bulaq suyu qoymaq evimizdə adət halını almışdı. Bəkir inəklə keçiləri axura saldı. Anam evi silib-süpürdü, şam yeməyi hazırladı. Süfrə açdı. Oturub atamı gözləyirdik. Yaz axşamı açıq pəncərələrdən içəri ürəkaçan bir səssizlik dolurdu. Anam qanıqara görünürdü. Tez-tez qapıya baxırdı. Balacalar qaşıqlarını əllərində hazır tutmuşdular. Atam gəlməmiş, süfrəyə oturmurduq. Çox yaxşı xatırlayıram – bərk ac olduğumdam özümü saxlaya bilməyib əlimi çörək tabağına uzatdım. Bir loxma qoparıb ağzıma atdım. Anam tərs-tərs mənə baxdı. Amma heç nə demədi. Həmin anda kimsə pəncərədən sanki otaqdakı sükutu pozmaqdan qorxan yavaş səslə:

– Xala, ay xala!– deyə çağırdı.

Anam da eyni yavaş səslə soruşdu.

– Kimsən? Nə istəyirsən?

– Bərkdən deyə bilmərəm. Yaxına gəl.

Anam yerindən qalxıb səs gələn tərəfə getdi. Bir-iki dəqiqə sonra pəncərənin arxasındakı adam yox idi. Anamsa dayandığı yerdə daş kimi donub qalmışdı. Nə dinib-danışır, nə tərpənirdi. Uşaq ürəyimdə ilk dəfə hiss etdiyim dəhşətli qorxu ilə ona yaxınlaşdım.

– Nə olub, ana? Atam haradadır? Niyə gəlmir?

– Atanız gəlməyəcək. Atanızı milislər tutub aparıblar. – Gəlməyə... – deyə sözünün ardını gətirə bilmədi. Kirpiklərinin arasına dolmuş göz yaşları birdən yanaqlarından aşağı axmağa başladı.

Bayaqkı bir loxma çörək içimdə zəhərə dönmüşdü. Anamın titrəyən dodaqları, yaş süzülən yanaqları gözümün önündən çəkilmirdi. “Gəlməyəcək! Gəlməyəcək” – deməkdən başqa söz tapa bilmirdi. Asta-asta yerə çökdü. Birimiz boynuna, birimiz qollarına sarılmışdıq. Yaşlı gözlərinə baxırdıq. Evin kişisini tutub aparmışdılar. Arxada bir sürü colma-cocuqla ürəyi param-parça olmuş ana qalmışdı.

Torpaq damlı daxmaların arasındakı üstü qırmızı tənəkə ilə örtülü, ətrafına daşdan hasar çəkilmiş doğma məktəb binasını çox yaxşı xatırlayıram. Onun qapısından içəri girdiyimiz dəqiqədən evlərimizdəki həyatın ağrı-acılarını unudurduq. Baharda yaşıl yapraqlı ağacların budaqları arxasında cividəşən quşlar kimi oxuyub oynayır, nəşələnirdik. Müəlliməmiz Səfiyə uca boylu, bəyaz və incə üzlü, sarışın, çox insaflı, daxilinin təmizliyi üzünə də gözəllik verən qadın idi. Ona ürəyimin dərinliklərindən gələn munis bir sevgi bəsləyirdim. Amma o sabah müəlliməmiz Səfiyyə bambaşqa olmuşdu. O sabah sinfə girdiyi zaman hamımız yenə həmişəki kimi ayağa qalxıb salamladıq. Amma Səfiyyə müəllimə kimsəyə baxmırdı. Üzü də həmişəki kimi gülmürdü. Yanıma gəldi. Bir müddət səssiz dayanandan sonra

– Sadıq, – dedi.

Ayağa qalxdım. Sinfin açıq pəncərəsindən bağçaya baxıb sözünə davam etdi.

– Bu gündən sonra sənin məktəbə gəlməyin qadağan edildi. Çünki... Nə demək istədiyimi anladınmı, Sadıq?

– Anladım, – dedim və müəlliməmiz Səfiyyənin də məktəbimiz kimi bir anda içimdən qoparılıb atıldığını hiss etdim. Kitab-dəftərimi yığıb sinifdən çıxdım. Artıq məktəb mənə qorxulu yer kimi görünürdü. İndi xalamın evinə getdiyim vaxtlar məktəbin yanından keçməmək üçün yolumu bağçaların içindən, dərələrdən salırdım. Məktəbdən qovulandan iki həftə sonra bir axşam Məhərrəm bulağından qayıtdığım vaxt arxadan qadın səsi eşitdim.

– Sadıq, dur, qardaşım, ayaq saxla, – deyirdi.

Dayandım. Çağıran müəlliməmiz Səfiyyə idi. İçimi qəfil qorxu sardı. Fikrimdən dərhal güyümləri atıb qaçmaq keçdi. Amma biri-birimizə o qədər yaxın idik ki, üzümdə ılıq nəfəsini duyurdum.

– Bir dəqiqə. Güyümləri yerə qoy, Sadıq, – dedi.

Dediyi kimi elədim. Ovcumun içinə bir topa kağız pul qoydu.

– Bunu anana ver, Sadıq! – dedi. – Amma diqqət elə, itirmə.

Getdi. Müəlliməmiz Səfiyyəni bir də görmədim. İki ay sonra kəndə yenə kazaklar gəldilər. Gedəndə kənd camaatının yarısını da özləri ilə apardılar. Müəlliməmiz Səfiyyə də onların arasında idi.

O il qış birdən düşmüşdü. Bayırda zəhər kimi acı soyuq vardı. Qar yağmışdı. Damlarından buz salxımları asılmış evlər qəribə səssizlik içində idi. Yalnız

dəniz qudurubmuş kimi dalğalarını aramsız qayalara çırpırdı. Səssiz evlərdəki sönmüş ocaqların başında qadınlar, qız-gəlinlər için-için ağlayıb sonra nə olacağını gözləyirdilər. Kəndə xəbər yayılmışdı: məhbuslar sabah Yaltadan Ağməscidə aparılacaqmış. O axşam gec yuxuya getdim. Çöldə qar fırtınası aramsız ulayırdı. Kiçik bacı-qardaşlarım yatmışdılar. Anam bəyaz dəsmalını gözünə sıxıb ocaq başında oturmuşdu. Ağlayırdı. Yatağımda uzanıb Tanrıya “Sən özün atamı qaytar!”– deyə yalvarırdım.

Səhər açılana yaxın külək dayandı. Anam yerindən qalxıb köhnə şalına büründü, evimizin yanından keçən Ağməscid yoluna çıxdı. Biz də arxasınca düşdük. Şala bürünmüş qadınlar, köhnə-kürüş, yamaqlı paltar geyinmiş, ağac budağına bənzəyən qolları səhərin ayazında bozarmış uşaqlar şosenin kənarında dayanıb yük maşınlarının keçməsini gözləyirdilər. Qışın sərt soyuğunda bütün günü gözlədik. Axşama yaxın bir nəfər yolun ortası ilə qaçaraq:

– Gəlirlər! – deyə bağırdı.

“Gəlirlər!” kəlməsi səs dalğası kimi dodaqdan dodağa, ağızdan ağıza, qəlbdən qəlbə yayıldı. Sonra dua-sənalar, ağlaşma, boğuq səslər, çığırtılar... Hacı Mustafanın bayaqdan sakit-səssiz dayanmış arvadı özünü yolun ortasına atdı. Saçlarını yolub başını yerdən-yerə vurdu, var səsi ilə hayqırdı:

– Mustafam! Mustafam! Nə suç işlədik? Qəbahətimiz nə idi, Allahım?

Cavan qadınlar tez onu kənara çəkdilər. Uzaqdan yük maşınları göründü. Zəncir sarınmış təkərləri buzlu yolda qıcırtı qopararaq yaxınlaşırdılar. İndi Hacı Mustafanın arvadının səsinə başqa səslər, fəryadlar da qarışmışdı.

– Hüseynim! Əhmədim! Övladım! Nə günah yiyəsi idik, Allahım! İmdad!

Önümüzdən keçən yük maşınlarında gözüm atamı axtarırdı. Görə bilmədim. Maşındakıların hamısı bir-birinə bənzəyirdi. Hamısı saqqal basmış, arıq və zəif cüssəli adamlardı. Qorxunc görkəmləri vardı. Yalnız aralarından birinin maşın yanımızdan keçərkən anamın adını çəkdiyini eşitdim:

– Ağlama, Fatma! Ağlama! Dua et! Dua et!

Atamdı yəqin... Səsi eşidən anam yumruqları ilə sinəsini döyəcləyərək boğula-boğula ağlayırdı.

Getdilər. Yol kənarında qalanlar yamaqlı pal-paltarları, cır-cındır sarınmış ayaqları qarı süpürə-süpürə yetim qalmış evlərinə, sönmüş ocaqlarına qayıdırdılar.

Atamın azad edildiyini arabaçılardan eşitdik. Amma kəndə qayıtmadı. Biz də iki aydan sonra Ağməscidə köçdük. 1939-cu ildə, əsgərliyə getməzdən əvvəl kəndimizə gəldim. Evimizdə voronejli rus ailəsi yerləşmişdi. Evin önündəki meşə kimi ağaclar kəsilmiş, taxta nərdivan bir kənara atılmışdı. Bağçamızı bərbad halda gördüm...

Atam həbsxanadan çıxandan sonra iki həftə işsiz-gücsüz, ac-susuz küçələri dolaşmışdı. Aclıqdan şişməyə başlamışdı. Bir gün çarşıda daşın üstündə yatdığını görən bir müsəlman halına acıyıb evinə aparmış, yedirib geyindirmişdi. Qələbəlik ailəsi öz evinə güclə sığdığından atama evə bitişik bir toyuq

damında yer verə bilmişdi. Birlikdə hinin damına dəmir vurmuş, kiçik pəncərə açmış, içini süpürüb təmizləmişdilər. Sonra bizə "Durmayın, gəlin" – deyə məktub yazmışdılar. Getdik. Yeni "evimizə" girmədən öncə atamla anam eşikdə oturub bir-birlərinin əllərini tutaraq uzun-uzadı ağlamışdılar. Atam özünə iş tapdı. Mən bütün yayı çarşıda su, qovun tumu satdım. Gün-güzəran çətin idi. Amma biz çox şey istəmirdik. Axşam-səhər bir tikə çörək, bir bardaq su, bəzən quru əriştə şorbası bizə yetirdi. Şikayətçi deyildik. Kimdən kimə şikayət edəcəkdik? Ac-yalavac, evsiz-eşiksiz qalan bəyəm tək biz idik? Allaha şükür, yayı başa vurduq. Fəqət həmin ilin qışı fəlakət gətirdi. Azğın rüzgarlar damın tənəkələrini qoparıb atdı. Yandırmağa heç nəyimiz qalmadı. Nə odun, nə kömür? Qonşumuz Mehmet Ağa son təzəkləri gətirdi. Bütün günü yandırsaq da, balacaya bir kasa su da isidə bilmədik. Mehmet Ağa gəlib-gedib vəziyyətimizlə maraqlanırdı. Amma "Allah yardımçınız olsun!"– deməkdən başqa əlindən nə gəlirdi? Bir gün qardaşım Bəkirlə kömür oğurluğuna getdik. Arabadan kömür götürəndə Bəkir yaxalandı. Mən qaça bildim. Üç-beş arabaçı yığışıb Bəkiri o ki var döydülər. Üz-gözü qançır oldu. İnsanlar nə qədər amansız imiş, Allahım! Bir ovuc kömür üçün on yaşında uşağı da belə döyərlərmi? Anam Bəkirin yaralı başını qolları arasına almışdı. Atam üzünü divara çevirmişdi. İkisi də ağlayırdı. Balacalar boyunlarını büküb səssiz-səssiz gah atama, gah anama baxırdılar. Qışla, aclıqla, bizi əsir-yesir edib ev-eşiyimizdən didərgin salan zalım düşmənlə savaşmağa imkanımız yox idi. "Allah yardımçımız olsun"– deyə boyun əyməkdən başqa əlimizdən nə gəlirdi?

Aprel başlananda balacalar ikisi də birdən xəstələndi. Esmacığı aprel sonlarında torpağa tapşırdıq. Tam iki həftə sonra kiçik, mələk üzlü, qıvırcıq saçlı Səbriciyi də bacısı Esmanın yanında basdırdıq. Artıq ailədə iki uşaq qalmışdıq – Bəkirlə mən. On altı yaşım vardı. Anam nə olursa-olsun, məni Ayvaslıya yollamaq istəyirdi. Muxtar Səbrinin qızı on dörd yaşında imiş. Ailəsi onu mənə vermək fikrinə düşmüşdü. Amma nə mənim, nə də qızın evlənmək yaşı çatmışdı. Anam işi tezləşdirmək istəyirdi. Atam əleyhinə idi. Mənə böyük ümidi vardı, oxutmaq istəyirdi. Gecələr yatdığım zaman:

– Sadığı kəndə göndərməyəcəm. O, kolxoz üçün doğulmayıb, – deyə anamla dava edərmiş. Yaz gələndə anam fikrini dəyişdi. Şəhərdə börekçinin yanında işləməyə başladım. Atam da iş tapdı. Mayın sonlarında dayım Mansur kənddən bir çuval un gətirdi. Beləcə vəziyyətimiz bir az düzələn kimi oldu.

İsti yay axşamı idi. İşdən evə dönürdüm. Özümü çox məsud hiss edirdim. Kantar küçəsinin başında atama rast gəldim.

– Gəl, Sadıq, küçənin o tərəfinə keçək. Ora daha seyrəklikdir. Sənə bir sözüm var, – dedi və əlini çiynimə qoydu. Yanaşı addımlamağa başladıq. Çardaq qəhvəxanası önündə bir anlığa dayandı, gözlərimin içinə baxdı. Bu axşam beli bir az daha bükülmüş kimiydi. Amma gözləri sevinc və iftixarla parlayırdı.

– Nə olub, ata? – deyə soruşdum.

– Mühüm bir iş var. Mən deməmiş razı olmağın şərtdir.

Sonra gülərək sözünə davam etdi.

– Razısanmı?

Mən də gülüb:

– Razıyam, ata, – dedim.

– Sənin bu börəkçilik işlərin necə gedir?

– Fəna deyil, ata. Fazil usta deyir lokantanın sahibi ilə danışacaq. Aylıq maaşımı əlli rubldan altmış rubla qaldırmağı xahiş edəcək. Pis adam deyil. Keçən gün yarım çuval un satdı. Pulun yarısını da mənə verdi.

– Bizə elə pul lazım deyil.

– Mən də almaq istəmirdim. Zorla cibimə basdı. Dövlət malıdır, dedi. Madam ki, dövlət işçi və kəndlinin dövlətidir, mal da işçi və kəndlinin olmalıdır, deyə filosofluq eləyir.

– Nə isə... Sənin bu börəkçinin yanından uzaqlaşmağını istəyirəm.

– Ciddi sözündür, ata?

– Ciddi deyirəm.

– Amma ayda altmış rubl... sənə zarafat gəlməsin.

– Elədir, elədir.

– O yarım çuval unun puluna görə deyirsənsə...

– Yox, Sadıq. Məsələ başqadır.

– Ayrı nə iş görə bilərəm? Əlimdən nə gəlir? Börəkçilik kömür anbarında arabalara kürəklə kömür yükləməkdən yaxşı iş deyilmi?

– Əlbəttə, yaxşıdır. Amma dünyada börəkçilikdən də yaxşı işlər var.

Atam susdu. Üzümə baxdı, dodaqlarının ucunda təbəssüm göründü, gözlərində bir anlığa yaş parladı.

– Sənin oxumağını istəyirəm, Sadıq, – dedi. – Oxuyub adam olmağını istəyirəm. İndi sənə çox ehtiyacımız var, bilirəm. Amma sənə möhtac olan tək mən deyiləm. Bütün millətin gözü səndədir, sənintək gənclərdədir. Bütün millətin sənə, sizlərə ehtiyacı var.

Yenə susdu. Yenə üzümə baxdı. Üstümə götürəcəyim yükün ağırlığını başa düşürdüm. Həyəcanlı idim. Küçə boyu gedirdik. Atam sözünə davam etdi.

– Bizim başımıza gələnlər özgələrin da başına gəldi. Millət kimi fəlakətə uğradıq, Sadıq. Bu milləti sizin kimi gənclər də qurtarmasa, kim qurtaracaq? Bütün ümidlər sizədir. Bilirəm, oxumağa çox həvəslisən. Məktəbdə birinciydin. Səfiyyə xanım neçə dəfə mənə "Sadığı oxudun" demişdi. Amma necə oxudaydım? Bu son iki ildə başıma nələr gəldi! İndi Allaha şükür, özümdə güc hiss edirəm.

– Yaxşı, ata, məni məktəbə götürərlərmi?

– Götürərlər. Qayabaşı orta məktəbinə getdim. Söhbət elədim. Müdiri yaltalı Niyazi Əfəndidir. Açıq danışdım. Həbsə düşdüyümü dedim. Bu söhbəti heç yerdə açmayın, – dedi. Sadığı isə dərs başlananda yanıma göndərin. Özüm imtahan edərəm. Yaxşı olsa, yeddinci sinfə götürərəm. Sən boyun qaçırma, Sadıq. Niyazi Əfəndi də fikirlərimin düzgünlüyünü, millətin oxumuş gənclərə ehtiyacı olduğunu təsdiq etdi.

Bir anlıq dayandı.

– Yaxşı, sən nə deyirsən?

Dinmədim. Atam gözlərimin içinə baxırdı. Zavallı atam! Dünyanın bütün yükünü, ağrı-acılarını çiyinlərinə götürməyə razılaşır, təki mən oxumaq təklifini qəbul edim! Səhərdən gecə yarısına qədər əlləşib-vuruşacaq, özü yeməyib, içməyib məni saxlayacaq... Təki adam olum deyə hər cür əziyyətə qatlaşacaq. Bunu həmin axşam gözlərindən oxudum.

1937-ci ilin yayında Qayabaşı məktəbi Karaim küçəsindəki üçmərtəbəli, ağ, təmiz, səliqəli binaya köçdü. Sinfimizin pəncərələrindən Tokal camisinin ətrafdakı bütün damların divarlarını çiynində saxlayırmış kimi, göyə baş çəkən minarəsi görünürdü. Səbəbini bilmirəm, ancaq düşünürdüm ki, sinif yoldaşlarım arasında bu minarədən ən çox xoşu gələn mənəm. Bəzən dərs gedə-gedə minarəyə baxar, xəyala dalardım. Bəzən müəllimin danışığını, yaxud sualını da eşitməzdim. Belə hallarda eyni parta arxasında oturduğumuz Süleyman dirsəyi ilə məni dümsükləyirdi. Minarəyə baxınca içimə iman dolurdu. Həyat onun ətrafında, evlərdə idi. Dərslərimizin dinə qarşı olmasına, məktəbdə dinsizliyi, kommunizm ideallarını öyrənməyimizə rəğmən mən daxilimlə, ruhumla o minarənin bir parçası idim. Mənə elə gəlirdi ki, hər eveşikdən, hər damdan, hər qəlbdən gözlə görülməyən bağlar uzanıb bütün insanları, bütün həyatı, bütün varlığı o minarəyə bağlayır. Məktəbdə sonuncu ilim idi. İmtahanlar yaxınlaşırdı. İmtahanları verib Süleymanla birlikdə Ağməscid Tibb İnstitutuna girməyi qərara almışdıq. Daha doğrusu, zorla bu qərarı Süleymana da qəbul etdirmişdim. O, hərbi məktəbə getmək istəyirdi. Amma səmimi dostluğumuz Süleymanı istəyindən vaz keçməyə vadar etmişdi. Çox yaxşı yadımdadır, bir gün cəbr dərsində idik. Zəng çalındı, sıralar biribirinə qarışdı. Şagirdlər koridora axışdılar. Yavaş-yavaş sinif boşaldı. İçəridə yalnız mən qalmışdım. Pəncərənin qarşısında dərin bir səssizlik içində Tokal camisinin minarəsinə baxırdım. Yanımda bir səs:

– Sadıq, – dedi.

Çevrilib baxdım. Dostum Süleyman idi.

– Kim var bayırda, kimə baxırdın?– deyə soruşdu.

– Heç kimə. Gün elə yandırıb-yaxır ki, küçələrdə bir ins-cins də yoxdur.

– Var,– dedi.

– Harada?

– Tokal camisinin minarəsində.

– Neçə aydır Tokal camisinin qapılarını mıxlayıblar.

– Sən yaxşı-yaxşı bax!– dedi.

Caminin uzaqda, bağçanın yaşıllıqları arasında sivri ox kimi göyə yüksələn minarəsinə baxdım. Süleyman düz deyirdi. Minarədə iki nəfər vardı. Üç-beş dəqiqə sonra ikisi də aşağı enib gözdən itdi. Süleymana tərəf çevrilib:

– Ağməscid minarələrində ilk dəfə insan görürəm, – dedim. – Kəndlərdə hələ də azan oxunur. Amma Ağməscid...

Sözümü bitirmədən Süleyman gur səsi ilə:

– Qorxma, onlar minarəyə azan oxumaq üçün çıxmayıblar, – dedi.

– Bəs niyə çıxıblar?

– Camini uçurdacaqlar.

“Uçurdacaqlar” sözü ürəyimə bıçaq kimi saplandı. Bütün bədənim titrəyirdi. İçimə, qəlbimə qəfil dolan qorxudan qurtarmaq üçün arxamı pəncərəyə çevirdim.

– Nə danışırsan? Heç camini də uçurarlar?

– Uçurarlar. Səhər məktəbə gələndə minarəyə zəncir bağladıqlarını gördüm. Caminin bağçasında da bir maşın dayanmışdı.

– Kim minarəyə zəncir bağlayırdı?

– Ruslar.

Süleyman gözlərini camidən çəkmirdi. Bilmirəm, nədənsə elə bil 1932-ci ilin qışında evimizin qabağından keçən məhbusları görürdüm və atamın yük maşınının banından “Dua et! Dua et!”– dediyini eşidirdim. Süleymanın qışqırıq səsi məni dalğınlıqdan qurtardı:

– Bax, Sadıq, bax! Minarə uçulur!

Baxdım. Minarə yana doğru əyildi. Məni yaşadan ilahi bir varlıq idi bu əyilən. Titrəyən əllərimlə Süleymanın yaxasından yapışdım. Nə etmək istədiyimi anlamırdı. Heç mənə tərəf baxmırdı da... Gözləri minarədə, baş verənləri əyləncəli oyun sayan uşaq kimi qışqırırdı:

– Uçulur, uçulur...

Bir də baxdım. Tokal camisinin minarəsi gözlərim önündə yox olmuşdu. Onun uçması ilə bağçanın gözəlliyi də pozuldu. Yaşıllıqların arasından səmaya rəngsiz toz dumanı yüksəldi. Bütün varlığımla hələ də içimdə əyilən o minarənin əsiri idim. Minarə yıxıldı. Mən isə nə yıxıla, nə də ayaq üstdə dayana bilirdim. Sadəcə, qaçırdım. Qaçırdım. Hara? Niyə? Özüm də bilmirdim. Həyat nəzərimdə mənasız bir şeyə çevrilmişdi. Sinif otağı, Süleyman, ətrafdakı evlər, insanlar, məktəb binası – hamısı nəzərimdə birər heçlikdi. Minarə uçdu, onunla birlikdə içimdə məni yaşadan, ayaqda saxlayan bir qüvvə də yerləyeksan oldu. Sinifdən necə çıxdığımı bilmirəm. Nərdivanları necə endiyimi xatırlamıram. Yadımda ən çox qalan şəhərin küçələrində alnımdan, üzümdən tər axa-axa qaçmağım idi. Evimizə girər-girməz, anamın ayaqlarına sarıldım. Anam, zavallı anam nə baş verdiyindən xəbərsizdi. Durmadan gözlərimdən öpüb:

– Danış, yavrum, söylə, – deyə ağlayırdı. Heç nə danışa bilmirdim. Heç ağlaya da bilmirdim. Ertəsi gün atam həkimə apardı. Xəstə deyildim. Həkim gülə-gülə sinəmi, çiyinlərimi sığalladı.

– Məktəbə get, Sadıq, – dedi. – Xəstə insan belə olmaz. Dəmir kimisən.

Məktəbə getmədim. Atam da məcbur eləmədi. Atam içimdə, qəlbimdə yaşayan insan idi. Mənim üçün gözlərim önündə canlanan bir dünya yaradırdı. Axşamlar “Kazı Körpeş”, “Çora Batır” dastanlarını söylərdi. Birlikdə gəzməyə çıxırdıq. Bir müddət əvvəl ortasında cami olan dəmir barmaqlıqlı hasar içindəki bağçaya yaxınlaşarkən alnımda soyuq tər damlaları puçurlanırdı. Ora getmək istəmirdim. Amma açıb atama demirdim. Atam bəzən zorla qoluma

girib məni gəzməyə aparırdı. Bağçanın qarşısında caminin olduğu yeri göstərib:

– Bax, Sadıq, ata-babalarımızın alın təri, inancı ilə başa gəlmiş din ocaqlarımız düşmənlərin ayaqları altında qalıb.

Baxa bilmirdim. Alnımdan yenə də soyuq tər axmağa başlayırdı. Sinəmin içində ürəyim zindana döyəclənən çəkic kimi vururdu. Buradan qaçmaq, qaçmaq istəyirdim. Atam elə bil vəziyyətimi bilir, içimdən nələr keçdiyini anlayırdı. Amma bilmirəm, nədənsə əlimi buraxmaq istəmirdi.

– Bax, yaxşı bax bu xarabalıqlara, – deyirdi.

Sonra mənə ürək-dirək verməyə başladı:

– Biz bunlara baxıb qorxmamalıyıq. Qoy düşmənlərimiz qorxsunlar. Qorxurlar! Həm də necə qorxurlar! Qorxduqlarından da bizə bu zülmləri edirlər. Qorxmasaydılar, eləməzdilər. Yüz əlli ildir axırımıza çıxmağa çalışırlar. Yüz əlli il! İndi bu yurdda bir ovuc tatar qalmışıq. Bizi büsbütün yox etməyincə ürəkləri soyumayacaq. Hətta axırımıza çıxandan sonra da sakitləşə bilməyəcəklər. Ruhlarımız qarşısında əsib-titrəyəcəklər. Yaxşı-yaxşı bax bu xarabalıqlara! Tək mənim övladım deyilsən, həm də bu torpağın oğlusan, bu xarabalıqların bir parçasısan. Səni bu torpaq doğdu, bu torpaq bəslədi. Bil ki, tək deyilsən. Böyük bir millətin zəngin keçmişi, parlaq gələcəyi sənin adınla bağlıdır. Bağçasaraydan Kaşğara qədər minlərlə minarələrimiz göylərə baş çəkir. Bizə tatar deyirlər, çərkəz deyirlər, türkmən deyirlər, qazax deyirlər, özbək deyirlər, azərbaycanlı deyirlər, qaraqalpaq, çeçen, uyğur, noqay, kabardin, balkar, qırğız deyirlər. Yalan sözlərdir. Dəniz bölünməz, parçalanmaz! Biz türk-tatarlarıq. Ürəyin sənə nə deyirsə, o cür hərəkət elə. Dünyanın boş ehtiraslarına aldanma!

Atam belə deyirdi. Bu sözlərdən sonra dünya mənim imiş kimi, hüdudsuz sevinc içində evimizə dönürdüm. Artıq atam mənə sadəcə ata deyildi. Daha böyük və əziz bir varlıq idi.

Bağçasaraya döndüyümüz zaman axşam düşürdü. Yastı-yapalaq evlərin damına qaranlıqla bərabər sanki sonsuz iztirab da çökürdü. Gah oradan, gah buradan boğuq, qəmli səslər eşidilirdi. Bəzi evlərin pəncərələrində işıq yanıb-sönürdü. Bəzilərində isə sıxıntılı axşam qaranlığını azacıq da olsun aydınlatmaq üçün lampaların gur yandığı görünürdü. Bəzi evlərin qarşısında başlarında papaq, əllərində əsa, enlibalaq şalvar geymiş qocalar diqqəti çəkirdi. Başlarını əyib əsalarını yerə vura-vura qaranlığa qarışıb müxtəlif səmtlərə gedirdilər. Bağçasarayın axşam həyatı əvvəlcə mənə belə sakit, nəşəsiz görünmüşdü. Amma əslində belə deyildi. Tək insanlar deyil, sanki hava, səma, yollar, evlər də Çürüksunun kənarında xanlarımızın əbədi uyuduğu bu torpağın keçmiş səadətini səssizcə dinləyirdilər. Bağçasarayı ilk dəfə görürdüm. Ertəsi gün mən də onun əsrarına düşdüm. Bağçasaray gözlərimdə səssiz və canlı şəkil kimi qaldı. Ən qaramsar günlərimdə ona baxıb içimin atəşini söndürürdüm.

O gecə xalamgildə qaldıq. Ertəsi gün atamı evdə qoyub Bağçasarayı təkbaşına gəzib-dolaşmağa başladım. Ətrafdakı qalalara baxdım. Cühudqa-

lanın uçurumlarında sanki qəlbimin dərinliklərinə endim. Həyatım boyu özümü heç vaxt belə xoşbəxt hiss etməmişdim.

Bağçasaray mənə ümid və qüvvət verir, inamımı artırırdı. Axşamüstü idi. Günəşin son şəfəqləri Xan camilərinin minarələrindən enib hərəm dairələrini, saray bağçalarını, təpələri sığallaya-sığallaya qüruba çəkilirdi. Taxta körpünün məhəccərinə söykənib qarşı tərəfdə dava-dava oynayan uşaqları seyr etdim. Onların oyununa baxa-baxa Bağçasarayı düşünürdüm. Asta-asta Xan sarayına tərəf getməyə başladım. Kəmər qapıya yaxınlaşdığım vaxt içimdə hüznqarışıq sevinc duydum. Neçə Krım-Girey[4], neçə bəylər, ağalar bu qapıdan keçmişdi! Saray həyətinə girdim. Şüşələri al-əlvan rəngli pəncərələr, qurumuş fontanlar, çeşmələr, kəmərlər, hərəm dairələri keçmişin səadətinə qovuşub əbədi yuxuya dalmış kimiydi. Xanların dəfn olunduğu məzarlığa tərəf getdim. Çalmalı daşların altında yatan Gireylər... Dünənə qədər yurdu, xalqı, şərəfi üçün İdildən Tuna sahillərinədək yolları, stepləri düşmən cəsədləri ilə dolduran Gireylər... İndi saraylarında bir mənəm, bir də bəlkə özlərinin ruhları... Yolumu sarayın arxa tərəfindən saldım. Geniş bağça idi. Bir vaxtlar burada mərmər hamamlar varmış. İndi baxımsız qalmışdı. Tikililər xaraba hala düşmüşdü... Gördüklərimdən beynim də bədənim kimi yorulmuşdu. Bir yasəmən ağacının kölgəsinə uzanıb əcdadlarımı düşünməyə başladım. Qələmimi çıxarıb dəftərimi açdım. "Siz danışın, divarlar" adlı şeir yazmaq istəyirdim. Amma divarlar mənə heç nə demədilər. Ətrafı sarmış sakitlik içində gözlərim qapandı.

Uzaqda, ağacların yaşıllıqları arasında kiçik ev görürəm. Evin önündə üç ixtiyar oturub. Üçünün də saç-saqqalı ağappaq, yanaqları qırmızıdır. Üçü də boylu-buxunlu, qədd-qamətli, sağlam görünüşlüdür. Yaşlarını artıq Allah bilir. Dünya bina olduğu gün yaradılıblar sanki... Durumlarından Qiyamət gününə qədər yaşayacaqları hiss olunur. Üç ixtiyarın önündə on iki-on üç yaşlarında iki uşaq güləşir. İki zəif vücud vəhşi kimi biri-birinə sarılıb. Ağızları köpürür, sifətlərindən tər su kimi axırdı. Biri o birini yerə yıxmağa çalışırdı. Qalxıb yanlarına getdim. Ağsaqqallar məni gördülər. Amma çox da fikir vermədilər. Üçü də əsalarını yerə çırparaq:

– Badalaq vur! Yana çevir! Ayaqlarını "qayçıla"! Dizinin altına al! – deyə müxtəlif əmrlər verirdilər. Nəhayət, uşaqların biri o birisinə üstün gəldi. Yıxan uşaq dərhal qaçıb ağsaqqalların qarşısında oturdu.

– Haydı, baba! İndi vədini yerinə yetir! – dedi.

Baba uşağın güləşməyindən çox məmnun qalmışdı. Hər halda qalib gələnə bir nağıl vəd etmiş olmalı idi ki, "Əvvəl zaman içində..." – deyə sözə başladı.

Mən də "Xəlbir saman içində" – deyə zarafatla söhbətə qarışdım.

Ağsaqqal başını çevirib sərt-sərt baxdı. Amma heç nə demədi. Əyilib digər iki həmyaşıdının qulağına nəsə pıçıldadı. Sonra üçü də biri-birinə yaxın oturub astadan danışmağa başladılar. Bayaqkı ağsaqqal söhbətinə davam etdi.

– Əzəmətin oğlu Arslan bəy qızı sevirdi. Xələt göndərib atasından onu istədi. Qızın atası Arslana:

---

*[4] – 1431-1783-cü illərdə hakimiyyətdə olmuş Krım xanları sülaləsi – Tərc.*

– Arslanım! Qızımın saçları ipək, gözləri alma, vücudu fidandır. Sən dəliqanlı hələ evimin qapısından keçmədin. Qılıncın qınından çıxmadı. Qızımı sənə necə verə bilərəm? – dedi.

Hey! Hey! Qızın atasının sözü Arslanın hövsələsini tükətdi. Eyni gün igid Arslan yurdunu tərk edib getdi. Dörd il nə məmləkətə döndü, nə bir xəbər göndərdi. O vaxt Bucakda Arslan adlı çox igid pəhləvan vardı. Ancaq bizim Arslanmıydı, yoxsa başqa Arslan idi – bilən yoxdu. Çünki Canbulak, Yedesan və Ordada da çox adlı-sanlı, məşhur Arslanlar yaşayırdı. Nəhayət, bir axşamüstü saray yaxınlığındakı qəhvəxanada oturduğumuz vaxt ildırım sürəti ilə çapan, atının nallarından qığılcım qopan bir atlı şəhərə girdi. Çox yaraşıqlı, boylu-buxunlu pəhləvan idi. Papağı sultanların papağı kimi almazlarla bəzədilmişdi. Belinin kəməri, ayaqqabısının mahmızları, atının üzəngiləri də almazdandı. Oturduğumuz qəhvəxananın qarşısında dayandı. Yabançı pəhləvanı təpədən dırnağacan süzdük. Kim idi, əcəba? Bilən yox idi.

Atlı pəhləvan:

– Tanımadınız? – deyə soruşdu.

Aramızdan biri:

– Ay Allahım! Bu ki, bizim Arslandır!– deyə bağırdı.

Bəli, at belindəki igid Əzəmətin oğlu Arslan idi. Buçaq ordusunda neçə-neçə qəhrəmanlıqlar göstərmiş, Lehistanın şəhərlərini, kəndlərini yaxıb-yıxmışdı. Aldığı əsirlərin sayı-hesabı bilinmirdi. Arslan adı Xan torpaqlarında yaşayanların dilində dastan olmuş, düşmən elləri sakinlərinin ürəyinə qorxu salmışdı. Arslanın adı sarayda da hörmətlə anılırmış. Bir axşam qəhvədə oturmuşduq. Ötüb-keçən savaşları yada salırdıq. Bizim Arslan da burada idi. İçəri başında dəmir dəbilqə, qolunda dəmir qolçaq, dizində dəmir dizlik, bizim Arslandan da boylu-buxunlu, enli kürəkli, geniş çiyinli bir yabançı pəhləvan girdi. Təpədən dırnağa qədər silahlanmış yabançı pəhləvan qapının önündə durdu, gözlərini igid Arslana zilləyərək dedi:

– Əzəmətin oğlu Arslan bəy! Arslandan da zalım bəy!

Qəhvədə olanların hamısı ayağa qalxmışdı. Yabançı pəhləvana baxırdıq. Pəhləvan sözünə davam etdi:

– Yurdumu yandırıb-yaxdın. Atamın qanını axıtdın. Qızlarımızı Kəfədə hərəmlərə satdın...

Sonra dəmir qolçaqlarını çıxarıb Arslanın ayaqları altına atdı və:

– Yurdu üçün ölməyən varmı bu dünyada, pəhləvan? Ya əsarət, ya ölüm! Sən də çıx önümə, hey Arslan! – deyə bağırdı.

Bizim igid Arslan yabançını tanıdı. Lehistan pəhləvanı imiş. Ayaqlarının ucundakı dəmir mahmızları qılıncı ilə bir tərəfə itələyib Lehistan pəhləvanına belə cavab verdi:

– Yurdunu yaxıb-yandırdım. Sözün doğru, pəhləvanım. Üç min insanı əsir etdim. Kəfədə sultan hərəminə satdım. Amma bunları namusla etdim. Atlıya qarşı at sürdüm, qılınclının üstünə qılınc çəkdim, oxluya ox atdım. Yurdu üçün ölən pəhləvandır, pəhləvanım! Əsir olub namusumu, nəslimin, sülalə-

min adını ləkələmədim. Qoy məğlubun nəsibi ölüm olsun! – deyə qılıncını çəkib meydana atıldı.

Biz də iki pəhləvanın savaşını seyr edəcəyik deyə çox sevindik. Amma qəhvədə oturanların arasında sarayda xidmət edən birisi vardı. Anidən yabançını tanıdı.

– Mən bu lehistanlını tanıyıram. O, elçidir! Elçidir o! Tutun Arslanı! Tutun Arslanı! – deyə bağırdı.

Qəhvədəki digər pəhləvanlar Arslanın qollarından yapışdılar. Arslan bəy:

– Buraxın məni, Allah eşqinə buraxın məni! – deyə yalvarsa da, aramızdakı saçı-saqqalı ağarmış pəhləvanlardan biri:

– Dur, Arslan! Nə eləmək istəyirsən? Xan torpağında elçiyə silah çəkmək olarmı? – dedi.

Arslan:

– Məni çağıran bu pəhləvan deyilmiydi, ağalar? Qarşıma çıxmayın! Çağırışa cavab verməmək namusa, şərəfə sığarmı? – deyə dirəndi.

Yaşlı pəhləvanlar:

– Elədir, igid Arslan, haqqın var. Səni döyüşə çağıran bu pəhləvandır. Amma elçiyə silah çəkdiyin bilinsə, sabah ulu Xaqanın əmri ilə başın kəsilib gavur qafası kimi payaya taxılmazmı? – dedilər.

Arslan da:

– Namusum ləkələnincə, qoy başım gavur qafası kimi payaya taxılsın! – dedi.

Amma qəhvədəki ağalar Arslanı buraxmadılar. Elçi də adamların onu tanıdığını başa düşüb bir də Bağçasarayda gözə görünmədi.

Arslan bəy günü-gündən saralıb solmağa başladı. “Namusum ləkələndi” – deyə kimsənin üzünə çıxmırdı. Dostları ona:

– Səbr et, Arslan. Səbir acı olsa da, meyvəsi şirindir, – deyib lehistanlı pəhləvanı unutdurmaq istəyirdilər. Amma igid Arslan vaqiəni bir an da olsun, unutmadı. Nişanlısını unutdu, Lehistan pəhləvanını unutmadı. “Namusum ləkələndi! Namusum ləkələndi!” – deyib ağlayırdı. Baxdılar ki, işi belə qoymaq olmaz. Odur ki, həmin axşam qəhvədə olanlar Kalqayın[5] yanına gedib igid Arslanın başına gələni ona danışdılar. Kalqay:

– Elədir, elədir! Arslan qorxu bilməz igiddir. Fəqət xanlıq torpaqlarında elçiyə toxunsa, başı kəsilib gavur başı kimi payaya taxılacaq! – dedi.

İlk fürsət düşən kimi ulu Xana məlumat çatdıracağını boyun oldu. Günün birində də olub-keçənlərin hamısını ulu Xana danışdı. Ulu Xan Kalqaydan Arslanın Lehistan elçisinə silah çəkdiyini eşidincə bərk qəzəbləndi. Dərhal edam olunmasına əmr verdi. Kalqay Xanın ayaqlarına döşənib yalvardı:

– Dinlə, Xanım, bu igidin bir qəbahəti yoxdur. Arslanı savaşa elçi çağırdı. Əzəmətin oğlu igid Arslanı. Buçakda tayı-bərabəri olmayan Arslan namusunu ləkələməmək üçün qılıncını çəkdi. Qəhvədəki ağalar yabançı pəhləvanın elçi olduğunu bilən kimi Bağçasaraydan yoxa çıxıb. İndi də sənin torpaqlarındadır, yoxsa yurduna dönüb – bilən yoxdur. Amma igid Arslan dərddən ölür.

---

*[5] – Krım xanlarının vəziri*

Ulu Xan çox mərhəmətli idi.

– Yaxşı, ona icazə verək. Getsin, lehistanlı pəhləvanı axtarıb tapsın. Güləşsin, nə istəyir eləsin. Fəqət mənim torpaqlarımda elçiyə əl qaldırsa, boynunu vurduraram, vücudunu itlərə yem elərəm, bütün nəslini lənətlərəm.

Əzəmətin oğlu Arslan bəy xəbəri eşidəndə çox sevindi. İzn verildiyi üçün dərhal məmləkəti tərk edib yola çıxdı. İki il düşmən torpaqlarında gəzmədiyi şəhər, kənd, oba qalmadı. Amma Lehistan pəhləvanını heç yerdə tapa bilmədi. Günün birində pəhləvanın Dnepr kazaklarının əlində əsir olduğunu eşidib üzünü o səmtə tutdu. Pəhləvanın əsir düşmə xəbəri doğru idi. Kazaklar əsiri zəngin və məşhur Arslanın axtardığını eşidəndə müqabilində özü ağırlığında qızıl istədilər. Şərəfi naminə savaşmaq istəyən pəhləvan üçün qızılın nə dəyəri ola bilərdi? Arslan bəy istənиləni verdi və əsiri təslim aldığı gün ona:

– Bax, igid, mən səni satın aldım. Amma əsirim deyilsən. Səni azad eləyirəm. Yalnız bizim xanlıq torpaqlarından kənarda olmaq şərti ilə bir meydan seç, orada tutuşaq. Bir halda ki, məni güləşə çağırdın, güləşməyimiz şərtdir, – dedi.

Lehistanlı pəhləvan isə:

– Əzəmətin oğlu Arslan bəy! Bucaq ordusunda tayı-bərabəri olmayan igid! Məni əzazil kazakların əlindən qurtardın. İzn ver, qulun olum. Əgər qəbul etsən, səninlə deyil, sənin uğrunda kiminlə desən, güləşməyə hazıram, – deyə cavab verdi.

Lehistanlının bu cavabından sonra dost olub birlikdə Krıma döndülər. Arslan bəy qızla evləndi, lehistanlı pəhləvan da az sonra islamı qəbul etdi və Xan ordusunun sadiq əsgəri oldu.

Baba hekayətini qurtarıb mənə tərəf döndü:

– Sən kimsən? Bura nə iş dalınca gəldin? – deyə soruşdu.

– Bağçasaraya gəlmişəm. Xan sarayını görmək istəyirəm, – dedim.

– Tatarsan?

– Tataram. Anam tatardır, atam tatardır, soyum-köküm hamısı tatardır.

Baba gözünü gözümə zilləyib yenə də:

– Tatarsan? – deyə soruşdu.

Heç nə deməyib başımı aşağı dikdim.

– Mən buralıyam. Bağçasarayı məndən yaxşı tanıyan çətin tapılar. Gəl, sənə Bağçasarayı göstərim, – deyib qabağa düşdü.

Biz irəlilədikcə bağçanın badam və yasəmən ağacları da seyrəlirdi. Balta dəyməmiş, qaranlıq ormana girirdik. Getdiyimiz dar yola sanki yüz illərdi insan ayağı toxunmamışdı. Önümüzü tikanlı ağaclar kəsir, ətrafa zəhərli çiçəklər saçırdı. Ayağıma tikanlar batırdı, kollar sanki məni əsir etmək istəyirlərmiş kimi vücuduma sarılır, üz-gözümə dolaşırdılar. Bir anlığa dayandım. Ətrafa baxdım. İxtiyar yoxa çıxmışdı. Heç yerdə gözə dəymirdi. Hər tərəfi səssizlik bürümüşdü. Ürəyimin döyüntüsünü eşidirdim.

– Babaa! – deyə səsim gəldikcə bağırdım.

Bağırtım eşidilməz olunca qulaqlarıma səs gəldi:

– Yürü, oğlum, yürü.

Yola davam etdim.

– Sən haradasan, baba?

Dayanıb dinlədim. Yenə cavab gəlmədi. Başım üstündəki budaqda bir quş "Qarr" səsi çıxardı. Əl-ayağım qorxudan titrəməyə başladı. Ətrafımda məni parçalamağa hazır dayanmış aslanlar, qaplanlar var deyə düşündüm.

– Baba, hardasan, baba?– deyə yenidən harayladım.

Həminki səs bu dəfə nisbətən yavaşdan:

– Yürü, oğlum, yürü! – deyə eyni sözləri təkrarladı.

İrəli atıldım. Əllərimə, ayaqlarıma sarılan tikanlı kol-kosu qıra-qıra gedirdim. Bir xeyli gedəndən sonra düzənlik tala, ağacların altından axan irmaq gördüm. Qan-tər işində özümü irmağa tərəf atdım.

İrmağın qarşı tərəfində baba daş heykəl kimi donub dayanmışdı. Başımı çevirib az əvvəl keçdiyim qorxunc ormana baxdım. Mənə elə gəldi ki, sanki aslanlar, qaplanlar yenə ardıma düşüb qovalayırlar. Qorxudan özümü irmağa atdım. Daşlarda ayağımın dərisini, qanını qoya-qoya babanın dayandığı sahilə çıxanda bayaqkı qorxaqlığıma gülürdüm. Artıq təhlükə arxada qalmışdı. Artıq özümü rahat, sərbəst hiss edə bilərdim. Amma bəs Bağçasaray haradadır? Xan sarayı haradadır? Ətrafımız yüksək dağlar və uçurumlarla çevrələnmişdi. Önümdə sakit-səssiz dayanan ixtiyardan:

– Hara gedirik, baba? – deyə soruşdum.

Baba dinmədi. Sonra əsasını qaldırıb önümüzdəki dağın zirvəsini göstərdi. Üzümə baxmadan yola davam etdi.

Artıq bələdçimin güvənsiz adam olduğunu, özümün də çıxılmaz oyuna düşdüyümü yavaş-yavaş anlamağa başlayırdım. Amma nə edə bilərdim? Arxamda geniş irmaq və qaranlıq, keçilməz meşə dayanırdı. Önümdə isə hündür dağ və mənimlə danışmaq belə istəməyən qoca! Ətrafda nə cığır var, nə də iz. Baba mənə baxmadan yoluna davam edirdi. Bir daşın üstündə oturub doyunca ağladım. Sonra naəlac ayağa qalxıb ixtiyarın getdiyi səmtə üz tutdum. Kiçik bir düzənliyi keçdik. İndi yuxarı qalxırdıq. Günəşin qızmar şüaları altında ara-sıra bıçaq kimi iti daşlara ilişib, ilan kimi qurumuş kol-kosa toxunaraq yıxıla-dura gedirdim. Boğazım qurumuşdu. Bu cəhənnəm günəşinin altında, quru və səssiz-səmirsiz təpələrdə son ümid yerim yenə də ixtiyar baba idi. Amma arabir onu da gözdən itirirdim. Belə anlarda səsim gəldiyi qədər bağırırdım:

– Babaaaa! Babaaa!

Baba gah qarşımda görünür, gah da yoxa çıxırdı. Artıq həyatımın sonunun gəlib çatdığımı anlayırdım. Bələdçim məni bura ölmək üçün gətirmişdi. Qabağa getmək istəsəm də yerimdən tərpənə bilmirdim. Son dəfə yıxıldım. Daha ayağa qalxmaq da istəmirdim. Öldür məni, al canımı, Allahım! Birtəhər başımı qaldırıb ətrafa baxdım. Kim bilir, bəlkə də dünyaya son nəzərlərim idi. Son olsa belə, həyata, dünyaya baxa-baxa ölmək istəyirdim. İxtiyar önümdə canlı heykəl kimi dikilmişdi. Gözünün qabağında öldüyümü görsə də, ağ-

zını açıb bir kəlmə danışmırdı. Bu adamın heç insafı yox imiş! Ölsəm də ondan yardım istəməyəcək, mərhəmət ummayacağam. Dizlərimdən yaş axa-axa birtəhər yerimdə qurcalandım.

– Öldür məni, zalım insan! – deyə bağırdım. – Öldür məni, canım qurtarsın!

Ağsaqqal yaxın gəldi. Əsası ilə sinəmə toxunub:

– Get də öl! Öl! Qəhbədən törəmiş! Sən yaşamaq üçün doğulmadın, bu dünyaya ölmək üçün gəldin. Get də öl! Sənin üzündən minlərlə insan məhv olacaq! Ayaq basdığın torpaqlar minlərlə ananın, körpənin göz yaşları ilə islanacaq, fəryadları altında inləyəcək. Get də öl! Kaş ki, doğulmadan öləydin! Get, öl! – deyə əsası ilə sağ tərəfimizdəki uçurumu göstərdi.

Uçurumun dibində minlərlə insan kəlləsi, insan sümükləri biri-birinə qarışmışdı. İxtiyarın ayaqlarına sarıldım. Durmadan ayaqlarından, əllərindən öpür, yalvarırdım:

– Əfv et, baba! Əfv et məni. Yaşamaq istəyirəm. Əfv et məni!

Baba asta səslə:

– Qalx ayağa, oğlum! – dedi.– Yürü.

Əmrinə tabe oldum. Ağlamaqdan qızarıb şişmiş gözlərimi ovcumun tini ilə günəşdən qoruyaraq:

– Yaşamaq üçün doğuldum. Yaşamaq üçün doğuldum! – deyə dalınca getdim. Özümü ələ aldım. Daha ağlamırdım. Heç yerdən imdad gözləmirdim. Daha dəqiqəbaşı ixtiyardan “Hara gedirik?” – deyə soruşmurdum. Sakitcə dalınca gedirdim. Aradan saatlar keçdi. Yorğunluğu yavaş-yavaş unudurdum. Tədricən qəlbimə sevinc, həyat istəyi, yaşamaq eşqi dolurdu. Hara getdiyimizi bilmirdim. Amma harada olsam, yaşamaq, sevinmək istəyirdim. Başımı qaldırıb qabağa baxdım. Yaşıl otlu çəmənlikdə idik. Sərin, xəfif meh əsirdi. Dayandım. İçimdə heç bir qorxu qalmamışdı. Baba gəlib əyləşdi. Yanında yer göstərdi. Oturdum. Mənə tərəf əyilib pıçıltı ilə:

– Gəldik, oğul. Aşağı bax, oğlum, Bağçasaray yuxudan oyanır.

Oturduğumuz zirvədən boylanıb baxdım. Dumanlı bir sabah şəhər günəşinin şəfəqləri ilə yavaş-yavaş aydınlığa qovuşurdu. Sivri uclu minarələr göylərə yüksəlirdi. Evlərin, sarayların pəncərələri günəş altında bərq vururdu. Gözlərim önündə bir nağıl-şəhər açılmışdı. Babadan bu gözəl yerin adını soruşdum. Yenə də pıçıltılı səslə:

– Bağçasaray! – dedi.

Mənsə gördüyüm yerin cənnət olduğunu düşünmüşdüm. Bağçalarında dürlü-dürlü çiçəklər açmışdı. Evlərinin pəncərələrindən quş qəfəsləri asılmışdı. Fəvvarələr, hovuzlar, çeşmələr, mərmər hamamlar... Küçələrdə yavaş-yavaş ipək paltarlı adamlar dolaşmağa, şəhərə karvanlar girməyə başladı. Bağçasaray məsud, xoşbəxt həyatının daha bir gününü yaşamağa hazırlaşırdı. Birdən uzaq üfüqdə toz dumanı qaldıraraq şəhərə yaxınlaşan atlılar gördüm. İxtiyardan soruşdum:

– Baba, atlıları görürsünüz?

– Görürəm, oğlum! – dedi. – Onlar Kazandan gəlirlər. Bax, indi saraya girəcəklər.

– Saraya nə məqsədlə gəliblər, baba?

İxtiyar yavaş səslə:

– Ruslar Kazana hücum edib. Kazan xanı Bikə xəbər göndərib. Yardım istəyir.

Atlılar ildırım sürəti ilə sarayın həyətinə girdilər. Bir müddət həyat sanki tamam dayandı. Sonra həm sarayda, həm də şəhərdə hazırlıqlar başlandı. Nəhayət, qapılar açıldı. Təbillər gumbuldadı, zurnaların zil səsi ətrafa yayıldı. Enli qapılardan parıltılı paltar geyib qılınc qurşamış bir nəfər çıxdı. Onu silahlı bəylər təqib edirdilər. Evlərdən, kəndlərdən, ovalardan, meşələrdən əsgər səfləri çıxır, sarayından ayrılan ulu Xanın ardınca dənizə tökülən çaylar kimi axışırdılar. Hamısı bir araya gəlib əsgər dənizinə çevrilmişdilər. Ulu xan qılıncını siyirib nəsə dedi. Hər sinədən, hər ağızdan "İntiqam! İntiqam!" nərəsi qopub yeri-göyü titrətdi. Sonra qərbə doğru axışdılar.

Quzey səmalarını getdikcə qatılaşan sıx buludlar sarmışdı. Sanki fırtına qopacaqdı.Yanımda xəyala dalıb oturmuş ixtiyardan:

– Bu qəzəbli əsgərlər hara gedirlər, baba? – deyə soruşdum.

– Qərbə, – dedi.

– Geri dönəcəklərmi? – Təkrar sual verdim.

İxtiyar saqqalı kimi ağappaq kirpiklərini aşağı salaraq:

– Dönmədilər, – dedi və kirpiklərindən damcılayan göz yaşları yanağı ilə üzü aşağı yuvarlanmağa başladı.

Gözlərimi açıb ağırlaşmış başımı qaldırdım. Gördüyüm nə idi? Yuxu idimi? Bəli, yuxuydu. Xan sarayına girən rus əsgərlərinin dəmir nallı uzunboğaz çəkmələrinin səsi məni yuxudan oyatdı.

* * *

## *– 2 –*

Roma, 3.4.1946

Bu axşam indiyə qədər yazdıqlarımı oxuyub fikrə getdim. Kimin üçün yazıram? Kim bunlarla maraqlanacaq? Heç kim! Heç kim yazdıqlarımı oxumayacaq. Heç kim maraqlanmayacaq. Bunu çox yaxşı bilirəm. Yazıçı deyiləm. Yazılarımda kimsəni ilgiləndirməyəcək həqiqət əks olunub. O həqiqət sadəcə mənim içimdə, daxilimdədir. Ölən qəhrəmanların heykəllərini ölülər yox, dirilər ucaldır. Onların ruhunu içimdən çıxarıb heykələ çevirmək üçün həyatda qalmalıyam. Onlar gözəl izlər buraxıb getdilər. Mən də əslində bu gün həyatdan qopmuşam. Onların izlərindən, özündən, dünyadan, insanlardan qorxuram. Mən yaşamıram, yaşamaq üçün savaşıram. Önümdə yalnız qorxu və qaranlıq var. İrəli baxa bilmirəm. Gələcək

həyatı görmədiyimdən daim geri boylanıram. Bəlkə bir köməyi dəyər deyə yazıram. Bəlkə mənə kim olduğumu söylər, qarşıdan gələn illərin sirlərini açar deyə. Bəlkə bir gün keçmişim geri dönür də məni o illərin qanlı faciələrindən qurtardığı kimi bu gün də zəif, düşkün vücudumu, əzgin ruhumu önümdəki qara günlərdən keçirib sakinliyə, salimliyə yetişdirir deyə yazıram. Bəs köməyi dəyməsə? Bu gün həyatdan qaçdığım kimi "Xatirələr"dən də qaçmağa başlasam? Doktor, "Danışdıqlarının sənə köməyi olar, bir gün qorxularını unudarsan"– deyir. Güman edirəm ki, məni indiyə qədər yaşadan həkimlər deyil, xatirələrimdir. Amma bunu doktora demirəm.

1938-ci ilin payızında toyuq damından çıxıb Kazasker küçəsinə daşındıq. Vəziyyətimiz gün-gündən düzəlirdi. Atam yaxşı qazanırdı. 15 yaşlı qardaşım da yanında çalışıb sənət öyrənirdi. Mən həmin ilin avqustunda "Yeni dünya" qəzetində işə düzəlmişdim. Bir aylıq maaşımı şəhər bələdiyyəsinin məmurlarına yedirib yaxşı ev tapması üçün atama vermişdim. Köçdüyümüz ev köhnə, baxımsız yerdi. Bir ay əlləşib içini-çölünü təmizlədik, qabağında kiçik bağça saldıq, qapı-pəncərələrini rəngləyib gül kimi, təmiz ev halına saldıq. Gözlərini daim yaşlı gördüyüm anam da artıq gülməyə başlamışdı. Bizim ailə, ailəmiz kimi bütün xalqımız da iyirmi ildən bəri davam edən bolşevik zülmündən cana doymuşdu. Bu səbəbdən milli davamızı hələlik bir yana qoyub gündəlik işlərimizlə məşğul başlamışdıq. Rus idarəçiləri Krımdakı bir ovuc tatardan hökumətə zərər toxunmaz deyə düşünürdülər. Ya da başqa bir səbəb vardı, bilmirəm. Amma kütləvi sürgünlər dayanmış kimiydi. Yalnız xalqın arasından yetişmiş adlı-sanlı, bilikli doktorlar, professorlar, şairlər, küncdə-bucaqda qalmış müəllimlər, imamlar, millətin əsir vəziyyətini namus və vicdanına sığışdırmayıb gizlində ah çəkənlər, bəzən də rakı içib ürəyindəkiləri açıb-tökənlər göz qırpımında yoxa çıxırdılar. Millət ana yurdu sevirdi, canından artıq istəyirdi. Odur ki, səsini çıxarmırdı. Ata-baba torpağında qalıb yaşamaq xatirinə hər zülmə dözməyə, hər əzaba qatlaşmağa razı idi. Son on ildə tarixinin ən qanlı faciələrinə şahid olmuş sahil boyu kəndlər yavaş-yavaş dirçəlməyə başlayırdı. Bağ-bağçalar kolxoz əmlakı hesab edilsə də, kəndlilər bu yerləri göz bəbəyi kimi sevirdilər. Meyvəsini, məhsulunu toplayıb hökumətə təhvil verirdilər. Sonra gedib kooperativ qaplarında bir kilo buğda üçün növbə tutub gecə yarısına qədər gözləyirdilər. Əlindən alınmış tarlasında, baxçasında ikiqat olub çalışırkən ana yurda tökdüyü göz yaşlarından yalnız özü xəbərdar idi. Kimsəyə bəlli etməzdi, çünki o torpaq, o yurd onun özünün idi...

Kazasker küçəsində dostum Süleyman və ailəsi ilə qonşu olduq. "Yeni dünya" qəzetində işə başlayandan sonra həkim olmaq fikrindən əl çəkdim. Süleyman əvvəlki niyyətinə qayıtdı. Amma hərbi məktəbə mənsiz getmək istəmirdi. Təklifindən qəti boyun qaçırdım. Fikrimi dəyişdirmək üçün gizlicə atamdan kömək istəsə də, o, Qayabaşı məktəbindən çıxdığım vaxtdakı kimi, qərar verməyi öz öhdəmə buraxdı. Qış yeni başlamışdı. Süleymanla eyni gündə hərbi xidmətə çağırıldıq. Beləliklə, dostumun zabit olmaq xəyalı gerçəkləşməyə başladı. Çağırış vərəqəsi aldığımız gün Simferopol

voyenkomatına[6] getdik. Koridorda taxta əl çamadanlarının üstündə oturub gözləyən bir neçə nəfər rus vardı. Özlərini çox pis, hətta iyrənc aparır, siqaret çəkib yerə tüpürürdülər. Qalın, sırıqlı şalvarlarından ətrafa ürəkbulandırıcı iy yayılırdı.

Koridorda, divara söykənib növbəmizin çatmasını gözləyirdik. Bir azdan otağın qapısı açıldı, qırmızı sifətli, şişman gövdəli bir zabit qapının arasından başını uzadıb əvvəl Süleymanın, sonra mənim adımı çağırdı. Birlikdə içəri girdik.

İçəridə üç doktorun təpədən dırnağa qədər müayinəsindən keçəndən sonra həmin zabit gəlib bizi otağına apardı. İçəri girər-girməz:

– Adım İvan Aleksandroviç Şişkovdur, – deyə hər ikimizin əlini sıxdı. Keçib masanın arxasındakı kresloda əyləşdi, bizə də yer göstərdi. Oturduq. İndi üzünü daha yaxşı görə bilirdim. Sifətindən gülüş əskilmirdi. Amma bu təbəssümün arxasında nəsə bir məqsəd gizlənmişdi. Nə idi bu məqsəd? Kim bilir? Görünürdü ki, bütün günü məqsədinə çatmaq üçün çalışır. Bəlkə yuxusunda da o məqsədi görür. Əynindəki politruk[7] forması gizləyir o məqsədi. Yaşıla çalan iri, hiyləgər gözləri vardı. Ucları aşağıya tərəf əyilmiş qalın dodaqları sifətinə çirkin ifadə verirdi.

Bir müddət otağın tavanına baxdı, sonra ikimizi də süzüb sözə başladı.

– Yoldaşlar, Qırmızı Ordu sıralarına çağrılırsınız. Əlimdəki arayışdan da göründüyü kimi, hər ikiniz oxumuş gənclərsiniz. Sovet İttifaqı sizin kimi təhsilli cavanlara irəli getmək, inkişaf etmək üçün böyük imkanlar yaradır. Kiçik zabitlər məktəbində oxumaq və biliyinizi artırmaq üçün sizə yardım göstərməyə hazırıq. Qarşınızda açılan fürsətdən layiqincə istifadə edəcəyinizə, vətənə faydalı övladlar kimi yetişəcəyinizə əminəm.

Təklifdən boyun qaçırmağın özümün və ailəmin başına böyük fəlakət açacağını yaxşı bilirdim. Süleyman xətrimə dəymək istəmirdi. Amma komissar Şişkovun təklifinə ürəkdən sevindiyini də gizlədə bilmirdi. Axşam məsələni atama danışdım. Şişkova rədd cavabı verməyin xatalı iş olduğunu o da təsdiq etdi. Süleyman gəldi. Hərbi məktəbdə üzləşəcəyimiz yeni həyat haqda uzun-uzadı danışdıq. Süleyman zabit olmaqda yaxşı, xətərsiz gələcək görürdü. Rayvoyenkomatın koridorunda gördüyümüz rusları bilmirəm, neçənci dəfə yadıma salıb:

– Sadıq, – deyirdi, – sən o gavur sürüsü ilə eyni damın altında iki il yaşaya bilməzsən. Amma indi zabit olub onlara əmr verəcəksən. Ya da savaşacaqsan. Bizim mayamız başqadır.

Bilmirəm, atam Süleymanın fikirlərini doğru hesab edirdi, yoxsa mənə ürək-dirək vermək istəyirdi. Hər halda onun tərəfini saxladı.

– Kim və nə olursansa, böyük adam ol, Sadıq, – deyirdi. – Hər işdə bu yurda lazımsınız. Biliklərinizi artırarsınız. Yeni insanlarla tanış olarsınız. Krımda sürünməklə millətə nə faydanız dəyəcək? Doktorlarımızın axırına çıxıblar, barı zabitlərimiz olsun. Onlar da bir gün millətin dadına yetişirlər.

*[6] – Hərbi komissarlıq. Bu söz əsərin orijinalında belə işlənib. Tərc.*

*[7] – Siyasi rəhbər, komissar. Orijinalda belə işlənib. Tərc.*

Nəhayət, hərbi məktəbə getməyə qərar verdim. Amma xəbəri anamdan gizlətdik. Zavallı əsgərə getdiyimi, xidmətimi başa vurub iki il sonra geri dönəcəyimi və Ayvasıllı Səbri Muxtarın qızı ilə evlənəcəyimi xəyal edirdi. Mən gedəndən sonra həqiqəti anama söyləmək atamla Bəkirin öhdəsinə düşdü.

1938-ci ilin qışında Odessa kiçik komandirlər məktəbində oxumağa başladıq. Hərbi təlim və hərb nəzəriyyəsindən çox, siyasi maarif dərsləri keçirdik. Altı ay sonra politruk Şişkov bizim hərbi məktəbə gəldi. Üzündəki təbəssümün altında eyni gizli məqsəd də olduğu kimi qalırdı. Bu adam bizi addım-addım təqib edirdi. Hər sözümüz, hər düşüncəmiz sanki onun hökmü altında olmalı idi. Saatlarla marksizmdən danışmaqla Qərb kapitalizminin çürüklüyünü, əzilən dünya proletariatının Sovet İttifaqından, Qırmızı Ordudan yardım gözlədiyini başa salmaqla kifayətlənmirdi. Təbəssümü arxasında gizlənən o məqsəd bəzən mənə ürəyimizə girib hisslərimizi öldürmək, beynimizə soxulub düşüncələrimizə hakim kəsilmək təsiri bağışlayırdı. Bir neçə nəfər azərbaycanlı, qırğız, tatar bir yerə toplaşanda aramıza soxulub üzündəki məlum təbəssümüylə nədən danışdığımızı soruşardı. Hər çeşid bəhanələrlə bizi yalnız rusca dindirirdi. Bəzən guya zarafatla evdən gələn məktublarda nə yazıldığını öyrənmək istəyirdi.

1940-cı ilin yazında məktəbimiz Odessadan Rumıniya sərhədinə yaxın bir yerə köçürüldü. Üç aylıq təlimlərdən sonra yenə Odessaya qayıtdıq. Avqustun 1-də imtahanlar başladı. Avqustun 9-da Odessa kiçik komandirlər məktəbindən leytenant rütbəsi ilə məzun oldum.

Bir həftəlik istirahətdən sonra 57-ci diviziyanın 94-cü alayının 2-ci bölüyünə komandir göndərildim. Dostum Süleyman Əziz isə eyni alayın 3-cü bölüyünə təyin olunmuşdu. Krasnoe döyüşünə qədər birlikdə xidmət etdik.

1941-ci ilin yazı. Akkerman yaxınlığında düşərgədəyik. Yurddan ayrılalı iki il oldu. Komandanlığa paropt yazıb icazə istədim. Vermədilər. Əsgərlərə Suvorov nizam-intizamı öyrətmək əmri aldıq. Ağır tankların içində motor gurultusundan başım qazan kimi qaynayırdı. Təlim, təlim, təlim... Hər gecə iki, bəzən üç dəfə həyəcan siqnalı ilə yuxudan qaldırılırdıq. Tankları meşələrə, dərə-təpələrə sürürdük. Kəndlinin tarlasını, əkinini bərbad vəziyyətə salırdıq. Bu səbəbdən də ətrafdakı kəndlərin sakinləri bizə dost gözü ilə baxmırdı. Politruklar da ordunu əhali ilə yaxınlaşdırmaq üçün əllərini ağdan qaraya vurmurdular. Yeni "xilas edilmiş" yerlərdə[8] sovet düşmənlərinin olduğunu deyirdilər. Tanklara yaxınlaşanları tutub düşərgəyə gətirirdik. Sonra NKVD əsgərləri gəlib onları aparırdı. Hara aparırdılar – bilmirdik. Kəndlilərin canına elə qorxu düşmüşdü ki, bu vəziyyətləri ilə mənə 1932-1936-cı illərdə bizim kəndlərdən sürgün edilən adamları xatırladırdılar. Təlimdən sonra çadırıma girəndə özümü evdəki kimi hiss edirdim. Bəzən bir, bəzən iki saat sərbəst vaxtımız olurdu. Fasilə bitənədək çadırda tək, düşüncələrimlə baş-başa qalırdım. Yatağımın yuxarı tərəfində ailəvi, ayrıca da Bəkirin fotolarını asmışdım. Şəkillərə baxıb onlarla danışırdım. Xəbərdarlıq siqnalı verilənə qə-

*[8] – Qərbi Ukrayna, Qərbi Belorusiya və Baltik respublikaları nəzərdə tutulur. Tərc.*

dər birlikdə olurduq. Özümü doğmalarını görən, dinləyən adam kimi hiss edirdim. Bəkirin yanımda olmasını elə istəyirdim ki! Amma indi sadəcə, fotosuna baxıram.

At belindədir. Başına qələmlə çəkilmiş kimi görünən qara qaşlarının üstünə düşən iri çərkəzi papaq qoyub. Çərkəzi çuxa geyib, belinə xəncər taxıb. Yadımdadır, bu çəkli çarşıda, taxta "atın belində" çəkdirmişdi. O vaxt on üç yaşında idi. İndi on yeddi yaşı tamam olur. Amma o, on üç yaşlı uşağın gözlərində də qüdrət və şəfqət izləri oxunurdu. Yəqin mənə bənzəməz. Həyatın qaranlıqlarını dəlib bütün sirlərə vaqif olacaq bir insanın baxışları var onda. Anamın məktublarını Bəkir yazır. Hər məktubunu oxuyanda sobanın böyrünə çökmüş beli şallı anam nəzərimdə canlanır. Gözlərimi yumub sobanın baş tərəfində kibrit çöpü incəliyində siqaret çəkdiyini, Bəkirə məktub yazdırdığını "görürəm". Hər məktubun sonunda Bəkir özündən də üç-dörd sətir əlavə edir. Məsələn, bir dəfə belə yazmışdı:

"Əsgərə getdiyindən iki il keçdi. İki ildə anamız bir az da qocaldı. Sən yanımızda olanda belinə bir şal bağlayırdı. İndi də həmin şala bürünür. Biz yatandan sonra sobanın böyründə oturub bir-birinin közünə yandırdığı siqaretləri çəkir. Səhərlər yuxudan tez ayılır. İlk işi atamızın yatağına qəhvə gətirmək olur. Hər sözünə sənin adınla başlayır".

Başqa bir məktubunda "Anamız hər səhər pəncərə önündə poçtalyonu gözlədiyi üçün dünən səhər də həmişəki yerində idi. Poçtalyon yoldan keçəndə içəri çağırıb torbasına un, yağ, şəkər, alma-armud qurusu qoydu. Zavallı elə bilir poçtalyona pay-puş versə, səndən daha tez-tez məktub gətirəcək. Onun könlünü al, ağam, vaxtın olduqca yaz. Keçən həftə Odessaya gəldiyini yazmışdın. O axşam məktubunu anamıza oxuyanda Mehmet ağanın arvadı ilə Zəminə xalam və daha bir neçə nəfər tanış-biliş də bizdə idi. Məktuba qulaq asandan sonra anamız "Odessa dedikləri yer hardadır?" – deyə soruşdu. Atamız əvvəlki yerdən yaxın olduğunu desə də, zavallı Odessanın Krımın içində, yoxsa kənarındamı yerləşdiyini bilmək istəyirdi. Yaxınına gəldim.

– Ay ana, – dedim, – Yaltadan Ağməscidə gedəndə heç Dovşan bazarından keçmədin?

– Ee, keçdik, oğlum, – dedi.

– Dovşan bazarından bir xeyli aralanandan sonra yolun hər iki tərəfində qırmızı kərpicdən tikilmiş binaları görmədin?

– Ee, gördük, oğlum.

– Bax o yerin adı Odessadır, ana.

Atam, sonra da müsafirlər gülməyə başladılar. Anamız da güldü. Amma gülümsəyəndə anidən xəyala daldı. Həsrətli gözlərindən iki damla yaş axdı. Əyilib çiyinlərini oxşadım, alnından öpdüm. Zavallı:

– Sən də getsən, ağlımı tamam-kamal itirəcəyəm, – dedi".

Bu sabah evimizdən məktubla birlikdə bağlama da aldım. Bütün günü təlimin bitməsini səbirsizliklə gözlədim. Günün sonunda əsgərləri starşinaya tapşırıb çadırıma getdim. Yorğun-arğın, ayağımda uzunboğaz çəkmələr, üz-

gözüm toz-palçıq içində yatağıma uzanıb Bəkirin məktubunu oxumağa başladım. Bəkir yazırdı: “Çox sayğılı və sevgili ağacığım Sadıq! Bir həftədir səndən məktub yoxdur. Anamız “Övladımı yenə Odessadan alıb uzaqlaramı apardılar?” – deyə maraqlanır. Sənin hər məktubun ona şəfa verir. Tez-tez yaz. Dünən Mənsur dayımız kənddən gəldi. Axşam oturub sənə bir bağlama hazırladıq. Məktubla bərabər göndərirəm. Bağlamanın içində beş dəstə Qızıldaş tütünü, kənd meyvələrindən xurma, alma, armud, şaftalı görəcəksən. Anam bezə sarınmış üçbucaq şəklində bir şey də qoydu. Yanılmıramsa, duadır. Yatmazdan əvvəl atamız Mənsur dayımla baş-başa verib xeyli söhbət elədilər. Deyəsən, atamız təzədən kəndə qayıtmaq istəyir. Amma qəti qərara gələ bilmir. Yəqin qorxur. O biri yandan da sənin Qırmızı Ordu zabiti olmağın ona cəsarət verir. Mən kəndə köçməyin əleyhinəyəm. Bilirsən ki, sürgün eləməyə başladılarmı, zabitə-mabitə baxmayacaqlar. Hamını ucdantutma sürgünə göndərəcəklər. Sonra, evimizə voronejli bir rus ailəsinin köçürüldüyünü bilirsən. Amma dayım “Bizim damın altında hamımız yerləşərik” – deyir.

Nə olacaq? Bilmirəm. Məsələ ilə bağlı gələcəkdə sənə yenə yazar, bir yenilik olsa, xəbər çatdıraram. Qəzetləri oxuyanda Avropada çalınan həyəcan təbilinin səsini buralarda da eşitmək olur.. Aman Allah! Ağməsciddə əsgər qələbəliyini görsəydin! Hamısı da ruslar! Tatarlardan da çox əsgər aparırlar. Amma başqa yerlərə göndərirlər. Anamız müharibə olacaq deyir. Nəsə ürəyinə damıb. Çünki müharibə qabağı həmişə belə qələbəlik olur. “Havada müharibə qoxusu var, balamın işi necə olacaq?” – deyib ağlayır. Əslində, doğru deyir. Akyardan gələn xəbərlərə görə orada da evlərin damına pulemyotlar qoyublarmış. Ay-Petri dağında, yaylalarda toplar yerləşdirildiyini deyirlər. Amma qəzetlər bir şey yazmır. Toplar bizə qarşıdı, yoxsa Türkiyəyə? Bilmirik. Yəqin ki, həm onlara, həm də bizə tuşlanıb. Qəzet dedim, yadıma düşdü. Bağlamada iki qəzet göndərirəm. Biri “Komsomolets”, o biri “Krasnıy Krım”. Sən burada olanda bu qəzetlərin adı “Yaş kuvvet” və “Yeni dünya” idi. İndi dəyişdirilib. Qəzet adları ilə birlikdə hərflər də dəyişdi.

Bütün tatar məktəblərində və qəzetlərdə latın həfləri yerinə indi kiril hərflərindən istifadə olunur. Guya rus hərfləri tatar dilinə latın hərflərindən daha çox uyğun gəlirmiş! Hay! Hay! Ağlamaq yerinə gülmək istəyirəm. Yeni yazılarla maraqlanacağına əminəm. Gözlərindən öpürük. Sağ-salamat olmağını, yaxın vaxtda vətənə dönməyini Tanrıdan təmənni edirik”.

Bəkirin məktubu, ən çox da qəzetlər məni dəliyə döndərdi. İçimdə baş qaldıran acı duyğular, xatirələr boğazıma tıxanır, az qala nəfəsimi kəsirdi. Başım fırlanır, gözlərim qaralırdı. Qəzetlər əlimdə düşərgənin bu başından o biri başına qədər qaça-qaça “Qatillər! Qatillər!” – deyə bağırmaq istəyirdim. İçimdə Qara dənizin ən azğın zamanlarında olduğu kimi dalğalar köpürüb-daşırdı. Amma o dalğaları köksümdən çıxara, bir səmtə yönləndirə bilmirdim. Yumruğumu ağzıma dayayıb daxilimdə qopmuş fırtınaları içimdə saxlamaq, boğmaq istəyirdim. Fəqət bacarmırdım. Onlar məni boğurdular. Göz yaşları yavaş-yavaş yanaqlarımdan üzüaşağı süzüləndən sonra nəhayət

ki, bir az sakitləşə bildim. Bu sakitlik nə qədər çəkəcəkdi? Bilmirəm. Qəzetlərə baxıram. Bütün tatar kəlmələri, tatar sözləri rus hərfləri ilə yazılıb... O hərflərə baxdıqca dilimə, analarımızın yavrularına layla söylədikləri o dadlı, şirin dilə az qala nifrət etmək istəyirdim. O yazılar gözümə elə qaba, elə çirkin görünürdü! Bilmirəm, nədənsə gözüm önündə bir şagirdin sinifdəki yazı taxtasına tatar sözlərini rus hərfləri ilə yazması canlanırdı. Kiçik, zəif bir əl nəzərlərimdən bir an da olsun çəkilmirdi. Ağlamaq, yox, yox, gülmək istəyirdim. Məktublarımda atama "Mənə əski dastanlarımızdan bir neçə sətir yaz, göndər" – deyəcək olsam, atamın "Siyəri-Nəbi", "Çora Batır" sözlərini bu hərflərlə necə yazacağı mənə qəribə görünürdü.

Artıq ağlamırdım. Bilirdim ki, tatar oğlu bu qəzetləri oxumayacaq. Atamın sözlərini xatırlayırdım: "Onlar bizdən qorxurlar, Sadıq! Onlar bizim varlığımızdan qorxurlar!" Nə qədər haqlı imiş! Daha ağlamıram. Bilirəm ki, düşmənlərimiz bizdən qorxur. Bizi belə həyasız bir şəkildə ruslaşdırmaq istəyirlər. Çünki qorxurlar. İndi qəzetlərə fəxrlə baxırdım. Düşmən paltarındakı vücudum dəmir kimi möhkəm idi!

Axşam düşür, ətrafa yavaş-yavaş qaranlıq çökürdü. Qara dənizdən əsən sərin meh qəlbimə əminlik, vücuduma sakitlik gətirirdi. Tək idim. Qəzetlərə gülə-gülə baxırdım. Bayırdan Süleyman:

– İçəridəsən? – deyə qışqırdı.

– İçəridəyəm. Gəl.

Süleyman çadıra girdi. Yenicə kəsdirdiyi saçları səliqə ilə ortadan yanlara ayrılmışdı. Hərbi forma ona necə də yaraşırdı! Zavallı bu uniformanı necə sevir! Nə qədər fəxr edir! Yatağıma yaxınlaşıb:

– Hələ qəzet oxuyursan? – deyə soruşdu.

– Aha. Al sən də bax.

Qəzetləri Süleymanın önünə atdım. Oxumaq istəyir, amma oxuya bilmir. Yazılara heyrətlə baxır:

– Eee, nə düşünürsən? – deyə soruşuram.

– Sözlər tatarca. Amma hərflər rus...

– Buyur, bu da Bəkirin məktubu. İndən sonra bütün yazı-pozu rus hərfləri ilə olacaqmış. Nə deyirsən bu işə?

– Nə deyim? Heç bilirəm ki?

İçimdə yenə də ağrı-acılar baş qaldırdı. Amma indi Süleymana hirslənirəm. Niyə o da mənim kimi fikirləşmir, hisslərimi paylaşmır?

– "Nə deyim" nə deməkdir? O yazılara bax, oxu. Onlara sözün nədir?

Süleyman qəzetləri yerə atdı:

– Nə deyim? Niyə belə yazılır? Biz əsgərik. Həm də daha yazdıqlarımızı qələm deyil, süngü ilə yazacağıq. Alman ordusu Polşa sərhədlərinə çatıb.

Süleymana sözünü qurtarmağa imkan vermədim. Yataqdan sıçrayıb qalxdım. Yerə səpələnmiş qəzetləri toplayıb burnunun qabağında tutdum.

– Sən mənə uniforma geyib ədа satmağı, qadınlara salam verməyi öyrət! Sən belə işləri yaxşı bilirsən! Get, işinlə məşğul ol. Amma nə mənim, nə də başqalarının millət duyğularına toxunma!

Məni həmişə bəsit düşüncəli bir dost sayan Süleyman indiyə qədər necə səhv etdiyini anlamamışdı. Üzümə şaşqın-şaşqın baxırdı. Başıma bir iş gəlibmiş kimi, qorxusundan bət-bənizi qaçmışdı. Dodaqları titrəyirdi:

– Sadıqcan, mən sənə bir şey demədim ki?

– Demədin. Deyəcəyin bir söz var ki, deyəsən? Həmişə belə olmusan, zatən. Məktəbdə də belə idin.

– Necə idim ki?

– Belə. İndiki kimi. Məktəbin yanındakı fabrikdə işləyən rus qızlarına daş atdığın zaman mən qaçırdım deyə, adımı qorxaq dovşan qoymuşdun. Lağ edirdin.

– Bunun sənin qəzetlərinlə nə əlaqəsi var?

– Çox gözəl əlaqəsi var. O qızlar səndən zəif idilər. Onlardan qorxmurdun. Daş atırdın. Amma ortaya böyük təhlükə çıxan kimi dərhal qaçırdın. Uniformana elə aşiqsən, elə bil dədən, baban da dünyaya bu uniformada gəlib. Sabah Rusiya ilə Türkiyə arasında müharibə başlasa, bəlkə türklərə güllə də atarsan. Bu yazıları görmürsən? Hər yerdə – orduda, evdə, küçədə, hər addım başı bizə vətən sevgisi bəsləyirlər. Qulağımıza doldururlar ki, dünyada bir azad və bəxtiyar vətən varsa, o da bizimkidir!

Mən bu sözləri deyərkən Süleyman ara-sıra başını çadırdan çıxarıb ətrafa baxır və barmağını dodaqlarına toxunduraraq:

– Ss-sss... Yavaş danış, Sadıq, – deyirdi. Səsimi bir az aşağı salıb sözümə davam etdim:

– Bu qəzetlərə bax! Sənin dilindir, mənim dilimdir. Ata-babalarımızın dilidir. Bir millətin varlığı dili və torpağı ilə bəlli olur, elə deyilmi? Yüz əlli il əski çar üsul-idarəsi bizi cənnət yurdumuzdan sürgün etdi, asdı, kəsdi. İndiki qırmızı rus idarəsi də bir ovuc tatarın canlı dilinə qənim kəsilib.

Yatağıma uzanıb başımı ovuclarımın içinə alır, Süleymana baxıram. Sanki qəlbinin dərinliyindən bir ağrı çıxıb üzündəki xəfif təbəssümün arxasında gizlənir.

– Hey Sadıq, – deyir. – Bizi yaş yuyub quru sərdin.

Başqa söz demir. Bəlkə məni daha çox əsəbiləşdirmək istəmədiyindən danışmır. Hələ də yatağımdayam, Süleymana baxıram. Onun danışmasını, dediklərimə etiraz etməsini istəyirəm. Amma dostumdan isə səs çıxmır.

– Danışsana!

– Bəlkə də haqlısan. Amma sənə hərbçi olduğumuzu, belə məsələlərlə bir alış-verişimizin olmadığını təkrar söyləmək istəyirəm. Bunun üçün alimlər var. Qoy onlar fikirləşsinlər.

Dərhal yerimdən atıldım:

– Yox, Süleyman! Belə düşünən alimlərin başına nələr gələcəyini sən də yaxşı bilirsən. Bir də ki, dil yalnız alimin deyil. Hər kəsindir. Çobanın, fəhlənin, kəndlinin, bütün millətindir. Hər kəsin!

– Bunu cahil bir kəndliyə başa sala bilərsənmi? Keçən həftə bölüyümə bir əsgər gəldi. Dörd nəfər qırğızdır, biri də bizim soydaşımızdır. Adı Kərim.

Üsküt kəndlisidir. Finlandiya savaşında ayağından yaralanıb. Ordu intizamı qanına, iliklərinə işləyib. Bu axşam tankların olduğu meydançada qarovuldadır. Avamın biridir. "Öldür desələr – öldürərəm, yandır desələr – yandıraram" deyir. Mən siyasətdən bir şey anlamıram, yazı-pozu bilmirəm, amma sinəmə bax, iki medalım var. Biri Qırmızı bayraq, o biri Qızıl ulduz". Belə məsələləri ona necə başa salacaqsan? Qəzetlər rusca çıxır, tatarca çıxır – onun nə vecinə? Kərimin nəzərində dilin də bir qara qəpiklik əhəmiyyəti yoxdur. O, əmr quludur. Əmri də biz yox, ruslar verir.

Süleymanın sözlərini diqqətlə dinləyirəm. Nəhayət, susur. Çadıra dərin bir səssizlik hakim olur.

– Kərim indi qarovuldadır?

– Bəli. Meydandan yüz metr aralı. Ağır tankların yanında.

– Parolsuz kimsəni yaxına buraxmaz dedin?

– Yüzdə yüz!

– Tatarca danışsam?

– Özünü uşaqlığa vurma, Sadıq. Əmri bilirsən.

– Kərimin yanına parolsuz getsəm, bir aylıq maaşını verərsən?

– Gedə bilməzsən!

Süleyman gülür. Amma üzündəki təbəssümün arxasında gizlətməyə çalışdığı bir əndişə də var.

– Birdən sənə atəş açsa, onda necə?

Cavab vermirəm. Çadırdan çıxıb tankların dayandığı meydana tərəf gedirəm. Süleyman qaça-qaça yaxınlaşır, qulağıma yavaşdan pıçıldayır.

– Bu gecənin parolu Don. Unutma – Don! Don! Gəl vaz keç, Sadıq, getmə...

Süleymanı yüngülcə yana itələyirəm. Arxamca:

– Don, Don, – deyə qalır.

Düşərgədən çıxıram. Önümdəki tarlaları kömür kimi qapqara gecə sarıb. Nə yol, nə iz görünür. Kərimin harada növbə çəkdiyini dəqiq bilmirəm. Bir qərara gəlmədən gedirəm. Ayaqlarımın altında yumşaq torpaq var. Odur ki, heç bir səs eşidilə bilməz. Gecənin min bir təhlükəli oyunları ola bilər deyə, tez-tez sağıma-soluma baxıram. Birdən başqa bir qarovul nəfərinin qarşısına çıxsam? Ehtiyatsızlıqdan daşlara, kollara toxunuram. Yerə çöküb dinləyirəm. Səs-səmir yoxdur. Ayağa qalxıram, korun bələd olmadığı yerdə yol araması kimi səs çıxarmamaq üçün addımlarımı korun əl ağacı kimi ora-bura ataraq zil qaranlıqda tankların dayandığı meydana tərəf gedirəm. Birdən önümə Kərim deyil, bir başqası çıxdı, onda nə edəcəyəm? Asta-asta içimə qorxu dolmağa başlayr. Gedim, yoxsa geri qayıdım? Süleymanın dediyi kimi Kərim kəndçidir, cahildir. Dururam. Fikirləşirəm. Gedimmi əcəba? Qorxuram. Əllərim əsir, dizlərim titrəyir. Amma geri dönsəm, qorxduğumu Süleymana bəlli etmiş olacağam. Qorxduğumu kimsənin bilməsini istəmirəm. Bizi bir-birimizə bağlayan qüvvənin vətən sevgisi, ana dilimiz olduğunu Süleymana isbat etmək üçün düşərgədən çıxdım. Bura qədər gəldim. Geri dönə bilmərəm. İrəli getməliyəm. İrəliləməliyəm. Gecə zülməti səssiz və qorxuncdur. Ət-

rafda növbə çəkən qarovulçulara yaxınlaşdığımı hiss edirəm. İndi qəfildən bir səs “Parol?” deyə bağırsa, Kərimin səsi olduğunu haradan biləcəyəm? Bağıran bəlkə bir rus olacaq? Lap Kərim də olsa, nə deyəcəyəm? Ağzımdan “Qardaş” kəlməsi çıxmadan sinəmə qurşun sıxsa nə olacaq? Ürəyim elə titrəyirdi ki! Dörd bir tərəfdən sinəmə, kürəyimə, başıma tüfəng lülələrinin tuşlandığını hiss eləyirəm. Harada olduğumu bilmirəm. Yerə uzanıb sürünə-sürünə geriyə, düşərgəyə qayıtmaq istəyirəm. Dua oxuyuram. “Allahım, məni qoru!” – deyib bir az da irəli gedirəm. Qəflətən gecənin qara pərdəsini zil bir səs yırtır:

– Stoy! Parol!

Arxasından göz açıb-yummağa imkan tapmadan qaranlığa bir fişəng atılır.

– Qardaş, sən kimsən? Öz vətəndaşınımı öldürəcəksən?

Bir səs çıxmır. Gözləyirəm. Rusdursa, qurşunu başıma sıxacaq. Kərimdirsə... Dilimin ucunda Don kəlməsi var. Amma demirəm. Qaranlıqda asta, lakin kəskin səs:

– Oğlan, kimsən? Yaxına gəl görüm... – deyir.

Yanına yaxınlaşıram. Qara bir kölgə məni başdan ayağa kimi süzür.

– Bəxtin gətirdi, tatarca cavab verdin, yoldaş leytenant. Vallah, az qalmışdı atəş açım. Yolun açıq olsun, hara belə?

– Hava almağa çıxmışdım. Kərim sənsən?

– Mənəm. Bəs parolu bilmirsən?

– Yox.

Qulağıma tərəf əyilib:

– Don, – deyə pıçıldadı.

Sonra başını sağa-sola çevirdi. Gözlərini qaranlığa zilləyib ətrafı qurdbasan köpək kimi dinlədi.

– Ayaq səsləri var. Deyəsən, kimsə gəlir.

Yenə diqqətlə dinləyir. Birdən bağırır:

– Stoy! Parol?

– Don.

Qarşımızda qaranlıqdan çıxan bir nəfər durub – Süleyman.

– Parola cavab verməmiş niyə leytenantı buraxdın, Kərim?

Kərim dinmir. Süleyman sərt və amiranə səslə:

– Niyə? Əmrdən xəbərin yoxdur? – deyə soruşur.

– Müsəlmanca danışdı, Süleyman ağa. Necə atəş aça bilərdim?

İndi Süleyman susur. Yaxınlaşıram, əlimi çiyninə qoyaraq:

– Haydı, Süleyman, – deyirəm, – gec oldu, gedək!

Yan-yana, səssizcə, beyinlərimizdə bəlkə də fərqli düşüncələr, lakin vahid vücud kimi, bir övlad duyğusuyla geri, düşərgəyə doğru yürüyürük.

Bir sabah çox erkən saatda növbətçi əsgər çadırıma girib komandirin təcili məni çağırdığını dedi. Tələsik geyinib alay komandirinin yanına getmək üçün çadırdan çıxdım. Düşərgə hələ dərin yuxuda idi. Orada-burada çiyni tüfəngli qarovul əsgərləri səssizcə ətrafı dolaşırdılar. Bəzi çadırlardan çıxan sıravi

əsgərlər ağır və yorğun addımlarla ağızlarındakı papirosları sümürə-sümürə mətbəxə tərəf gedirdilər. Bəzi çadırların önündə starşinalar zəncirli saatlarına baxıb əsgərlərə “Qalxın!” komandası vermək vaxtını gözləyirdilər.

Düşərgənin kənarındakı komandir çadırına girdim. İçəri qələbəlikdi. Üstəlik də hava yorğunluq və yuxusuzluqdan sərxoş kimi görünən, üzlərini təraş etməyə macal tapmayan zabitlərin nəfəsi ilə daha da ağırlaşmışdı.

Süleymanın yanında oturdum. Alay komandiri yanımızdan ötərkən hamı eyni anda qalxıb hərbi salam verdi. Komandir qırmızı örtüklü masanın arxasına keçdi. Yaşıla çalan gözləri qan çəkmiş, göz qapaqları şişmişdi. Bütün gecəni yatmamış, ya da doyunca ağlamış adama bənzəyirdi. Üzündə acı ifadə vardı. İçinin bütün dərdi qalın qaşının arasındakı iki düyündə toplanmışdı. Masanın arxasında bizi görmürmüş kimi dururdu. Sonra boğuq səslə ağır-ağır:

– Yoldaşlar! – deyib susdu. Hamımızı bir-bir gözdən keçirdi. Qorxulu bir xəbər vermək məcburiyyətində qalmış adam kimi sözünə davam etdi.

– Yoldaşlar, üç saat əvvəl faşist Almaniyasının hava qüvvələri vətənimizə hücum edərək Sevastopolu, Kiyevi, Minski bombalayıb. Bunu xəbər verməklə müharibənin başlandığını bildirmək istəyirəm.

Boğazıma sanki nə isə tıxandı. Yanımda oturmuş Süleyman əlimdən tutub üzümə baxdı. Çadıra dərin səssizlik hakim olmuşdu. Bütün ürəklər, bütün gözlər bir olub bu aramsız səssizliyin içində müharibəni görürmüş kimi titrəməkdə idi. Bir səs:

– Papiros çəkməyə icazə verirsinizmi, yoldaş komandir? – deyə soruşdu.

Titrəyən əllərimizlə papiros yandırdıq. Alay komandiri sözünə davam etdi. Bu ağır zamanda Vətən qarşısındakı borcumuzdan danışdı. Sözünü bitirəndən sonra çadırdan çıxdıq. Süleymanla yanaşı addımlayırdıq. Söhbətə birinci başlamağımı istəyirmiş kimi üzümə baxırdı. Nəhayət:

– Dünən axşam yatmazdan qabaq “Tanrım, bizi bir-birimizdən ayırma!” – deyə dua etdim, Sadıq, – dedi.

– İnşallah, ayırmaz.

– Mənim bölüyümdə on iki nəfər tatar var. Bir az boş vaxtın olanda gəl, onlarla söhbət elə. İndi inanıram ki, dilimiz bizdən ötrü çox qiymətlidir.

Mənim bölüyümdə Krımdan yalnız bir rus vardı. Tatar isə yoxdu. Süleymana ilk fürsət düşən kimi gəlib igidlərlə danışacağımı dedim. Ayrıldıq.

Həmin sabah çadırlar söküldü. Hərbi hissə üç kilometr məsafədə meşənin içinə çəkildi. Əsgərlər silahlandı. Ətrafa qarovullaq qoyuldu. Həndəvərdə hərlənən hər mülki şəxsi tutub gətirmək, etiraz edən, yaxud boyun qaçıran olsa, yerində güllələmək əmri verildi. Alayın səkkiz təlim tankı vardı. Məni həmin tanklardan ibarət xüsusi tank bölüyünə komandir təyin etdilər. Süleyman 22 topla topçu bölüyünün komandiri oldu. Yerdə qalan əsgərlər piyada bölüklərinin sərəncamına verildi. Təlimlərdə Suvorov nizam-intizamının tətbiqi əmri veriləndən bəri ürəklərində komandanlığa lənət oxuyan əsgərlərin işsiz-gücsüz vəziyyətdə, səhərdən axşama qədər meşədə yatmaq

çox xoşuna gəlmişdi. Amma bu "istirahət" uzun müddət davam etmədi. Ayın iyirmi beşində Akkerman stansiyasında qatarlara mindik. Diviziya qərbə yollandı.

* * *

## *– 3 –*

## *Roma, 1.5.1946*

Müharibədə ölümlə üz-üzə dayandığım günlərdə sanki daha xoşbəxt idim. İndi mənə nə olub? Niyə küçələrdəki insanlara qarışıb onlar kimi ola bilmirəm? Niyə özümü hamıdan fərqli hiss edirəm? Niyə hər kəsdən aşağı olduğumu düşünürəm? İçimdə bir-biri ilə çarpışan iki qüvvə var. Biri həyat, daha doğrusu, məni təzədən həyata qaytarmaq istəyən qüvvədir. Bu iki qüvvə aramsız savaşır. Onların çarpışması varlığımı təməlindən sarsıdır. Məni tədricən yıxır, çökdürür. Qorxuram. Artıq küçələrə çıxıb sevdiyim insanlarla bir arada olmayacağam. Əlimdən tutub mənə dünyanı göstərəcək birisini axtarıram. Belə adam varmı, əcəba? Bəlkə var? Əgər yoxdursa? Qəlbim və düşüncələrimlə yenə Yer üzündə hər şeyi – canlını, cansızı yaratmış Allaha tapınıram. Allahım, sən məni buraxma. Sən məni qoru, Allahım!

...Axşam olur. Romanın damları üzərinə qaranlıq çökür. Otel otağında təkəm. Mən təklikdə yaşaya bilmirəm. Özümdən, içimdən birdəfəlik qopub adi, normal insan olmalıyam!

Evdən çıxıb parka gedirəm. Tənha bir guşədə oturub kəndimizi düşünürəm. Bu gün mayın 1-dir. Kim bilir, oralarda bağçalar indi necə al-əlvandır. Hər halda yaşıllıqlar içindəki evləri uzaqdan seçmək çətin olar. Yəqin oralara axşam düşməkdədir. Günəş yaylaların arxasında yoxa çıxdı. Yayda kənd camaatı axşam yeməklərini evin qarşısındakı yaşıl çardaqların altında yeyir. Gözlərim qapalı halda o evləri, o çardaqları görürəm, o yerləri dolaşıram.

1943-cü ilin yayında atam Ağməsciddən kəndə köçdü. O, köçməzdən öncə mən əynimdə alman hərbi forması Krıma, məzuniyyətə getmişdim. İndi zavallı nə edir? Ruslar həbsəmi atdılar, əcəba? Həbsdəsə çətin davam gərirər. Yəqin ki, ölüb. Ya zavallı anam? Haralardadır görəsən?

Yenə başım ağrıyr. Həyatdan əl üzüb qaçmaq istəyirəm. Hara? Hansı tərəfə? Hansı tərəfə olursa olsun, təki burada olmayım. Yaşaya bilmirəm burada. Mən o köhnə Sadıq deyiləm. Mənə nə olur, ya Rəbbim?

Önümdən sarışın, üzləri boyalı iki italyan qızı iki amerikan zəncisinin qolunda qəhqəhə ilə gülərək keçirlər. Roma sükut içində onların qəhqəhələrini dinləyir. Düşünürəm: ey gidi, ey böyük, bəyaz mərmər Roma! Səninlə birlikdə bütün həyat da onların ayaqları altındadır! Birinin itirdiyini başqası tapır və sevinir. Fəqət sən əsirlərin ağlamadan iztirabını içlərində saxladıqlarını bilirsən. Mən də ağlamamalıyam. Mən də sənin kimi məğrur görünüşlü

olmalıyam. Çünki mən itirmədim. Qanımı axıdıb sonra düşmənlərə təslim etdim o yaşıl yurdu.

Axşam düşür. Küçələr qaranlıqlaşır. Restoranların açıq pəncərələrindən ətrafa musiqi sədaları yayılır. Otelimə dönmək üçün yerimdən qalxıram. V.Emmanuelin heykəlinə yaxınlaşanda geniş küçə boyu daşqın sel kimi qarşıdan axıb gələn insan izdihamı görürəm. Titrəyirəm. Səbəbi isə yəqin budur: İki gün öncə kinoya getmişdim. Harri Koperin bir filminin nümayişindən əvvəl Belsen hərbi əsir düşərgəsini bütün faciələri ilə göz önünə gətirən sənədli film göstərdilər. Ekranda bir dəri, bir sümük olan minlərlə insanı ölümün astanasında gördüyüm zaman duyduğum qorxunun şiddətindən başımı az qala skamyanın altına soxmaq istədim Yanımda oturmuş şişman bir italyan mızıldanıb nəsə dedi. Hər halda, məni söydü. İndi bu anlarda da üstümə gələn insan selini bir anlığa Belsen hərbi əsir düşərgəsinin tikanlı məftillərinin arxasından çıxmış minlərcə dərisi sallanan skeletlər kimi görürəm.

Qorxunun təsirindən heykələ aparan pilləkənlərə çıxdım. Önümdən çay kimi axan insan seli "Yaşasın Sovet İttifaqı! Yaşasın Stalin!" – deyə bağıraraq keçdi. Daş pillələrdən aşağı endim. Başım yorğun, içim boş daldabucaq otelimə döndüm.

Bu axşam xatirələrimi yaza bilmirəm. Sabah necə olacaq?

Ortaboy, enlikürək, qırmızı sifətli, mavi gözlü, kirpikləri, qaşları, saçları yetişmiş buğda zəmisi kimi sapsarı Qrişa Kalaçov. Aluştalı balıqçı idi. Soyadı ilə fəxr edirdi.

– Nə bilirsən, – deyirdi, – bəlkə damarlarımda bir damla da olsa tatar qanı axır. Boş yerə bizə Kalaç deməzdilər axı!

Süleymandan, digər krımlı gənclərdən ayrılandan sonra bu sarı saçlı rus balası üçün qəlbimdə haradan peyda olduğunu anlamadığım səmimi duyğular aşkara çıxdı. Onun hiylədən uzaq sarı gözlərinə baxdıqca sevgimin ürəkdən gəldiyini hiss etməyə başladım. Özündən heç danışmazdı. Çox sadə insandı. Yanına getdiyim zaman dərhal ayağa qalxar, qırmızı üzü bir az daha qızarır, bütün rəftarı, görünüşü ilə mənimlə dost olduğunu göstərməyə çalışırdı.

– Otur, Qrişa, otur, – deyirdim. – İkimiz də Krımlıyıq. Dost olacağıq.

Otururdu və başını əlləri arasına alıb:

– Ee, Aluşta, Aluşta dərdi... Bu müharibə kimə lazım idi? Sənə lazım idi? Mənə lazım idi? Müharibə olmaz, mən Aluştada oturur, balıq tutar. Sən də Krımda oturur. Müharibənin sənə, mənə nə lazımı var, komandir yoldaş?

– Doğrudur, doğrudur, Qrişa, – deyirdim. – Amma vətəni müdafiə etməliyik.

– Mənim, sənin vətən Krım. Nə olur, nə olmaz, Aluştaya gedəcəyəm.

– Bəs Krım? Almanlar Krımı tutsalar, nə edəcəksən, Qrişa?

– Fərqi yox, komandir yoldaş. Germanlar da yaxşı pəzəvəng, bizim ruslar da...

– Bunu başqalarının yanında demə haa! Yoxsa səni türməyə basarlar.

– Söyləməz mən, korxma. Amma sənə söylər. Səni tanıyıram mən. Amma nədən qorxacaq? Mən də yok krımlı?

Bu qəribə tatarcası sayəsində Qrişanı getdikcə qəlbimə daha yaxın bilirdim.

Akkermandan çıxandan bir həftə sonra Qərbi Ukraynanın kəndlərindən birində qatardan endik. Küləş damlı evlərin kölgəsində yatan üzləri tüklü, yorğun, paltarları toz-torpağa batmış əsgərlər, bağçalarda Qırmızı Xaç avtomobilləri, nizam-intizam gözləmədən çeşmələrdə atlarını suvaran süvarilər, kəndli arabalarında yatan yaralı əsgərlər, qan-tər içində qərargahdan komandanlığa qaçan zabitlər artıq Qərb cəbhəsindəki ordu hissələrinin tərkibində olduğumuzu göstərirdi.

Əsgərlərimiz tankları vaqondan endirəndə kəndin o biri başındakı komandan çadırına getdim. Evlər, yollar, bağçalar – hər yer əsgərlərlə doluydu. Hər yerdə Süleymanı axtardım, heç yerdə tapa bilmədim. Komandanın çadırı sanki yüksək rütbəli zabitlərin işğalına uğramışdı. İçəridən çıxan bir zabit:

– Sadıq Turan sənsən? – deyə soruşdu.

– Mənəm.

– Lap vaxtında gəlmisən. Diviziya komandiri səni görmək istəyir.

Çadıra girib komandirin qarşısında dayandım.

– Tank bölüyü komandiri leytenant Sadıq Turan əmrinizlə gəlmişdir, yoldaş diviziya komandiri!

Diviziya komandiri uca boylu, öküz buynuzları kimi ağ, burma bığlı, meşə ağacı kimi sağlam, sərt görünüşlü, amma xasiyyətcə çox da sərt olmayan bir rus idi. Komandası altındakı rütbəcə özündən kiçik zabitlərin əllərini sıxmaqdan xoşlanırdı. Deyəsən, müharibə də adətini unutdurmamışdı. Odur ki, mənim də əlimi sıxdı.

– Bölükdə neçə tank var, Turan?

– Səkkiz, yoldaş komandan.

– Hamısı B-27-dir?

– Elədir ki, var, yoldaş komandan.

– Bunlar müharibə üçün bir az yüngül tanklar deyilmi?

– Elədir ki, var, yoldaş komandan.

– Bilirəm, yüngüldür. Amma başqa çarəmiz yoxdur.

Üzüntü dolu baxışlarını o biri yüksək rütbəli komandirlərə tərəf çevirdi. Bir-birlərinin üzünə baxdılar.

– General Maksimenkoya bundan başqa bir yardım edə bilmirəm. Fikrimcə, bütün hərbi hissə ilə Kotovsk-Balta cəbhəsinə, Maksimenkonun köməyinə getmək Krasnoeni şərqdən irəliləyən alman diviziyalarının sağ qanadı qarşısında müdafiəsiz buraxmaq deməkdir. Bu da böyük məsuliyyətdir.

– Maksimenko iki gündür tanksız, topsuz, yalnız tüfənglə, süngüylə düşmənin qabağında dayanıbmış.

– İki gün deyil, bir həftə duruş gətirsə də, bütün qüvvələrimizlə yardımına yetişsək də Balta ilə Kotovsk arasındakı alman oldusunun onurğa sütununun qırılmayacağına əminəm.

– Buq xəttində cəbhə yarılıbmı?

– Bəlkə Buq xəttində yarılmayıb, geriləmə isə var. Krasnoenin təbii müdafiə xətti hücumun qarşısını ala bilməz, amma Maksimenkonu Kotovsk-Balta qısqacından qurtarmaqda işə yaraya bilər. Düşmən diviziyaları Krasnoeni buraxıb Voznesenskə doğru irəliləməyəcəkdir. Maksimenkoya isə...

Zabitlər mərmi qutuları üzərinə sərilmiş xəritəyə tərəf əyildilər. Uzun müddət Maksimenko və Krasnoenin müdafiəsi haqda danışdılar. Nəhayət, komandan qəddini düzəldib məni yanına çağırdı.

– Tanklarının yanında ol, Turan! Heç kim də maşınlardan uzaqlaşmasın. Əmrimi gözləyin!

– Baş üstə, yoldaş komandan!

Çadırdan çıxıb tanklar olan yerə döndüm. Ertəsi gün Süleymanın bütün topçuları və alayın politruku İvan Aleksandroviç Şişkovla birlikdə Voznesenskdən çıxıb Krasnoeyə tərəf irəlilədiklərini öyrəndim. Sentyabrın 1-də səhər tezdən səkkiz tankla Kotovsk-Balta cəbhəsinə yollanmaq əmri aldım. Dərhal hərəkət etdik. Bütün günü tam sükut içində yol gedirdik. Kəndlər boş və səssizdi. Həyat sanki torpağın altına çəkilmişdi. Ətrafda heyvanlar da gözə dəymirdi. Yalnız axşama yaxın sağ-solumuzdan böyük sürətlə hərbi yük maşınları keçməyə başladı. Maşınlardakı əsgər və zabitlərdən bəziləri əl-qol hərəkətləri ilə bizə hansısa xəbərlər çatdırmağa çalışırdılar. Bəzi əl hərəkətlərinin mənası “Geri çəkilin” anlamına gəlirdi. Biz isə durmadan irəli gedirdik. Tankın qülləsində tək dayanmışdım. Yolda hərəkət tədricən artmağa başlamışdı. Yanımızdan yük maşınlarından sonra top arabaları, piyada əsgərlər, kəndli arabalarında zabitlər, arıq, saqqal basmış, tüfəngsiz, başları ağ, qanı üstə çıxmış bezlərlə sarıqlı əsgərlər, arabir isə süvarilər keçirdi. Aralarından bəziləri tanklarımıza baxıb başlarını bulayırdılar. Bəziləri də zarafatla “Berlinə gedirsiniz?” deyə bağırırdılar.

Yarım saatdan sonra yol iynə atsan yerə düşməyəcək bir hala gəldi. İnsan, at, araba qələbəliyi məcrasından çıxmış çay kimi gurultu və hayqırtılar içində tanklarımızın yanından sürünüb geriyə, Krasnoe istiqamətinə çəkilirdi. Tankları ovalıqlara salıb yolumuza davam etdik. Uzaqlarda, qapısı qapalı evlərdə çalınan təbil səslərini xatırladan top atəşləri eşidilirdi. Dayandıq. Önümüzdə böyük bir meşə vardı. Top gurultuları bəzən sağdan, bəzən soldan gəlib meşənin bağrından qopan yanğınlara qarışaraq yenə də haradasa dərinlərdə batıb boğulurdu. Arxamdakı yeddi tankın qülləsindən əsgərlər şaşqın-şaşqın mənə baxırdılar.

– Starşina Vasilyev! Yanıma!

– Starşina Vasilyev! Komandirin yanına!

– Starşina Vasilyev! Komandirin yanına!

Ən geridəki tank guruldadı. İki dəqiqədən sonra starşina Vasilyevin tankı mənim tankımla yan-yana dayanmışdı.

– Starşina Vasilyev!

– Əmrinizə hazıram, yoldaş komandir!

Meşənin arxasından top guruldadı. Solda, küləş damlı evlərdən birinin yanındakı qamışlıqdan bir dəstə qaz-ördək təpənin arxasına tərəf uçdu. Vasilyev:

– Bu dəfə bir az yaxına düşdü, – dedi.

– Təxminən nə qədər yaxına?

– Beş verst, bəlkə də dörd verst olar, yoldaş komandir! Elə bil düşmənin ağzına soxuluruq. Bəlkə biz də geri çəkilənlərə qoşulsaq...

– Səni təklif vermək üçün çağırmadım.

– Elədir ki, var, yoldaş komandir.

– Tankını sür. İrəlidəki beş yüz metrəyə qədərki məsafəyə diqqət yetir. Nə görsən, mənə məruzə edərsən.

– Oldu, yoldaş komandir!

Vasilyevin tankı yenə gurultu qopardı. Tankın motor səsi və gənc Vasilyevin gözlərindəki sadəlik içimə hopdu.

– Ey, Vasilyev! Ölümdən qorxursan?

Amma tankın gurultusundan səsim ona yaxşı çatmırdı.

– Eşitmədim, yoldaş komandir!

– Ölümdən qorxursan?

– Ölümdən?

– Qorxursan?

– İnsan bir dəfə doğulur, bir dəfə ölür. Ya indi, ya sonra... Nə fərqi var?

– Onda ölmədən öncə al bir siqaret yandır. Məni pis adam sayma ha!

Tankın qülləsinə bir qutu siqaret atdım. Vasilyev havada tutub cibinə qoydu.

– Təşəkkü edirəm, yoldaş komandir.

– Dedim ki, bir dənəsin çək!

Yanımda Qrişa ilə topçu qəhqəhə ilə güldülər.

– Buna da şükür!

Qutunun içindən bir papiros götürüb təkrar mənə atdı.

– Uğur olsun!

Ətrafa xəfif qaranlıq çökürdü. Top atəşləri birdən kəsildi. Arxadakı tanklar biri-birindən on-on beş metr ara ilə ağır-ağır irəliləyirdi. Mən yenə tankın qülləsində dayanmışdım. Yarım saata qədər bu şəkildə getdik. Sağda, solda, önümüzdə üfüqün qırmızı rənginə qarışan qara dumanlar ucalırdı. Sanki müharibə qarşıdan bütün dəhşəti ilə üstümüzə gəlirdi.

Aşağıdan Qrişanın səsi eşidildi:

– Komandir!

– Nə var, Qrişa? – deyib qüllədən aşağı endim. Qulaqlığı mənə uzatdı:

– Starşina Vasilyevdir, – dedi.

Qulaqlığı alıb taxdım. Vasilyevin nazik səsi kəsik-kəsik gəlirdi.

– Alo! Alo! Qarşıdakı meşədə düşmən qüvvələri var. Qəbul! Qəbul!

– Dinləyirəm. Alo?

Səs anidən eşidilməz oldu.

– Vasilyev! Vasilyev!

Qulaqlarımda Vasilyevin səsi deyil, mənə heç nə deməyən davamlı bir gurultu səslənməkdə idi.

– Qrişa! Tankı sağa çək! Qamışlığın gerisindəki təpə...

Sözümü bitirmədən sanki bir yanardağ partladı. Heç unutmadığım bir şey. Başım Qrişanın dizində ikən gözümün önündə dalğalanan rəngli kölgələr arasında mənə baxan yaşıl, atəş kimi gözlərini gördüm. Özümə gəldiyim vaxt tankın motoru üzümə dumanqarışıq alovlu rüzgar püskürürdü. Qrişa motorun qapağını açmışdı. Bədəninin yarısı bayırda qalmış halda qışqırırdı:

– Qaç, yoldaş leytenant! Qalma orda, qaç!

Tankdan çıxdım. Təxminən yüz metr aralanıb saralmış zəminin içindəki digər tanklarımıza baxdım. Alman topçuları yarım saat ərzində yeddi tankımızı atəş altında saxladılar. Tədricən atışlar seyrəldi. Ara-sıra yaxınlığımızda mərmi partlayırdı. Qrişa sürünə-sürünə yanıma gəldi.

– Sən vuruldu, yoldaş leytenant, – dedi. – Çox vuruldu?

– Yox, Qrişa.

Yanağımı göstərdi:

– Bax, qan var bura.

Əlimi üzümə çəkdim. Necə olduğunu bilmədiyim, ağrısını hiss etmədiyim bir yara idi. Müharibənin ilk acı öpüşü – deyə düşünüb qanlı əlimi şalvarına sildim. Qrişa yenə qəribə nəzərlərlə üzümə baxıb:

– Sən çox yaralandı. Sən az qaldı öləcək, – dedi.

– Bir şey deyil, Qrişa. Belə yaradan adam ölməz. Bizdən başqa qurtaran varmı?

– Var ya... İki orada, üç orada. Yaralı var, yok... mən bilməz. Tankdan çıxmadı, hamısı öldü.

Yarım saat sonra starşina Vasilyev sürünə-sürünə yanımıza gəldi. Qaşlarının, kirpiklərinin ütülməsinə, üz-gözünün palçıq və qan içində olmasına baxmayaraq gülürdü. Yanan tankın içindən necə çıxdığını özü də bilmirdi.

– Məni Allah qurtardı, komandir, – dedi. – Atəşin içindən də insan salamat çıxarmı? Amma mən çıxdım. Bundan sonra yanımda “Allah yoxdur” deyənin başını əzəcəyəm.

Bir saat sonra xurd-xəşil olmuş tanklarımızı qoyub iyirmi yeddi tankçıdan sağ qalan yeddi nəfərlə geri çəkilən ordu hissələrinə qoşulduq.

Bu səkkiz tankla məni niyə düşmən toplarının ağzına atdılar? Aldığım əmrə görə qırxıncı kilometrdə, Kotovsk-Balta arasında mövqe tutan general Maksimenkonun diviziyasına qoşulmalı idik. Alman topçuları bizi altıncı kilometrdə darmadağın etdilər. Bəs Maksimenkonun ordusu harada idi? Başlarına nə gəldi? Bilmirəm.

Səhər olsa da, günəş yandırıb-yaxırdı. Krasnoeyə gedirik. Hələ bir neçə gün öncə buralarda həyat qaynayırdı. İndi evlər boş, səssiz idi. Həyətlərdə paslı bellər, araba təkərləri görünürdü. Atrıq kimsənin girib-çıxmadığı həyət qapıları açıq qalmışdı.

Bir bağça hasarının yanında ağ, çirkli köpək qulaqlarını şəkləyib keçmiş sahiblərini tanıyırmış kimi, quyruğunu oynadaraq bizə baxırdı. Starşina Vasilyev yanımda idi. Qara saqqalı, iri bığları arasında daha incə görünən dodağını bir az da nəzərə çarpdıraraq gülür.

– Tanklarımız vurulmasaydı, bu iti özümlə götürərdim, – deyir. – Artıq piyada əsgər olacağıq. Piyadanın çəkdiyi zülmü it də çəkə bilməz.

Sarışın Qrişa isə ümidsiz deyil.

– Nə bilirsən? Bəlkə yetmiş tonluqlar olacaq?

– İştahanı bol elə. Yetmiş tonluqlar gələnə qədər almanlar bizi sağ buraxsalar, piyadaların qismətinə şükür edərik.

Qrişa yanımdadır. Palçıq və lehməyə batmış üzündə yalnız yaşıl gözləri ilə qırmızı dodaqları görünür. Yanımdan ayrılmır. Geri qalmamaq üçün arasıra qaçdığı vaxtlar da olur. Ağzında yandırılmamış papiros tutub. Heç birimizdə kibrit yoxdur. Papirosu bir saatdır ki, dodaqlarının arasında qalıb. Axırda yarısını çeynəyib yerə tüpürür, o biri yarısını isə dodaqları arasında oynadaraq:

– Od tapıb siqaretimi yandırmayınca, bir udum tüstü udmayınca, rahatlıq tapa bilməyəcəyəm, – deyirdi.

O yandan starşina Vasilyev səslənir:

– Ağlına öküz bağlayım. İki dəqiqə əvvəl atəşin içindəydin, niyə papirosunu yandırmadın, ay hərif? Atəş lazımdırsa, almanların yanına get. Onlar sənə yaxşı od qoyarlar.

– Rus ağlıdır bu, starşina. Torpağımız çoxdur, çörəyimiz yoxdur. Əsgərimiz var, tankımız yoxdur. Papirosumuz var, kibrimiz yoxdur. Hər şey olsaydı, daha Rusiya Rusiya olmazdı ki...

Uşaqlar ilk atəş və barıt qoxusundan sonra sərbəstcə danışmağa cəsarət edirlər. İki həftə öncə kimin ağzından belə söz çıxa bilərdi? Deyəsən, savaş onların daxilindəki hürriyyət, şəxsi azadlıq hisslərini oyandırıb. Özümü elə aparıram ki, sanki dediklərini eşitmirəm. Amma daxilən sevinirəm. Mənim ürəyimin də belə açıqlığa ehtiyacı var. Kim bilir, bəlkə bu müharibə bizə daha yaxşı günlər gətirəcək. Sağda, solda, bağçalarda kiçik əsgər kümələrinə rast gəlmək olur. Ağacların altında üstü qol-budaqla örtülmüş toplar dayanıb. Orada-burada səyyar mətbəx arabaları tüstülənir. Bağçaların arxasında təpədə əsgərlər səngər qazırlar. Bəzən hərbi yük maşınları arxalarınca toz dumanı buraxıb yanımızdan ötür. Deyən, bizim hissələrə yaxınlaşırıq. Qarşımızdakı bağçadan səkkiz-on nəfər çıxdı. Hamısının saqqalı bir qarış, paltarları cırıq-cındır, hamısı arıq, zəif, acınacaqlı vəziyyətdə. Addımlarını güclə atırlar. Kim olduqlarını bilmirəm, amma sovet əsgərinə bənzəmirlər. Əlləri arxadan iplə bəpk-bərk bağlanıb. Çoxunun ayaqları yalındır. Üzləri ölü bənizi kimi ağappaqdır. Amma hamısının gözlərində bir qürur oxunur. Önlərində, arxalarında əli tüfəngli NKVD əsgərləri addımlayır. Maraqlıdır. Yaxınlaşıb silahlı əsgərdən:

– 94-cü tank bölüyünün komandanlığı haradadır, yoldaş? – deyə soruşuram.

– Bu istiqamətdə yarım saat getmək lazımdır. Yolun solunda, bağçanın içindədir.

Əlləri arxalarında bağlanmış adamları göstərib:

– Bunlar kimdir? – deyə soruşuram.

– Əsir götürülmüş Polşa zabitləridir.

– Hara aparırsınız bunları?

Əsgər gülür. Çox çirkin gülüşü var.

– Qəssaba.

Ölümə aparıldıqlarını başa düşürəm. İçim sızıldayır.

– Günahları nədir ki?

Əsgər yenə gülür. Gülərkən hiyləgər baxışından, gözlərində bir anlıq çaxan şimşəkdən daxilini, içinin bütün vəhşiliyini anlayıram.

– Azmı gəbərtdik bunlardan? Günahlarını bilmək istəyirsən?

Artıq heç nə soruşmuram. Onlar bağçaya girib ağacların yaşıl budaqları arasında görünməz olurlar.

Adamlarımın yanına qayıdıram. Məndən nəsə soruşurlar. Nə dediklərini başa düşmürəm. Heç qulaq da asmıram. İçimdə bir acı var. Elə bir acı ki, bütün vücudumu sarıb, əqrəb kimi iynələrini beynimə uzadır. Vasilyevin, gənc Qrişanın yorğun və məsum üzlərinə baxıram. İstər-istəməz “Bu millət qəlbində xəyanət, nifrət hissi dünyaya gəlib”, – deyə düşünürəm.

Qabağa gedirik. Yarım saat sonra yolun sağındakı albalı bağına çatırıq. Çadırın önündə mayor rütbəli politruk dayanıb. Şişman üzü günəşdən yanıb, bağırmaqdan ağzının köpükləri dodaqlarının kənarında quruyub... Görünüşümüzdən cəhbədən gəldiyimizi anlayır, bizdən gözlərini çəkmir. Məni təpədən dırnağa, ciddi nəzərlərlə süzür. Durub yenə baxır və birdən qollarını açaraq üstümə cumur:

– Sadıq Turan! Sadlq Turan!

İvan Aleksandroviç Şişkov boynuma sarılır. Müharibənin bu acı günlərində tanış üzə ehtiyac var, şəksiz. Şişkovun məni belə sevinclə qarşılamasından xoşlanıram.

Boy-buxun, gövdə eyni ilə yerindədir. Gözlərindən həm sevinc, həm acı oxunur. Sol əli ilə kəmərə taxılmış qobursuz tapançanı sıxır, sağ əlini çiynimə qoyur.

– Kırımçik! Kırımcik! Səni o tanklarınla nahaq yerə almanların üstünə göndərdilər. Amma sağ-salamat qurtaracağına əmin idim.

– Hamımız xilas ola bilmədik, yoldaş politruk.

– Eybi yox. Ölümsüz savaş olmur. Haydı, gedək çadırıma. Burada üzünü yaxşı görə bilmirəm.

Çadırın önündə dayanmış əsgərə tərəf döndü.

– Mitka! Leytenanta su gətir. Tez ol!

Ətrafdakı gilas ağaclarının kölgəsində uzanmış əsgərlər bizə maraqla baxırlar. Çadıra giririk. Mitka su gətirir və Akkermandan çıxandan bəri ilk dəfə əl-üzümü sabunla yuyuram.

Şişkov:

– Acmısan? – deyə soruşur.

Mitkanın əlində tutduğu taxta sinidəki soyutma toyuğa baxıram.

– Acmışammı? Xəstənin kefini soruşursunuz?

Mərmi sandığının üstündə oturub soyutma toyuğu yediyimiz vaxt Şişkov uzunboğaz çəkmələrinin ucuna baxıb nə barədəsə düşünürdü.

– Mən indi əsgərsiz, tanksız nə edəcəyəm, yoldaş komissar?

Dost olduğumuzu göstərmək istəyən bir tərzdə danışırdı mənimlə.

– Bax. Mən səni də, Süleymanı da çox yaxşı zabit kimi tanıyıram. Odessa hərbi məktəbində sizə böyük ümidlərim vardı. Diviziya komandirinin də sizə inamı böyükdür. Sıralarımızda sənin kimi, Süleyman kimi zabitlər olduğu halda nə partiyanın, nə də hökumətin yanında üzümüz qızarmaz.

Başını önünə əyib tüfənginə baxır:

– Sərhəddən bəri alman yumruğu yedik. Amma bura artıq sondur. Krasnoe son nöqtədir, Turan. Krasnoedə də dayana bilməsək, güllələri bir-birimizin başına sıxmalıyıq. Dneprdən geri çəkilən iki böyük ordu var, Turan! İki ordunun varlığı bizim əlimizdədir.

Şişkov bu sözləri deyərkən mən içimdə:

– Allah imkan verə iki həftəyə almanlar Moskvaya girələr, – deyə düşünürəm.

Şişkov ayağa qalxır. Bir əlini tapançasından çəkmədən otaqda o baş-bu başa gedib-gəlir.

– Süleymandan nə xəbər var?

– Eyni sualı mən də sizə vermək istəyirdim, yoldaş politruk. Süleymanı sonuncu dəfə Akkermanda gördüm. Voznesenskdə bir yerdə olubmuşsunuz.

– Gəl, sənə bir şey göstərəcəyəm.

Çadırdan çıxırıq. Politruk Şişkovun avtomobilinə minib kənd bağları arasındakı tozlu, çala-çuxur yolla irəliləyirik. Hər yer əsgərlərlə doludur. Hər tərəfdə hərəkət, bağırtı, gurultu var. Şişkov ətrafdakı hazırlığa, mən Şişkovun sifətinə baxıram. Üzü çox kədərlidir. Ağməsciddə ikən gözlərinin dərinliyində gördüyüm o gizli məqsədi artıq içində tuta bilmir. Bu səbəbdən də ara-sıra özünü qorxuya qapdırmış kimi bir hal alır. Kotovsk-Balta arasında mövqe tutan general Maksimenkodan söz açmaq istəyirəm. Maksimenkonun adını çəkəndə sanki içindəki yaraya toxunmuş kimi oluram. Çənəsini qaşıyır, qırmızı alnında barmaq yoğunluğunda damar qabarır. Dişlərini biri-birinə sıxıb:

– Maksimenko! Maksimenko! – deyir. – Yüz əlli min əsgərlə almanların tərəfinə keçdi. Vətən xaini. Onun kimilərini almanların arasında deyil, yerin altında da olsa tapıb üzə çıxaracaq və cəzasını verəcəyik.

Gülmək istəyirəm. Generallar düşmən tərəfə keçir, əsgərlər komissarlarla lağlağı edirlər. Starşina Vasilyev, Qrişa kimilərləmi müharibə edəcəyik? Hələ bir əllərinə fürsət düşsün! Onlar da qaçacaqlar. Gülmək, Şişkova baxıb qəhqəhə çəkmək istəyirəm. Budur, nə zamandan bəri bizləri qorxu altında saxlayan bolşevik hakimiyyəti gözlərimizin önündə çökür.

Krasnoedən çıxırıq. Asfalt yoldayıq. İki təpənin arasında durur və avtomobili sol tərəfdəki təpənin ətəyində, kolların arasında qoyub üzü yuxarı qalxırıq. Otsuz-ələfsiz, çılpaq təpədir. Aşağıda yaşıllıq, onun alt tərəfində də qamışlıq var. Qamışlığın ətəyindən axan sakit, suyu yaşıla çalan çayın o biri tayında əkin sahəsi uzanır. Zəmilər saralıb. Qızılı sünbüllər xəfif rüzgarın əsməsi ilə canlıylarmış kimi tərpənirlər. İki kilometrə qədər uzanan tarla qarşı tərəfdə meşəyə dirənir. Sağdakı asfalt şosse günəşin şüaları altında buz bağlamış çay kimi bərq vurur. Tarlanın sol tərəfində irili-xırdalı təpələr görünür. Sıralanan təpələr diz üstə çöküb dinlənən dəvə karvanı kimi düz meşəyə qədər uzanır. Şişkov təpələrdən o tərəfə baxır.

– Üçüncü təpəni görürsən?

– Görürəm.

– Süleyman topçuları ilə o təpənin arxasındadır.

– Düşmənin hücumunu hansı tərəfdən gözləyirik?

– Hava kəşfiyyatının verdiyi xəbərə görə, almanların hərbi qüvvələri qarşıdakı meşədə toplanır. Dünən qərara aldıq ki, Süleyman öz topçuları ilə o təpənin arxasında mövqe tutsun.

Ortaya uzun bir səssizlik çökür. Şişkov:

– Sən nə deyirsən? – deyə fikrimlə maraqlanır.

– Krasnoedən çox uzaq, meşəyə çox yaxındır. Biz dayandığımız yerdə mövqe tutmaq daha yaxşı olmazdımı?

– Şoseyə yaxın olması səbəbindən diviziya komandiri də, mən də buranı daha təhlükəli sayırıq. Süleymanın mövqe tutduğu təpə ilə meşənin arasında bir kilometrdən çox məsafə var. Sonra düşməni üç saatdan çox atəş altında saxlamağa imkan verən sursata malikdir. Zəmi də əl içi kimi dümsüzdür. Solda Süleyman, Krasnoenin civarında bizimkilər – o meşədən bir alman da burnunu göstərə bilməz, Turan. Çıxsalar, çıxsalar meşənin önündəki yüksəkliyə qədər çıxa bilərlər. Yüksəkliyin arxasından isə başlarını da qaldıra bilməzlər. Ağıllarını o qədər də itirməyiblər. Zəmiyə girmələrinə, ya da Krasnoeyə hücum etmələrinə inanmıran. Hücum fikrinə düşsələr, lap yaxşı! Ot kimi biçərik. `Məqsəd düşməni bir həftə meşənin içində saxlamaq, sonra da Buq haqqında... Əminəm ki, o vaxta qədər ağır tanklarımız da gəlib çıxacaq. Bizə tank lazımdır, amma səninkilər kimi yox, T-34-lər, yetmiş tonluqlar.

Avtomobilə oturub geri, komandanlığa qayıdırıq. Yastı-yapalaq, küləş damlı evin qabağında qələbəlik var. Qan-tər basmış zabitlər içəri girib-çıxırlar. Yalnız yaralı zabitlər səssiz halda uzanıb. Onlar savaşın bütün dəhşətlərini yaşayıblar. Dünyadan və həyatdan əl üzmüş insanlar kimi səssizcə papiroslarını sümürürlər. Evə keçirik. Yüksək rütbəli zabitlər xəritə önündə dayanıblar. Əllərində qələmləri yavaş səslə nə haqdasa danışırlar. Sağda, divarın yanında sursat sandıqlarının üstündə telefon aparatı var. İki əsgər fasiləsiz olaraq telefonlardan xəbər alıb çatdırırlar.

Komissar Şişkov telefona tərəf gedir. Mən qapının yanında dayanıb ona baxıram. Az keçməmiş, əli ilə işarə edib yanına çağırır. Yaxınlaşıram. Telefonun dəstəyini uzadır.

– Süleyman xətdədir, səninlə danışmaq istəyir, – deyir.

Dəstəyi Şişkovdan alıb qulağıma tuturam. Uzaqdan Süleymanın dostanə səsi gəlir. Şişkov yanımda dayanıb gözlərini çəkmədən baxır. Onun baxışları arxasında yenə də hansısa bir niyyətin gizləndiyini sezirəm.

– Bağışlayın, yoldaş politruk, Süleyman ana dilimizdə danışır.

Şişkov gülüb:

– Qovori, qovori, – deyir və xəritəyə baxan zabitlərin yanına gedir.

Telefonda Süleymanın səsi az qala qulağımı deşir.

– Sənsən, Sadıq? Niyə səndən xəbər yoxdur?

– Mənəm. Necəsən, Süleyman? Yurddaşlarımız necədir?

– Yaxşıdırlar. Hamısı yanımdadırlar. Səndən danışırlar.

– Dünən tanklarımız almanların atəşi altına düşdü. Yəqin politruk sənə dedi. Yeddi tankçı ilə qərargaha qayıtdım.

– Ay səni! Fərsizin bir fərsiz! Politruk danışdı. Amma səni həbs etməyəcəkmiş. Çünki yaxşı zabitsənmiş. Günahı səndə yox, səni bu vəziyyətdə düşmən qarşısına göndərənlərdə görür. Səbəbini bilmirəm, nədənsə son vaxtlar politruk Şişkov səninlə çox maraqlanır.

– Eləmi?

– Elədir, şair əfəndi.

– Şair haradan çıxdı?

– Bizim gənclər Akkermanda mənə verdiyin dil dərsindən sonra adını şair qoyublar.

– Süleyman, dayandığın yerin düşmənə çox yaxın olduğunu bilməmiş deyilsən. Sayıq ol!

– Qorxma. Qoy bir atəş əmri verilsin! Meşəni içindəki almanlar qarışıq yerlə bir eləyəcəm. Yaxşı, daha mən getməliyəm.

Xəritəyə baxan komandirlər otaqdan bir-bir çıxdılar. Şişkova yaxınlaşdım, yenə birlikdə bağçaya üz tutduq.

Axşam düşürdü. Ətrafa yavaş-yavaş səssiz qaranlıqlar çökürdü. Yol kənarında ağacların altında piyada əsgərlər sevgililərini qoyunlarına alıblarmış kimi, tüfənglərini qollarının arasında sıxıb yerə uzanmışdılar. Sabahı düşünürdülər.

O gecə politruk Şişkovun çadırında yatdım. Məni yuxudan oyadanda hələ dan sökülməmişdi. Şişkov çadırdan çıxdı, bir azdan yenə qayıtdı. Pşıçıltı ilə:

– Təyyarə uçur, eşidirsənmi?– deyə soruşdu.

– Eşidirəm.

Krasnoe səmasındakı təyyarələrin uğultusu sanki ürəyimizə sancılırdı. Şişkov susub dinləyirdi. O səslərdə öz gələcəyini görür, gələcəyi ilə həsbi-hal edir, bəlkə də için-için ağlayırdı. Mən də sakitcə Şişkova baxıram. Danışmıram. Siqaretin birini söndürüb o birini yandırır. Siqaret fikrindən keçənləri başa düşən kimiyəm. Həm də fikirlərinin mənim düşüncələrəimə nə qədər zidd olduğunu anlayıram. Çalışıram Şişkova baxmayım. Çadırda bir yerdə olmağımıza əsəbiləşirəm. Biz başqa-başqa insanlarıq. Başqa mayadan, başqa qan-

dan. Bir-birimizlə qaynayıb-qarışa bilmərik. Niyə eyni çadırdayıq? Süleymanın yanımda olmasını elə istəyirəm ki! Şişkov hələ də siqaretini sümürür. Krasnoe səmalarında hələ də təyyarələr uğuldayır. Gözlərimi qapayıram və başında çərkəz papağı ilə Bəkiri, beli bükülmüş olmuş atamı, bürüşük yanaqlarından göz yaşları süzülən anamı görürəm. Kənd bağçalarında, çayırlıqlarda, cənnət kimi bağlarımızda, bostanlarımızda gəzirəm. Məni yaşadan da bu xəyallardır. Məni ayaqda tutan, hətta indiki şərtlər içində də həyata bağlayan bunlardır, Şişkov! Bunları içimdən, qəlbimdən sök, al, ayaqlar altına at... O zaman mən cansız, duyğusuz bir heçliyə çevrilərəm. Lazımsız bir varlıq olaram.

Krasnoenin bağçaları arxasından qıpqırmızı günəş görünür. Şişkov çadırın qapısını açıq qoyaraq gedib. Onun getməsinə az da olsa, sevinirəm. Hələ də kəndimizin xəyalı içindəyəm. Parlaq siniyə oxşayan günəşə baxıb kənddə ikən heyvanları naxıra qoşmaq üçün apardığım vaxtlar Ayı Dağının arxasında, mavi göydə yüksələn Krım günəşini xatırlayıram. Günəş hər yerdə eynidir. Amma o günəşim aydınlatdığı torpağın isinməsi başqa, nəfəs alması bir başqadır. İvan Aleksandroviç Şişkov çadıra qayıdır. Qəhrəman kimi baxmağa çalışır, amma o baxışlarda da bir qorxu var.

– Neçə əsgərlə geri döndün, Turan?

– Yeddi.

– Haradadırlar?

– Bağçada.

O biri tərəfdə düzülmüş silahlara işarə edir.

– Onlara silah ver, axşamkı təpəyə gedirik. Bir saat sonra bizim toplar atmağa başlayacaq.

Əsgərləri silahlandırıb təpəyə doğru yola çıxırıq. Krasnoenin küçələri boş və səssizdir. Həyat elə bil yerin altına çəkilib. Bağça kənarlarından, səngərlərdən tüfəng lülələri görünür. Bəzən evlərin talvarları altında bir dəstə əsgər gözə dəyib sonra yox olurlar. Qabaqda, təpələrin arxasında üstü yaşıl budaqlarla örtülmüş topların lülələri göyə tuşlanıb. Əsgərlər səngərdə, topların arxasında oturub gözləyir. Ətrafın səssizliyini ara-sıra motor gurultuları pozur. Bəzən qısa və sərt komanda səsləri eşidilir. Biz irəlilədikcə səssizlik daha da dərinləşir, qorxunc hal alır.. Krasnoenin səssizliyi mənə meşəni, əsgərlər isə meşədə biri-birini boğub-parçalamağa çalışan vəhşi heyvanları – aslanları, qaplanları, çaqqalları xatırladır.

Yarım saat sonra axşamkı təpədəyik. Şişkov saatına baxıb:

– Beş dəqiqəyə Süleymanın topları atəşə başlayacaq, – deyir və binoklu gözlərinə tutub arxasında əsgərlərimiz olan təpəyə baxır.

Üzüqoylu İvan Aleksandroviçin yanına uzanıram. Dəqiqələr saat kimi uzun çəkir. Hər saniyəsi insanın qəlbinə iynə kimi batan dəqiqələr... Təpəyə baxıram, gözlərim önünə Süleyman gəlir. Onun yanında olmaq istəyirəm. Özümü suçlu sayıram. Süleyman mənə həyatının sayılı dəqiqələri qalan bir insan kimi baxır. Nə üçün onun yanında deyiləm? Böyrümdə komissar Şişkov vəziyyətini dəyişmədən pıçıldayır.

– İndi Süleyman atəşə başlayacaq.

– Yalnız Süleymanmı?

– Yalnız Süleymanın topları olacaq.

– Bəs Krasnoe bağçalarındakı toplar?

– Məqsəd düşmən toplarının diqqətini Süleymanın toplarına yönəltmək, bu yolla da piyadalarımızın meşənin qarşısındakı yüksəklikləri tutmalarına imkan yaratmaqdır. Süleymanın topları ilə meşənin içindəki düşmən toplarının atışması yarım saat davam etsə, işimizi görə biləcəyik.

Bunu yaxşı başa düşürəm. Komissar Şişkovun məqsədini anlayıram. Binoklumu bir tərəfə qoyur, başımı səhər günəşi ilə yenicə isinən torpağa söykəyib dua edirəm.

– Allahım, Süleymanı qoru! Soydaşlarımı qoru, Allahım... Sən öz sadiq qullarını qoru!

Süleymanın topları atəşə başladı. Ətrafda bir cəhənnəm gurultusu qopdu.

Qaranlıq meşənin bağrından göyə rəngli dumanlar yüksəlir. Sonra vəhşi iniltilər. İniltiləri boğan gurultu. Üç-beş dəqiqədən sonra meşə yanardağ halına gəlir. Şişkov həyəcanla əlini çiyimə vurur:

– Bravo, Süleyman! Bravo, tatarin! Ay molodets, Süleyman!

Geridə, Krasnoenin ucqarlarında da pulemyotlar “musiqi” çalırdı.

– Tra-ta-ta! Trra-tata!... Pulemyotların bəzən qısa, bəzən uzun atışları zamanı səngərlərdəki piyadalar hücuma atılırdı. Meşənin hər yerindən alov püskürürdü. Səbəbsiz sevinirdim. Sağdan, soldan başlarını yerə əyib hücuma keçən əsgərlər saralmış taxıl zəmiləri arasında görünməz oldular. Meşə yaralı əjdaha kimi ulayır, canını qoymağa yer tapmayan heyvan kimi çırpınırdı.

Meşənin arxasından iki təyyarə havaya qalxıb Süleymanın toplarının olduğu təpəyə istiqamət götürür. Təyyarələrə baxırıq. Qəflətən Krasnoe tərəfə dönürlər. Krasnoenin üstündə dövrə vurub yenidən Süleymanın topları olan səmtə dönürlər. Təpənin üstündən uçarkən təyyarələrin biri qəfildən əvvəl yanı üstə çevrilir, sonra od tutub yanan əraziyə düşür. Dəhşətli partlayışın ardınca meşədən səmaya qara duman sütunu ucalır. Dumanın içindən qıvrıla-qıvrıla alov dilləri oynayır. Süleymanın topları bu uğuru alqışlayırmış kimi, daha şiddətli gurultu salırlar.

Düz yarım saat sonra təpəyə ilk alman mərmisi düşür. Binoklu gözlərindən çəkmədən hey meşəyə baxan İvan Aleksandroviç mızıldanır:

– Aha, almanlar cavab verdi, – deyir.

İki dəqiqə sonra təpənin arxasında ikinci mərmi partlayır. Şişkovla diqqət kəsilib Süleymanın vəziyyətini izləyirik. Üçüncü mərmi sol qanadı vurur. Bizim topların atəşi bir az səngiyir. Şişkov öz-özü ilə danışırmış kimi yavaşdan:

– Süleymanı qayçılamağa çalışırlar, köpəklər! – deyir.

Sözlərinin mənasını anlamaq istəyirəm. Üç-beş dəqiqə sonra təpənin gerisindən müdhiş atəş səsləri eşidilir, ardınca havaya duman pərdəsi yüksəlir. Bu, tez başlayıb tez bitən bir yanğın deyil. Şişkov:

– Bax, buna qayçı deyirlər, – deyə sanki mənə izahat verir.

Göyə atəş səsləri ilə bərabər, torpaq parçaları sovrulur. Qabağa baxıram. Şişkov öz-özünə danışırmış kimi davam edir:

– Süleymanın işi bitdi artıq. Oradan kimsə sağ çıxa bilməz!

– Heç bir çıxış yolu yoxdurmu, yoldaş komissar?

– Yox, heç nə etmək mümkün deyil, Turan.

İvan Aleksandroviç meşənin önündəki təpəni nişan verir.

– O təpəni görürsən?

Təpəyə baxıram.

– Bəli.

– Hesab edirəm ki, atəş təpənin arxasından açılır. Görünür, dümənin hücum artilleriyası orada yerləşdirilib. Onları susdurmaq üçün bütün taxıl zəmisinin içindən keçmək lazımdır. Əsas təpədən solda kiçik bir təpə də var. Görürsən?

– Bəli, görürəm.

– Düşmənin topları o təpədədir. Ora ilə aramız iki kilometrə yaxındır. Taxıl zəmilərinin içi ilə sürünə-sürünə iki kilometr gedə bilərsən?

Durbini gözlərimdən çəkib cavab verirəm:

– Çox təhlükəli, üstəlik də lüzumsuz işdir. Süleyman hələ atəş altındadır. Sağ çıxılmaz oradan.

Araya qısa sükut çökür. Qarşıda qara duman və toz-torpaq sütunları arxasında sanki qızarmış gözləri ilə mənə baxıb imdad diləyən Süleymanı görürəm. Əllərim, ayaqlarım titrəyir. Qorxuram. Özüm üçün deyil, Süleyman üçün qorxuram. Cəsarətsizliyimə görə qorxuram. Süleymanın yardımına getsəm belə, Süleyman:

– Harada qaldın indiyə qədər? Niyə tez köməyə gəlmədin? – deyə hirslənəcək, üstümə qışqıracaq deyə qorxuram. Daha məni heç nə maraqlandırmır. Fikrimdə yalnız Süleyman var. Mənimlə danışır. Məni çağırır. Nəhayət, başımı Şişkova tərəf çevirirəm.

– İcazə verin gedim, yoldaş komissar, – deyirəm.

Komissar Şişkov gülür və çiyinlərini çəkərək, sadəcə:

– Get, – deyir.

Təpədən sürünə-sürünə üzüaşağı enirəm. Qrişa əyilə-əyilə mənə yaxınlaşır. Sanki incimiş kimi danışır.

– Sən komissara nə dedi, mən eşitdi. Sən məni sevməz ya, mən bilir. Mən bir gavur ya... Mən bilir. Amma mən də Krımda doğuldu. Mən də Krımı sevər. Tatarı çox sevər. Mən sən ilə bərabər gedir. Sən ölür, mən qalır. Mən qalır, sən ölür. Leytenant Süleyman mənin də dostu...

Ürəyimin dərinliyində bir sevgi baş qaldırır. İndi bu sətirləri yazarkən Qrişanı yada salıram. Qrişaya baxıb rəhmətlik Əhməd Özənbaşlının "Krım xalqı çeşidli çiçəklərdən hörülmüş bir dəmətdir" – sözlərini xatırlayıram.

Şişkov yanımıza gəlir, qumqumasını mənə uzadır:

– Al, Sadıq, lazımınız olar, – deyir.

Götürürəm. Təpədən enirik. Qamışlıqdan keçib zəmiyə girməzdən öncə diz üstə qalxıb qumqumanı Qrişaya uzadıram. Gözlərində həyəcan və sevinc oxunur.

– Aa, vodka! Sən müsəlman, vodka içməz. Mən bilir, mən bilir...

Qumqumanı əlimdən alıb qamışlığın içində yox olur. Hələ dizi üstəyəm. Boynumdan asılmış duanı əlimdə tutub pıçıldayıram:

– Allahım, sən bizi qoru. Sən özünün sadiq qullarını hifz elə.

Hava istidir. Yanımda Qrişa var. Dizin-dizin sürünərək irəliləyirik. Qrişa ara-sıra dayanıb öz-özünə danışır. Bəzən də nə isə bir mahnı mızıldanır.

– Diqqətli ol, Qrişa. Başını çox yuxarı qaldırma, – deyirəm.

– Qorxma, yoldaş leytenant. Alman bizi görə bilməz. Bax! – deyə başının üstündə tutduğu kiçik kol parçasını göstərir. Paltarının hər düymə yerinə kiçik bir budaq bənd edib. İrəliyə sanki qurumuş kol kimi hərəkət edir. Ara-sıra dayanıb üzünün tərini silir və qumqumanı mənə uzadır:

– Sən də bir az iç, yoldaş leytenant, – deyir.

Əlini geri qaytarıram. Mənə zorla vodka içirmək istəyir. Guya sərxoş insan ölümdən qorxmazmış.

– Yox, Qrişa, – deyirəm. – Sən də çox içmə. Krasnoeyə qayıdıb bir yerdə içərik.

Razılaşır. Yenə sürünürük. Ara-sıra başımı qaldırıb arxasında Süleyman olan təpəyə baxıram. Düşmən atəşi bir az səngiyib. Amma yoldaşlarımızın vəziyyətini düşünəndə bədənimin hər əzası titrəyir.

Taxıl zəmisinin qurtardığı yerə çatırıq. Qarşımıza yamyaşıl kiçik təpə çıxır. Dayanırıq. Üzümüzün tərini silirik.

– Hazırsanmı? – deyə Qrişadan soruşuram.

Qrişa sürünə-sürünə bir az da yaxınlaşır. Yavaş, amma həyəcanlı səslə:

– Mən hazır, yoldaş leytenant, mən hazır. Amma ikimiz getməz. Yer açıq, qorxu var. İlk mən gedər, sonra sən gəlir, – deyir və cavabımı gözləmədən irəli atılır.

Düzənliyi ildırım sürəti ilə keçib təpənin yamacına sıxılır. Mən hələ zəmidə ikən gözlənilmədən atəş kəsilir. Ətrafa qəribə sakitlik çökür. Arabir başımı qaldırıb Süleymanla topçularının mövqe tutduqları təpəyə baxıram. Torpaqqarışıq barıt dumanı qollu-budaqlı ağac boyda yüksəlib sonra tarlaya çökür. Qrişa pulemyotunun yanında qımıldanmadan ölü kimi yatır. İçimə bir qorxu hakim olur. Dizlərim sözümə baxmır. Elə bu vaxt Qrişa başını mənə tərəf çevirib əli ilə “Gəl” işarəsi verir. Cəld hərəkətlə yüyürüb Qrişanın yanında yerə uzanıram. Pıçıltı ilə:

– Görürsənmi? – deyə soruşur.

Görürəm. Soldakı təpə ilə meşə arasında düşmənin üç topunu görürəm. Hər topun yanında üç-beş əsgər dayanıb. Çoxu yerə çöküb. Bir neçəsi ayaq üstdə durub. Bəziləri isə hərəkətdədir. Meşədən sursat daşıyırlar. Titrəyən əllərimlə güllə şəridini pulemyota yerləşdirirəm. Qrişa sakitcə almanlara baxır. Geridə dayandığımdan üzünü görə bilmirəm. Pıçıltı ilə soruşuram:

– Hazırsanmı, Qrişa?

Başını mənə tərəf çevirir. Bəyaz dişlərini göstərən gülüşlə:

– Mən hazır, – deyir.

Atəş əmri verirəm.

Qısa, qırıq-qırıq və vəhşi gurultu qopur. Birinci topun yanında dayanan iki alman əsgəri eyni vaxtda yerə sərilir. Deyəsən güllə ikisinin də başından dəyib. Yerlərindən tərpənmirlər. Daha bir atəş. İki saniyəlik sakitliyin ardınca davamlı atəş. O biri topun yanındakı almanlar özlərini itiriblər. Nizamsız halda meşəyə tərəf qaçırlar. Bu arada Qrişa pulemyotla tikiş tikirmiş kimi insan vücudlarını bir-birinə pərçim edir. Bir az geri çəkilirəm. Qrişa sanki bütün dünyanı unudaraq əlindəki cəhənnəm oyuncağı ilə durmadan atəş açır, bir yandan da mənə tərəf çevrilmədən:

– Get! Get!– deyə bağırır.

Qrişanı orada qoyub Süleymanla topçularının olduğu təpəyə tərəf atılıram. Süleymanı qurtaracağam deyə sevinirəm. Bu sevincin təsiri ilə hətta Süleymana bir az da sataşacağımı da düşünürəm.

– Hələ bəbəsən sən! Sənə müharibədə vuruşmaq yox, ananın əlindən tutub gəzmək lazımdır. Zarafat edəcəyəm Süleymanla!

Təpəyə yaxınlaşıram. Buradakı topların yanında kimsə görünmür. Yoxsa topları atıb qaçıblar? Artıq təpədəyəm. İndi hər şeyi daha yaxşı görürəm. Dim-dik dayanmış top lüləsi. Qopmuş təkər topdan dörd-beş metr kənara fırlanıb. Təpədən aşağı enirəm. Döyüşçülərimizi arayıram. Amma kimsə yox. Topdan on-on beş metr aralı bir, iki, üç, dörd... cəsəd düşüb. Yanlarına yaxınlaşıram. Üzləri qorxunc vəziyyətdədir. Bəs qalanları haradadır? Ətrafı dərin səssizlik sarıb.

Dayanıb bir az nəfəsimi dərirəm. Böyrümdəki ölülər də sanki mənimlə birlikdə dincəlirlər. Aralıdan inilti səsi eşidilir. Üzüntülü və qəribə səsdir. Bəzən qəflətən kəsilir, sonra yenidən "O-o-of! O-o-o-f" – deyə inildəyir. Səs gələn tərəfə qaçıram. Böyrü üztə aşmış topun yanında ayaqları qan içində bir əsgər uzanıb. Yaxınına gedirəm, dizi üstə çöküb soruşuram:

– Komandiriniz haradadır?

Əli ilə sağ tərəfi göstərir. Sonra:

– Məni burada qoyub getmə, leytenant, – deyir. – Ya qaldır apar, ya da öldür.

– Qorxma, qorxma. Səni də götürəcəyəm. Amma komandiriniz haradadır?

Yenə əlini uzadır.

– Orada. Amma o tərəfə getmə. Səni də öldürərlər, getmə.

Görünür, özü də nə dediyini bilmir. Ətrafa baxıram. On beş addım aralıda iki taxta yeşik diqqətimi çəkir. Yaralı onları göstərib:

– Orada! Məni burada atıb getmə, leytenant, – deyə yalvarır.

Yeşiklərə tərəf gedirəm. İkisinin arasından uzunboğaz çəkməli ayaq çıxır. Yaxınlaşıram. Çəkmələrin zabit ayaqqabısı olduğunu aydın görürəm. Sinəmin içində ürəyim toxmaq kimi döyünür. Süleymandırmı? Yeşikləri kənara aşırıram. Üzüqoylu yerə sərilib, başı al qan içindədir. Süleymanın cəsədindən bir neçə addım o tərəfdə yan-yana uzanıb yatıblarmış kimi, daha səkkiz ölü var. Yaxınlaşıram. Ey həyatda olan və indi "Övladım haradadır?" – deyə göz

yaşı tökən ata-analar! Bu sətirləri yazan əllə o gün o gözəl üzlü övladlarınızın gözlərini qapatdım. Ağməscidli Hasan, Divanköylü Mehmet, Üskütlü Kərimlə Zəki, Özənbaşlı Xəlil, Yaltalı Hüsni, Xalid, Bəkir, Gözlevli Osman...

Süleymanın cəsədini onların yanına gətirdim. Diz çöküb nə qədər ağladım – özüm də bilmirəm. Aralıdan eşitdiyim bir hayqırtıdan özümə gəldim. Kimsə:

– Ey! Gəldiyin tərəfə dön. Haydı, tez! – deyə bağırırdı.

Başımı qaldırıb səs gələn tərəfə baxdım. Təxminən iyirmi beş addımlıqda tüfəng lüləsi gördüm. Tez ayağa qalxdım. Bir dəstə əsgər tüfənglərini mənə tərəf çevirmişdi. Dik-dik üzümə baxırdılar. Aralarından biri, bayaqkı səsin sahibi yenə hayqırdı:

– Rədd ol buradan, qara tatar! Yoxsa sənin də leşini onların yanında yerə sərərəm. Get, politruka da de ki, daha bizim üçün savaş bitdi.

Ətrafda baş verənlərin fərqində deyildim. Səngərdəki əsgərlərə tərəf gedərkən bir güllə vıyıltı ilə qulağımın dibindən keçdi. Dərhal yerə uzandım. Qarşıdakı səs uzun-uzadı söydü, ardından da güllə yağdırdı. Geriyə sürünüb özümü taxıl zəmisinə saldım. İkiqat yerə əyilib Qrişanı qoyub gəldiyim təpəyə tərəf gedirdim. Sol tərəfimdə qara saçları pərçim-pərçim tərli alnına yapışmış başda iki atəşli gözlə bu başı çiyinlərində daşıyan zəif gövdə gördüm. Gözlərində elə işıq yanırdı ki, gecə olsaydı, qurd gördüyümü düşünərdim. Bu insanın uzunsoz sifətində, parlaq gözlərinin qəribə baxışında canavarı xatırladan elə bir şey vardı ki, dərhal tapançamı çıxardım.

– Kimsən?

– Mən sənin adamınam, ağay.

– Qırğızsan?

– Qırğızam. Adım Kılıncbaydır.

– Yaralısan?

– Jok (yox).

– Bəs necə qurtuldun?

Yerə oturdu. Yaşlı gözləri ilə üzümə baxıb başına gələnləri anlatdı.

– Almanlar atəş açan kimi topu buraxıb qaçdım. Gavur ruslar üçün savaşmamağa and içmişdim. Niyə onlara görə vuruşum, ağay?

– Sən komandirinin necə öldürüldüyünü danış!

– Mən buradan gördüm. Komandir düşmən gülləsindən ölmədi, ağay. İlk atəşdə bizim müsəlman igidlər öldülər. Düşmən güllləbaranı seyrələn kimi yoldaş komandir cəsədləri bir araya topladı. Sonra sol qanadın rusları baş qaldırdılar. Komandiri atəşə tutdular. Zavallı harada gizlənəcəyini bilmirdi. Dörd bir yandan sıxışdırılan ov kimi iki boş qutunun arasına girdi. Orada komandiri vurdular, ağay.

Qırğız Kılıncbayın hər sözü ürəyimə xəncər kimi saplanırdı.

– Nə üçün yardıma getmədin?

– Nə edə bilərdim, ağay? Nə edə bilərdim? Əlimdə heç tüfəng də yox idi...

Susdu. Başını əllərinin arasına aldı:

– İndi onların cəzasını mən çəkəcəyəm.

Kılıncbay uşaq kimi hönkürə-hönkürə ağlayırdı. Yanına getdim, əlimi çiyninə qoydum. Göz yaşları Süleymanla digər soydaşlarımın ölümü kimi yandırdı məni. Səssizcə bir-birimizin üzünə baxarkən Qrişanı qoyub gəldiyim yerdə mərmi partladı. Təpəyə baxdım. Hər şeyi çox yaxşı görürdüm. Qrişa üzü aşağı qaça-qaça təpədən enirdi. Zəmiyə çatmamış sağ tərəfində bir mərmi də partladı. Qrişa yerə yuvarlanır, sonra qalxıb yenə zəmiyə tərəf qaçırdı. Solunda bir mərmi daha. İki... üç... dörd... Rəngli dumanların və havaya qalxan toz-torpağın arasında Qrişa gözdən itdi. Yaxşı ki, atəş çox çəkmədi. Silahlar susan kimi Qrişanın olduğu yerə qaçdım. Mərmi çuxurlarında Qrişanı arayırdıq. Bir çuxurda qanlar içində düşüb qaldığını gördük. Kiçik gözləri nə qədər böyümüş, çirkin sifəti necə gözəlləşmişdi. Biçarə Qrişa! Bu gün də surəti gözlərimdən çəkilmir. Başı dizimin üstündə gözlərimə baxıb:

– Sən gəldi, yoldaş leytenant, sən gəldi... Mən öləcək, öləcək, – deyirdi.

Kılıncbay çox fikirləşmədən köynəyini çıxardı. Qrişanın ayaqlarını sarıdı. Kəmərimi də köynəyin üstündən bağlayıb Krasnoeyə gətirdik. Qəsəbəyə daxil olmamış, tozlu yolda iki Qırmızı Xaç arabasına rast gəldik. Arabaların birində üstü samanla örtülmüş cəsəd vardı. Çılpaq, şişib göyərmiş ayaqlarının qanına milçəklər yığılmışdı. Arabaçı bizi görmürmüş kimi, eşməsini sümürməkdə idi. Xəstəxananın yerini soruşdum. Başı ilə sağ tərəfi, bağçanın içindəki saman damlı kiçik evi nişan verdi. Yolun o biri tərəfinə keçəndə həyətdən çıxıb bizə sarı gələn Şişkovu gördük. Yanında tanımadığım bir neçə zabit də vardı. Çox əsəbi və ciddi görünürdü. Yanımıza gəldilər. Şişkov:

– Yaralı kimdir? – deyə soruşdu.

– Qrişa. Mənimlə getmişdi.

Sonra Kılıncbaya baxdı.

– Bəs bu qara pıspısa?

– Süleymanın bölüyündəndir.

– Tək o sağ qalıb?

– Elədir ki, var.

Qrişanı səhiyyə bölüyünə verib komandanlığa getdik.

Krasnoe müdafiəsi xatirələrim arasında hərbin ən qanlı faciəsi kimi qaldı.

***(Ardı var)***

***Türkcədən uyğunlaşdırdı:***
***Vilayət QULİYEV***



*Rəşid FAXRALI*

**DOMOKL QILINCI**

***Elegik poema***

> ***Xocalı işğaldan qurtardı deyə,***
> ***Ruhumuz ağ günə çıxdı, ay əsgər!***

…Xocalı faciəsi
etiraf olununca
Domokl qılıncı
asılı qalacaq
Dünyanın başı üstə…

* * *

Sənə sarı can atır
neçə illərdən bəri
daş-kəsəkli yol aşan,
Mənzil-mənzil töyşüyən,
Məhlə-məhlə dolaşan,
Dağlar aşan, çay keçən,
Diz yorub yorulanda
su əvəzi dərd içən,

Daş çeynəyib, daş didib
al qanına bürünən,
Bulaq kimi quruyub,
Cığır-cığır sürünən
Ruh misallı xəyalım,
Xocalım!

Qaranlığın içindən
sıyrılan sabah gərək,
Dünya boyda dərdinə
biz adlı pənah gərək.
Cihad qərarı versin
Bir sabah Allah gərək.
Günah elədik, indi
yuyulsun günah gərək.
Yoxsa ovuna bilməz
Dərd bələkli məlalım,
Xocalım!

Nə müddətdi dağılmır
Göy üzünün dumanı.
Necə yozum bilmirəm
Bu möhləti, amanı.
Yelə verdim, yel almadı,
Selə verdim, sel almadı
Ürəyimə damanı…
Necə, nə cür qaytaraq
zamanlığa zamanı?
Ömürdən ömür umur
neçə sorğum-sualım,
Xocalım!

* * *

Günlər aya dolunca,
Aylar ilə dönüncə
Çılğın heysiyyətimin
başına daş düşür, daş.
Əlim sənə yetincə
Zaman dayanaydı kaş…

* * *

Ağ qarda,
Göy buzda
Anasının qucağında
buza dönən körpələrin,
Güllələrin işığında
gümüldənən körpələrin,
kəsik-kəsik, qırıq-qırıq
çiliklənib ufuldayan
səsə dönən körpələrin,
Bu ayamda taleyinin
odu sönən körpələrin,
Zaman-zaman
erkən duran ağbirçəyin,
İşdən-gücdən,
bişdən-düşdən,
hər gərdişdən
macal tapıb taxt üstündə
bardaş quran ağbirçəyin,
Qımqıması körpələrə
yuxu olan ağbirçəyin,
Çimirmisal yuxusuna
İrəmmisal
qoxu olan ağbirçəyin,
Yada düşən olmuşlardan
Gözü dolan ağbirçəyin
Taleyinə düşən qara
günahları kim yuyacaq?
Murdarların ölummisal
Nəfəsiylə murdarlanan
Sabahları kim yuyacaq? –
bilən desin…

Ağrılara, acılara şahid olan,
Ağac-ağac dirsəklənən
meşə desin, tala desin,
Əzizini qarda-buzda
qoyub gələn

ana desin,
bibi desin,
xala desin,
Qarda-buzda qaçanlara
qucaq açan
Yarğan desin,
dərə desin,
bələn desin,
Bu uğursuz yolçuluğu
Ayaq-ayaq,
dizin-dizin,
çimdik-çimdik,
cırmaq-cırmaq,
dırnaq-dırnaq
bölən desin,
Yolda-izdə ölənlərin
gözlərini sığıyanda
dirigözlü ölən desin…

Niyə dayaq olammadıq
Xocalıya o qış günü?!
Nalə günü,
fəryad günü,
qarğış günü…

* * *

Ağ qar ağ bəxtinə kəfən olurdu
Yarğanın qaşına çatmış sənəmin,
Dizinəcən qara batmış sənəmin,
Qisməti, taleyi yatmış sənəmin…

* * *

Göz qorxudan dərin yarğan…
Qar yağır…
Yeddi uşaq, iki qadın, bir də o.
Az qalmışdı buza dönə bu ara
Var bədəni dayandığı yerdə o.

Ata-ana, bacı-qardaş ləngiyir…
İstəyirdi gələnləri gözləyə…
Qar qalağı yolu-izi tutsa da
Səs gəlirdi qar dizləyə-dizləyə.

«Ata!» dedi, çiliklendi həniri,
«Qardaş!» dedi…
Deyəmmədi, duruxdu.
Üz-gözünü pərdələdi səhərin
ağ nəfəsi, elə bildi sovruxdu…

Gələnlərin qaraltısı göründü,
Baxa qaldı, baxışını qar aldı.
Dodaqları yeddi yerdən yarıldı,
Silahlıydı gələn yeddi qaraltı…

Addım-addım yaxınlaşan yağının
Gözlərində zülüm gördü, dinmədi.
Gen dünyanın genliyinə sığmadı,
Güllə rəngli ölüm gördü, dinmədi.

Sırsıraydı üzü-gözü, qaşları,
Titrəyirdi…
Buz qaşları çatıldı…
İsmətinin əllərindən yapışıb
Buz bağlamış buz yarğandan atıldı…

* * *

Bir məhlənin qız-gəlini ünvansızlığın
Ağrısını çiyininə alıb gedirdi.
Bir ölümdən bir ömürə qar yara-yara
Nicat adlı bir yol, bir iz salıb gedirdi.

Göy üzündən lopa-lopa ağrı yağırdı;
Ər – şəhid,
ata – şəhid,
qardaş – şəhid bir gəlin
Körpəsini qucağına alıb gedirdi.
Qar üstünə qəhərinin mürəkkəbindən
fəryadını, naləsini salıb gedirdi.

Ağ göylərin ağlığından nifir yağırdı,
Ağ qar üstə iməkləyən ağ ölümüydü.
Ağ qar üstə,
göy buz üstə hara gedəydi,
Ön – uçurum,
sol – əsirlik,
sağ – ölümüydü.

Ölümündən qaçanların qərib yolunda
Hər gələn səs özü boyda qanqala döndü.
Bir-birini dümsükləyən güllə səsləri
Qaçanların ayağında qandala döndü…

…Bir kahaya sığındılar…
Qar yağa-yağa
cığırlardan qopub gələn ölüm səsiydi.
Bir şüşəyə yığılmışdı iyirmi bir can,
O gələn səs hər birinə son nəfəsiydi…

Soyuğuydu… Sazağıydı…
Gün yaxayaxda –
belə bir vaxtda
kəsirdi şaxta,
Anasının qucağında ağladı körpə.
Bir zamanlar bu səs üçün can əridənlər
diksindilər…
Dünyanın son məntəqəsində,
Qaçanların bu çağında ağladı körpə…
Ev deyil ki, körpəsini
incə-incə qılıqlaya,
Ovununca, kiriyincə qılıqlaya…
Bilmirdi ki,
Ev-eşikdən çox uzaqda,
belə vaxtda,
dar ayaqda
nə cür, necə qılıqlaya…

Qocaların, uşaqların
gözlərinə baxdı ana,

Dinəmmədi,
yaz gününün
şimşəyitək çaxdı ana,
Yeri-göyü üşündürən
selləritək axdı ana…
Qurtuluşa qaçanların
ölümündən qorxdu ana,
Çox düşünüb-daşınmadı;
Balasını şəhid verdi
qaçanların taleyinə –
öz əliylə balasını boğdu ana…

* * *

Axşam düşür,
Yavaş-yavaş
qaralır qaş…
Gözdən uzaq
bir kahaya sığınıbdı
qəhər ilə bağrıbadaş
bacı-qardaş…
Vahiməyə bürüyübdü
bu ayamda qar daş qızı…
Qız qardaşı ovundurur,
Ovundurur qardaş qızı…

İki ömür təklənib,
Burda tək qalıbdı, tək.
Hər gələn səs kahanın
yaxasından yapışır
vaxtsız gələn ölümtək…

Qardaş durub boylanır
kahadan yola sarı.
İçəri təpişdirir
sovruq ələnən qarı…

Baxır…
Bu, ümiddimi?
Yoxsa qara gümandı?
Yoxsa ötüşən anlar
Ağ ölümdən üzülən

Bir möhlətdi, amandı?
Qəflətdədi məmləkət
Biləmmir, bilə bilmir
çatıb, axır zamandı?

Yağı kimi dikəlir
burda hər qaya, hər daş…
Baxır ürəyində qəm,
Baxır gözlərində yaş:

«Dolaşığa kim saldı
yolun-izin bağını?..»
Birdən çovurtma güllə
sıyırır yanağını…

Elə bildi sol qolunu kəsib atdılar,
Elə bildi göy əriyib yerə töküldü,
Elə bildi sinəsində ocaq çatdılar…
«Bacı!» dedi, son nəfəsə döndü son heca;
Ömürünün qürub çağı qüruba baxdı,
Dodağını isitməmiş söndü son heca…

Qəfil gələn ölümünün qara əlləri
Son nəfəsdə nəfəs-nəfəs qəddini əydi;
Bacısının şivənini eşidəmmədi,
Dizə çökdü…
Üzüquylu torpağa dəydi…

…Kahanın qarşısında
Ölüm küləyi səkir…
Qardaşının üstünə
Döşənir qız…
Ağlayır…
Barmaqları üzündə
ağrı cığırı açır…
Sağa baxır…
Sola baxır…
Tələsik
İçəri qaçır…
Qoşalüləni
Sinəsinə dayayıb
Titrək barmaqlarıyla
soyuq tətiyi çəkir…

* * *

Bir qız…
Zavallı bir qız…
Daha tabı qalmayıb
Qar altda qalan yolun
damarını qırmağa.
Bu Allahsız ayamda
şaxtanı sındırmağa.

Daha tabı qalmayıb
əsirlikdən, ölümdən
qaçanlara çatmağa.
Bu ağ qarda,
göy buzda
ölümü aldatmağa…

…Uşaq vaxtı bu yerləri
atasıyla
tala-tala,
ağac-ağac
dolaşardı,
Min həvəslə
yamac keçib yal aşardı…
Bir zamanlar
Gəlişini,
yerişini,
duruşunu,
baxışını
gəlişiylə,
yerişiylə,
duruşuyla,
baxışıyla sürmələyən,
Bir zamanlar gəlişini
Tez-tələsik
çeşmələrə kürmələyən
Yal-yamac da,
Budaq-budaq,
yarpaq-yarpaq
gümüldənən hər ağac da
tanımırdı bəlkə onu:

«Aman Allah!» – pıçıldadı:
«Neçə illik etibarın
sonu bumu?
Bumu sonu?...»…

Gömgöy buz eləmişdi
Bunca günahlar qarı…
Əridə bilərdimi
Burda köməksiz qızın
çəkdiyi ahlar qarı?

Əridə bilərdimi
istisini güllələr
didik-didik eləmiş
gələn sabahlar qarı?

Gedənlərin izini
Alt-üst edib gözüylə,
Dar macalda tələsik
dərdləşirdi özüylə:

Güzgü qabağında gülümsəyərdim,
Vaxtın insafına boyun əyərdim,
Ayın işığında əzizləyərdim,
Qoymazdım intizar yora bəxtimi.

Zamanın nə ağır dərsi varıymış,
Gümanı varıymış, fərzi varıymış,
Gümanın tərsləşən tərsi varıymış,
Necə qaralayıb qara bəxtimi.

Qar basıb yolları, qar basıb dağı,
Ruhum gizildəyir ömrün bu çağı.
Dişi qana batan yaraqlı yağı
qoymaram ki, çəksin dara bəxtimi.

Sağ da – qar, sol da – qar…
Vahimədən bir-birinin
qoyununa qısılan
kol da qar…
Qar altında itib-batmış
Cığır da qar, yol da qar…
Nəfəs-nəfəs yaxınlaşır
iki yağı,

titim-titim titildəyir
qızcığazın əl-ayağı…

On beş addım…
On addım…
Beş addım…
Üç addım…
Yağıların irəli
uzanınca əlləri,
Qız köksünə saplayır
bilək boyda xəncəri…

* * *

O qanlı gecənin qara əlləri
Gecənin gözünü sürmələyəndə,
O gecə dünyanın üz qaralığı
Yolu güllələrə kürmələyəndə
qansız ermənilik unutmuşdumu
Bu xalq,
min illərin yaşdaşı bu xalq
Yeri göy üzünə qaldıra bilər,
Göyü yer üzünə endirə bilər
Namərdə nifrəti, mərdə sevgisi!
Dünyanın Arximed nöqtəsi* olar
Ruhu,
dəyanəti,
bir də sevgisi!

Tanrısından bixəbər düşmən
unutmuşdu
Bu xalqın heysiyyəti,
Torpağa,
bayrağa məhəbbəti,
Dövlətə ruhmisal sədaqəti
Domokl qılıncıdı!..

Döyüş əmri ilə
2020-nin payız günündə
Şimşək kimi çaxdınız,
sellər kimi axdınız,
yellər kimi əsdiniz,
Qeyrət qılıncıtək sıyrılıb qından,
33 il əvvəl gəlmiş qadanın
ovsarını çəkən yolu kəsdiniz...

613 şəhidin,
1275 girovun adından döyüşdünüz,
Ayaqlarınız altda qaldı
işğalın son nəfəsi.
Xocalının göyünün
Buludunu dağıtdı
müharibənin son gülləsi...
İşğalın sinəsinə çökən qeyrətin,
Yağının gözünü tökən qeyrətin
kəsərli qılıncı, qüdrət qılıncı
yağı boyununda ovxarlananda
Şuşanın dağları dikəldi: Salam,
Salam, Zəfər ilə gələn əsgərim!
Şuşada işğalın son nəfəsinə
gülən əsgərim!
2023...
Bir payız günü
Vətənin adından yad izlərini
yollardan biryolluq silən əsgərim!..
Səngəri sərhədə köçürənlərim,
Yolları ilmədən keçirənlərim,
Barmaqlar tətiyin ruhuna döndü
Göylərin sonuncu sualı üçün.
Son döyüş qurtuluş döyüşü oldu
Əsgəran, Ağdərə, Xocalı üçün!..

Qüdrəti Domokl qılıncı idi
Can verən işğalın son nəfəsinə.
Bir hökm oxudu bayrağımızın
Göyləri bürüyən işıqlığında
Ordumuz Xocalı faciəsinə!..

---

**Hörmətli Rəşid Faxralı!**

**Sizi, tanınmış Azərbaycan şairini anadan olmağınızın 70 illiyi münasibəti ilə "Azərbaycan" jurnalı redaksiyası adından ürəkdən təbrik edirik.**

**Sizə bundan sonra da möhkəm cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.**

*Mübariz CƏFƏRLİ*

# ZİRVƏ*



♦ ***Roman***

Hüseynin hay-küyü özündən qabaq gəldi.

– Qonaq istəmirsüz?.. – Ətrafa boylana-boylana səsinin yoğun yerinə saldı. – Hardasuz, ala?..

Quyunun qırağında əyləşib fikirli-fikirli siqaret tüstülədən ağzındakını yerə tüpürüb yavaşca, yazıq-yazıq dedi:

– Burdayam...

Hüseyn evə gedən yoldan çıxıb quyuya doğru uzanan cığıra döndü və Əşrəfin yanına gəldi.

Görüşdülər, Əşrəf yerindən durmadan ona əl uzatdığından Hüseyn yüngülcə əyilməli oldu.

– Nolub, ala, kefin nöşün yoxdu?..

– Var... – Əşrəf zorla gülümsündü.

– Görürəm axı, səsin quyunun dibindən gəlir... – Hüseyn Əşrəfin yanında əyləşib corabsız geyindiyi üstü deşik-deşik yay çəkmələrinə baxdı.

– Hələ şükr elə ki, səsim çıxır...

Hüseyn qıyğacı ona baxdı:

– Darıxırsan?

– Yox, iş darıxmaqda deyil...

– Bəs nədədi?

– Bu kişi... – Əşrəf boğazını arıtladı. – Təpəgözü deyirəm, dinc adama oxşamır, qəribə otlar gətirir meşədən, elə otlar ki, çəkməmiş, çeynəməmiş, elə iyi ilə adamı g...t-baş eləyir... Bilmirəm, narkotikdi, nəşədi, tiryəkdi, nədi...

Hüseyn dik atıldı, elə bil qəfil yumşaq yerinə iynə batırdılar:

– Ala, yavaş danış, hamımızı xataya salarsan, qoy oturmuşuq... Onsuz da əskimiz tüstülüdü... Nə nəşə, nə tiryək?..

– Evdə yoxdu, qorxma... – Əşrəf etinasızlıqla əlini yelləyib göz vurdu ona.

---

** – Əvvəli jurnalımızın ötən sayında*

– Onu demirəm, it-qurd eşidər, yerin də, daş-divarın da qulağı var. Narkotik nədi?.. – Hüseyn səsini yavaşıdıb pıçıltıya keçdi. – O kişi müqəddəs bir adamdı, alimdi, təbibdi, loğmandı, xəstələrə şəfa verir... – elə danışırdı, sanki hansısa kitabı qabağına qoyub aramla, sözbəsöz oxuyurdu. – Sehirbazdı, xiridardı, göylərlə, ulduzlarla əlləşib-vuruşur, Allah onun bir gözün alıb, amma əvəzinə elə bir kəramət verib ki, içi mənqarışıq çoxları o kəramətin yerinə iki gözündən olub dünya işığına həsrət qalsaydı, sevindiyindən papağını göyə atardı. Ona hərdən Təpəgöz deməyimə baxma, onun üçün canımdan keçərəm, o olmasa, mənim buralarda nə itim azıb? Tak şto, günaha batıb zarafatla da pis söz danışma onun haqqında, bir də görərsən ki, ağız-burnun əyilib, gözün nurdan düşüb, qalmısan qapqaranlıq bir zülmət içində... Ağlaşma ki, Ağlaşma... Gör ağlına nələr gəlir sənin... – azca ara verib xəbər aldı. – Hardadı bəs?..

– Kim? – Əşrəf anlamadı.

– Bayaqdan kimnən danışıram, ay məndeyən? Qasim...

– Mən nə bilim... – Əşrəf çiyinlərini çəkdi. – Gəlib apardılar...

Hüseynin gözləri bərəldi, duruxub səsini qaldırdı:

– Kim apardı, ala, hara apardılar?!.

– Nə bilim e... – Əşrəf təkrarladı. – Xəstənin adamları... Getdi kiməsə şəfa verməyə... – müsahibini yamsılamaq istədi.

Hüseyn bunun fərqinə varmayıb dərindən, sinədolusu nəfəs aldı:

– Aləmsən e, ay Ağlaşma, adi şeyləri elə kəlləmayallaq, haça-paça çərənləyirsən ki, yox yerdən adamın zəhri yarılır...

– Ondan arxayın ol, o kişini dəyirmanın boğazına ölü atsan, diri çıxar, yaşına baxma, qıvraqdı, qayışbaldırdı, dadı damaqdan getməyən ləzzətli xörəklər bişirir, yaxşı çay dəmləyir, o gün görürəm hoppanıb-dırmaşıb ayaqyolunun üstünə, deyirəm, a kişi, orda nağayrırsan, yıxılıb xosunvay olarsan, nə işin var, de, mən eləyim, qayıdır ki, sən bacarmazsan, bir işi yaxşı görmək istəyirsənsə, gərək özün eləyəsən... – gülümsündü xəfifcə. – Sən ondan ötrü nigaran olma, o, səni də, məni də yola salacaq...

– Təki yüz yaşasın, yazıqdı, kimsəsizdi...

Əşrəf söhbəti dəyişdi:

– Şəhərdə nə var, nə yox?

– Bürküdən, cəhənnəm istisindən savayı heç nə... Sənə nə var e, oturmusan cənnət sərinində, sadlığına şitlik eləyirsən, tanrına təpik atırsan... – Hüseyn ayağını ayağının üstünə aşırtdı. – Vurmaq istəyirsən?

– Necə bəyəm?

– Yaxşı arağım var maşında...

– Maşındakı araq imisti olar indi...

– Xaladelnikə qoyub soyudarıq da...

– Burda xaladelnik nə gəzir... Bilmirsən?..

– Hə... Onda, qoyarıq soyuq suyun içinə, sərinləşər... – Hüseyn çıxış yolu tapıb soruşdu. – Yeməyə nəyin var?

– Nə bilim, yemək-içmək işinə Təpəgöz özü baxır, mənim onun quyunun içindəki vedrəsindən xəbərim yoxdu. Əl vurmuram ona, qorxuram ki, o vedrəni götürmək istəyəndə aşırdım quyunun içinə... Bircə onu bilirəm ki, təzə süd var evdə...

– Südlə araq içərlər?

– Qatıq var... Pamidor-xiyar var...

– Qatıq olar, amma mən acam, pamidor-xiyarla başımı girləyə bilmərəm. Araq içməyə karlı bir şey lazımdı...

– Onda girərəm hinə, beş-altı yumurta götürüb qayğanaq eləyərəm. Necədi?..

– Babat... Gedər...

– Bir-iki toyuğun başını üzərdim sənin üçün... Amma o toyuqları kim təmizləyəcək, kim ütəcək, kim bişirəcək?..

– Yox, elə yumurta yaxşıdı, tas-tabaq qurmaq uzun çəkər...

– Arağı içib maşını necə sürəcəksən? İlişib-eləyərlər e, yolda...

– Bu gecə burda qalacam...

– Bəs qaynıngilə getmiyəcəksən?

– Yox, tünlükdü ora, it yiyəsini tanımır. Mənim də ki, başım adam götürmür...

Əşrəf qaşqabağını salladı:

– Burda yer yoxdu yatmağa...

– Əşi, bura da şəhər deyil ki, ağcaqanadların qorxusundan başını pəncərədən çıxarda bilməyəsən... Bir yastıq götürüb, uzanıb yatacam artırmada... – Hüseyn etinasızlıqla əlini yellədi. – Sən nə təhərsən, öyrəşmisən kənd həyatına?.. Darıxmırsan ki, işsiz-gücsüz, boş-bekar otura-otura?..

– Nə öyrəşmək, ovuc boyda yerdi... Beş-üç adam yaşıyır burda... İşsizliyə gəlincə bir tikə vaxtımdan o qədər işləmişəm ki, bundan sonra ölənəcən dincəlsəm də azdı...

– Düz deyirsən, sən yetim gözünü açandan bir gün görməmisən... Adamın azlığına gəlincə, elə azlıq yaxşıdı, çoxluq bilirsən də, nədi... Çıxıb-eləyirsən bayıra?..

– Həlbət ki... Vəlinin dükanın su yolu eləmişəm...

– Bəs, sir-sifətindən nöşün zəhrimar yağır? Elə bil yaxşıca əzişdiriblər səni...

– Döyülmək nədi ki, üç-dörd gün sir-sifətin göyərir, üz-gözün şişir, sonra keçib gedir... Mən içəridən döyülmüşəm, ürəyim qan ağlayır...

– Sağ ol, Ağlaşma... Şair olmusan kənddə... Yadındadı, mən də əsgərlikdə şeir yazırdım... – Hüseyn pıqqıldadı. – Nolub, ala, ucundan-qulağından bir açıq danış görüm...

Əşrəf gec dilləndi, deyəsən özlüyündə deyəcəklərini götür-qoy eləyirdi:

– Keçən dəfə Vəlinin dükanına getmişdim siqaret almağa. Bilirsən də bu kəndin mərkəzi oradı, çünki başqa alış-veriş yeri yoxdu. Nə isə, qəfil dükana cavan, gözəl bir gəlin girdi, yanında da beş-altı yaşında göygöz bir qızcığaz... Gəlin həqiqətən bir gözəldi, bir gözəldi, gəl görəsən, hörükləri mənim biləyim

yoğunluğunda, dözləri qapqara, özü ağ maya, döşləri elə bil paltarını yırtıb bayıra çıxmağa fürsət gəzirdi...

– Çox dərinə getmə, sözünün canını de...

– Hər nədisə, Vəlinin oğlu onu görən kimi əl-ayağa düşdü, mən yaddan çıxdım, başladı gəlinə qulluq eləməyə. “Onu ver, bunu ver”, deyə-deyə gəlin bir xeyli bazarlıq elədi, pul çıxardanda Vəlinin oğlu daş atıb başını tutdu ki, heç nə lazım deyil, sizə qulluq eləmək hamımızın borcudu, lap bu dükanı götürüb aparsan da biz sizin borcunuzdan çıxa bilmərik. Amma haqqüçünə, gəlin sözündən dönmədi, pulu piştaxtanın üstünə atıb getdi, heç xırdasını da almadı. O, gedəndən sonra Vəlinin oğlundan soruşdum ki, bu gəlin kim idi, neyçün ondan pul almaq istəmirdün? Ürəyimə də pis-pis fikirlər gəldi. Cavan qayıtdı ki, bu gəlinin adı Zəhradı, əri də müharibədə şəhid olub, Qarabağda... Bizim kəndin yeganə şəhididi... Kəndimiz balacadı axı... Ona görə atam mənə tapşırıb ki, o gəlindən pul alma, atamın özünə də yuxarıdan tapşırıblar. Di gəl, gəlin qürurludu, əyilən deyil, pulsuz heç nə götürmür... Fikir verməmisən yəqin qapısında bayraq dalğalanan ikimərtəbəli evə, həmin gəlingilin evidi...

O gecə ilan vuran yatdı, mən səhərəcən yerimin içində qovruldum, gözümü yuman kimi, gəlin xəyalımda canlanırdı... Srağagün evdən çıxıb dükana gedirdim ki, uzaqdan gördüm gəlin gəlir, yanında da həmin qızcığaz. Dayandım, dilim-ağzım qurudu, oldum lal-mat... Gəlin mənim yanıma çatanda ayaq saxladı: “Sən kor Qasimin yanında qalırsan?” Gördüm dilim söz tutmur, başımı tərpətdim. “Sən yaxşı adamsan, heç kəs başqasının dərdinə sənin kimi ürəkdən ağlamır”, deyib getdi. Onun ardınca boylana-boylana bir də baxdım ki, elə bil göz yaşlarım damcı-damcı yox, sel kimi axıb, sir-sifətim, köynəyimin yaxalığı, sinəm suyun içindədi...

– Ala, ay yetim, başın xarab olub, cırarlar e, səni kənddə, iki para eləyərlər, gicləmisən, gedib şəhidin arvadına nöşün ilişirsən?!. – bayaqdan sakit-səssiz diqqətlə ona qulaq asan Hüseyn hirslə ayağa qalxdı. – Sataşmağa adam tapmırsan?!. – hikkəli-hikkəli Əşrəfin önündə durdu.

Əşrəf yazıq-yazıq başını əyib yerə, dostunun ayaqlarına baxıb zarıdı:

– Nə ilişmək, nə sataşmaq?.. Dilim söz tutur ki, onu görəndə?.. Ölərəm e, onun yolunda... Canımı verərəm, “uf” da demərəm... Mənim özümdən nəsə asılıdı bəyəm?.. O yazığın ərini Allah rəhmət eləsin, amma onun təzədən ailə qurmağı günah-zad deyil ki... O qızcığaza əsl ata lazımdı, bəlkə bəxtim gətirdi öz uşağımız da oldu. Oğlum olsa, adını Həsən qoyacam...

– Həsən neyçün, sənin ki, atovun adı Hüseyn olub...

– Hüseyn... qoydum... Tələf... oldu... da... Tutmadı... – Bir anlığa Əşrəfin dili dolaşdı, kəlmələri robot kimi ara verə-verə dedi. – Həsən də elə Hüseynə oxşayır...

– Baho!.. – Hüseyn bir anlığa nə deyəcəyini bilmədi. – Sən lap sarsaqlamısan ki... Sonra nə oldu?

– Sonra heç nə... O gündən görməmişəm o gəlini...

– Buna bax e, gücnən işəyir, könlündən gör nələr keçir... – Hüseynin hirsi soyumasa da, səsini yavaşıtdı. – Bircə burda bizi biabır eləməmişdin...

– Dedim də, o, çoxdan olub, qışda, uçuq-sökük hamamda qalıb elə oldum. Soyuqdan... Sonra keçib getdi, sağaldım... Bura gələndən sonra Qasim də mənə ot dəmləyib verdi, bir-iki kərə içib lap düzəldim...

– Noolsun düzəldin, düzəldin gərək kimi gördün minəsən? – Hüseyn öyüd-nəsihətə keçdi. – Camaatın yarası hələ təzədi, ili təzəcə çıxıb şəhidlərin, nə xəbərdi, yanırsan, bir az səbr elə də, görək başımıza nə gəlir...

– Bir ömür gözləyərəm o gəlini... – Əşrəf ürəklənib altdan-yuxarı ona baxaraq göz yaşlarını sildi. – Demirəm ki, indi, bu gün, bu saat, bu dəqiqə mənə gəlsin... Amma uzaqdan-uzağa bir: "Hə", desin, bir işarə eləsin, bəsimdi...

– Ay Ağlaşma?..

– Nədi?

– Deyirsən, əri şəhid olan o gəlin çox gözəldi, çox gözəgəlimlidi?

– Çox... Mən indiyəcən elə gözəl görməmişəm...

– Əşi, orası məlumdu, sən yetim nə görmüsən ki... – Hüseyn əlini yelləyib burnunu çəkdi. – Qızının beş-altı yaşı varsa, belə çıxır ki, bizdən də çox cavandı...

Əşrəf çar-nacar təsdiqlədi:

– Belə çıxır...

– Bəs, sən heç özünə güzgüdə, bir yaxşı-yaxşı baxmısan, ay dəli Məcnun?

Əşrəfin dalağı sancsa da özünü sındırmadı:

– Necə bəyəm?..

– Fikirləşmirsən ki, o gözəl gəlin, sənin kimi, məndən beşbetər, əlmeymununu nə hərləyir? Ərə getmək istəsə, elə düz-əməlli birinə gedər də, başına adam qəhətdi?

– Zarafata salma, dedim də, mən onun qızını öz balam kimi istəyəcəm. Əsil atalıq eləyəcəm ona... Doğma atasından yaxşı baxacam ona...

– Kiri, ala, kiri... Zarafat-zad eləmirəm, kəs səsini... Ataya bax... – sözünün ardını deməyib xəbər aldı. – Qasimə bir söz-zad demisən?

– Yox... Nə deyim, necə deyim? Qəfil qayıdıb üstümə bozarmaz ki, gic oğlu, gic, başuva at təpib, dünən bir, bu gün iki, nə tez qızışdın, eşqbazlığa gəlmisən şəhərdən bura?

– Onu düz eləmisən... – Hüseyn yuxarıdan-aşağı onun seyrəlib keçəlləşmiş çal saçlarına baxdı, lapdan istədi ki, əsgərlik yoldaşının peysərinə yüngülcə bir şapalaq ilişdirsin. – Deməsən yaxşıdı...

– Amma Təpəgözə nə var, cindar şeydi, ondan nəsə gizlətmək olar? Dedim-demədim, onsuz da gec-tez hər şeyi biləcək... Belə getsə, mən özümü öldürəcəm... Başqa çarəm yoxdu...

– Sən Allah özünə qıyma, elə iş görmə, dünya qara geyinəcək... – Hüseyn məzələndi.

– İstəyir qara geyinsin, istəyir qırmızı... Mənim üçün fərqi yoxdu. Bezmişəm...

Əşrəf gözlərinin yaşını tüklü qolu ilə silib ayağa duranda Hüseyn birdən-birə həlimləşdi, əlini onun çiyninə qoyub:

– Niçevo... – dedi. – Bir şey fikirləşərik, burnunu sallayıb gözünün şorbasını tökmə, Allah kərimdi...

– Elədi, çıxmayan cana umud çoxdu... – aşiq razılıqla başını tərpətdi.

Yavaş-yavaş gəlib evin qabağındakı masa arxasında üzbəüz əyləşəndə Hüseyn boğazını arıtlayıb dedi:

– Ay Əşrəf...

– Nədi, can qardaş?.. – Əşrəf onun üzünə baxdı.

– Heç bilmirəm nə təhər deyim, sənə bir işim düşüb axı...

– Nolub? – Əşrəf qulaqlarını şəkləyib diqqət kəsildi.

– Allah şeytana lənət eləsin, bizim Qulu, sən görmüsən onu bizə qulluq eləyəndə, mənim yanımda işləyən ofisiantı deyirəm, o gün toyda yeyib-içib, çıxıb cızığından, qız üstündə düşüb davaya. Aparıblar bunu bölməyə, orda da cibindən narkotik çıxıb... İndi yazığın işi yaşdı... Mənim də əlimdə-ovcumda bir şey yoxdu... – Hüseyn sözlərinə ara verib nəfəsini dərdi, sanki demək istədiklərini dilinə gətirməkdən ötrü güc toplayırdı. – Karoçe, təcili pul lazımdı... Sən mənə bir az borc verə bilərsən?..

Əşrəfi gülmək tutdu:

– Mən?..

Hüseyn yalandan, nümayişkaranə ətrafa boylandı:

– Burda başqa adam da var?

– Məndə pul nə gəzir...

– Bəs, doxturdan aldıqların necə oldu?..

– Sən əsil falçısanmış, dediyin düpbədüz çıxdı, qaynanamla qaynım birləşib məndə pul qoymadı. Elə bil yanımdaymışlar pulu alanda, iy bilirmişlər, qəpiyinəcən aldılar əlimdən, dalıma da bir təpik vurub yola saldılar... Qaldım quru yurdda... – səsini qaldırdı. – Yoxsa, pul-para nə olan şeydi ki!.. Borc nədi?.. Mənim nəyim varsa, sənə peşkeşdi!.. Dünyanin bütün mal-dövləti qurban olsun sənə!.. Mənim səndən başqa kimim var axı?!. Sən mənə qardaşdan artıqsan... Di gəl, qəpik pulum yoxdu, sağ olsun, xırda-xuruş xərcliyi, siqaret pulunu da Qasimdən alıram... – Sol əlini masaya vuranda qrafin cingildədi, iri, qalın stəkan az qaldı aşsın. – Anam gorbagor olsun, anamın qəbri, goru od tutub yansın yalan deyirəmsə!..

Hüseyn kövrək-kövrək:

– Nə pis and içirsən, ala, sən, gözün qızanda? Adamın tükləri biz-biz olur, əti ürpəşir... Rəhmətlik arvadı da qoymursan qəbirdə rahat yatsın. Eybi yoxdu, özünü üzmə, yoxdu-yoxdu də, mən sənə inanmıram bəyəm?.. Yoxdan Allah da bezardı, bəndə də... – deyib təəssüfləndi. – Amma sən nahaq pulun hamısını olara vermisən...

Əşrəf yazıq-yazıq boynunu bükdü:

– Nağayrım mən binəva, çarəm nədi, heç kəsim yoxdu, yetim oğlanam...

Hüseyn boğazındakı qəhəri birtəhər udub:

– Oğlan a... Yetim nöş olursan, sənə qurban?.. – dedi. – Sənin mənim kimi qardaşun var... – bəlkə də kövrəldiyini gizlətmək üçün tez ayağa durdu, qalxanda tələsdiyindən dizi masanın altına dəyib bərk ağrıdı. – Yaxşı, mən gedib maşından arağı gətirim, sən də yumurtadan-zaddan bişir, oturub iki qardaş boğazımızı yaşlayaq...

– Mən heç, mən anadan qarabaxt doğulmuşam, ata-anam qəzaya düşüb ölüb, ağlım kəsməmiş... Dayım da ki, şərəfsizlik eləyib evimizi satıb mən əsgərlikdə olanda... Danışmışam hamsını sənə, Allah qapısını açsın, Qulu bizə qulluq eləyəndə... Sənin kafendə oturub dərdləşə-dərdləşə vuranda... Doxturdan pulu alan gün... O puldan ki, mən xeyir görmədim... Vopşem, mən heç, mənə bir qoz... Bəs sənə nə oldu, sən ki, arxalı idin, şəhərdə doğulmuşdun, qohumun-əqrəban... Ev-eşiyiniz, deyəsən, sənin atanın maşını da vardı, özün də şeir yazırdın əsgərlikdə... Nədən birdən-birə niyə belə düşdün ki, başqa əlacın qalmadı, axırda gəlib mən yetimdən borc istədün?..

– Dünyadı da, bir gün qaldırır, bir gün endirir...

– Məni heç vaxt qaldırmadı... Bəs sənə nə oldu, kimin qəzəbinə gəldin?

– Siçanların uçbatından... Qəzəbə gəlmədim, siçanların zibilinə keçdim...

– Nə siçanbazlıqdı, deyəsən, qayğanaqla araq keflə ndirib səni...

– Alə, keflənmək nədi, söz soruşdun, cavabına qulaq as, səbət g...tündən gilas tökülmür... Düzdü, qabaqlar adamlarım, karlı qohum-əqrəbam çox idi, elə məni də daydayım nazirlikdə işə düzəltmişdi, özüm də zəhmətkeş idim, bir az keçdi, oldum şöbə müdirinin müavini... İşgüzarlığıma, bacarığıma görə hörmətim də vardı nazirlikdə, böyüklü-kiçikli hamı xətrimi istəyirdi, hətta bizdə xadimə işləyən Sənəm arvad deyirdi ki, hər dəfə namaz qılanda sənin üçün də dua eləyirəm... Mən də hərdənbir o başıbağlı, dindar arvada beşdən-üçdən verirdim...

Deməyim odu ki, işlərim yaxşı gedirdi, dolanışığım dolanışıq, hörmətim də hörmət... Ancaq sən saydığını say... İş elə gətirdi ki, günlərin birində başladılar “Sovetski”dəki köhnə evləri sökməyə... Ordakı siçanlar, iri siçovullar da üzüaşağı gəlib doluşdu bizim nazirliyə. Dəhlizdə yeriyəndə bir də görürdün ki, siçanlar, siçovullar ora-bura qaçır, siçovul daraşmayan otaq qalmamışdı, axırda içi nazirqarışıq hamı zara gəldi, fikirləşdik ki, bu işə necə çarə qılaq?.. İdarə rəisi dedi ki, bu asan işdi, “Gigiyena və epidimolagiya” idarəsi var ölkədə, onlara məktubla müraciət eləyək, gəlib siçanların axırına çıxsınlar. Təsərrüfat müdiri razı olmadı ki, yox, bu, nazirliyə baha başa gələr, bizim o qədər pulumuz nə gəzir, yaxşısı budu, bu problemi, az vəsaitlə, özümüz, öz qüvvəmizlə həll eləyək... Nə isə, bu işi elə təsərrüfat müdirinə tapşırdılar. O da balaca, dəmir qəfəslər aldırdı nazirlik üçün. Hər otağa iki-üç qəfəs qoydurdu. Yuxarı-aşağı mərtəbədəki dəhliz boyunca da saysız-hesabsız qəfəslər düzdürmüşdü. Qəribə avtomatik qəfəslər idi, pendiri qoyurdun qəfəsə, siçan gəlib yemək istəyəndə qəfəsin qapısı öz-özünə bağlanırdı. Bundan da qəribəsi o idi ki, səhər işə

gələndə otağa girirdin, görürdün ki, qəfəsin içində dipdiri bir siçan ora-bura vurnuxmaqdan yorulub, sakitcə oturub... Bir növ, taleyi ilə barışıb... Elə dəhliz də qəfəslərdən məzlum-məzlum baxıb ciyildəməyən, səs çıxarmağı belə lüzumsuz sayan siçanlarla dolu idi. Burda da bir qəmbərqulu çıxdı. Bəs, qəfəsdəki diri siçanları, siçovulları neyləyək, necə öldürək, necə məhv eləyək?.. Başladılar baş sındırmağa...

Bir gün otaqda əyləşmişdim, qəfil körpə ağlamağı gəldi qulağıma, dedim görəsən kimdi körpəsini götürüb işə gətirən, ağlıma heç kəs gəlmədi, çıxdım dəhlizə, gördüm Sənəm arvad butulkadakı kislatanı tökür qəfəsdəki bapbalaca bala siçanın başına. Siçan balası da əməlli-başlı ciyildəyib körpə uşaq kimi ağlayır. "Nağayrırsan, ay arvad?!." – çımxırdım xadimənin üstünə. Heç nə olmayıbmış kimi, cavab verdi: "Təsərrüfat müdiri tapşırıb ki, öldürüm bu iyrənc heyvanları". Dəliyə döndüm: "Qələt eləyib təsərrüfat müdiri, p...x yeyib, bəs, sən namazqılan arvadsan, bu nə hərəkətdi eləyirsən, Allahdan zərrəcə qorxu-ürkün yoxdu sənin? Belə çörək qazanarlar? İt yeməz e, belə çörəyi!.. Axı bu yazıqlar da canlıdı!.. Kislatanı heyvanın başına töküb hələ bir hırıldaya-hırıldaya da baxırsan ki, necə yanır, necə əriyir, necə əzabla ölür! Heç yaşından-başından xəcalət çəkmirsən?!.. Oxuduğun "Quran", qıldığın namaz, o hər şeyi görən Allah özü sənə, təsərrüfat müdirinə, elə hamınıza qənim olsun. Nadürüstlər, oğraşlar, fahişələr!" Qışqırığıma yuxarı-aşağı mərtəbədən hamı yığışıb gəldi. Mənsə toxtamaq bilmirdim, nazir müavinini, hətta naziri də qatmışdım təsərrüfat müdirinə...

Qoluma girib məni öz otağıma gətirdilər, su içirtdilər, divana uzadıb sir-sifətimi nəm dəsmalla sildilər. Birtəhər sakitləşəndən sonra eşitdim ki, day qəfəsdəki siçanların başına kislota tökməkdən vaz keçiblər. Amma seçdikləri ikinci yol da ürəkağrıdan idi. Sənə danışdıqca indi də gözümün qabağına gəlir, az qalır nəfəsim kəsilsin. Deməli, bu dəfə yarım vedrə su gətirib siçanları qəfəsqarışıq basırdılar suya, öləndən sonra qəfəsdən çıxardıb bir-bir atırdılar yarımçıq vedrənin yanındakı boş vedrəyə. Beləcə, qəfəsdəkilər ondan əvvəlkilərin aqibətini, necə boğulub öldüyünü görür, sakitcə dayanıb öz növbələrini, öz ölümlərini gözləyir. Bir neçə günün içində vedrə-vedrə ölü siçan, siçovul daşıyıb atdılar nazirlikdən... Nə fərqi, ya elə, ya belə, siçanlar, siçovullar öldü, amma çanaq mənim başımda sındı. Məlum məsələdi ki, mən day o nazirlikdə işləyə bilməzdim, adım pis çıxmışdı, day məni nəinki başqa nazirlikdə, heç "JEK"də də işə götürməzdilər. Ancaq o vaxt özümü quzu kimi sakit aparıb dilimi qarnıma qoysaydım, yəqin ki, indi mən də xarici ölkələrin birində at oynadırdım. Belə... – dərindən köks ötürdü. – Qismət...

– Qismət yox, ağılsızlıq... Mənim əlimə elə bir imkan düşə, heç dillənərəm?.. Siçan-pişiyi yox e, istəyir gözümün qabağında lap dədəmi-anamı şaqqalasınlar...

Araq şüşəsi boşalmışdı, Hüseyn qədəhindəki arağı sağlıqsız-filansız dinməzcə içib sir-sifətini turşutdu, ağzına atmağa bir şey tapmayıb süfrədəki çörək tikəsini götürərək iylədi, sonra çörəyi çeynədi:

– Kənardan asan görünür, ancaq hərdən bıçaq sümüyə dirənir, dözə bilmirsən.

Əşrəf əl çəkmədi:

– Başımı kəssələr də dillənmərəm!.. – dedi.

– Bəs, rəngsazlığı nöşün atdın?.. – Hüseyn onu çaşdırmaq istədi. – Arendaçının yanından nöş çıxdın?..

– O əclaf mənim başımı yox, pulumu kəsirdi...

Hüseyn siqaret yandırdı:

– Ay Ağlaşma, yəqin elə başlar var ki, elə kəsilməyi məsləhətdi... – dedi və yandırdığından sinədolusu, dərin bir qullab vurdu. – İndi hərdən, təsadüfən keçmiş iş yoldaşlarımla rastlaşanda qaçıb gizlənirəm. Ya da özümü elə aparıram ki, guya, tanıyıb-eləmirəm onları, birinci dəfədi görürəm, guya, mən də heç mən deyiləm, tamam ayrı, başqa, yad adamam... Yadı qınamağa dəyməz, adam büdrəyəndə bir də gözünü açır ki, nəinki dost bildikləri, yaxınları, qohum-əqrəbası da yoxa çıxıb, cırıb aradan...

– Hə, vallah, elədi... Ancaq özü yıxılan ağlamaz...

– Kim dedi ki, mən yıxılmışam?

– Özün...

– Mən yıxılmışam yox, büdrəmişəm dedim, yaxşı qulaq as... Nolub mənə şükür Allaha, dim-dik dayanmışam, süfrədə də arağım, qayğanağım, çörəyim, bərəkətim... – sadaladıqlarından heç nə qalmadığının, süfrədəki hər şeyin yeyilib-içilib qurtardığının fərqinə varsa da, üstünü vurmadı. – Mıxı mismar eləyən, o kişidi... – şəhadət barmağını göyə tuşladı. – Hər şey qabaqdadı, biz fikirləşdiyimiz kimi deyil heç nə... Hələ bilmək olmaz axırda kim ağlayacaq, kim güləcək... – qısaca ara verib əlavə elədi. – Ala, ay Ağlaşma, əgər sən məni yıxılan hesab eləyirsənsə, demək, dərin adam deyilsən, qanmazın yekəsisən...

– Hə, vallah!.. – Əşrəf onunla söz güləşdirməməkdən ötrü başını tərpədib təkrarladı.

Hüseynin kefi pozulmuşdu, kədərli-kədərli qımışdı:

– Ağlaşma ki, Ağlaşma... Yanundan yel ötən kimi zırıldayırsan... Amma mən o siçanlardan danışanda heç tükün də tərpənmədi... Hələ məni borclu da çıxartdun... Deyəsən, sən ancaq öz gününə ağlayırsan axı...

Əşrəf bu dəfə söz tapa bilməyib susdu.

* * *

Arxasınca nə qədər kefindi deyin, yalan-gerçək as-kəs – hərçənd çox vaxt boş yerə gileyləndiyini tez anlayırsan, əslində Təpəgözün yolagedən, yolaverən adam olduğunu, özlüyündə, içində özündən nahaq çıxdığını anlayıb bir balaca düşünürsən və durduğun yerdəcə qanını qaraldan işlərdə ona haqq qazandırırsan, buna da el arasında qaşınmayan yerdən qan çıxarmaq deyirlər – lakin yenə Allah Qasimə çansağlığı versin, onda nə kəramət varsa, bu evdə

sidq-ürəklə nə arzulasan, həyata keçir, baş verir. İntəhası, gərək həqiqətən ürəkdən istəyəsən... Yoxsa, buna necə inanmaq olardı, nə təhər yozmaq olardı? Uzanmışdı çarpayısında elə gözüyumulu, hiss eləyirdi ki, səssiz-səmirsiz içəri girən Zəhradı. Kənddə iki cüt, bir tək adamın yaşamağı yalnız buna görə ürəkaçandı ki, gözdən oğurlanıb üsulluca istədiyin evə gedə bilirsən. Hələ üstəlik həmin evin yataq otağına da girirsən – amma bu evdə yataq, qonaq otağı deyilən şey şərti idi – heç kəsi duyuq salıb-eləmədən... Yəqin Qasim evdə yox idi, Təpəgöz it kimi iy bilir, evdə olsaydı, Zəhra həyət qapısını açmamış, yerli-yersiz hay-küy salıb gəlini, gələni ürküdərdi.

Qımıldanmırdı, gözlərini açmırdı ki, birdən Zəhra utanar, işlər düzəldiyi məqamdaca korlanar və gələn çıxıb gedər. Onsuz da nə gözlərini açmağa, nə də qımıldanmağa ehtiyac vardı. Qadın dinməz-söyləməz soyunub onun yanına, lap dəqiqi, üstünə uzananda gözlərini açmağa ürək eləməyən az qaldı o dünyalıq olsun, qalın, uzun, qara hörüklər özünü yuxuluğa vuranın boynuna dolanmışdı, qadının döşlərinin muncuğa bənzər yupyumru gilələri onun tüklü sinəsinə dəyəndə vəcdə gəlsə də, yenə son gücünü toplayıb ölü kimi tərpənməz qalmaq istədi ki, üstündəkini narahat eləyib bəri başdan utandırmasın, lakin yəqin ki, bəri baş yox sonluğa yaxınlaşırdı işlər, daha utanmaqdan da keçmişdi. Başa düşürdü ki, gəlini qorxudub-ürkütməmək istəyi bəhanədi, sadəcə, hələ ki, üstündəkini bərk-bərk qucaqlayıb sümüklərini şaqqıldatmağa, döşlərini, boyun-boğazını əmib gömgöy göyərtməyə qıymırdı. Həm də sevinirdi ki, nə yaxşı bu dəfə yerinə maykasız girib. Elə gözü yumulu-yumulu ehmal-ehmal əl atıb dizinə çatan alt paltarını birtəhər topuğunacan aşağı saldı. Di gəl, deyəsən, gözünü açmalı olacaqdı, hissi, duyumu onu yarı yolda qoymuşdu, aldatmışdı; qadın tamam soyunmamışdı. Çünki heç vaxt qadın təmasından onun qıdığı gəlməmişdi. Adətən yataqda qızışıb ağlı yerindən oynayan qadının zərif iniltisi, zəif "af-ufu" da gəlməli idi, ancaq üstündəki cınqırını belə çıxartmırdı. Yəqin qadın da ondan həya eləyərək birtəhər canını dişinə səxib hələlik dözürdi. Ehtiyatı əlbən vermirdi ki, kimsə səs eşidib duyuq düşər. Lakin həyasına bürünüb səssiz qalan get-gedə kobud, ağlasığmaz hərəkətlər eləyirdi üstündə, bu da yəqin çoxdandı kişi görməməyin, kişi üzünə həsrət qalmağın əlaməti idi. Dırnaqları da uzun idi gəlinin, onun sinəsinə batdıqca incidirdi. Bircə çıxış yolu qalırdı; fırlanıb qadını altına salmaq və onu öz istəyinə – həm də gəlinin istəyinə – tabe elmək... Daha onun nazı ilə oynamağa dəyməzdi, tələyə düşəni ram eləmək məqamı idi. Ancaq tələ demək də düzgün deyildi buna, olsa-olsa, qapısı açıq qəfəsdi. Elə bir qəfəs ki, onun ləzzəti, onun kefi, onun dadı bütün azadlıqlardan üstün olur. İçəridəki azadlıq çöldəkindən gözəgəlimlidisə, özünə zəhmət verib özgə yerlərdə cənnət axtarmağa nə gərək vardı? Amma deyəsən yaman dərinə getmişdi, özü haqqında da çox yüksək fikrə düşmüşdü; qəfil üstündəki onun burnunu, ya lap burnunun içini dişləyəndəsə gözlərini açıb dik atıldı...

Bu, qəsdən, nazla dişləmək deyildi, qırmızı xoruz sinəsinin üstünə qalxıb onun burnunun içini dimdikləyirdi. Onun yerindən sıçramağıyla xoruzun qa-

nadlanıb, uçub-qaçıb qapıdan çıxmağı bir oldu. Durub sövq-təbii qaçanı tutmaq istəyəndə yerlə sürünən alt tumanı ayaqlarına dolaşdı, əllərini havada oynadaraq təpəsi üstə yerə dəydi. Yəqin Qasim hindən yumurta götürəndə xoruz girəvə tapıb dəmir torlu yerdən həyətə çıxmışdı.

Alt tumanını yuxarı çəkib burnunu ovuşdura-ovuşdura – bilmirdi harasını sığallasın, əslində ən çox ağrıyan yeri haradı – artırmadan həyətə düşəndə Qasim mat-məəttəl xəbər aldı:

– Noldu sənə? Nə dambadurum düşmüşdü içəridə?..

– Heç nə... Qırmızı xoruz burnumun içini dimdiklədi... – kəkələdi qeyri-ixtiyari. – Yıxıldım... Kravatdan...

Qasim oturduğu yerdəcə ətrafa boylandı:

– Nə xoruz, toyuq-cücə nə gəzir burda?..

– Yəqin hardansa bir dəlmə-deşik tapıb, yerindən çıxıb da... – Əşrəf Qasimlə üzbəüz əyləşdi. – İndicə qovdum otaqdan...

Qasim qımışdı:

– Get əl-üzünü yu, əyninə paltar geyin, gəl bir çay iç... Yəqindir ki, qara basıb səni...

Əşrəf diqqət kəsildi:

– Nolub, mənə birtəhər baxırsan? – indi yadına düşdü ki, şalvarsız düşüb həyətə, ancaq daha üstünü vurmayıb rahat əyləşdi kətildə. Tez-tələsik yerindən durub şalvar geyinməyə qaçmağı özünə sığışdırmadı. – Yaydı da, gərək bir-birimizi yola verək... – çılpaqlığına haqq qazandırdı.

– Həlbət ki... Hər dala şalvar yaraşmır... – məzələndi Qasim. – Sözüm onda deyil, deyirəm, mən heç, birdən Nabat arvad-zad gəlib çıxar, biabır olarıq... Bu gün tezdən gəlməyib, yəqin hardasa başı alış-verişə qarışıb... – tək-təkcənə gözü də əyilib çəpləşəntəhər oldu danışa-danışa. – Adə, sənin burnun da qanayıb ki... – sifətini bürüyən təbəssümə ram olduğundan ağzı qulağının dibinə getdi, deyəsən kefi yaxşı idi Təpəgözün.

– Hanı? – Əşrəf baxışlarını yayındırıb təzədən əlini burnuna aparanda gördü ki, doğrudan da burnu qanayıb, lakin cızılmış yerdən qan axmır, yalnız yaranı bərk-bərk sıxanda zərif qan ləkəsi qalır barmağının ucunda və önündəkinin bircə gözü ilə burnundakı, burnundakı da yox, az qala burnunun içindəki, deşiyindəki cızığı sezməsi mat qalmalı idi.

– Ac toyuq yuxusunda darı görər, sən nə görürdün ki, aləm qarışdı otaqda birdən-birə?

Əşrəf öz-özündən xoflanıb qaşqabağını salladı:

– Yuxu-zad görmürdüm?..

Və tez-təlsik durub quyunun başındakı krantın altında yuyunmağa getdi ki, Təpəgöz onu çox sorğu-suala tutmasın...

* * *

...Amma “xoruz” əhvalatını tez yaddan çıxartdı, çünki Hüseynin ona ürəkdirək verib: “Allah kərimdi” – deməsindən ürəklənmişdi. Bayıra çıxan kimi gözü Zəhranı axtarırdı, lakin qadınla rastlaşmırdı ki, rastlaşmırdı. Heç Vəlinin dükanına da gəlmirdi Zəhra. Neçə kərə qəsdən ürkək-ürkək, ürəyi əsə-əsə dəmir darvazasının yuxarısına bayraq sancılan evin qabağından da keçmişdi, di gəl, sakitlik, səssislik, təklik, tənhalıq idi, nə qapı açılırdı, nə içəridən, həyətdən səs-səmir gəlirdi. Beləcə, neçə gün marığa yataraq hərlənib-fırfanıb kor-peşman qayıdırdı evə. Qasim də adətən ondan heç nə soruşmurdu. Hara getdin, hardan gəldin, kimi gördün, nə danışdın... İnsafən qoca öz işində, öz aləmində idi, heç cümə günü olmayanda da söhbət eləməklə arası yoxdu. Axır vaxtlar elə bil qaradinməz olmuşdu. Yox, lal-kar oturmazdı, lakin yalnız nəsə lazım olanda kəlmə kəsərdi... Çünki başı qarışıq idi, həmişə məşğul idi. Gah evdə, gah həyətdə, gah meşədə, gah da xəstələrin yanında... Bir də görürdün ki, səhərdən-axşamacan artırmada bardaş qurdu, səbirlə həvəngdəstədə otları döyüb əzməyə başladı, otlar da suyu çıxanacan əziləndən sonra get-gedə rəngini dəyişdi. Hərdən kişiyə yaxınlaşıb kömək eləmək istəyəndə qoymurdu ki, sən bilən iş deyil. Bircə toyuq-cücəyə dən, su verəndə, ağacları, ləkləri sulayanda əlindən tuturdu Qasimin. Bir də ki, süd, çörək gətirib yumurta aparan Nabat arvad hərdən kirli paltarları, yorğan-döşək ağlarını yumaq üçün gələndə əl-ayaq verirdi arvada, yalan olmasın axşamacan su daşıyırdı, boş vedrəni doldurub gətirirdi, ağlarla dolu vedrəni, həyətdəki isti, yanar ocağın üstünə qoyurdu. Gözləyirdilər vedrədəkilər qaynasın. Qaynayan yorğan-döşək ağlarını, ağ maykaları Nabat arvad oxlovabənzər, uzun ağacla duru sabunlu isti suyun altına sıxaraq, qarışdıraraq “bişirirdi”. Ev-eşiyi isə özü tək yığışdırırdı, silirdi, süpürürdü, yuyurdu, bu işdə heç kəsin köməkçisi deyildi, özü “sahibi ixtiyar”dı. Qara köynəyini çıxardıb qalardı eyni rəngli maykada, damağında da siqaret... Yarımçıq vedrə, iri süpürgə yanında, yəqin ki, Təpəgözün haçansa məxməri qış alt paltarı olan, amma ömrünü başa vurmuş yekə əski də vedrənin içində... Bütün qabiliyyətini göstərib, bütün güc-qüvvəsini işə salıb evi – otaqları, artırmanı, artırmaya bitişik mətbəxi, taxta pillələri – elə yuyub təmizləyirdi ki, əlli ilin arvadı paxıllıq eləməsəydi, ona ürəkdən və bərkdən layiqli bir: “Əhsən!” deyərdi.

Ancaq bir gün bayraqlı darvazanın qabağından keçəndə ürəyi titrədi, deyəsən bəxti gətirmişdi. Zəhranı görmədi, yox... Səs-səmir də gəlmirdi. Həmişəki kimi sakitlik idi. Bircə fərq vardı ki, evin ikinci mərtəbəsinin bayıra baxan pəncərəsi – həmin hissədə hasar yox idi, divarın bir tərəfi hasarı əvəz eləyirdi – taybatay açıqdı. Düzdü, içəri qaranlıq olduğundan, tül pərdənin arxasından heç nə görsənmirdi – başını qaldırıb nümayişkaranə boylanmaq da yaxşı düşməzdi, düzgün anlaşılmazdı, diqqəti cəlb eləyərdi – di gəl, yenə də az-çox “irəliləyiş” idi bu. Lakin bunun özü də “son” deyildi, hələ digər “irəliləyiş” də vardı; mavi darvazanın yanındakı uzunsov, taxta skamyada keçəl başına ağ fəs qoymuş yaşlı bir kişi oturaraq fikrə getmişdi, qəhvəyi əl ağacını da

qoymuşdu yanına, skamyanın üstünə... Kəsərsiz günəşin qabağını kəsən ağ, pərqu buludlar qocanı gündən qoruyurdu.

Əşrəf ayaq saxlayıb oturana yaxınlaşdı, astadan salam verdi.

Qoca diksinsə də onun salamını aldı.

– Əleykiməssalam...

– Allah şəhidimizə rəhmət eləsin...

– Ölənlərin behiştlik...

– Cənnətin ən uca məqamındadı şəhidlərin yeri... – haçansa babasından eşitdiyini dilinə gətirdi.

Qoca bu dəfə nəsə deməyə macal tapmadı. Yuxarıdakı açıq pəncərənin pərdəsi aralandı, Zəhra başını bayıra çıxartdı, hörükləri çiyinlərinin üstündən sinəsinə atılmışdı. Əşrəf gözucu onu görən kimi yerində mıxlanıb qaldı, sanki yayın istisində, bürküdə don vurdu onu, qurumuş boğazını arıtlamağa belə gorxdu ki, birdən nəfəsi gedər və... gəlməz.

Zəhra əlindəkini sıxıb, yumurlayıb, bürməliyib, yerə atıb:

– Ay Lələ, qoy o yetim bu pulu götürüb getsin... Yazıqdı, ac-zad olar birdən... kor Qasimin evində qalır, kimsəsizdi... – bərkdən dedi və pərdənin arxasında görünməz oldu.

Yuxarıdan atılan yumurlanmış pul əvvəlcə qocanın başına dəydi, ordan sağ çiyninə, sonra da ayağının yanına düşdü. "Don vuran"ın başına sanki bir vedrə də qaynar su əndərdilər, amma yenə də qımıldana bilmədi. Düzdü, bu vaxtacan həmişə üzüyola olmuşdu, əyilmişdi, lakin indi o incə ovucda əzilmiş pul min bir dərdinin dərmanı ola, yenə onu yerdən götürməzdi. Heç kəs də məcbur eləyə bilməzdi onu əyilib pulu götürməyə... Tərs kimi sakitcə yoluna davam eləməyə də halı yox idi.

Deyəsən qoca onun qırımından pərt olduğunu anlayıb çıxış yolu tapdı; oturduğu yerdəcə hıqqana-hıqqana, güc-bəla ilə əyilib, əlini uzadıb üstüaçıq yay ayaqqabısının yanına düşən pulu birtəhər götürdü, bir xeyli key-key kağıza baxandan sonra yekə, quruyub qaxaca dönmüş əllərinin arasında pulu səliqə ilə sayaladı, qırışığını düzəltdi, əl ağacını yerə basaraq zorla ayağa durdu və pulu şəstlə, lakin əli titrəyə-titrəyə Əşrəfin qara, qısaqol köynəyinin döş cibinə basdı, əli əsdiyindən pulu qoyanda az qala onun köynəyinin cibini cıracaqdı.

– Götür, bala, götür, yavanlığa verərsən, halal xoşun olsun...

Əşrəf qeyri-ixtiyari dinməz-söyləməz dönüb ləngər vura-vura, nədənsə, birdən-birə axsaya-axsaya yoluna davam elədi, ancaq axsamaq, ləngər vurmaq öz yerində, bu adi yeriş, adi gediş, adi dönüş deyildi, çünki gedənin yolu yox idi, heç anadan olandan hamar, düz yolu olmamışdı, həmişə üzüaşağı getmişdi, yuxarı qalxdığını zənn elədiyi məqamlarda belə özünü aldadırmış. Sərxoştək gah aşağı, gah geri, gah sağa-sola ləngər vururmuş, yaşının da üstünə yaş gəlmirmiş, bəzən əksinə, üstündən gedirmiş, illər ötüşdükcə uşağa dönürmüş. Pəncərədəki pərdəni aralayıb hökm verəni də ilk dəfə görəndə uşağa çevrilmişdi, balacalaşıb-balacalaşıb Zəhranın əlindən tutduğu qızcığaz boyda

olmuşdu və çox istəyərdi ki, "Hökm verən" onun da əlindən tutsun, onunla da dükana gedib-gəlsin, ona da dükandan saqqız alsın, dondurma alsın, tum alsın, şirniyyat alsın...

"İlahi, görəsən Zəhra hardan bilirdi Qasimin evində qaldığımı, kimsəsiz olduğumı, kimdən eşitmişdi?" – içi doğrana-doğrana düşündü Əşrəf və bu dəm qulağına keçmişdən səs gəldi: "Kimsəsiz adam yoxdu, hamının Allahı var"... – Falçı Xeyransanın səsi idi. Razılaşmadı Əşrəf: "Mən həqiqətən kimsəsizəm, çünki mənim Allahım yoxdu! – qəflətən ağlına gələn fikirdən bütün bədəni keyidi, yolun qırağındakı, qurumuş susuz arxın üstünə atılan iri kötüyə çöküb dizlərini qucaqladı. – Heç kim sevinməsin, mənim Allahım ona görə yoxdu ki, Allah özü yoxdu, nağıldı, uydurmadı".

Cəmi bircə dəfə bərkdən ağlamışdı, yana-yana danışaraq ağlamışdı. Xəstəxanada, arvadının ölüm xəbərini eşidəndə... Onda da tələf olan oğlu üçün ağlayırdı, bir də öz gününə ağlayırdı, bilirdi ki, yenə küçələrdə qalacaq... Yaşın üstünə yaş gəldikcə səfil-sərgərdan yaşamaq çətinləşirdi, hər yaşın öz işi, adəti var, cavanlıqda özünə rəva gördüklərinin çoxunu illər keçdikcə ixtisara salmalı olursan.

Adətənsə səssiz göz yaşı tökərdi, için-için... Bu dəfə elə ağlayırdı ki, elə bil özü ölmüşdü, özü öz üstündə ağlayırdı, özü özünə ağı deyirdi. Hərdənbir sövqtəbii əlini dizinə də vururdu. "Mən o dünyada da dua eləyəcəm ki, sən ağ günə çıxasan"... – keçmişdən gələn səsə yanıqlı-yanıqlı cavab verdi. "Falın düz çıxdı, duansa qəbul olunmadı, Falçı Xeyransa, yəqin məndən ötrü olunan duanı qəbul eləyənin yeri boşdu, nə deyirsən de, ha boğazını yırt, istəklərin havadaca itib gedir, eybi yox, əgər sən danışan kimi qiyamət günü varsa, mən özüm yapışacam məni sorğu-sual eləmək istəyənlərin yaxasından, hərgah dediklərin nağıldısa, yoxdusa, onda ölərkən rahat verəcəm son nəfəsimi ki, sükür, hamının sonu puçmuş, heç kəsə həsəd aparmağa dəyməzmiş, beş günlük yalan dünyada istər şah ol, istər nökər, fərq eləməz, sonda sümüklərin də əriyib-çürüyüb gedəcək".

Deyilənə görə, balacalaşmış – ən əsası, su qıtlığından, iş-güc olmadığından sakinləri yarıbayarı azalmış – kəndin bir şeyi yaxşıdı ki, yan-yörədə, ətrafda heç kəs yoxdu, tünlükdə beləcə arxayın oturub az qala ağı deyə-deyə göz yaşı axıtsaydı, hamı işini-gücünü atıb yığışardı başına, biri yana-yana: "can" deyərdi, o biri məsxərəyə qoyardı. Axırda da polis gəlib yığılanları dağıdardı, onun da qolundan tutub, aparıb basardı dama, ya da bəxti gətirsəydi, elə ordaca, ayağa qaldırıb başına bir şillə, dalına bir təpik vuraraq qovardı, özünə də möhkəm-möhkəm tapşırardı ki, cəhənnəm ol burdan, ağlını başına yığ, bir də şəhərin ortasında meymunluq eləyib camaatı başına yığma!.. Kənddəsə, kötüyün üstündə nə qədər oturub ağladığını bilmədi, amma nə xəbər tutan oldu, nə başının üstündə dayanan... Bu fani dünyada deyəsən təkcə ağ buludların ona rəhmi gəlmişdi; günəşin qabağını kəsmişdi ki, gün ağlayanın saçları seyrəlmiş "başını deşməsin".

Beləcə, oturub ağladı, ağladı, öz-özünə danışıb göz yaşı tökdü, yorulub heydən düşdü və yorğun-arğın ayağa qalxıb yavaş-yavaş, nəyəsə ilişib büdrəyəcəyindən qorxurmuş kimi, yerə baxa-baxa evə gəldi. Sakitləşmişdi, lakin evə gələ-gələ nədənsə, özlüyündə Hüseyni də, hələ üstəlik Qasimi də söyürdü. Başına gələnlərdə onları da günahkar, suçlu sayırdı. Bəs necə!.. Hüseyn gətirmişdi onu bu kəndə, ürcah eləmişdi Təpəgözə, heç yerində iynə ucu boyda nur, işıq görsənməyən evə... Bədbəxtin yanında yaşayan elə bədbəxt olar, qaramat yağar ömrünə, həyatına... Ürəyində əsgərlik yoldaşı ilə Təpəgözü asıb-kəsənin ağlına gəlmirdi ki, geri boylansın, bura gələnəcən hansı qaranlıqlardan, zülmətdən keçdiyini yadına salsın. Nə boylanmağa həvəsi vardı, nə də başını qaldırmaq istəyirdi, istəmirdi Təpəgöz onun ağladığını bilsin. Düzdü, daha öyrəşmişdi, "peşəkar" idi, göz yaşı axıtmaqdan utanmırdı. Amma bu dəfə ona elə gəlirdi ki, Təpəgöz onun ağladığını bilsə, dərinə gedib göz yaşlarının səbəbini də öyrənəcək. Ən azı, soruşacaq ki, nə xəbərdi, nolub, nöşün ağlayırsan? Bu dəqiqəsə, Əşrəfin heç nə uydurmağa həvəsi yox idi. Yaxşı ki, Qasim evdə deyildi. Tez quyunun yanına gəlib əl-üzünü yudu, sir-sifətini, boyun-boğazını silib qurulamamış, evin qabağına gəldi, qrafindəki suyu başına çəkib yarıladı, qalxıb pal-paltarlı çarpayıya uzananda fərqinə vardı ki, Təpəgözün otağına girib, onun yerində uzanıb. Durmağa ərindi, bəlkə cəhd göstərsəydi də ayağa qalxa bilməzdi, çünki birdən-birə bədəninə üşütmə gəldi, nazik örtüyü boğazınacan çəkib büründü və gözlərini pərdəsiz pəncərəyə dikdi. Pəncərədənsə qəribə, əcaib, uyarsız kölgələr görsənirdi, şirdimi, pələngdimi, bəbirdimi – hansısa heyvanın – qəzəbli nərəsi eşidilirdi, o qəzəbli nərənin içinə adam səsi də qarışmışdı, qarışıq səs idi, sözləri ayırd eləmək olmurdu. Qorxudan gözlərini geniş açmaq istədi, elə bilirdi gözlərini yumsa, kirpiklərini bir-birinə sıxsa, başına böyük fəlakət gələcək, elə bir fəlakət ki, bir də heç vaxt gözlərini aça, ayıla bilməyəcək, üşütmənin yerini hərarət tutdu, bədəninə istilik gəldi, alnında tər pucurlandı, qeyri-ixtiyari sol əlini örtüyün altından çıxaranda vahimələndi, əli biləkdən kəsilmişdi, yox idi. Görmək istəmirmiş kimi, tez qolunu örtüyün altında gizlətdi. Pəncərənin qabağındakı nərəli, qarışıq səslərsə nəinki artırdı, indi pəncərəni bərk-bərk döyürdülər, çərçivə titrəyirdi, şüşə az qalırdı çilik-çilik olsun, pəncərəni döyənin səsi, nərəsi öz yerində, indiyəcən görmədiyi, insan, heyvan, ot-ağac qarışığından yaranan ağlasığmaz əksi də gözünün qabağına gəlirdi. Gözünün önünə gələnin qulaqları yoxdu, gözü bir dənəydi, ağzı da bütün sifətini örtmüşdü. Yepyekə... Gah adama, gah əcaib məxluqata çevrilən daş, ot, ağac olanda da qəzəbli idi, hərəkət eləyirdi, ətrafda nə vardısa qırıb dağıtmağa çalışırdı, onun üstünə cumub parça-parça eləmək istəyirdi. Lakin yəqin qorxub sarısını udanın, girməyə siçan deşiyi axtaranın halına yanan gözəgörünməz qüvvələr də vardı ki, qəzəblilərin ona yetişib xətər toxundurmağına imkan vermirdi.

Qolunu örtüyün altından çıxardıb bir də baxdı; yox, əli yerindəydi. Bütün gücünü toplayıb ayağa durdu ki, yayın ortasındakı bu günəşsiz, boz havada işığı

yandırıb pəncərənin önündəkiləri qorxutsun, qalxıb işığın düyməsini basmağa çalışandasa ağlına gəldi ki, işıq, lampa ona kömək eləməyəcək, ən yaxşısı başı, əl-ayağı salamat ikən dabanına tüpürüb qaçmaqdı. Asta qaçan namərddi, onsuz da indiyəcən ömrü hədər getmişdi, mərdlik-filan eləməyə imkanı olmamışdı. Səksəkə içində götürülüb güllə kimi artırmaya çıxdı, taxta pillələri bir addıma düşərək hoppandı. Elə köklənmişdi ki, arxasına baxmadan düz şəhərəcən, ən azı, rayon mərkəzinəcən qaçardı. Ayaq saxlamaq, dayanmaq ağlına gəlməzdi. Bəlkə də bəzən doğrudan-doğruya adama qaçmaq, yüyürmək gərəkdi, qaça-qaça yüngülləşirsən, bir də görürsən ki, ayaqların yerə dəymir, uçursan. Qanadların yoxdu, di gəl, qanadlılardan, quşlardan da yuxarıda, ucadasan, buludların üstündəsən, ayağının altında bomboz buludlar elə sıxdı ki, aşağı baxanda heç nə görmürsən. Bəlkə də heç nə görmək istəmirsən, çünki ətrafındakı bəyazlıq, hüdudsuz boşluq səni ağuşuna alıb əridir, bütövə qovuşmağın ləzzətindən, rahatlığından birdəfəlik, əbədi hər şeyi unudursan, əbədiyə qovuşub, əbədidə əriyib özünü "itirirsən" və... əbədi olursan.

Lakin buna imkan olmadı. Ən azı, nə rayon mərkəzinəcən qaçmağa, nə də qanadlanmamış uçmağa...

Evin qabağındakı masanın arxasında Qasimin sakitcə oturub çay içdiyini görcək, toxtadı. Kişi heç nə soruşmasa da, Əşrəf onun baxışlarından oxuduğu suala cavab verdi:

– Çaşıb sənin otağına girmişdim, sənin çarpayına uzanmışdım... – çay içənlə üzbəüz əyləşib dərindən nəfəs aldı, sanki ürəyi-ciyəri qopub ağzından düşəcəkdi. – Əcaib-qəraib bir sürü məxluqat da qəzəblə pəncərəni bərkdən-bərkdən döyüb içəri girmək istəyirdi. Sən bu boyda səs-küyü, hay-harayı, nərəni eşitmirdin?

Qasim armudu stəkandakı yarımçıq çayını nəlbəkiyə qoyub arxayın-arxayın gülümsündü:

– Nə səs-küy, yəqindir ki, yuxu görmüsən...

– Yox... – Əşrəf razılaşmadı. – Yuxunu gözübağlı görərlər. Mənsə gözümü yummamışdım. Yuma bilmirdim... Çünki qorxudan zəhrim yarılmışdı...

– Onda fikirləş gör, bu gün neynəmisən ki, gözünə cin-şeytan görünüb?..

– Heç nə... – fikrə gedib davam elədi. – Öz-özümə bərkdən-bərkdən demişəm ki... Dedim ki... – susub tərəddüd elədi ki, birdən müsahibinin acığı tutar, lakin nəhayət, qərara gəlib sözünün canını dedi. – Allah yoxdu...

Qasim gözlənilmədən pıqqıldadı:

– Niyə?

– Bayraqlı evin qabağında oturan o qoca kişi var e... – kişini cəmi bircə dəfə görsə də, elə dedi ki, guya, neçə kərə salamlaşıb hal-əhval tutmuşdu onunla.

– Lələ?..

– Sən onu tanıyırsan?

– Həlbət ki... O, kəndimizdə ən yaşlı adamdı indi. Onun oğlu cavanlıq dostum idi mənim.... Sonra illər ötdü, hərə getdi öz işinin dalınca... Bu kənddə

böyüklü-kiçikli, arvadlı-kişili hamı o qocaya “Lələ” deyir. Abırlı adamdı. Nəvəsi də şəhid olub davada. Qarabağda... – Qasim diqqətlə Əşrəfin üzünə baxdı. – Neyniyib ki, o kişi sənə?.. Onun səninlə nə alış-verişi? O, hara, sən hara?..

– Heç nə, o evin qabağından keçirdim, yaxınlaşıb cibimə pul qoydu ki, kasıb adamsan, çörək alarsan özünə...

– Götürməzdin də...

– Özümü itirdim... Bir anda dilim-ağzım qıfıllandı. Elə bil məni don vurdu. Yerimdəcə quruyub qaldım, tərpənə bilmədim... Hər şey birdən-birə oldu, belə şey ağlıma gəlməzdi axı...

– Yaxşı, hər nə isə, verən verib, alan alıb, Allahın bura nə dəxli?..

Əşrəf udqundu:

– Heç... Nəsə pis oldum... – bir anlığa deməyə söz tapmayıb karıxdı. – Nolub mənə axı, mən kasıbam, dövlətliyəm, kimə nə dəxli?.. Ancaq dilənçi-zad deyiləm ki... Pulu saxlamışam, o tərəflərə yolum düşəndə aparıb qaytaracam özünə... – bu sözlər elə indicə ağlına gəldi, köynəyinin döş cibini eşələyib pulu Qasimə göstərdi.

– Kimə?..

– Lələdi-nədi ona!.. – hikkə ilə dedi.

– Mən sənin yerinə olsam, bundan sonra o həndəvərdə az-az görünərəm... – əslində onsuz da pərt olmuş, çırtma vursan qanı çıxan müsahibini incitməməkdən ötrü qısaca və kəsəsinə: “görünmərəm” demədi.

– Heç kəs, heç kəsin yerinə ola bilməz... – Əşrəfə elə gəldi ki, lapdan onun yerinə başqası dedi Qasimə bu kəlmələri.

Qoca susub dillənmədi, yarıladığı çayın axırına çıxıb əlindəkini nəlbəkiyə qoymağı belə unudaraq fikrə getdi.

– İçi ən yaxın qohum-əqrəbamqarışıq mənim hamıdan zəhləm gedir... – Əşrəf gözlənilmədən sükutu pozub dili-ağzı deyənə qulaqlarının inanmadığı şeylər söylədi, sanki kimsə diktə eləyirdi dediklərini ona, ona nəsə olmuşdu elə bil, bayaqdan öz sözünü, öz istədiyini deyə bilmirdi, ağlına gələnlər dilindən çıxanda başqa sözə, başqa kəlməyə çevrilirdi. – Adamlar yaranmasaydı, dünya indikindən qat-qat gözəl olardı...

– Sənin qohum-əqrəban da var?..

– Mən göydən səbətlə düşməmişəm ki... – Əşrəf bir anlığa çaşıb qaldı. – Niyə yoxdu?.. Olub da haçansa... – sonra yavaşca, çəkinə-çəkinə, ürkək-ürkək əlavə elədi. – Yəqin...

– O sözün haqdı ki, adamlar olmasaydı, təbiət rahat nəfəs alardı, öz-özünü təmizləyərdi, saflaşardı, nəsli kəsilmiş qədim heyvanlar, uçan balıqlar, üzən quşlar təzədən yaranardı, okeanlar, dənizlər, çaylar dupduru durulardı, bulaqların gözü tutulmazdı, meşələr qırılıb səhraya çevrilməzdi, qurd quzu ilə otlayardı, hər şey öz-özünə nizamlanıb axarına düşərdi, mizan-tərəzi pozulmazdı...

Qasimin sözlərindən heç nə anlamasa da, qocanın onunla razılaşmağına sevindi, düz-əməlli məktəb-zad oxumasa da, özü-özünə dünyanın altından-

üstündən başı çıxan, bilikli, dərrakəli adam kimi görsəndi. Bu yerlə-göylə əlləşən kişi onun bir kəlmə sözündən ilhamlanıb bir quranlıq söz danışırdısa, deməli, elə Qasimi danışdıran da az aşın duzu deyildi...

...Bəlkə elə buna görə üzdə Qasimlə razılaşmasa da dərinə getmədi; o gündən bayraqlı ev tərəfə ayaq basmadı. Vəlinin dükanına da az-az gedirdi, ümumiyyətlə, evdən, lap dəqiqi, həyətdən bayıra nadir hallarda çıxırdı, onda da nədənsə, qorxa-qorxa, yerə baxa-baxa gəzərdi kənddə, tez gedib, tələsik də qayıdardı.

* * *

– Cavanlıqdan xoşum gəlirdi suya baxmaqdan... Oturub arxa baxardım saatlarla, yalan olmasın, səhərdən-axşamacan dinməz-söyləməz, çaya baxardım, göllərə baxardım. Sonralar baxdığım sular get-gedə qurudu. İndi umud ancaq meşəyə qalıb, ora gedəndə qabağıma çıxan balaca göllərə, daha doğrusu, gölməçələrə baxıram, yuxarıdan, dağın kəlləsindən axıb balaca, adsız çaylara qarışan şəlaləyə baxıram. O şəlaləyə ki, qışda “nəfəsini udub” yuxuya gedir. Donur... Meşənin elə yerlərinə gedib çıxıram ki, ora at-eşşək də gedə bilmir, çünki o yolları, o cığırları tanıyan bir əlin barmağı qədərdi...

– A kişi, ehtiyatlı ol e, yaşlı adamsan, Allah eləməmiş, oralarda başına bir şey gələr, sonra neçə ay əldən-ayaqdan düşsək də, səni tapa bilmərik...

– Elə mən də onu istəyirəm. İstəyirəm ki, qəfil ölüb qalım insan ayağı dəyməyən yerdə, heç basdıranım da olmasın, beləcə, qurd-quş yesin meyitimi, əriyib, cürüyüb gedim... Yoxsa, boş-boş vay-şivən, qəbir-filan nəyə gərəkdi? Hərçənd yəqin ki, mən öləndə onsuz da vay-şivən qoparıb ağlayan olmayacaq. Heç istəmirəm qəbrim, başdaşım olsun məzarlıqda... Min-min ölüdən biri olum... Əslində qəbir evi özü də məhdudluqdu, çərçivədi. Əgər ruhun məskəni, məkanı hüdudsuzluqdusa, day qəbir-zad nəyə gərəkdi? Belə getsə, bütün dünya məzarlığa dönəcək... Qoy heç olmasa günahsız heyvanlar, qurd-quşlar meyitimizdən xeyir görsün...

– Sən danışdıqca adamın əti ürpəşir, adam istəyir özünü atsın quyuya...

– Hayıf ki, bizim quyunun ağzı bağlıdı, yoxsa quyunun başında oturub suya baxardım. Düzdü, quyunun ağzını açmaq asandı, gündə beş-altı kərə açıb bağlayırıq, amma nə fayda, ha bax, ha gözünü zillə, gözün qaranlığa alışsa da quyudakı suyu görməyəcəksən. Öz-özündən xoflanacaqsan; bəlkə heç quyuda su-zad yoxdu, əlinə balaca bir çay daşı götürüb aşağı tullayacaqsan, daş suya çatıb, suya düşüb, səs eləyəndə itirdiyini tapmış kimi rahat olub dərindən köks ötürəcəksən. Bilmirəm fikir vermisən, ya yox, hərdən çaşıb bu quyunun suyunu başına çəkirsən, görürsən ki, iyli tamı-zadı yoxdu, duzlu-filan da deyil, əksinə, bal kimi şipşirindi. Özü də bumbuz... Qəfil bir anlığa dadı-tamı dəyişir bu quyudakı suyun. Lap əvvəldən mənə elə gəlib ki, adi quyu deyil bu. Bu quyuya atılıb nəfəs almadan dibinəcən gedə bilsən, orda, suyun altında, quyunun

dibində bir qapı çıxacaq qabağına. O qapıdan keçəndən sonra havasızlığa alışacaqsan, day nəfəs almaq gərək olmayacaq, ətrafına, yan-yörənə baxanda heyrətdən ağzın açıq qalacaq, heç nə qanmayacaqsan, çünki gordüklərini ağlına sığışdıra bilməyəcəksən... Elə sirli qapılar ya dərin dəryaların, çayların dibində olur, ya da yuxarıda, göyün yeddinci qatında... Belə-belə işlər, sirlər, ağlımıza sığışmayan gizlinlər... – Qasim qıyğacı Əşrəfə baxıb xəbər aldı. – Hazirsan?.. Bil ki, bu işdə zor yoxdu, zor şeytanilikdi, qorxub-eləyirsənsə, indidən de, mən işimi bilim...

– Hazıram... – o, usdadına, müəliminə cavab verməyə haşırlaşan şagird ədası ilə diqqətini cəmləyib bircə kəlmə dedi.

Qasim ayağa qalxdı:

– Yenə sənə deyirəm, gərək qorxmayasan, qorxsan bu dəfə də əli ətəyindən uzun qayıdacaqsan. Zəhmətimiz də hədər gedəcək...

– Bildim... Amma məndən asılı deyil ki... Qorxuya necə qalib gəlmək olar axı?..

– Bilirəm, ancaq gərək sən də cəhd göstərəsən, cəhd də yox e, müqavimət göstərəsən, bilmirəm, necə, nə sayaq deyim ki, başa düşəsən, daxili gücün olsun... Bu dəfə mən də sənə kömək eləyəcəm...

– Nə təhər?..

– Ot iyləyəcəksən, çeynəyəcəksən, özüm hazırladığım tütündən çəkəcəksən, düzəltdiyim içkidən içəcəksən...

– Olarsız olmaz?.. Qoy ayıq başla gedim ki, gördüklərim yadımda qalsın...

– Gordün ki, olmadı... Elə zirvədə ilişib qaldın... Sənə kömək, təkan lazımdı... Bunsuz işimiz aşmayacaq... Yaddaşına da çox güvənmə, nə məsləhətdisə, onu xatırlayacaqsan, nə artıq, nə əskik...

– Yaxşı, tütün çəkəndən, ot çeynəyəndən, içki içəndən sonra neyniyəcəm?

– Heç nə, gedib uzanacaqsan mənim yerimdə...

– Olar ki, orda uzanmayım?.. – Əşrəf sarısını uddu.

– Niyə?

– Qorxuram e, orda uzanmağa...

– Pah!.. Mən deyirəm qoxma, bu bəri başdan altına batırıb... – Qasim gülümsündü. – Yaxşı, gedib uzanarsan öz yerində... Səndə günah yoxdu e, binadan, lap əzəldən sənin canında qorxu var... Yəqin uşaqlıqdan da qabaq çox zillət çəkmisən...

– O, kimdə yoxdu ki?.. Hamı qorxur, biri aşkarda, biri gizlin...

Qasim başını tərpətdi:

– Onu düz deyirsən...

Quyunun başından evin qabağına gəlib masanın arxasında üzbəüz əyləşdilər. Qasim əlini sifətində gəzdirib yerində qurcalandı, boğazını arıtlayıb təbəssüm və qayğıkeşliklə Əşrəfə baxdı:

– Əvvəlcə yaxşıca bir çay içib hər şeyi götür-qoy eləyək, sonrasına Allah kərimdi... Bu gecə başlamalıyıq işə, yoxsa gərək iki-üç həftə də gözləyək, bu

gecə yuxarıda qapılar açıq olacaq... Onu yaxşı deyiblər ki, bu günün işini sabaha qoyma...

...Qasim içi paslanmış, boş, dəmir ləyəni döşəməyə qoyanda beyni dumanlanan Əşrəf xəbər aldı:

– Bu nədi?..

– Bərayi-ehtiyat sənin qravatuvun yanına qoyuram, lapdan özünə gəlib görsən ki, ürəyin bulanır, dözə dilmirsən, qaytararsan, qusarsan bu ləyənin içinə... Ancaq neynəyirsən elə, çalış gözlərini yumma...

– Elə danışırsan, guya, bu səfər Aya göndərirsən məni... – Əşrəf xumarlanıb ölgün-ölgün mızıldandı və bütün gücünü toplayıb gözlərini geniş açaraq kirpiklərini bir-biri ilə “görüşməyə” qoymadı.

– Ay nədi ki, Ay ovcumuzun içindədi... Gözlə aydınca görünən uzaqda ola bilməz ki... Nə isə... Çox danışma... Məqamdı... – Qasim belə deyib otaqdan çıxanda əl atıb işığı söndürdü, içəri bədirlənmiş ay işığının umuduna qaldı, qapının ağzında öz-özü ilə danışırmış kimi pıçıldadı. – Allah amanında...

...Və səssiz addımlarla, ehmal-ehmal həyətə düşüb quyunun başına getdi...

* * *

...Heç xəbərim olmadı tavanı necə keçdim, bir də baxdım ki, ulduzların arasındayam. Uzanmışdım, bu dəfə xalçanın üstündə-zadda deyildim, ancaq elə bil məni gözəgörünməz halə ilə əhatə eləmişdilər ki, yıxılmayım, mən o rəngsiz halənin içində rahatca hərəkət eləyə bilərdim, ayağa dura bilərdim, yan-yörəmdə sayrışan ulduzları seyr eləyə bilərdim. Qulağıma qarışıq səslər gəlirdi, ayırd eləyə bilmirdim, ya bayatı idi, ya həzin layla... Amma acıqla deyilənləri apaydın eşitdim: “Sənin buralarda nə işin var, qayıt geri!.. O şeytan səni də yoldan çıxartdı...” Səs çox tanış gəldi, ancaq nə illah elədimsə, yiyəsini, sahibini xatırlamadım. Hələ ki, geri qayıtmaq da öz əlimdə deyildi, axdıqca axırdım. Hələ desən, qanad çalıb əziyyət çəkmədən rahatca uçmaq – həm də heç bir qanadlının yetişə bilmədiyi yüksəkliklərdə uçmaq – xoşuma gəlirdi. Geri baxırdım, boşluq, sayrışan ulduzlar, irəli, yan-yörəmdə yenə eyni mənzərə. Amma bu nəhayətsizliyin içində tək-tənha olmadığıma əmindim, yol vardısa, daha doğrusu, yola çıxmışdımsa, yəqin ki, mənzil başına çatacaqdım. Qulağıma pıçıltı gəldi: “Qırmızı məkanı görmək istəyirsən?” Cavab verməyə macal tapmadım, kimsə mənim yerimə dilləndi: “Yolundan eləmə onu, qoy tez gedib istədiyini görsün, axı biz kəsə yolla, qara dəliyin içindən keçirik, geri necə qayıdaq?”. “Dəlik bizi udmaz?” – çəkinə-çəkinə xəbər aldım. “Yox”... – cavabını eşitsəm də qane olmadım. “Niyə?” – soruşdum. “Çünki sənə izn verilib... – kəlmələri gəldi qulağıma. – Darıxma, istədiyin yerə çatacaqsan”. Amma mən nə istəyirdim, nəyi, nələri, haranı görməkdən ötrü ürəyim gedirdi? Bilmirəm. Mən özxoşuma yola çıxmamışdım, məni, zorla olmasa belə, dilə tutub yola salmışdılar. Bəlkə elə ən yaxşısı nə istədiyini anlamamaq, hara getdiyini

kəsdirməməkdi, mənzil başını, gedib çatacağın yeri qabaqcadan tanımaq, bilmək darıxdırıcıdı. Hər halda, mən öz istəyimi də deməli idim, elə dedim də: “Ayda gəzmək istəyərdim”. Qanmadım mənə qırmızı məkanı göstərmək istəyənin səsiydi, ya ona etiraz eləyənin: “Gecdi, daha geri qayıtmaq olmaz, Ay çox arxada qalıb... Halqalı məkanı da keçirik...” Gecdi deyilirdisə, Ay, qırmızı məkan söhbəti olunurdusa, deməli, hələ də nəinki məkan, heç zaman anlayışı da itib getməmişdi. İlahi, mən nələr fikirləşirdim, nələr gəlirdi ağlıma, demə, uçmaq, uçmaq nədi, ulduzlaracan axıb getmək adamı öz-özünə kamilləşdirirmiş, bunun üçün illərlə yekə-yekə, qalın-qalın kitablar oxumağa – hərçənd o qalın-qalın kitabları oxumağımla qürrələnməyə dəyməzdi, ömründə beş-üç kitab üzü açmışdım, xırda-para məqamları, yəni həyatın öyrətdiklərini nəzərə almasam, indiyəcən bildiklərimi də ya babamdan eşitmişdim, ya Falçı Xeyransadan – dəyməzmiş... Çünki kitabları da yerdən-göydən xəbərsizlər qələmə alıb. Ya bilə-bilə özünəsərfəli yazıb, ya da qanmadan işləri qarışdırıb. Ya vəlvələdən, ya zəlzələdən yazılanlara bir qoz!.. Oxumadan öyrəndiklərində, sənə hazır veriləndədi əsl həqiqət!.. Əl uzatsam, ulduzları tuta bilərəm, ulduzlardan yapışıb özmə tərəf çəkərəm, kainatın nizamını dəyişərəm. Qulağıma gülüş səsi gəldi. Deyəsən, qəfil Allahlıq iddiasına düşdüyümü yanımdakı “səslər” duymuşdu. Əlbəttə ki, əlimi uzadıb ulduz-zad tuta bilməzdim, heç onlara toxuna da bilməzdim, ətrafımdakı halədən çıxa bilməzdim, mən əlimi uzatdıqca halə genişlənəcəkdi. “Ulduzlarla işin olmasın, ata-ananı görmək istəyirsən?..” – nədənsə, bu dəfə eşitdiyim səsdə istehza duydum. “Yox...” – dedim tez-tələsik. “Görə də bilməzsən”... – deyəsən, səs sahibləri məni ələ salırdı. Pərt oldum: “Niyə?” “Çünki onlar sağ-salamatdı”. “Mən bilmirdim”, – gec dilləndim, birdənbirə səsim batdı, quyunun dibindən gəldi. Gözlərim yaşardı, amma zülüm-zülüm ağlamağa macal tapmadım, gözümün qabağında ucsuz-bucaqsız saray, nə bilim, bizim ağlımıza sığışanla desəm, misilsiz gözəllikli bağ-bağat peyda oldu. Yəqin ki, səslər mənim mat-məəttəl qaldığımı görüb izahat verdi. “Bu saray sənin yaşadığın yerdən min-min dəfə böyükdü, özü də bu məkan başdan-başa bir saraydan, onun həyətindən, bağından ibarətdi”. “Haradı ki, bura?” – bir anlığa ata-anam nədi, hər şeyi unudub xəbər aldım. “Onun məkanı...” – səslər, əlbəttə ki, səslərdən biri cavab verdi. Razılaşmadım: “Necə yəni, onun məkanı, bəs, hər yan onun deyil?” Deyəsən, sözlərim səs sahiblərindən birinin – sövqtəbii, qeyri-ixtiyari mənə elə gəlirdi ki, yanımda iki, necə deyim, məxluqat, səs sahibi var – xoşuna gəldi. “Elədi, ancaq Onun bir zərrəsi hər zaman bu saraydadı”. Yenə razı olmadım: “Yox, O, həmişə hər yerdədi”. Sanki yanımdakılar bir anlığa yox oldu, araya sükut çökəndə canımı qorxu aldı, vahimələndim. Bəlkə yol boyu məni qorxmaz, ürəkli eləyən “yol yoldaşlarım”mış, onların səsinə “söykənib”, arxayın olub özümü qüdrətli hesab edirəmmiş?.. Üstəgəl uçduqca ətrafımdakı nəhəng ulduzlara belə özüm yaratmışam kimi yuxarıdan-aşağı, yekəxana-yekəxana baxırdım, yanımdakı “səs”ləri, daha doğrusu, səs sahiblərini də özümdən zəif, mənim əmrimə tabe olan itaətkar sayırdım.

Daha heç yerə getmirdik, axmırdıq, uçmurduq, dayanmışdıq sarayın üstündə, öz haləmdən çıxıb sarayın qızılı aurasına daxil olmalı idim. Ordan da ucsuz-bucaqsız bozumtul gümüşü məkana... Mən, bapbalaca bir zərrə... Əl-ayağım mənimlə idisə, yəqin ki, qorxudan sadəcə titrəmirdi, əsim-əsim əsirdi. Görəsən məni orda, bütov bir yekə ulduza sığışan sarayda nə gözləyir? “Sorğu-sual”. Yox, deyəsən, səs sahibləri heç yana getməmişdi, yanımda idi. Beynimdən belə keçirməyə imkan tapmadığım suala cavab verirdi. “Nə sorğu-sual?” – bayaqdan bülbül kimi ötüb söz güləşdirsəm də, bu dəfə boğazım quruya-quruya, yavaşcadan, qorxa-qorxa xəbər aldım. Bir ağızdan cavab verdilər: “Bilmirik”. Ya həqiqətən bilmirdilər, ya da gizlədirdilər. Mənim üçün nə fərqi!.. Burası aydındı ki, məsələ ağlasığmaz dərəcədə qəlizdi... Onların bilmədiyi sorğu-sualın cavabını mən necə verəcəkdim?.. Hərgah onlar soruşulanları bilirdilərsə belə, cavabdan agah olduqlarına əminlik sadəlövhlükdü. Bilsəydilər də mənə deməzdilər. Sualı gizlədən cavabı deyər bəyəm? “Gedək?” – bu dəfə də birağızdan xəbər aldılar. “Yox!.. – çıldırmış kimi boğazım gəlincəyəcən, var gücümlə çığırdım. – Mən heç yana getmirəm. Qaytarın məni geri!.. – vahimədən qəfil səsimi yavaşıdıb yalvarmağa başladım. – Nə olar, qaytarın məni geri... – təkrarladım dilim tutula-tutula. – Sizə... qurban olum... qaytarın...”.

Özümə gələndə gördüm ki, hava işıqlanır, səhər açılır, gözüm də açıqdı, ancaq yaşarıb, gözlərimin bulağından yaş axıb qulaqlarımın yanına...

Bir xeyli hərəkətsiz uzandım, sonra ağzımı açıb yumdum, yumub açdım, səsim çıxmadı ki çıxmadı, nəhayət, yerimin içində dikəlib göz yaşlarımı sildim, boğazımı arıtladım, bir-iki ağız yavaşca öskürüb özümə gəldim və səsimi başıma atıb bərkdən bağırdım:

– Qasim!!! – çığırdığım dəm birdən-birə olan-qalan gücüm-qüvvəm tükəndi, elə bil bütün gücümü, qüvvəmi yığıb, toplayıb boğazıma, səsimə vermişdim, zərrəcə heyim-hərəkətim qalmamışdı, sanki damarlarımda qanım donmuşdu, sönmüşdüm, indi külli-aləm yığıla, məni cana gətirə bilməzdi. Öz-özünə qapanırdı kirpiklərim, yumulu gözlərimin qabağına heç vədə görmədiyim cürbəcür adamların saysız-hesabsız çöhrəsi, qaşqabaqlı, hirsli-hikkəli sir-sifəti gəlirdi.

Səs-səmirsə gəlmədi. Deyəsən, Təpəgöz evdə yox idi, yaxında olsaydı, hökmən harayıma hay, səsimə səs verərdi...

Qeyri-ixtiyari təzədən çarpayıya uzanıb yuxuya getdim...

* * *

Oyananda özünü yüpyüngül hiss eləyirdi, çox yatsa da, başında ağrı-zad yox idi, pəncərədən düşən gün gözünü qamaşdırırdı. Günün üzünə düşməyindən təxmin elədi ki, günortadı. Bütün bədəni tər içində idi, yerinin içi də nəmdi. Ouş yüngüllüyü ilə yerindən sıçradı. Sanki içindəki bütün ağrı-acısı bədəninin tərinə qarışıb getmişdi. Eyvana çıxanda gördü Qasim aşağıda oturub çay içir. Nəm maykasını çıxardıb məhəccərin üstünə atdı, quyunun başına gedib əl-üzünü yudu. Qayıdıb otağına girdi, çarpayısının üstündəki idman çantasını açıb

qabağı şəkilli qara, qısaqol, düyməsiz köynəyini əyninə keçirdi, təzədən aşağı düşəndə gördü ki, Qasim onun üçün də çay süzüb. Öyrəşdiyindən kişiyə yalan-gerçək də dil-ağız eləmədi. Oturub, stəkanı əlinə götürüb ağzına aparmaq istəyəndə baxdı ki, hələ içməli deyil, qaynardı. Stəkanı nəlbəkiyə qoydu və sualedici nəzərlərlə önündəkinə baxdı:

– Nolub, a kişi, nə mat-mat baxırsan? Nə təhərsən?

– Mən babatam, səndən narahat idim...

– Niyə?

– Necə niyə, iki gecədi oyanmırsan, bu qədər yatmaq olar? Neçə kərə gəlib, başımı sənin sinənə qoyub yoxlamışam ki, sağ-salamatsan, ya yox...

– Deyirdin, iraq-iraq, o dünyalıq olaram...

– Hər şey ola bilər, ölüm gözlə qaşın arasındadı...

– Orası elədi... – Əşrəf razılaşıb birbaşa mətləbə keçdi. – Amma sənin işini yarıtmadım. Qorxdum... Qapının ağzından döndüm geri...

– Bildim... – Qasimin sir-sifətindən zəhrimar yağdı.

– Nədən?

– Çox yatmağından...

– İncimə e, uzaqdan asan görünür, ancaq qızılı halənin içindəki, yerdən min-min dəfə böyük gümüşü sarayı görəndə adamın içi dağılır, heyrətdən gözləri hədəqəsindən çıxır, önündəki nəhəngliyə, əzəmətə baxmayıb gözlərini bərk-bərk yumursan ki, kor olmayasan, adi qorxu-vahimə də deyil bu... Qum dənəsindən də balaca bir varlıq olduğunu qanıb bapbalaca canını qoymağa, hamıdan, hər şeydən gizlətməyə kiçicik bir deşik axtarırsan... Həm də qanırsan ki, ha çalışsan, hara yox olsan, gizlənmək mümkün deyil...

– İncimirəm... Buna da hazır idim... Baxma ki, ordan xəbər gətirməyin mənə çox vacib idi. İllərimi vermişəm buna... Gecələrimi meşənin dərinliklərində keçirmişəm... Bu dəfə də oxum daşa dəydi, alınmadı. Olmadı... Fəqət elə bilirdim bu dəfə hər şey dəqiq hesablanıb... Sənə köməkçilər də qoşmuşdum...

– Səsləri deyirsən?

– Hə...

– Onlar elə mən idim də...

– Hardan bildin?..

– Necə deyim, o bozumtul-gümüşü, ucsuz-bucaqsız sarayamı, məmləkətəmi, məkana çatanda qorxudan, vahimədən “səs”lərin də “zəhri yarıldı”, birdəfəlik kəsildi, bir də eşitmədim o “səs”ləri... Yox, lənət şeytana, eşitdim, amma səslər qırıq-qırıqdı, titrəkdi, mən bozumtul-gümüşü məkana girmək istəməyib: “Qaytarın məni geriyə!” – çığıranda “səs”lər höcətləşmədi, sanki sevincək olub o dəqiqə əmrimi yerinə yetirdi... Sükür, yenə də salamatlıq olub, sağ-salamat qayıtmışam... Bəlkə bu azdı sənin üçün?..

– Yox, əstəğfürullah, çox narahatdım səndən ötrü... Qorxurdum sənin başına nəsə gələ... Ona görə əlacsız qalıb sənin ata-ananın ruhundan kömək də istədim...

– Bəs, nə oldu? – Əşrəfin dalağı sancdı.

– Gəlmədilər...

– Niyə? – Əşrəf yanına tikan batıbmış kimi narahat-narahat, az qala inildəyə-inildəyə xəbər aldı.

– Belə görükür ki, sənin qəzada ölüb dediyin ata-anan sağdı. Ən azı, biri həyatdadı indi... – Qasim diqqətlə onun üzünə baxdı.

Əşrəf baxışlarını yayındırıb:

– Hə... – dedi və soyumamış çayı başına çəkib su kimi hortuldatdı.

– Bəs, qəza-filan nə oyundu?..

– Heç bir oyun-moyun yoxdu... – Əşrəf boş stəkanı nəlbəkiyə yox, masanın üstünə qoydu. – Sən həqiqəti anlamısan yəqin... Heç bir avariya, maşın qəzası-zad olmamışdı. Mən bunu özümdən uydurmuşdum. Anam məni atıb qonşu kişi ilə qaçmışdı. Rusyətə... Atam da getmişdi onların dalınca... Mən balaca idim onda... İllər ötsə də heç birindən səs çıxmamışdı, öldüləri-qaldıları bilinməmişdi. Heç arayıb- axtaran da olmamışdı onları. Ancaq bir tikə vaxtımdan mənim günüm qara olmuşdu. Biri məni bicbala çağırmışdı, o biri vələdüzna... Mən indiyəcən bilmirəm ki, bazarda torbasatan kişinin oğlu Hüseynin övladıyam, yoxsa qonşumuz Falçı Xeyransanın oğlu Həsənin töräməsi... – ürəyini boşaldıb nəfəsini elə dərdi, sanki qəlbi köksündən çıxacaqdı. – Belə... Ona görə ağlım kəsəndən öz yerimdən-yurdumdan qaçırdım, həmişə yerlilərimdən gen gəzirdim...

– Arvadların birdən artıq kişi ilə yaşamağı ona görə günah sayılır...

– O, nə deməkdi?..

– Yəni kişi bir neçə arvad ala bilər, qadınınsa bir əri olmalıdı ki, uşaq atasını tanıya bilsin...

– Bəs, arvadın əri ölsə?..

– Ərlərinin sayının dəxli yoxdu, on kərə də ərə getmək olar, söhbət zinadan gedir...

– Sən də məni vələdüzna sayırsan? – bu dəfə Əşrəf Qasimin üzünə baxdı, müsahibi baxışını yayındırdı.

– Bilmirəm... – gözünü yumdu Qasim.

– Səncə mənim atam kimdi? Hüseyn, ya Həsən?..

– Bilmirəm... – Qasim gözünü açmadan təkrarladı. – Sən indi bu haqda fikirləşmə... Day bundan sonra nə fərqi var?..

O gün Əşrəf artırmada dizlərini qucaqlayıb axşamacan ağladı, səssiz-səmirsiz göz yaşı tökdü...

Nədənsə, Qasim üstünü vurmadı, onun yanına gedib təskinlik, ürək-dirək vermədi, elə bil görmürdü ağlayanı, sakitcə yanından keçib gedəndə də dillənmirdi, sanki kürəyini divara söykəyib səssiz-səmirsiz ağlayan gözəgörünməz olmuşdu, bircə göz yaşları görsənirdi...

* * *

Ertəsi gün evdən çıxıb kəndi eninə-uzununa gəzdi, alış-veriş eləməsə də Vəlinin dükanına gedib, dükançının oğlu ilə ordan-burdan danışıb dağı arana, aranı dağa qatdı. Boylanıb qapısı bağlı həyətlərə, evlərə göz gəzdirdi, lap meşənin qırağınacan gedib çıxdı. Qayıdanda qəsdən qapısı bayraqlı evin qabağından da keçdi. Bir anlığa ayaq da saxladı darvazanın ağzında, bağlı qapıya elə baxdı, guya, bu dəqiqə qapını döyüb ədəb-ərkanla içəri girəcəkdi. Evin qabağında heç kəs yox idi. Tül pərdəli pəncərə bağlı idi, skamya da boş... Təəssüfləndi... İstəyirdi Lələ ilə də söhbət eləsin, hal-əhval tutsun, axırda da qocanın verdiyi pulu qaytarıb hökmən desin ki, narahat olma, mənim pulum var, kasıb deyiləm, üstümü unlu görüb adımı dəyirmançı çağırma... Özümün də düz-əməlli məktəb-zad oxumadığıma baxma, kəmsavad-zad deyiləm, alimlərdən olmasa da, oxumuşlardan çox bilirəm. Heç kəs mənə yuxarıdan-aşağı baxmasın, qapıdan içəri keçə bilməsəm də, gedib kandara çıxmağımın özü böyük işdi, elə böyük ki, sinəsinə döyən hər oğulun işi deyil oracan getmək... Lələnin onu anlayıb-anlamayacağı başqa məsələydi, əsas o idi ki, ürəyini boşaldıb rahatlanacaqdı, içindəki ağrı kəsməsə də kütləşəcəkdi, yanğı sönməsə də, azalıb-azalıb közə çevriləcəkdi...

Qocanın verdiyi pulu – hələ də ayırıb saxlayırdı həmin əskinası – bərk-bərk sıxıb ovcunda əzdi, cibinə qoyub yoluna davam elədi.

Evə qayıdanda da bir yerdə qərar tuta bilmədi, quyunun yanında oturdu, dəmir torun qabağına gəlib toyuq-cücəyə, ördəyə-qaza tamaşa elədi, bir-bir ağacların gövdələrini, budaqlarını, yarpaqlarını sığallaya-sığallaya evin dalınacan, ayaqyolunun yanınacan addımbaaddım, qədəmbəqədəm getdi, hər yana diqqətlə göz gəzdirib siqaret yandırdı. Lakin bu dəfə ağlamadı. “Dünən bitdi, bu gün bitəcək, bəs, görəsən sabah nə olacaq?” – fikirləşdi. Amma özünə verdiyi sualın cavabını axtarmaqdan vaz keçdi. Anladı ki, bu suala cavab axtarmaq ən böyük nadanlıqdı, hələ heç bir ikiayaqlı bu sualın cavabını tapa bilməyib...

Nəhayət, siqaretin kötüyünü tualetin yanına vızıldadıb evin qabağına gəldi və Qasimlə üzbəüz əyləşdi. Deyəsən kişinin gözü onda imiş.

Uzaqdan başlayıb astaca xəbər aldı:

– Çay içirsən?

Əşrəf başını buladı:

– Yox.

– Nə yaman ora-bura vurnuxursan, nolub? Haran ağrıyır?

– Heç yerim... Vidalaşıram buralarnan... Neçə vaxt qaldım burda, bu həyətə, ağaclara, quyunun başına, elə sənə də öyrəşdim... Ancaq, hər şeyin bir sonu var, gərək sabah şələ-küləmi yığışdırıb düşəm yola...

Qasim duruxdu:

– Nədən?

– Sirrim faş olan yerlərdə qala bilmərəm... Utanıram, çəkinirəm...

– Elə buna görə?.. – Qasim qımışdı.

– Bu azdı?

– Səni heç yerə buraxmaram, meşəyə də apararam özümlə... Şəfa verən otları tanıyarsan, nağıllarda adını eşitdiyin ağacları, heyvanları öz gözünlə görərsən... Görərsən ki, elə yanımızda hələ hiss eləmədiyin çox şeylər var...

– Pah!.. – Əşrəf etinasızlıqla əlini yellədi. – Çox lazımdı mənə meşədəki heyvanlar... Elə yan-yörəmiz ikiayaqlı heyvanlarla doludu da...

– Onu düz dedin... – Qasim çayından bir qurtum alıb gülümsündü. – Axı narahat olmağa dəyməz, əslində biz əvəz-əvəz olduq...

– Necə yəni, əvəz-əvəz? – Əşrəf çaşıb qaldı. – Nə əvəz-əvəz?..

– Sən də mənim sirrimi bilirsən axı...

– Hansı sirrini?

– Hüseyn deməyib sənə mənim başıma gələnləri?..

– Nəyi?

Qasim gec və dili dolaşa-dolaşa cavab verdi:

– Ailə... Arvad-zad... Məsələsini...

Əşrəf boğazını arıtladı:

– Belə də... Ucundan-qulağından...

– O vaxt mənim də arvadım dostuma qoşulub getdi. Amma bizim uşağımız yox idi.

– Olar da Rusyətə qaçdı?

– Nə Rusyət, nə qaçmaq... Elə bu kənddə yaşadılar...

– Bu kənddə? – Əşrəf təəccübləndi. – Burda?..

– Hə...

– Bəs, sən heç nə eləmədin?

– Neyləyə bilərdim?..

– Öldürmək-zad... – burasını pıçıltı ilə, çəkinə-çəkinə dedi Əşrəf.

– Əstəğfürullah, mən Allah-zadam?..

– Yaxşı, sonra nə oldu?

– Nə olacaq, kənddə adımın üstünə bir ad da gəldi. Xoşqeyrət Təpəgöz... Mən də özlüyümdə hamıdan küsüb mehrimi meşəyə, təbiətə saldım, təbabət öyrəndim. Səbrli ol, lap son nəfəsinəcən səbr elə, fələyin ağlasığmaz işləri çoxdu. Necə ki, ay keçdi, il dolandı, bir vaxt məni lağa qoyanlar qapıma gəlib imdad dilədi...

– Sən də sağaldırdın onları?

– Baçardığımı sağaldırdım, əcəli çatan ölüb gedirdi...

– Kənddə başqa həkim-zad yox idi?

– Ağ xalatlılardan əli üzülənləri gətirirdilər mənim yanıma...

– Bəs, dostunla keçmiş arvadın necə oldu...

– Heç necə, yaşadılar, uşaqları oldu, sonra da nə deyirlər nağıllarda, göydən üç alma düşdü...

– İnanmıram ki, başına gələn bu həngamədən sonra rahatca yaşamısan burda...

– Yaşayış, rüzgar özü zülümdü, yer üzündə rahatlıq nə gəzir, məxluq özünü aldadıb uydurduqlarını axtara-axtara ölüb gedir... Sən də gərək adi bir işə görə öz yurd-yuvandan ayrı düşməyəydin...

– Bu boyda həngamə adi işdi... Axı orda hamı məni ələ salırdı...

– Hər şey keçib gedir...

– Elə şeylər var ki, keçmir...

– Bir dəfə sənə qoşulub gedərəm sizin yerlərə... Sən keçmişini yada salarsan, mən də oraları gəzib dolanaram...

– İstəyirsən məni sənin gözünün qabağında da lağa qoysunlar?..

– İndi elə şeylər keçməz, narahat olma... Çox şey yaddan çıxıb... Hərənin dalında bir vaqon qəmbərqulu var, ona görə day heç kəs, heç kəsin kitabını oxumur... Başqasını ələ salmaq istəyən, başqasının ayıbına kor olmayan əvvəlcə özünə yaxşı-yaxşı baxsın... Necə deyiblər onu, döymə taxta qapımı, döyərəm dəmir qapını...

– Əşi, xeyri yoxdu, indi hər şey kəlləmayallaqdı, kimdə nə çatmırsa, ondan dəm vurur... Fahişələr qeyrətdən, oğrular düzlükdən, oğraşlar da kişilikdən...

– Ona görə belə deyirsən ki, üçindəki, ürəyindəki qorxu çıxmayıb. Uşaqlıq vəsvəsən hələ də səninlədi... O qorxu-ürkü sənin canından çıxmayınca rahatlıq tapmayacaqsan...

– Neyləməliyəm o qorxunu çıxartmaqdan ötrü?..

– Dedim də, öz yerinə-yurduna qayıdıb başını dik tuta-tuta gəzməlisən... Olub keçənlərdə sənin heç bir suçun yoxdu...

– Qəribə adamsan e, başına gələnləri gizlətmək əvəzinə hamıya danışıb özünü... – Əşrəf susub sözünün ardını demədi.

– Özünü nə? – Qasim əl çəkmədi.

– Özünü... – Əşrəf uyarlı, yumşaq, “rəndələnmiş” kəlmələr axtarsa da, tapa biımədi. – Biabır eləyirsən... Deyirsən mən də elə eləyim?

– Hm... – Qasim qımışdı. – Guya, gizlətsəm nə düzələcəkdi ki?.. Yaranı kəsib irini çıxartmaq lazımdı ki, qaysaq bağlayıb yavaş-yavaş sağalsın...

– Sənin yaran sağaldı?

Qasim ağır-ağır və gec dilləndi:

– Hay-küyümə baxma, düzünü desəm... Yox... Hələ də incidir, tamam sağalmadı... Bəs səninki?..

– Heç mənimki də sağalmadı... Səninkindən betərdi, çox bərk ağrıdır... – Əşrəf boynunu büküb yazıq-yazıq cavab verdi, lakin bu dəfə də gözündən yaş gəlmədi. – Yəqin elə yaralar var ki, heç zaman sağalmır, hə?..

Cavab gəlmədiyindən araya sükut çökdü. Qasim əlini yelləyib qəndqabına qonmaq istəyən arını qovdu. Arı qəndin üstünə qona bilməsə də, uzağa uçmayıb məqam gözlədi. Vızıltı salıb sükuta qənim kəsildi.

– Olub keçənlər heç, məni sənin getdiyin yerə çatandan sonra son məqamda qorxmağın yandırır... – Qasim özü sükutun buzunu əritdi. – Zəhmətimiz hədər getdi, o otları, o içkini mən neçə ilə it zülmü ilə hazırlamışdım...

– Qalır o hazırladıqlarından?

– Hə...

– Bəlkə bir də sınayaq?.. Atalar üçdən deyib...

– Yox...

– Niyə?

– Üçüncü dəfə getmək təhlükəlidi... Qorxuludu...

– Niyə? – Əşrəf təkrar xəbər aldı.

– Təzədən getməkdən ötrü gərəkdir ki, dozanı ikiqat artıraq... İçkini, tütünü-filanı deyirəm... O da ki, çox-çox təhlükəlidi... Nə gizlədim, ayılmaya da bilərsən...

– Yəni, orda qalaram?..

– Hər şey ola bilər... – Qasim nə deyəcəyini bilməyib nagümanlıqla başını buladı. – Nə deyim...

– Nə qədər şansım var qayıtmağa?..

– Azdı...

– Nə qədər?.. – Əşrəf dirəşdi.

– Çox az... – Qasim udqundu. – Zərrə qədər...

– Ordan xəbər gətirsəm nə olacaq ki?

– Dəqiq bilmirəm... Yəqin ki, istədiyimiz cildə girə biləcəyik, göz qırpımında gözəgörünməz ulduzlara uçacağıq, istədiyimiz vaxt, istənilən qədər ölüb diriləcəyik...

– İraq-iraq, bunun nəyi yaxşıdı ki?.. Camaat bir dəfə canını tapşıranacan, ruhu bədəndən çıxanacan min bir zülüm çəkir... Öz gözlərimlə görmüşəm Falçı Xeyransa öləndə... O ki qaldı cildə girməyə, adamlar onsuz da min bir cildə girməyə öyrəncəlidi...

– Bu sən gördüyün ölümlərdən olmayacaq, oyuna çevriləcək ölüm-dirim, yuxu kimi rahat olacaq... Qeyb aləminə səyahət üçün özxoşuna ölümü seçəcəyik. İstəyəndə də ayılacağıq... Bu hələ mənim ağlıma gələnlərdi. Hara fırlayırsan fırla, insan ağlı, insan zəkası məhduddu, müəyyən həddəcəndi, yoxsa hər şeyi dərk eləyərdi. Başqa ağlasığmaz möcüzələrin də sahibi olacağıq yəqin... Qapalı aləmlərdən çoxunun qapısı üzümüzə açılacaq... Əbədi, sonsuz səyahətə çıxacağıq... Qiyamətəcən...

– Nə səyahət-səyahət salmısan, səyahət mənim nəyimə gərəkdi? Başımı soxmağa bir daxma, bir qarın çörəyim olsa, bəsimdi...

– Qanmadığın şeyi danışmasan, hamının yanında ağıllı görsənərsən...

– Yox, səhvin var, mən ora gedib gələndən sonra çox şey qanıram... Oxumamış alim olmuşam elə bil...

– Orası sözsüz elədi... – Qasim tez razılaşdı, söz güləşdirməyib təslim oldu. – Amma gör geri qayıtmayıb axıracan getsəydin, nələrdən ağah olardın...

Əşrəf fikrə getdi, araya dərin sükut çökdü, sanki bir andaca onların ətrafına gözəgörünməz halə doladılar, bu halənin içində Ağlaşmanın bütün həyatı göz qırpımında ağlından keçdi, yenə qulağına sözlərini ayırd eləyə bilmədiyi səslər

gəldi, qolunu masaya dayaq verib əlini çənəsinin altına qoyaraq diqqət kəsildi. Gəmi bircə kəlməni qulağı ala bildi: "Dur"... Ya da bəlkə: "Dürr" idi eşitdiyi?.. "Dur"la "dürr" arasında yerlə göy qədər fərq vardı, deməli, seçim eləməli yollar saysız-hesabsızdı, di gəl, sanki seçimi də o özü, özbaşına eləmirdi, əlini qeyri-ixtiyari çənəsinin altından çəkib ürəyinə təpər gətirənin istəyini, əmrini gözüyumulu yerinə yetirirdi.

– Bundan ötrü risk eləməyə dəyər... – səsi də özününkünə, həmişəkinə oxşamırdı, qətiyyətli idi, cod idi. – Ondan sonra dünyanın sahibi olacağıq deyirsən?..

– Dünya nədi ki, aləmlərin sakini...

– Darıxma, hər şey yaxşı olacaq, uzaqbaşı hərəmiz bir can borcluyuq...

Qasim dirçəlsə də dərinə getmədi:

– Elədi, amma sən bir yaxşı-yaxşı fikirləş... Bu sənə zarafat, lağlağı, oyun kimi gəlməsin, yox yerdən məni günaha batırma...

– Deyirsən ölə bilərəm?..

– Əksinə, ora daxil olsan, sənə ölüm yoxdu...

– Necə ölüm yoxdu, ölümsüz adam olar?

– Sən ora girəndən sonra indiki adam olmayacaqsan axı... Əbədi, fəqət tamam başqa cür yaşayacaqsan orda... Ya da öz formanı alıb geri dönəcəksən...

– Nə cür?..

– Bilmirəm, orası bəndəlik deyil... Ona görə dedim ki, tələsmə, yaxşı-yaxşı götür-qoy elə, dərindən fikirləş...

– Fikirləşmişəm! – Əşrəf qətiyyətlə dedi. – Bu dünyada nə gördüm ki, həyatdan dördəlli yapışam?.. Bəsdi, kölgəmizdən də qorxub suyu üfürə-üfürə içdik... Həm də, bəlkə sağ-salamat qayıtdım, yerin-göyün sahibi olduq, hə?..

– Əstəğfürulah, yerin-göyün sahibi Allahdı...

– Sən məni qınama e, o bozumtul-gümüşü məkana uzaqdan baxanda adamın, bilmirəm necə deyim, zəhri yarılır, beyni donur...

– Bəs ürəyi?

– Ürəyin məsələyə nə dəxli?

– Ürəyin necə döyünürdü, nə deyirdi?..

– Bilmirəm, nə ürək-ürək salmısan, o zırhazırda ürək yada düşər?...

– Belə görükür ki, ürək qan dövranını tənzimləyən adi orqan deyil... – Qasim gözləri yol çəkə-çəkə dedi. – Əsas şifrə ürəyə möhürlənib, beyin ürəkdəki şifrənin yerini gizli saxlamaq üçün qabardılıb. Deyirlər, balaca olanda mələklər peyğəmbərin ürəyini çıxardıb təmizləyiblər, sonra qoyublar yerinə. O əməliyyatdan nöqtə boyda bir iz qalıb peyqəmbərin sinəsində. Əstəğfürullah, nolub, nəyə gülürsən?.. Deyəsən bizim yerlər düşüb sənə, yavaş-yavaş ağlamağın daşını atmısan, olmusan güləyən Əşrəf... – Qoca qaşqabağını salladı. – Amma hər şeyə gülməzlər... Başın qaçıb nədi?..

– Yox, əstəğfürullah, Allah şeytana lənət eləsin, ona gülmürəm, birdən-birə Doxtur Seymur yadıma düşdü...

– O kimdi?

– Rəhmətlik arvadımın ürəyini aperasiya eləyən... Elə bil mələklər də Doxtur Seymur kimi aperasiya eləyirlər, intəhası, Seymur doxturun aperasiyasının yeri çox yekə olur, biədəb görsənir...

– Doğrusu, mən o sinəyarma, ürək, iz-miz məsələsini dəqiq bilmirəm, fəqət görünür elə şeylər var ki, hökmən izi qalmalıdı, izinin qalmağı vacibdi, yəqin mələklər də bəzi işləri izsiz-tozsuz görə bilmir... Ya da görmək istəmir...

– Day onda, onların harası mələk oldu?

– Dedim də, bəlkə izin qalmağı vacibdi... Burası mənə də qaranlıqdı...

– Mənim rəhmətlik babam deyərdi ki, kainatın özü fanidisə, deməli, iz-miz boş söhbətdi, əslində heç kəsdən heç nə qalmır...

– Demək ki, kəlləli adam olub sənin rəhmətlik baban... Fəqət day o incəliklər başqa söhbətdi...

– Babam mənə peyğəmbərin meracından da danışardı... – Əşrəf gözləri yol çəkə-çəkə davam elədi. – İndi işə bax, zirvəyə çıxmağımı da saysaq, mən üçüncü kərədi ki, yuxarı qalxacam... Kimin ağlına gələrdi?.. – qeyri-ixtiyari göyə baxdı. – Peyğəmbərsə cəmi bir kərə meracda olub...

Qasim diksindi:

– Əstəğfürullah, bizlər nəkarəyik ki, özümüzü yüksək mərtəbədəki seçilmişlərlə müqayisə eləyək?.. En göydən yerə, olmaya başın dumanlanıb, peyğəmbərlik eşqinə düşmüsən?.. Sən hardan bilirsən ki, peyğəmbər neçə kərə yuxarı qalxıb?.. O, ilk kərə vəhy eşitdiyi gündən daima meracda idi. Günün iyirmi dörd saatı... Merac bədən hadisəsi deyil, ruh işidi...

– O, nə deməkdi?.. – Əşrəf kirpiklərini tez-tez qırpdı.

– Yəni hər şey bir göz qırpımında baş verirdi... Biz istəsək də o mərtəbəyə qalxa bilmərik... Ora yüksəlmək üçün day içində danışmaq, daxilindəki qorxunu qovmaqdan ötrü ayı, planetləri yada salmaq gərək deyil... Hər şey saniyənin mində birində sözsüz-səssiz baş verir... Saniyə-maniyə söhbətini də sən qanasan deyə misal çəkirəm, həlbət ki, meracda zaman anlayışı yox olub gedir, çünki yaradan zamanın fövqündədi, bizim öyrəşdiyimiz zamanı idarə eləyir... Zaman-məkan nəfəs alanlar üçündü... Nə isə, belədə, göylərin qapısı öz-özünə açılır, çünki gedəcəyi yerdə meraca qalxanı gözləyirlər...

– Kim gözləyir?

– Ev yiyəsi... Yoxsa sən, düz-əməlli bilinmədi ki, hara getdin, nə gördün, qorxudan zəhrin yarıldı, az qala üç gün, üç gecə yuxudan oyana bilmədin... Ölçünü itirmə, gör özünü kimlərlə bir daş-tərəziyə qoymaq fikrinə düşübsən... Əstəğfürullah... – yan-yörəsinə boylanıb çəkinə-çəkinə təkrarladı. – Bilik qanmazın əlində uşağın oynatdığı kibrit kimidi. Çünki özü öyrənməyb, təsadüfən eşidib, kökü yoxdu, ocaq qalamaq əvəzinə aləmi yandırıb yaxar...

– Düzdü, bir şey qanmadım... Ev yiyəsi kimdi?.. – Əşrəf key-key göylərini döydü.

– Bildim... Gözlərindən gördüm ki, qandığın qrafa yoxdu... Yaxşısı budu sənə bir çay gətirim... – Qasim söhbətdən bezikib ayağa qalxmaq istədi.

– Əşi, dayan e, çay qaçmır... Əziyyət çəkmə, istəsəm, durub özüm süzərəm... – Əşrəf qoymadı. – Bir məsələ də var axı...

Qasim təzədən yanını stula basıb diqqət kəsildi:

– Nolub?

– Mənim bir az pulum var...

Ev yiyəsi həvəsdən düşüb hövsələsizliklə onun sözünü kəsdi:

– Onu bilirəm. Demisən...

– Hə, pulun yerini sənə deyərəm, işdi-şayəd, qayıtmasam, götürüb bala-bala xərcləyərsən... Halal xoşun olsun...

Qasim qəhqəhə çəkə-çəkə əllərini qaldırıb etiraz elədi:

– Demə-demə... Sən allah, heç nəyin yerini demə, lazım deyil, gərək yoxdu...

– Niyə?

– Bəlkə elə o pula görə şirnikləşib qayıtdın geri... Görükür ki, məxluq istəyir lap ərşi-əlaya yüksəlsin, pul-para görəndə əyilir. Xislətimizi dəyişə bilmərik ki... – get-gedə gülməyini kəssə də, üzündəki təbəssüm silinməmişdi.

– Geri qayıtmaq öz əlimdədi ki?.. Şər deməsən, xeyir gəlməz, mənə bir şey olsa, o pul niyə itib batsın? Hayıfdı.. O pullar bütün ömrüm boyu yığdığım varidatımdı... Başqa heç nəyim, heç kəsim yoxdu... Kasıbın olanından...

– Sağ ol ki, indiyəcən yığdıqlarını mənə etibar eləyirsən... – qoca qəfil kövrəlsə də səsinə şuxluq verməyə çalışdı. – Batmaz, narahat olma, heç nə itib batmaz, axı mənim də nələrdənsə başım çıxır, arxayın ol, lap yerin deşiyindən də olsa axtarıb taparam sənin pulunu...

– Onda, day yolumuzda heç bir əngəl qalmır...

– Bəri başdan əl-qolunu sallayıb təslim olma, səni çöldən tapmamışam ki... – Qasim belə söyləyəndən sonra anladı ki, gərək “tapmaq” məsələsində dərinə getməyəydi, olan-qalan saf dişi ilə dodağını yüngülcə dişləyib davam elədi. – Ürəyimə damıb ki, bu dəfə də sağ-salamat qayıdacaqsan... Pullarını da özün götürüb xərcləyəcəksən, inşallah...

– Salamat qayıtsam, day o pulu neynirəm? – Əşrəf müsahibini dolaşdırmaq istədi. – Aləmlərin sakini pul-paranı neyniyir?.. Elə deyil?..

Qoca fikirli-fikirli başını tərpədib:

– Elədi... – dedi və ayağa durub samovarın başındakı dəm çaynikini götürdü, iri, qalın stəkana çay süzüb çayniki götürdüyü yerə qoydu. Dolu stəkanı da Əşrəfin qabağına qoyandan sonra keçib öz yerində əyləşdi.

Əşrəf nəlbəkini masanın üstündə ehmalca sürüşdürərək stəkanı qəndqabının bərabərinə, lap yanına gətirdi, qəndqabının masadakı qapağını stəkanın üstünə qoydu, buxar stəkanın “dodaqyerini” dumanlandırdı, altı nəmlənmiş isti qapağı götürüb qəndqabının ağzını örtdü, qəndə daraşan arı ordan çıxmağa macal tapmadı, lakin vızıltıdan bəlliydi ki, arı daha şəkər sümürmək hayında deyil, ora-bura vurnuxub, özünü bəyaz qapağa vurub çıxış yolu axtarır. Əşrəf lapdan qapağı qaldırdı və içəridəki, yalan olmasın, az qala güllə kimi uçub getdi. Burnunu çəkib başını qaldırdı, zənlə bir xeyli Qasimə baxaraq lapdan ağlına girəni dilinə gətirdi:

– Birdən mən qayıda bilmədim, onda, nə olacaq, ordan xəbəri sənə kim gətirəcək?

Qasim qapqara qaralıb yenə qaşqabağını salladı, əlini yelləyib əlacsız-əlacsız mızıldandı:

– Görükür ki, səndən sonra, day heç kəs... – burnunu çəkdi. – Bu elə mənim də axırıncı cəhdimdi...

Əşrəf onun elə bəri başdan "közü öz qabağına çəkmək" istəyindən pərt oldu:

– Sənin, yoxsa bizim?..

Qasim o saat səhvini düzəltdi:

– Bizim, həlbət ki, bizim...

Qoca elə bunu demişdi ki, dəm çayniki samovarın başından yerə düşüb çilik-çilik oldu, bu adi aşmaq deyildi, sanki kimsə qəsdən çayniki qaldırıb zərblə yerə çırpdı, çay dağıldı, çaynikin qapağı yerə düşüb evin tininəcən diyirləndi, üstəlik gümüşü samovar da yavaş-yavaş, ehmal-ehmal, elə bil nümayişkaranə, böyrü üstə aşdı, qaynar su yerə dağılıb divarın dibindəki xırdaca çuxurda göllləndi, əvvəlcə samovar, sonra üstündəki dəm çayniki aşsaydı, təəccüblənməyə dəyməzdi, heç nə qeyri-adi görünməzdi, indisə masa arxasında əyləşib diksinənlərin heyrətdən ağzı açıq qalmışdı, matı-qutu qurumuşdu.

Qasimin rəngi qaçmış, nazik dodaqlarının arasından qeyri-ixtiyari iniltiyəbənzər, qəribə bir səs çıxdı, bilmək olmadı ki, kiməsə qarğış eləyir, kimdənsə imdad diləyir, yoxsa qorxusundan səsinə güc vermək istəyir, di gəl, səsi də kişini yarı yolda qoymuşdu, öləzik, zəif və titrəkdi:

– Eh-vay... – bir az özünə gəlib boğazını arıtlayaraq pıçıltı ilə davam elədi. – Deyəsən axı bu bir işarədi ki, üçüncü kərə cəhd göstərib başımıza cəncəl açmayaq, bizim elə sakitcə burda ölüb qalmağımız məsləhətdi... Sən necə bilirsən, hə?.. – soruşub susdu və titrək əli ilə yumulu, bağlı gözünü ehmalca ovuşdurub, əslində ovuşdurmaqdan çox, sığal çəkməyə bənzəyirdi bu, Əşrəfdən cavab gözlədi...

Əşrəf qocanın çatılan ağ, seyrək qaşlarına, birdən-birə yazıqlaşan çöhrəsinə, fağır, ölgün baxışlarına – daha doğrusu, baxışına – uzun-uzadı, səssiz-səmirsiz göz gəzdirib qəflətən başa düşdü ki, bayaqdan ona yeri-göyü, kainatı anlatmaq istəyən özü əslində düz-əməlli heç nə bilmir, hər şeydən, lap dəqiqi, çox şeydən xəbərsizdi, çünki əsas məsələni, bilmədiyini bilmir, ümumiyyətlə, əslində yer üzündə kim nə uydurursa uydursun, kim nə sübut eləmək istəyirsə istəsin, bütün deyilənlər, nəql olunanlar hamısı bir-birinə daban-dabana ziddi. Binadan susanlar danışanlardan daha çox məlumatlıdı, daha yaxındı həqiqətə... Lapdan yadına haçansa babasından eşitdikləri düşdü: "Məxluq heç vaxt heç nə bilməyəcək, mənim balam, umud axirətə qalıb".

Cavab vermək xatirinə söz tapıb Qasimə nəsə demək istədi, amma əlacsız-əlacsız dili ilə dodaqlarını yalasa da, nə illah elədisə səsi çıxmadı ki çıxmadı, sanki nəinki dil-dil ötməyi, səs çıxarmağı, öskürməyi, boğazını arıtlamağı belə

yadırğamışdı. Gözlənilmədən, sövq-təbii gözlərindən yaş axdı, bəlkə də danışa bilmədiyindən, dili tutulduğundan aciz-aciz ağlayırdı, amma qoca dik onun üzünə baxsa da, bunun fərqinə varmadı, Qasimin fikri çox uzaqlarda idi deyəsən, daha ondan cavab-zad da gözləmirdi. Ya da onun ağlamağına öyrəncəli olduğundan adilənmişdi gördüyü... Ağlaşma Əşrəfin göz yaşları ilə heyrətləndirə biləcəyi adam qalmamışdı dünyada. Əşrəf ağlaya-ağlaya başa düşürdü ki, lap uşaqlıqdan, balaca vaxtından, atalı-analı yetim qalıb baba-nənəyə sığışdığı günlərdən onun göz yaşlarına məhəl qoyan olmayıb, yetimin ağlamağını qanunauyğunluq hesab eləyiblər, yox, əgər, işdi şayəd, yetim qəhqəhə çəkib ürəkdən gülsəydi, mat-məəttəl qalardılar və güləni ağladıb göz yaşlarına boğmaqdan ötrü min oyundan çıxardılar, ona görə ki, öyrəşmədikləri, ağlına sığışdırmadıqlarını görmək məxluq üçün ölümdən betərdi və nə qədər cənnət almasını dişləməyə can atıb gözəl-göyçək hurilər həsrətində ilə şirnikləşdirilsələr belə, ikiayaqlılar yenə ölümdən qorxub vahimələndikləri kimi heç nədən qorxmurlar.

Və əslində ta qədimlərdən adamların başına nə pislik, nə bədbəxtlik gəlirsə, kökündə elə həmən o ölüm qorxusu dayanır... Aldığı miskin bir canı verib sevdiyinə qovuşmağa ürək eləmirsə, deməli, məxluq ikiüzlünün yekəsidi...

Əşrəf bütün güc-qüvvəsini toplasa da, nəinki danışıb səs-səmir çıxara bilmirdi, elə ətrafa, yan-yörəyə də qeyri-adi sakitlik hakim kəsilmişdi, nə quşların cikkiltisi eşidilirdi ağacların budağından, nə hinin başına qonan xoruzun yersiz banı... Mal-heyvan böyürtüsü, qoyun-quzu mələrtisi də gəlmirdi hardansa. Elə bil qəfil yaşadıqları məkanın səsini kəsmişdilər, almışdılar, hər yanı səssiz eləmişdilər, səs eşitməyəcəkdisə, deməli, qulaqlarına da ehtiyac yox idi, amma şükür ki, hələ gözləri işığını itirməmişdi. Görürdü...

...Araya çökən dərin, uzun, sonu görünməyən sükutsa davam eləyirdi və birdən-birə hər ikisinə elə gəldi ki, göy yerə düşsə də, dünya dağılsa da, günəş batdığı yerdən çıxsa da, bu sükut qiyamətəcən pozulmayacaq...

...Bu dəm qırmızı xoruz qəfil hikkə ilə qanadlarını çırpıb bərkdən banladı və sanki bu özündənrazı, yekəxana, bir az da arın-arxayın səsə bəndmiş kimi, bir andaca göyün üzünü qara buludlar aldı, ətrafa qaranlıq çökməsə də hər yan kölgələndi...

***2022 - 2023***



*Elçin İSGƏNDƏRZADƏ*

**ACI DOĞRULAR**

Həyatın gerçəyə dəydiyi yerlərdən acıdım,
yox,
yox,
yalanlardan ağrımadım.
Yalanlar daha gözəliydi doğrulardan.
Bütöv bir ömrün yalan olduğu halda,
bu yalanın içində doğrular
elə acımasız ki,
mən bütün doğrularda itirdim hamını,
bütün yalanlarda tapdım təsəllini,
ovunmağı.
Sonra anladım ki,
gerçəklər yalan qədər gözəl ola bilməz...
O yalanların gözəlliyində
hələ biri aprel də varıydı,
yalanlara o qədər gerçək inanardıq ki...
Atam o günü ölsəydi belə, inanmazdım, -
yalandır, deyərdim...
Amma itirdiklərimin heç biri,
biri apreldə ölmədi.
Hamısı başqa aylarda,

başqa günlərdə getdi...
İndi bir mən qalmışam,
bir də biri aprel...
İndi bu məyus biri apreli aldatmaq istəyirəm...
Deyəcəyəm ki,
mən də getməmişəm.

## GEDİR

Ümidim daşa dəyir,
neynirəm, boşa dəyir,
gözlərim yaşa dəyir,
yaşlar süzülüb gedir.

Bu havanın nəmi çox,
həsrəti bol, qəmi çox,
mənim kimi yolçu yox,
məndən üzülüb gedir.

Guya varıq heç kimi,
yaşayırıq puç kimi,
ömür divar təqvimi,
daş-daş düzülüb gedir.

## ÖMÜR

Mən qış kimi soyudum
ocaqdan, olacaqdan.
Daha umduğum da yox
sonrakı qalacaqdan.

Kərpici nəm, içi boş,
enişi puç, həpp yoxuş,
uçmamış, dağılmamış
uçuram qalacıqdan.

Yol kəsə, umud kəsə,
nəsə, nəsə, eh nəsə...
Verəcək ömür isə,
almaq yox alacaqdan.

## UNUTDURUR

Yüz kəlmə içndə bir kəlmə olur,
yüz sözü bir kəlmə söz unutdurur.
Neçə qış donursan, buz bağlayırsan,
donduğun qışları, sırsıraları,
lap bircə yaz gəlir, yaz unutdurur.

Hər şeyin çoxu da, hüzur gətirmir,
çoxluqlar, toxluqlar özür gətirmir,
elə azlar var ki, bircə çimdikdi,
o qədər çoxluğu, o qədər çoxu,
olur ki, bir çimdik az unutdurur.

Sevirsən, sevirsən, deyə bilmirsən,
yaş keçir, ilk sevgi keçmir, görürsən,
hələ də sevirsən,
niyə?
bilmirsən,
bir ömür sürdüyün o yad qadını,
bircə sən bilirsən, bir ömürdü ki,
elə ilk sevdiyin qız unutdurur.

## ÖMÜR

Unuda, unuda, unuda,
gedirsən, gedirsən, gedirsən.
Beləcə hardasa, hardasa,
itirsən, itirsən, itirsən.

Azırsan özündə, özündə,
bir gizli sözündə, sözündə,
ömrün o üzündə, üzündə,
bitirsən, bitirsən, bitirsən.

Yaş kimi yanaqda, yanaqda,
kaş kimi dodaqda, dodaqda,
quş kimi budaqda, budaqda,
ötürsən, ötürsən, ötürsən.

## TALE TÜRKÜSÜ

Bu axı taledir, bu axı bəxtdir,
Sağına-soluna çapır, çapılır.
Bir günü yarımçıq, bir günü dolu,
bir günü eləcə boşdan yapılır.

Bir günü yaşıldır, bir günü sarı,
Gedir ən sonuncu mənzilə sarı.
Qəfil yoxa çıxır yoxunda varı,
Nə özü, nə izi, tozu tapılır.

Əvvəli başlayan yoldur, görürsən,
ortası açılan güldür, görürsən,
axırı bir ovuc küldür, görürsən,
küləyə qapılır, yelə qapılır.

## UNUTQANLIQ

Unutmuşam deyəm ki,
deyəm, məni bağışla.
Yola sal bu ömürdən,
çıxım gedim yağışla.

Bir kəlmə yaz vərəqə,
mənə bir vərəq yellə.
Görüşənədək demə,
daha əlvida söylə.

Vida elə hər şeyə...
Mənə, sənə, günlərə.
O aylı gecələrə,
o saralan güllərə.

Unutmuşam adımı,
adımı deyərsənmi.
Qapımdan yan adlayıb,
qəbrimi döyərsənmi...

Eh, bu yalın ömürdə
hələ nələr var imiş...
Qələmlər bıçaq imiş,
kağızlar divar imiş...

Nə yazım ki, bilmirəm,
qəfil susub qalıram.
Güzgüdəki adamdan
elə küsüb qalıram.

Daha bezib qalıram
bu ömürdə yad kimi.
Unudulmuş yerlərdə,
unudulmuş ad kimi...

Unutmuşam deyəm ki,
deyəm, məni bağışla.
Gözlərində buludlar,
pəncərəndə yağışlar!

## HARA GƏLİM?

***Şuşada qalan uşaqlıq dostlarımın xatirəsinə***

Ay uşaqlar,
ay dostlar
sizi tapa bilmirəm,
barı bir xəbər edin,
hardasınızsa... gəlim.
Yağmurdasız... bilmirəm,
gündəsiniz... bilmirəm,
kimdəsiniz... bilmirəm...
Oralarda qışdısa,
hələ də qar yağırsa –
qardasınızsa... gəlim.
Xəbərim yox, xəbərdən,
nə kənddən, nə şəhərdən,

yoxların arasında
boğuluram qəhərdən,
varmısınız... duymadım,
yoxmusunuz... bulmadım,
vardasınızsa... gəlim.
Hamı axan o vaxtdan,
axını çoxdan aşdım,
uzaqların eşqinə yaxını çoxdan aşdım,
daha qorxum qalmadı, qorxunu çoxdan aşdım –
dardasınızsa... gəlim.
Mən bilirəm... sizləri harda qoyub gəlmişəm,
o çöllərdə, yollarda... varda qoyub gəlmişəm,
uşaqlıqda deyirəm... orda qoyub gəlmişəm,
küləklərə deyin də... gəlib mənə desinlər –
ordasınızsa gəlim.

## SEVDALI KÜLƏK

Bakının sevdalısıdı külək,
küləksiz Bakı
bəzəksiz bir şam ağacı kimidi
miladın yeni ilində...

Qızlarından çox,
bulvarından çox, külək yaraşır
bu köhnə küçələrin təzəliyinə…

Baxanda görürsən küləklər də bu təzəliyi sevmir,
elə uçurmaq,
qoparmaq istəyir
o gözəlim köhnəliyə yamanmış təzəliyi.

Küləklər önsözüdü
Qız qalasının qoşa açılmış səhifəsində…
Küləklər son sözüdü
Şəhidlər xiyabanının altındakı
o biri Şəhidlər xiyabanında…

Son sözdən başlayır sonra bütün yeniliklər…
Bütün yeniliklərdə

uyuşmadığımız həyat,
sevmədiyimiz yaşam,
deyə bilmədiyimiz qorxular,
qorxuların arxasında zindan…

Biz azadlıq sözünü divarlara yazarıq,
küləklər o sözdən əsər,
o sözdən başlayar…

Küləklər elə azaddırlar ki,
biz küləklər qədər azad deyilik.

Biz qorxumuz qədər yaşarıq,
yaşadığımız sürə qorxarıq.

Amma küləklər heç nədən qorxmaz,
ən qəddar padişahı da atından salar,
əyilənləri daha da əyməyi sevər,
sonra da bu faniliyin şəklini çəkər qumlara…

Bakının sevdalısıdı külək…
Hərdaim azadlıqdan əsir,
hərdaim azadlıqdan əsəcək!..

## UNUTMAQ OLMUR

Sözlər də ağrı kimi…
Sözsüz ötmək də olmur.
Sonra bu ağrılarla
çıxıb getmək də olmur.

Daha itmək də olmur…
Olmur ki, itəsən bir.
Harasa bilmədiyin
yerlərə gedəsən bir.

Bilmədiyin yerlər də…
Qəhətə çıxıb indi.
Elə bil bütün yerlər
sənin getdiyin yerdi.

Sanki bütün havalar
soyuq qış havasıdı.
Qalırsan mat-məəttəl
dava nə davasıdı…

Bu özünlə döyüşmək,
savaşmaq da bitmir heç.
Düşünürsən bu yollar
niyə çıxıb getmir heç…

Niyə axı… bilmirsən
birinin yeri dolmur
hər şey olur,
görürsən…
Amma unutmaq olmur!..

## TÜSTÜMƏ

Yalqız uçan quşların
qanadının küləyi,
əsdi üstümə, üstümə.
Bir-iki sözü də
elə köz kimi
basdım köksümə, köksümə.

Əllərim buluda döndü,
ağladı, elə ağladı,
mən bir söz saxladım içimdə,
Allah da məni saxladı…
Amma bir umudsuzluq
gəlib məni haqladı,
durdu qəsdimə, qəsdimə.

Özümə ağlama, dedim,
o bir sözü ürəyində
daha saxlama dedim…
Nə dedim, haqqıma dedim,
dedim ki, bu taledən,
bu ömürdən,

bu umuddan
heç nə gözləmə, gözləmə.

Od olub özümü yandırsam,
su olub odumu söndürsəm,
bu ömrü,
bu günü
bir gün tərsinə çöndərsəm, çöndərsəm –
boğularam,
öz sözümdən,
qalxan tüstümə, tüstümə.

## BU DA MƏN!

Ruhuna çiçəklər səpdiyin adamların
ulduz olduğuna inanarsan gecələr…

Adamlar yoxa çıxdıqca
ulduzlar çoxalar.
Ulduzlar çoxaldıqca
ulduzları sayarsan bir-bir –
bu o,
bu da babam
bu da atam, nənəm.
Onların yanında da
adsız bir ulduza ad qoyarsan,
bu da mən!..

## İNSAN

Qarlı budaqların arasından
hərdənbir işaran gün şüasıtək
bir sevinc dolur içimə...

Boyları qarşını görməyə çatmayan uşaqları
kimsə qəfildən göyə qaldırıb
hasarın o üzünü göstərdiyi andakı
xoşbəxtliyi yaşayıram bəzən...
Bəzən... ən məsud uşaq oluram,

ən bəxtiyar bir kəs…
Mutluluqdan uçuram-
görəndə ki, hər şey yaxşıdı,
hər şey yolundadı
...insan
insan oğlu insandı!

## ÖLÜM RƏNGİ

Nə çox əlvidalar qalır əllərimizdə,
nə çox buludlar qalır gözlərimizdə,
nə çox yağmuruna düşürük zamanın...

Zamanın neçə qat dərisindən keçirik,
neçə qat ağrısından keçirik.

Bütün zamanların rəngini götürürük,
hər qatın öz rəngini yaşayırıq –
mavinin acısı,
yaşılın ayrılığı,
qırmızının ahı,
qaranın sancısı...

Bütün rənglərdən keçirik,
bir rəngə çatmaq üçün –
ölüm rənginə!..

## TƏNHALIQ

Bir qara buluda aiddir
qara gözlərimiz,
bir sarı payıza aiddir sevdamız, –
biz tənhalığa aidik.

Onsuz da hər kəs tənha –
çıxdığımız ağac,
yaşadığımız ev,
hələ o yol,
o uzaq…

Bir gecəyə aiddir bütün tənhalar...
Bütün tənhalara aiddir soyuq gecələr.

* * *

### *Nişanlısı şəhid olan qızın dilindən*

Elə bir yolsan ki,
sonu görünməz –
gedirəm, gedirəm... niyə bitmirsən –
elə bir yuxusan,
elə bir röya…
Gözümün önündən çıxıb getmirsən.

Varmısan,
yoxmusan
bu elə sirrdi…
Bilmirəm ağlayım, bilmirəm gülüm.
Şəhidlər ölmürsə, ölmürsə əgər
səni diri qoyub, mən necə ölüm.

Sən elə yaxınsan,
elə uzaqsan,
ad qoya bilmirəm,
bu ömrə-günə.
Bir də dava olsa… gərək gedəm ki,
mən də şəhid olub, qovuşum sənə.

## ŞUŞAM

Şuşam, Şuşam, ay Şuşam,
bu növrağın mübarək!
Hər tərəfə yayılan
səs-sorağın mübarək!

Durnalarla qayıdan,
dünyalarla qayıdan,
ayla-nurla qayıdan
çilçırağın mübarək!

Alovlanır atəşin –
atəşin necə gözəl.
Gülümsəyir günəşin –
günəşin necə gözəl.

Çiçək açır gülüşün –
gülüşün necə gözəl...
Bu gözəllik içində
təmtərağın mübarək!

Şuşam, Şuşam, ay Şuşam,
belə çağın mübarək!
Dumanları çəkilən
çölün, dağın mübarək!

İndi qış da bahardı –
baharın gülə bənddi.
Nəğmələrin sevdalı,
ən şirin dilə bənddi.

Daşaltın, Cıdır düzün,
Topxanan elə bənddi.
Gözəl günlərə çıxan
yol-yolağın mübarək!

Şuşam, Şuşam, ay Şuşam,
bu növrağın mübarək!

## QUŞLARIN GÖZ YAŞLARI

Ağacları qaçammadı,
çiçəkləri yüyürəmmədi, –
ilan dili çıxaran yanğınlardan...

Amma alovların ayağı vardı,
sürəti ildırımdan bərkiydi, –
ağacı da külə döndərirdi,
çiçəyi də,
quşu da,
quş yuvalarını da.

Yanğınların içində ağaclar ağlayırdı,
çiçəklər ağlayırdı,
yuvalar ağlayırdı.

Amma ağacların,
çiçəklərin,
quşların göz yaşları
yanğınları söndürə bilmədi.

## BU ŞƏHƏR HARA GEDİB?

Son arzusuydu... –
qadın bircə dəfə doğma şəhərini
görmək istəyirdi.
Onu Ağdamın yaxınlığına gətirdilər, –
beş barmağı kimi tanıdığı ana yolun
getdiyi səmtə baxdı…

Şəhərin yerindəki xarabalıq göz işlədikcə uzanırdı –
nə ağ evlər, nə ağaclar, nə də bir yaşam vardı.
Qadın heyrətlə pıçıldadı, –
– bu şəhər hara gedib?

## PİANONUN TELLƏRİ

Ən sevdiyim melodiyanı
bir pianoçu qızın
barmaqlarından dinlədim…

Bilirəm, hər kəsin əllərində
bir vida var,
gözlərində yer üzünün ayrılığı var…
Bütün melodiyaların notları
hansı teldəsə ayrılığa dəyər.

Getmək istədiyin yerlər sənin içindədirsə –
gedə bilməzsən,
bir pianoçu qızın barmaqlarından başqa…

## ÜSTÜNƏ

Ömrün sarı payızı da
düşür üzümün üstünə,
xəzəllər ayağımın altında
ovxalanır, pıçıldaşır
xəzəllərin üstündə
çıxıram... sözümün üstünə.

Səslənirəm, səsim qalmır,
səsimdəki rəsim qalmır
izim qalmır, tozum qalmır,
yağan qar da iz itirir
yağır izimin üstünə.

Duyduğumu kimə deyim, nəyə deyim,
ya deyimsə niyə deyim,
bəlkə elə göyə deyim yağış səpsin,
səpsin közümün üstünə.

Varım belə mənim deyil,
yoxum belə mənim deyil,
ruhum belə,
yuxum belə mənim deyil –
ölüm qaşla-göz arası,
çıxır gözümün üstünə.

## OLUR

Min ildi belədi, bəlkə milyon il
yolların əvvəli cığırnan olur,
Dünya gözəlləri çiçəkdən, güldən,
düşmən çəpərləri oğulnan olur.

Bizi aparanlar mələklər isə,
çərxi döndərənlər fələklər isə,
ölümə qədərlər gerçəklər isə -
ölümdən sonralar nağılnan olur.

Nə yolun sonu var, nə heçin sonu,
bilmirəm hardadı bu köçün sonu,
Vuruşdum, çalışdım bir keçim sonu
gördüm ki, əvvəllər axırnan olur.

## ŞUŞADAKI EVİMİZİN UÇUQLARINA NOKTÜRN

Əllərim
qapımızın tutacağında qaldı…

Səsim qapımızın cırıltısına qarışdı,
gözlərim pəncərəmizdən asıldı…

Xəyallarım hardasa yol gözləyir,
mənim yolumu…

Evimizin uçuq, sökük daşları,
ürəyimi əzir indi…

Daha...
ürəyim yeriyir uçulmuş yurd yerlərində…

## ŞUŞA KÜLƏYİ, ŞUŞA YAĞIŞI

Bakıda Şuşa küləkləri əsir hərdən,
Şuşa yağışları yağır...

Bir qərib oğlan keçir o küləklərdən,
islanır o yağışlarda.

Bir qərib umud közərir
vətən həsrətli baxışlarda.

Küləklər Şuşa küləyi,
yağışlar Şuşa yağışı...
Bir qərib oğlan dumana qarışır,
çənə qarışır.

Duman nə gözəldi, İlahi,
külək nə gözəldi, İlahi,
yağış nə gözəldi –
oğlan nə qəribdi, İlahi!..

## VƏTƏN

Ayrılığın yaman oldu, oldu hey,
nə arzular, də diləklər soldu hey,
yağan bulud hey boşaldı, doldu hey –
əsən külək hələ əsir, ay Vətən!

Ağrılardan ağrılara soldayam,
min ildi ki, hardayamsa ordayam,
sıldırımdan sıldırıma yoldayam,
yollarımı duman kəsir, ay Vətən!

Havalıyam, havam qalıb havanda,
neçə gözəl röyam qalıb röyanda,
nur qanadlı, göy qanadlı duanda –
xəyallarım yuva gəzir, ay Vətən!

## ƏLLƏRİM UÇUR GÖYƏ

***Sevgilisi şəhid olan qızın dilindən…***

Belə axşamlarda da
yarpaq kimi əsirəm.
Axşamdan da küsürəm,
yaşamdan da küsürəm.

Elə darıxıram ki,
lap ürəyim göynəyir.
Ad günündə aldığım
göy köynəyin göynəyir.

Geyinməmisən, amma
köynəkdən qoxun gəlir.
Bu necə ömürdü ki,
gecələr ruhun gəlir.

Bu yaşam bir yuxusa…
yuxudan ayılaydım.
Kaş ruhunu görəydim,
ruhuna sarılaydım.

Eh, belə axşamlarda
Sabah açılmır, niyə.
Gözyaşım yerə damır,
əllərim uçur göyə...

## YAĞIŞ DA BİR TƏRƏFDƏN…

Onsuz da payızdı,
ayrılıq yarpaqların ucundan damır
gilə-gilə –
yağış da bir tərəfdən…

Onsuz da yaşlar özü yağır gözlərimdən,
susduqlarım gözyaşında islanır, –
yağış da bir tərəfdən…

Onsuz da pəncərələr də ağlayır,
aynalar da
aynalarda bir qız əksinin
saçları imislaqdı –
yağış da bir tərəfdən…

Üstümə qollarını açıb xatirələr yüyürür,
yağış da bir tərəfdən…



*Xəyalə SEVİL*

## GÖZÜMƏ DÜŞƏN XƏYALIN

Gözümə düşən xəyalın
Gözümdən axmağa gəlir.
Səhər çağı açılan dan
Gecəni yığmağa gəlir.

Və mən hələ də oyağam –
Hələ də oyaq... yuxulu...
Mənə sevdiyini söylə,
Söylə, qoy rahat yıxılım.

Açılmır yenə başımdan
Qara buludun havası.
İçimə, çölümə sığmır,
Yoxdu bu ruhun yuvası.

Bəlkə gəlib düzəldəsən
Təkliyimi, “biz” olum.
Bu halımı sevmirəm heç,
Gəl, əvvəlki qız olum.

## ÖZÜMDƏN DANIŞIRAM

Özümdən danışıram
Hər gecə göy üzünə.
Ürəyim üzü göyə
Açılan sərgi olur.
Daha əvvəlki kimi
Ağrıtmır ki, qayğılar.
Bir az hüzünləndirir,
O da ötərgi olur.
Səsdən başqa nədir ki,
Qəfəsdən azad çıxan?
Mənəmmi ümidlərə
Ögey çıxan, yad çıxan?
Uşaqlığım, gəncliyim
Yaddaşımın yadına
Ah, necə fağır gəlir.
İlahi, çəkiyə qoy
Yaşımı, yaşantımı
Gör hansı ağır gəlir?

## İSTƏDİYİN BU OLSUN

Sən də yanıltdın məni,
Dəymədi andım sənə.
Danış, susub dinləyim,
Guya inandım sənə.

Nəyin varsa yığıb get,
Gəlim-gedim olmasın.
Gözümdə sağalıb get,
Ölüm-itim olmasın.

Söykəndiyim divarım,
Könlünə uçmaq düşür.
O səmanın altında
Ağ buluda bax, düşür.

Düşür yollarımıza,
Yollarımız su olsun.
Ayrılaqmı deyirsən?
İstədiyin bu olsun.

## BU PAYIZ BİR BAŞQADI

Gözümdən itən kimi
Xəyalın canlandısa,
Yarım qalan hər şeyim
Tək səninlə tamdısa.

Gülü solan güldanın
Təkliyidi mənimki.
Dərd yığılıb üst-üstə,
Bu nə birdi, nə iki.

Bu payız bir başqadı,
Bu yağış kəsən deyil...
Məni ki sevənlərin
Hamısı bir sən deyil.

O əvvəlki, o məsum
Yaşımdan ayrılmadım.
Məni nəylə qınadın?
Xoşumdan ayrılmadım.

## AXI NƏYƏ LAZIMIYDI

Axı nəyə lazımıydı
O köhnə ayrılığı
Təzələmək yenidən?
Axı ayağından
Şikəst sevgini
Təkbaşına
Gücüm yoxdu yeridəm.
Qayıtsan, görəcəksən,
Görəcəksən ki,
Təptəzə qəm çəkirəm.

Üstünü dağıdıb getdin,
Atlını mən çəkirəm.
Qayıtsan, görəcəksən,
Görəcəksən ki,
Bu depressiv hallarımın
Səbəbi sən,
Ürəyimin həyəcanı,
Təbi sən.
Sən olmadın hamı kimi.
Yaddaşımda dadın qaldı
Dodağının tamı kimi.
Gah üz döndün,
Gah əl etdin.
İndi məni qınayırsan,
Məni ki sən əfəl etdin.

## SƏN YENƏ ÖZÜMÜZÜNKÜSƏN, İLAHİ

Birdən soyuyur adam
Yaşadığı evdən,
Getdiyi yoldan,
Alışdığı adamdan.
Sonra hamı bir-birini
Əvəz etməyə başlayır –
Bəlkə sən də kiminsə
Əvəzi idin,
İndi çıxıb yadımdan.
Vaxt keçir!
Neçə yaşı qocaltmısan
Bu yaşına gəlmək üçün?
İndi anlayırsan ki,
Qılığı olmalıymış insanın
Taleyin xoşuna gəlmək üçün.
Darıxırsan və görürsən ki,
Ən çox getmək istədiyin yer
Uzaqlardı...
Sən yenə özümüzünküsən, İlahi,
Yad öldürsəydi, nolardı?

## İNDİ QÜRUR VAXTIDI?

Axırıncı ümidi də
Kəsdim üzü qibləyə,
Sənə şeir də yazmadım
Oxumayasan deyə.
Ürəyimi dörd yerindən
Səliqəylə bağladım.
Qismət ola, ya olmaya,
Sənə veriləsi
Bir əmanət kimi saxladım.
Əslində, saatı
Bir neçə saat
Arxaya çəkmək kifayətdir
Sənə qovuşmaq üçün –
Ayrılığın kür vaxtıdı.
Orda sənə,
Burda mənə deyən lazım,
"İndi qürur vaxtıdı?"

## BİR DƏ TƏRS ÜZÜNƏ ÇEVİR ÜRƏYİ...

Bir də tərs üzünə çevir ürəyi,
Bir də görünməyən üzünü gör, get.
Göy göydən tullayır, yer yerdən atır,
Bir də içimdəki hüzünü gör, get.

Gör harda qalmışam, yığ, gətir məni,
Yığ, gətir qırılmış hissələrimi.
Səni and verirəm, sağ gətir məni,
Sağ gətir, heç kimə demə yerimi.

Cəzamı, töhmətmi, qoy özüm verim...
Onsuz da bu eşqə dərsdi ayrılıq.
Boynuma sarılan qoldu, ya ipdi?
...Yerdən ayağımı kəsdi ayrılıq.

# ♦Yeni tərcümələr

***Məhəmməd ƏHMƏDOV***



*Dağıstanın Xalq şairi Məhəmməd Əhmədovla Sovet dönəmində hansı ədəbi məclisdə tanış olduğumu xatırlaya bilmirəm. Görünür, yaddaşımın yarpaq tökümü daha erkən başlayıb. Amma o, 08, səkkizinci ay, 2022-ci ildə mənə rus dilində nəşr olunmuş "Pismena" adlı kitabını göndərib. "Pismena" – yəni, YAZI – kitabə yazısı.*

*Bir dəfə bir rus nəşrinin müxbiri ondan soruşub: "Siz niyə şeir yazırsınız?" Kəsə cavab verib: "Ana dilimi – avar dilimi yaşatmaq üçün". Bizim zəmanəmizdə, dillər arasında da amansız savaşlar getdiyini nəzərə alsaq, "Mənim ana dilimdə danışanlar azalır..." deyən Məhəmmədi, yəqin ki, hər kəs başa düşər. "Pismena" kitabından çevirib Sizə təqdim etdiyim bu örnəkər – yazılar da avar şairinin çaldığı nigarançılıq təbilidir...*

## AXULQO

Mənim Dağıstanım – Ana Vətənim,
Qayası, torpağı, daşı kəfənim –
Dünyaya gələndə mənə verilən.
Ən böyük, ən ulu mükafatdı o,
Mənimçün Kərbəla, Ərafatdı o.
Boş yerə söyləmir dağıstanlılar
Bizim Axulqoda həcc qüdrəti var;
Silər içindəki küdrəti, kini,
Bu nurlu dünyaya qaytarar səni...

## KÜÇƏ İTLƏRİ

Ensiz bir dalanda, damın tinində
İki it boğuşur al qan içində.

İnsanlar onları qızışdırırlar;
Burda insanlar da o itlər kimi
Boğmağa hazırdı biri-birini.

**ÇOX ŞÜKÜR**

Bərəkət naminə, ruzi naminə
Mən gah soldan, gah da sağdan keçmədim.
Doğrunun açdığı cığır var ikən,
Oğrunun saldığı yoldan keçmədim...

**SAXTAKARLARA**

Həqiqəti duymadım, mən onlara inandım,
Şeytan yoldan çıxartdı, onlara arxalandım.
İndi anlamışam ki, boşuna yaşamışam,
Mən bir sonsuz səhrada tənha, yalqız qalmışam.

**ŞAİRLƏR**

Nə qədər sevimli şairlər vardı,
Hər kəsin qəlbində öz şeir odu.
Yalqız dolanıram axır zamanlar,
Daha sevməyə də bir kimsə yoxdu...

**QOCA**

Aula gəlmişəm... Aul bomboşdu...
Bu dövran da mənim qəddimi əyib.
Salam verməyə də bir kimsə yoxdu...
Dağlara, daşlara "Salam" deyirəm.
Dağlar salamımı alıb soruşur:
"Söylə, bu vaxtacan harada idin?
Söylə, bu aula niyə gəlmirdin?"
Bilmirəm, dağlara nə cavab verim...
Önümdə, arxamda boş qalmış aul,
Biz bu zəmanəyə qul olmuşuq, qul...

**GÜNƏŞ ŞÜASI**

Şüanı Günəşdən qoparmaq olmaz.
Biz də şüalarıq, dərk elə bunu;
Bu ulu Vətən də Günəş misalı –
Dərk elə dünyanın nə olduğunu.

**ANA DİLİM**

"Salam"dan sonra da biz əl tuturuq,
Xoş, ilıq baxışlar, əlin teması...
Sonra ana dili gəlir araya;
Mənim güman yerim ana dilimdi –
Mənim cəvahirim, mənim ləlimdi...

***Rus dilindən çevirən: Məmməd ORUC***

**OXUCULARIN NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN"**

**jurnalına abunə yazılışı davam edir.**

**Əlaqə nömrələri:**

**+ 99412 498-78-10**
**+ 99455 668-78-79**

**Jurnalın bir nüsxəsinin qiyməti 2 manat, illik abunə qiyməti 24 manatdır.**
**İNDEKS: 76300**

*Nizami MƏMMƏDOV-TAĞISOY*



# Anar yaradıcılığında keçmişlə müasirliyin simbiozu

Xalq yazıçısı Anar XX əsrin 60-cı illərindən başlayaraq ədəbiyyat tariximizdə ictimai-mədəni həyatın müasir problemlərini bədii müstəvidə çeşidli yönlərdən çoxçalarlı rakurslardan təsvir etməyi bacaran orijinal təfəkkür daşıyıcılarındandır. Anar Azərbaycan xalqının mədəniyyət və mənəviyyat tarixində nəzərəçarpacaq xidmətləri olmuş Rəsul Rza və Nigar Rəfibəylinin yaradıcılıq ənənələrini nəsr və dram janrlarında (həm də təbi gəldikdə nəzmdə) uğurla və məsuliyyətlə davam etdirən, onu zənginləşdirən qələm sahiblərindəndir. Bədii yaradıcılığa 60-cı illərin əvvəllərindən inadla daxil olub, öz oxucu auditoriyasına malik olan yazıçının "Bayram həsrətində", "Yağış kəsdi" və s. əsərləri ilə daxil olması, 70-ci illərə daha böyük iddia ilə gəlib, "Ağ liman", "Molla Nəsrəddin – 66", "Macal", "Adamın adamı", "İçərişəhər" fotokitabından sonra, 80-ci illərdə addımlarını daha da mətinləşdirməyi bacarıb, "Beşmərtəbəli evin altıncı mərtəbəsi", "Dədə Qorqud", "Sizi deyib gəlmişəm", "Dünya bir pəncərədir", iki cilddən ibarət "Seçilmiş əsərləri" və s. yanaşı, 90-cı illərdən qələmini daha da qədləyərək "Sizsiz" (roman-xatirə), "Şəhərin yay günləri", "Otel otağı", "Şəhidlər dağı", "Min beş yüz ilin Oğuz şeiri", 2000-ci ildə tərtib edib nəşr etdirdiyi "Dünya ədəbiyyatından tərcümələr", "Ağ qoç, qara qoç", Azərbaycan xalça sənəti ilə bağlı II Beynəlxalq simpoziumun Bakıda keçirilməsi ilə əlaqədar "Xalçanın müdrikliyi" adlı essesi (rus dilində) və başqa bu kimi əsərləri ilə nəinki milli bədii söz sənətini və mədəniyyətini, həm də ümumtürk və dünya ədəbiyyatını orijinal, koloritli, özünəməxsus yerli rənglərlə zənginləşdirmiş sənətkarlardandır.

Anar hansı mövzunu bədii baxımından diqqət mərkəzinə çəkməsindən asılı olmayaraq, o, bu mövzulara fərdi rakursdan yanaşmağı özünün yazıçılıq və vətəndaşlıq borcu hesab etmişdir.

Anarın əsərləri həm sovet dövründə, məsələn, Sovet ədəbiyyatında xüsusi istiqamət olan altmışıncılar nəslinin nümayəndəsi kimi onun yaradıcılığının di-

ferensiasiyası çoxsaylı tədqiqat əsərlərində heç də boşuna orta gəlməmişdi. Çünki Anar nədən danışır, kimdən bəhs edir, hansı hadisələri bədii təxəyyülünün gücünə söykənərək təhlilə cəlb edirsə, orada fərdi yaradıcılıq meyarları və ölçüləri onun əsərlərini digərlərindən nəzərəçarpacaq dərəcədə fərqləndirir. Odur ki, altmışıncıların bədii təfəkküründə ortaya çıxan həqiqət axtarışları Anarın yeni bədii yanaşmasının və təfəkkürünün mühüm göstəricisi kimi ortada dayanır. Anar yeni bədii axtarışlar "ovuna" çıxmaqla yaşadığı dövrün bəlalarını və əzablarını, əyintilərini və problemlərini sanki içində bişirib, özü də onların içində qaynadığından bədii fikrə individual rakursdan yanaşmağa çalışırdı. Başqa sözlə desək, Anar altmışıncılar missiyasını özünün yazıçılıq qeyrətinə söykənərək yerinə yetirir, ictimai-sosial və mədəni-mənəvi mühiti orijinal əsərləri ilə zənginləşdirirdi. Bəlkə də Anarın bəxti onda gətirdi ki, bir tərəfdən, onun payına Rəsul Rza + Nigar Rəfibəyli ocağında dünyaya gəlməsi səbəb oldu, digər tərəfdən SSRİ-də mədəni-mənəvi münasibətlərin, sosial gedişatın deformasiyasının gücləndiyi, illuziyaların iflasa uğradığı bir epoxada bədii yaradıcılığa qədəm qoyduğu dövrə təsadüf etdi. Əgər həmin dövr ədəbiyyata, sənətkarların təfəkkür tərzinə total təsir göstərmək gücünə malik idisə, yazıçıların özü də gedən həmin total proseslərə, ədəbiyyatın inkişaf perspektivlərinə öz təsirini göstərirdi. Bu sırada rus Yevgeni Yevtuşenko, Bella Axmadullina, Andrey Voznesenski, Robert Rojdestvenski, Aleksandr Qaliç, Lev Anninski, Yunna Morits, Yuli Kim, Novella Matveyeva, Yuri Kazakov, Danil Qranin, İosif Brodski; ukraynalı Yevgeni Sverstyuk, İvan Svetleçni, Les Tanyuk, İvan Dzyuba, Alla Qorskaya; özbək Qafur Qulam, Aybək, Maqsud Şeyxzadə, Abdulla Qəhhar, Timur Pulatov, Abdulla Aripov, Erkin Vahidov, Mirtemir; gürcü Bulat Okucava; abxaz Fazil İsgəndər, qazax Oljas Süleymenov, belarus Vasil Bıkov, Vladimir Korotkeviç və b. yaradıcılığında yeni estetik-fəlsəfi dünyadərkinin çeşidli şəkilləri ortaya qoyulurdu. Onların əsərlərində fərdi dəst-xəttə, önəm verilməklə poetikanın özünəməxsusluğu və realizmin çeşidli mənzərəsi daha çox avanssesenaya çıxırdı.

Ümumiyyətlə qeyd edək ki, "altmışıncılar" dedikdə adətən 1918-1940-cı illərdə doğulan yaradıcı sovet ziyalıları nəzərdə tutulur ki, onların dünyagörüşü, ideya-estetik proqramları Stalin repressiyası, Böyük Vətən Müharibəsi, qəddar ictimai-siyasi şəraitdə getməklə həyata yenidən "doğuluşu" 1956-cı ilin 14-25 fevralında keçirilmiş XX qurultay zamanı baş verməklə, həm də öz-özlüyündə unikallığı ilə seçilməklə sonrakı onilliklərdə, demək olar ki, təkrarlanamışdır. 1970-ci illərdən başlayaraq "altmışıncılar" öz mövqelərindən müəyyən mənada çəkilməyə qərar versələr də, bununla belə ədəbiyyat və sənətdə elə şəxsiyyətlər olmuşlar ki, onlar sonrakı dövrlərdə bədii sözə yeni mövqe sərgiləməkdə davam etmişlər. Həmin yaradıcı şəxsiyyətlərin sırasına Anar da məhz altmışıncılar pleyadasının öncül nümayəndələrindən biri kimi daxil olmaqla oxucu yaddaşında daşlaşmışdır.

Təsadüfi deyildir ki, xalq yazıçısı Elçin onun haqqında "Anar türk dünyasının vizit kartı, canlı klassikidir" – demişdir.

Akademik İsa Həbibbəyli Anarın yaradıcılığından bəhs edərkən onun ədəbiyyatda yeni dövr yaratdığını söyləmişdir. Eyni zamanda o, altmışıncılar sırasında ədəbiyyatın aparıcı ideoloqları olmaqla ictimai-siyasi quruluşa öz fərqli və fərdi münasibətini ifadə etmiş intellektual yazıçı səviyyəsinə ucalmağa müvəffəq olmuşdur.

* * *

Anar yaradıcılığına daha dərindən nəzər saldıqda onun bədii-fəlsəfi əsərlərinin xeyli rakurslardan kifayət qədər təhlillərə və tədqiqatlara cəlb olunduğunu görmək mümkündür. Bu baxımdan ədibin "Keçən ilin son gecəsi", "Bayram həsrətində", "Taksi və vaxt", "Mən, sən, o və telefon", "Dədə Qorqud", "Beşmərtəbəli evin altıncı mərtəbəsi" və s. əsərlərində biz yazıçının intellektual folklorizmin nəsrə uğurla gətirildiyinin şahidi oluruq. Yeri gəlmişkən bildirək ki, Anar folklor düşüncəsini təkcə ayrı-ayrı hadisələrin təsvirində yox, eyni zamanda onu mətnaltı düşüncədə əks etdirməklə, milli əxlaq rakursunda ortaya çəkdiyi fikrini oxucuya modern bir əxlaq qaydası kimi təqdim edə bilmişdir. Eyni zamanda onu da vurğulamalıyıq ki, əsərlərində daim etnik milli "məni" yaşatmağı qarşısına məqsəd qoymuş yazıçı Azərbaycan nəsrində mütərəqqi düşüncə tərzini təlqin edən əsərlərin yazılmasına daha böyük üstünlük vermişdir. Anar öz yaradıcılığında folklor düşüncəsini yaşatmağa çalışarkən ilk növbədə milli dəyərlərə söykənməni qarşısına məqsəd qoyurdu. Anar yaradıcılığının bu tərəfinə işıq salmağa çalışan prof. Yaşar Qarayev aşağıdakıları daha çox ön plana keçirirdi: "Köklü rabitə həmişə daxildə, alt qatdadır. Axı keçmiş bizə gələcəyin özü yox, məhz alt qatdakı təməli kimi lazımdır. O, sabahı əvəz edəndə yox, onu öz çiyninə qaldıranda və başı üstə ucada saxlayanda möhtəşəmdir. Kök həmişə arxada və dərindədir, o, bizdən irəlidə və yüksəkdə olsa, biz heç bir zaman ondan irəliyə və yüksəyə qalxa bilmərik və əslində belə kök təmələ yox, çəpərə çevrilir. Elə ona görə də Anarın zaman və rabitə konsepsiyasında keçmişə yenidən qayıtmağa tələsdiyimiz ünvan və mənzil deyil, gələcəyə boylandığımız zirvə və dayaqdır."

Odur ki, Anar folklor intellektinə və dünyagörüşünə aid olan mövzu, motiv, süjet və obrazlardan öz nəsrində uğurla yararlanmaqla ona gərək olan xronotop çərçivəsində hadisələri özü üçün vacib olan məcraya yönəldir. Hər bir personajın, obrazın və qəhrəmanın iç dünyasına, psixoloji vəziyyətinə, kökdən gələn varislik ənənələrini qoruyub, yeni biçimdə saxlamağa müvəffəq olur.

* * *

Anar yaradıcılığa qədəm qoyduğu ilk addımlarından başlayaraq o vaxtkı Sovet oxucusuna çatdırılırdı. Təsadüfi deyildir ki, belə olduğu halda Anarın yaradıcılığı digər rus yazıçıları Y.Trifonov və A.Bitovun yaradıcılığı ilə müqayisəli-

qarşılaşdırıcı müstəvilərdə nəzərdən keçirilirdi. Bunu ona görə qeyd edirik ki, 80-90-cı illərdə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunun (indiki Bakı Slavyan Universiteti) Rus sovet ədəbiyyatı kafedrasının baş müəllimi Adilə Məmmədzadə biz eyni kafedrada çalışarkən tanınmış ədəbiyyatşünas-alim, professor Həbib Babayevin rəhbərliyi altında "XX əsrin 70-80-ci illərində rus və Azərbaycan nəsrində mənəvi axtarışlar (Anar, Y.Trifonov və A.Bitovun yaradıcılığının materialları əsasında)" namizədlik dissertasiyasının müzakirəsində və müdafiəsində iştirak etmiş, ondan 18 il sonra isə yenə də bizim çalışdığımız adını çəkdiyim həmin ali məktəbdə fəaliyyət göstərən Dissertasiya şurasında Dürdanə Tahirova "Rus və Azərbaycan şəhər nəsrinin poetikası (Y.Trifonov və Anarın yaradıcılığının materialları əsasında) digər bir tədqiqat işi hazırlayıb müdafiə etmişdir.

Bunları ona görə xüsusi olaraq qeyd edirik ki, Anar yaradıcılığında milli hədlərdən xeyli dərəcədə kənara çıxan mövzuları uğurla əks etdirən yazıçılardandır. Ona görə ki, bu yaradıcılıq maraqlı və özünəməxsus olmaqla, həm də rus sovet yazıçılarının əsərləri ilə çoxsaylı səsləşmələr və tipoloji oxşarlıqları ilə mənəvi problemlərin bənzər həlli ilə seçilirdi. V.Tendryakov, H.Trifonov, A.Bitov və digərlərinin əsərlərində olan vətəndaşlıq mövqeyinin ümumiliyi, təsvir edilən mühitdəki gerçəkliyi göstərmək, onun mənəvi vəziyyətini ideyalar arasındakı səsləşmələr, əsərlərində yer almış obrazların əsil şəxsiyyət kimi göstərilməsi, özünün mənəvi-əxlaq seçimi ilə fərqlənməsi və s. cəhətlərin, o cümlədən Anar, Trifonov və Bitov yaradıcılığında, belə demək mümkünsə, "şəhər nəsrinin" qeyri-adiliyini göz önünə gətirmək, göstərmək qapalı məkanda qapanıb qalmalarının və "dairədən" çıxa bilməmənin səbəblərinin eyniliyi ilə bir-birinə uyğunluğu ilə seçilməkdədir.

Anarın 70-80-ci illərdə qələmə aldığı qəhrəmanları V.Şukşin, N.Nosov, O.Qonçar, A.Kim, Ç.Aytmatov, Y.Səmədoğlu, V.Rasputin, V.Belov, V.Astafyev, F.Abramov və başqalarının obrazları kimi sanki "ayaqları yerdən üzülmüş" təsiri bağışlayırdı ki, bu da bu qəhrəmanların mənəvi mövqelərinin yaxınlıqlarını əks etdirməklə, həm də onlar arasındakı mənəvi kolliziyaları ortaya qoyurdu. Yeri gəlmişkən bildirək ki, "şəhər nəsri" termini sovet ədəbiyyatında 70-80-ci illərdə dirçəlməyə başlamışdı ki, onun da aparıcı nümayəndələri elə Anar, R.İbrahimbəyov, S.Əhmədli, Elçin və başqa bu kimi bədii fikir sahibləri idi. Belə olduqda Anar yaradıcılığında xarakter-kompromis, uğursuz-ziyalı, işgüzar adam tipləri ortaya çıxırdı ki, bu da Anarın "Dairə" (1965) povestində qəhrəman Nemətin timsalında daha relyefli görünməkdədir.

* * *

Elə buradaca Anarla bağlı bir sıra təfəkkür sahiblərinin qənaətlərini ortaya çəkmək də yaxşı olardı. Məsələn, istedadlı Azərbaycan dramaturqu və ssenaristi, xalq yazıçısı Rüstəm İbrahimbəyov Anarın yaradıcılığını nəzərdən keçirər-

kən aşağıdakıları yazırdı: "Anar sözün həqiqi mənasında intibah genişliyi ilə özünü nümayiş etdirən yaradıcılığındakı bacarıq və maraqları ilə yanaşı, hər şeydən öncə onun istedanın mənəvi mənbələrinin olduğunu söyləmək zəruridir".

Anar Azərbaycan ədəbi mühitində olduğu kimi, rus ədəbi-mədəni mühitində də sevilə-sevilə oxunan tanınmış müəlliflərdən olmuşdur. Odur ki, onun əsərləri rus ədəbi tənqidində də yetərincə rezonans doğururdu. Demək olar ki, belə hal 1970-ci illərdən başlayaraq, günümüzə qədər davam etməkdədir. Bu baxımdan Anar yaradıcılığına analitik əsərlər həsr edib, Moskva nəşrlərində çap etdirmiş, dərin müşahidəli tənqidçi Lüdmila Lavrova yazırdı: "O, – mumdan yumşaq, ziyarətə gedən dərvişdən aram, o, paklığın müqəddəsi, özünü öyməyən, özünü gözə soxmayan olsa da, onun davranış manerası artıq onilliklərdir ki, Azərbaycan mədəniyyətinin səviyyəsini müəyyənləşdirməkdir. Onun sözü – dərin məzmunlu Azərbaycan sözüdür, ağrı və acıları isə bütün xalqın ağrı-acılarıdır.

Anar sanki tarixi tamamilə müxtəlif zamanlarda, ikinci minillikdə, iki tamamilə fərqli sivilizasiyalarda yaşayır. Lakin onlar nə qədər fərqli olsa da, bütün dəyişikliklər zamanı Azərbaycan milli ruhu onun qəlbinin dərinliyində dəyişkənliyə məruz qalmadan yaşayır. Və Anarın əzablar hesabına ortaya çıxan yaradıcılığı altmışıncı illərdəki ilk hekayələrindən başlayaraq üçüncü minillikdə insanın içini riqqətə gətirən maraqlı təhkiyəli "Ağ qoç, qara qoç"da onun səsi milli həyatın daha çox dərinliklərindən gəlir. Bu səs həm də dahi sənətkarın səsi olaraq gəlir. Bu səs müdrik qocanın səsi kimi eşidilir".

Söhbət Anarın "Ağ qoç, qara qoç" əsərindən düşmüşkən, bu romanla bağlı Anarın yaxın dostu və həmkarı, dahi qırğız yazıçısı Çingiz Aytmatovun da fikirlərini ortaya çəkmək yaxşı olardı. O, bütün hallarda Anarı özünün ən yaxın dostu hesab edirdi. Hətta onlar nəinki Bakıda, Bişkekdə, Moskvada görüşür, ədəbiyyatla, sənətlə bağlı baxışlarını bölüşürdülər, həm də bir-birlərinin evində qonaq olurdular. Odur ki, onlar arasında yaradıcılıq yaxınlığı ilə yanaşı, həm də mənəvi bağlılıq hökm sürürdü: Odur ki, Ç.Aytmatov Anarın "Ağ qoç, qara qoç" romanı haqqında dəyərli fikirlər ortaya qoyurdu: Anarın ən iri həcimli əsəri "Ağ qoç, qara qoç" olduqca özünəməxsusdur. O, folklor obrazından istifadə etməklə – ağ qoça minərsən, işıqlı dünyaya çıxarsan, qara qoçu minib tutqun və qaranlıq dünyaya düşərsən – yazıçı əsərinin iki hissəsində öz doğma vətəni Azərbaycanın gələcək iki modelini yenidən yaradır. Bunlardan biri xoşbəxt, uğurlu, azad, demokratik ölkə olub, orada ərazi, milli, sosial, mənəvi problemlərin hamısı həll olunmuş kimi, ikinci yenə həmin ölkədir ki, onun qorxunc versiyası ortaya qoyulur ki, o faktiki olaraq üç işğal olunmuş zonalara bölünərək – onlardan birində möcüzəli hətta ailə münasibətlərini nizamlayan dini fanatizm, digərində şəxsiyyətin mənəviyyatını ən pis formada boğan riyakar və yalnız doqmatizmə söykənən komunizm sistemi, üçüncü də isə qızıl öküzə sitayiş edən, bütün mənəvi-mədəni dəyərləri ayaq altına atan vəhşi kapitalizm hökm sürür". Hesab

edirik ki, Anarın “Ağ qoç, qara qoç” əsərində verdiyi birinci proqnoz özünü doğrultdu. Vətənimiz erməni separatçılarının və qəsbkarlarının tapdağından azad edildi.

Fikirlərimizi sənətkarın yaradıcılığı ilə davam etdirərkən, həm də onun nəsrində özünü daha qabarıq şəkildə biruzə verən “şəhər nəsri” problemi üzərinə proyeksiya edək. Anarın “şəhər nəsri”nin başlıca motivlərində ev-ocaq, həm də dəyişməyən qaydalar əsasında yaşayan cəmiyyəti simvolizə edilir ki, onun qaydalarından kənara çıxanlar ciddi şəkildə cəzalandırılır. Görkəmli rus tənqidçisi Lev Anninskinin qənaətinə görə Anarın əsərlərinin bir sıra personajları və qəhrəmanları üçün ev – türməyə, zindana çevrilir: “İnsan qayda, qanun, qadağa və normaların əsiri olur. Nə qədər vicdanlı qayda, gözəl qanunlar, ədalətli qanunlar və xeyirxah normalar olsa da, o, bütün bu halların hamısında əsir olaraq qalır”.

Anar yaradıcılığının digər bir tərəfində dayanan mühüm məqam isə onun əsərlərindəki sənədli dəqiqliklə həqiqətə uyğunluğun bir arada olmasıdır. Lakin eyni zamanda ədibin bədii örnəklərində süjetdənkənar elementlər də onların danılmaz hissəsidir ki, burada portret, peyzaj, interyer, bədii detal, obraz-simvollar və s. olaraq diqqəti yetərincə cəlb edir. Elə buna görə də Anar nəsrinin ən mühüm göstəricisi kimi onun ənənəvi simvol obrazlardan gen-bol yararlanmasını göstərmək olar.

* * *

Anarın nəsr yaradıcılığı folklor qaynaqlarından nəşət almaqla, həm də Azərbaycan xalqının milli-mənəvi və sakral-ruhi dəyərlərinin ədəbiyyatda necə təcəssüm etdirilməsi baxımından xüsusi olaraq öyrənilməlidir. Opponentlərimizdən kimlərsə deyə bilər ki, folklor qaynaqlarından milli-bədii söz sənətimizdə qidalanma heç də yeni məsələ deyildir. Və bəzən belə fikri səsləndirənlər özlərinə haqq da qazandıra bilərlər. Biz də belə yanaşmanı inkar etmir və eyni zamanda söyləmək istəyirik ki, Nizami, Fizuli, M.P.Vaqif, Aşıq Abbas Tufarqanlı, Sarı Aşıq, M.F.Axundzadə, N.Vəzirov, S.M.Qənizadə, Eynəli bəy Sultanov, Cəlil Məmmədquluzadə, Y.V.Çəmənzəminli, C.Cabbarlı, Ə.Haqverdiyev, M.S.Ordubadi, M.İbrahimov, S.Rəhimov, S.Vurğun, Mir Cəlal, İ.Şıxlı, N.Xəzri, S.Əhmədli, Y.Səmədoğlu, M.Süleymanlı, Elçin və onlarca başqaları folklor motiv, süjet, mövzu, obraz və qəhrəmanlarına söykənməklə çoxsaylı yaddaqalan bədii nümunələr yaratmışlar və onların əksəriyyəti ilə bağlı ədəbi-tənqidi fikir nümayəndələrimiz mövqe sərgiləmişlər. Lakin Anar yaradıcılığında folklor obrazları və qəhrəmanlarının çəkisi xüsusilə görümlüdür. Bunu biz Anarın “Dədə Qorqud” povestində ortaya qoyulmuş Qorqud obrazı əsasında yetərincə relyefli illüstrasiya edə bilərik. Bununla demək istəyirik ki, “Dədə Qorqud”dan gələn süjet arxitektonikası, bir tərəfdən, bütövlükdə nəsrimizi daha görümlü şəkildə milli nəsr koloritinə bürüyür, digər tərəfdən

obraz və qəhrəmanın mövzu, məzmun və ideya istiqamətini nəzərəçarpacaq dərəcədə yüksəldir.

* * *

Anar nəsrini biz yeni Azərbaycan bədii-estetik fikrinin orijinal örnəyi kimi də nəzərdən keçirə bilərik. Belə bir fikrin irəli sürülməsini biz onunla əsaslandırırıq ki, altmışıncılar ədəbiyyatda və sənətdə əvvəlki təsvir və yanaşma stereotiplərini dağıtmağa çalışdığından fərdi bədii düşüncələrinə söykənib, sosialist realizmi, bolşevizm platforması və kommunist ideologiyası hegemonluğundan xilas etməyə çalışarkən, həm də onun sərbəst inkişaf yolu ilə irəliləməsinə nail olmağa çalışırdılar. Xoşbəxtlikdən həmin "gəminin göyərtəsində" yer alanlardan biri də məhz Anar idi. Ədəbiyyata və sənətə belə yanaşma nəticə etibarı ilə "yeni nəsr" anlayışını gündəmə gətirirdi. Əlbəttə, Anar ədəbiyyatın vəzifələrinə tənqidçi kimi yox, həm də yazıçı, nasir kimi yanaşırdı. Anarın yaradıcılığına biz yeni nəsr nümunəsi kimi ona görə baxırıq ki, onun əsərlərində yer almış müstəqil düşüncəli, üsyankar, çılğın obraz və qəhrəmanlar yaşadıqları ictimai-sosial və mədəni-mənəvi mühitin adamları olaraq yaşadığı dövrlə antoqonizmdə olduğunu ifadə edirdilər.

Anar nəsrində ən diqqət çəkən problemlərdən biri də müəlliflə əsərin qəhrəmanı arasındakı mövqe və münasibət problemidir. Eyni zamanda Anarın əsərlərində qəhrəmanların özünüdərki prossesin gedişində bədii təsvir predmetinə çevrilir və bir sıra hallarda yeni hüquqlu özünüdərk subyektləri əsərdə özünəməxsus polifonizm yaradır. Məsələnin bu tərəfinə toxunduqda müəllif və qəhrəman münasibətlərini qabartdıqda biz Mixail Baxtinin mühakimələrinə əsaslanaraq, onu deyə bilərik ki, əsərin qəhrəmanı yaradıcı-müəlliflə üst-üstə düşmür və M.Baxtin elə ordaca qəti şəkildə bildirir ki, "əks-təqdirdə biz bədii əsər adlı məfhumdan danışa bilmərik". Bununla belə, elə hallar da odur ki, müəllifdə qəhrəman arasında üst-üstə düşən məqamlar da olur ki, yazıçı qəhrəmanının nitqində öz fikirlərini ortaya çəkməyi zəruri hesab edir. Belə yanaşmanın özü də M.Baxtin tərəfindən heç də səmərəli qəbul edilmir. Buna görə də bizim də məsələyə münasibətimiz, demək olar ki, analoji müstəvidədir.

Anar həm də istedadlı bir yazıçı kimi öz qəhrəmanlarının tərcümeyi-halına, taleyinə və xarakterinə özünəməxsus rakursdan yanaşır. Bunu biz "Beşmərtəbəli evin altıncı mərtəbəsi"ndə Təhminə obrazında, "Dantenin yubileyi"ndə Feyzulla Kəbirlinskinin, "Macal" povestində Fuadın şəxsi həyatında, "Sizsiz" əsərində Rəsul Rza və Nigar Rəfibəylinin ömür fraqmentlərində, "Ağ qoç, qara qoç" əsərinin baş qəhrəmanı Məlik Məmmədlinin və digərlərinin timsalında müşahidə edirik.

Anarın əsərlərinin bədii forması və sənədliliyi onların mövzusunun məzmunu üzərində dayanan üslub və kompozisiya quruluşuna söykənir. Əksər

əsərlərində Anar şəxsiyyətlə bağlı məsələlərə, şəxsiyyətin inkişaf dinamikasına nəzər salmağı qarşıya məqsəd qoyur. Anarın əsərlərinin praqmatik təhlilini apararkən görürük ki, onun müəllif olaraq bədii şüurunda və təfəkküründə aşağıdakı mühüm dominant yanaşmalar özünü göstərir.

Müəlliflə qəhrəmanın daxili aləminin təhkiyəsinə istiqamətlənən monolojilik.

Təhkiyəçinin təsvir etdiyi hadisələri ürəklə, əminliklə ortaya qoyması. Belə olduğu təqdirdə mətn emosionallıqla seçilir və müvafiq psixoloji təhlillər aparılır. Nəticədə nəinki qəhrəmanın şüuru, həm də müəllifin özünün fenomenal dünyaya münasibəti müəyyənləşir.

Passeistlik – yəni keçmişə rəğbət, gələcəyə o qədər də inamlı olmayan münasibət onun əsərlərində daha dəyərli kateqoriya kimi çıxış edirdi.

Təhkiyənin fenomenoloji təbiəti daha da cəbedici olur. Burada təhkiyənin subyekti və obyekti birləşir. Və belə olduqda əsərdə həyat təsvir edilən hadisələrin və halların fraqmentar zaman axını kimi canlanır.

* * *

Anar nəsr yaradıcılığında nə qədər orijinal uğurlara imza atmışdırsa, onun dramaturji yöndə qələmə aldıqları heç də nəsr sahəsində yaratdıqlarından geri qalmamışdır. Ədibin “Keçən ilin son gecəsi”, “Şəhərin yay günləri”, “Adamın adamı”, “Səhra yuxuları”, “Yaşıl maşın”, “Sizi deyib gəlmişəm”, “Qəm pəncərəsi”, “Təhminə və Zaur”, “Qaravəlli”, “Evləri köndələn yar” və digər bu kimi səhnələri əsər milli dramnəfisliyimizin yaddaqalan incilərindəndir. Professor C.Abdullayev və b. tərəfindən hazırlanmış “Müasir Azərbaycan ədəbiyyatı” kitabında yer almış “Anar” oçerkində oxuyuruq: “Müəllifin yaradıcılığı üçün səciyyəvi olan yeniliyə, axtarışlara, tapıntılara meyillilik onun dramaturgiyasında da aşkar müşahidə olunmaqdadır; məhz onun bu janrda yazdıqlarının əksəriyyətində yeni bir problem qaldırması, yaxudda aktual bildiyi problemləri yeni formada canlandıra bilməsi buradan qaynaqlanır.

Bu cəhət, şübhəsiz ki, Anar dramaturgiyasının mövzu-məzmun baxımından novatorluğunu şərtləndirir. Ədibin nəsr əsərləri kimi dramaturgiyası da gecikmiş, ömrünü bitirməkdə olan, ənənəvi mövzularda yazılmamış, əksinə onun qələmində ilk baxışda adi görünə biləcək məsələlər sənətin qeyri-adilik məqamına qaldırılmışdır. Müəllifin dramatik müstəviyə çıxardığı həyat materialının dərinliyinə, kökünə, mahiyyətinə varmağı, onu bütün yönləri, şaxələri, aspektləri göstərə bilməyi ilə əsərlərinin canlılığını təmin etmişdir”.

* * *

Anar heç də qələmini yuxarıda sadaladığımız janrlarda sınamamışdır. Onun komediya, radiopyes, telepyes kimi janrlarda da gen-bol yararlandığını görmək

mümkündür. Bu müstəvidə müəllifin "Dindirir əsr bizi", "Yaşıl maşın", "Evləri köndələn yar", "Qaranlıq" və başqa bu kimi radio və telepyesləri dinləyici və tamaşaçı zövqünün formalaşmasında əsaslı rol oynamışdır. Əgər dediklərimizə onun "Gün keçdi", "Dədə Qorqud", "Uzun ömrün akkordları" və s. kimi yaddaqalan örnəkləri də əlavə etsək, bu zaman Anarın mövzu, janr və probematika baxımından yaratdığı rəngarəng əsərlərinin gözümüz qarşısında tanış olmayan möhtəşəm sənətkar obrazını yaratmağa müvəffəq ola bilərik.

* * *

Ədəbiyyatımızın orijinal nümunələrini yaradan az miqdarda yazıçı və şairlərimiz vardır ki, onlar öz bədii örnəkləri ilə yanaşı, həm də ədəbiyyat tarixçiliyi, çağdaş ədəbi proses, ədəbi tənqid və ədəbiyyatşünaslıq məsələləri ilə də səriştəli məşğul olmuşlar. Xətib Təbrizi, Məhəmməd Füzuli, Xacə Hümam Təbrizi, Mirzə Fətəli Axundzadə, Yusif Vəzir Çəmənzəminli, Seyid Hüseyn, Səməd Vurğun, Mir Cəlal, Bəxtiyar Vahabzadə, Seyfulla Əsədullayev, Məmməd Cəfər Cəfərov, Gülhüseyn Hüseynoğlu, Xəlil Rza Ulutürk, Elçin Mehrəliyev, Elçin, Vaqif Sultanlı və başqa bədii təfəkkür sahibləri kimi, Anar da nəzəri yanaşmaları ilə fərqlənən fikir daşıyanlardandır. Odur ki, biz Anarın nəsr, nəzm, dram, publisistika sahəsində yaradıcılığından bəhs etdikdə, həm də onun elmi-tənqidi əsərlərinin məziyyətlərindən danışa bilərik.

Anarın elmi-nəzəri yaradıcılığında "Nəsrin fəzası" və "Gecə düşüncələri" kimi nəzəri-fəlsəfi, ədəbi-estetik araşdırmalarının müəllifin ortaya qoyduqlarında baxış özəlliyi və janr-forma özünəməxsusluğunu görməkdəyik. Bundan başqa, Anarın "Mübarizə bu gün də var" iri həcmli əsərində qoyulmuş nəzəri-fəlsəfi baxışlar müəllifin problemə yanaşma tərzindəki orijinallıqdan xəbər verməkdədir.

Yəqin elə bu keyfiyyətlərinə görədir ki, Anarın çeşidli bədii yaradıcılıq nümunələri, tənqidi əsərləri və məzmunlu yazıları dünya xalqlarının onlarcasının dillərinə tərcümə olunmuşdur.

Lakin bununla belə, həm də hesab edirik ki, Azərbaycanda və onun hüdudlarından kənarda yaradıcılığı yetərincə məlum olub, özünə oxucu auditoriya toplaya bilsə də, hələ də beynəlxalq çaplı bu sənətkarın ədəbi-bədii nümunələri bu günədək, fikrimizcə, zəruri olduğu qədər dərindən təhlillərlə cəlb edilməmişdir. Ümüd edirik ki, bu nəcib işin öhdəsindən nəinki yerli tənqidçilər, həm də Azərbaycandan kənarda fəaliyyət göstərən qeyri-milli fəlsəfi-estetik fikir sahibləri layiqincə gələcəklər.

Anar digər mükəmməl təfəkkür sahibləri – Nizami epos nümunələrinə söykənib, fərdi yaradıcılıq məharətindən istifadə edərək "Xəmsə"ni yaratdığı kimi, Füzuli türk dilinə rövnəq verib, onu alaqlardan təmizləyib göyçək və səfalı çəmənə" çevirdiyi kimi (F.Köçərli), türkiyəli tədqiqatçı Məhəmməd Cəlalın yazdığı kimi, Füzulidə təqlid olmayıb, ərəblərdən və əcəmlərdən heç nəyi əxz

edib mənimsəmədiyi kimi, "Leyli və Məcnun"u göz yaşları ilə yazıb, təqlidlə məşğul olmadığı kimi, M.F.Axundzadə öz dramaturgiyası və nəsri ilə bədii-estetik düşüncə "cəbhəsində" yeni cığır açıb, realizm elementlərini mükəmməl şəkildə ədəbiyyatımıza gətirdiyi kimi, Anar da bədiiyyat sahəsinə öz individual üslubu ilə daxil olmuş, ədəbiyyatımızda əksər bədii nitq klişelərindən məharətlə istifadə edib özünəməxsus monoloji, dialoji və poliloji nitq rəngarəngliyi ilə XX əsrin 60-cı illərindən başlayaraq, bədii təfəkkür nümunələrini günümüzə şərəf, ləyaqət və məsuliyyətlə daşıyan yazıçılardan binicisi olaraq dərk edilməkdə, qəbul olunmaqdadır.

Anarın öz qəhrəmanlarının daxili aləminə, müasirlərinin mürəkkəb problemlərinin açılmasına və həll olunmasına can atmaqla öz fərdi yanaşma üslubuna üstünlük verib, əsərlərində nəinki ayrı-ayrı insanların, həm də xalqının və dünyanın problemlərinə laqeyd qalmadığını görürük. Hələ 70-ci illərdə rus tənqidçisi İ.Borisova onun qəhrəmanlarından bəhs edərkən yazırdı: "Anarın qəhrəmanları heç də həyatın avanssenasında dayanmır, onlar bir qədər aralıda, dərinlikdə, kənarda, kulis arxasından baxırlar...

Bəs görəsən (bu zaman o, Anar yaradıcılığının hələ yeni dövrlərindən bəhs edirdi) gənc yazıçı bu talelərdə nə axtarır? Burada onun yalnız "kiçik adamı" müdafiə edəcək xeyirxah pafosumu ortadadır? Bəli, müdafiə edir, lakin bu müdafiə güzəştə getmək də deyil, bu heç ürəyi genişliklə də bağlı deyil. Anarın qəhrəmanları o qədər ləyaqət və xeyirxahlıq görürlər ki, bu da onlara bəhs etməyin ən mühüm məqamını yetişdirir".

Yeri gəlmişkən söyləyək ki, 70-80-ci illərdə Anarın əsərləri ardıcıl olaraq Moskvadakı "Drujba narodov" jurnalı ilə yanaşı, digər dərgi və mətbuat orqanlarının səhifəsində işıq üzü görürdüsə, rus ədəbi tənqidinin tanınmış nümayəndələri Lev Anninski, Tatyana Bek və başqaları "Voprosı literaturı" və s. jurnallarda onun yaradıcılığına həsr olunmuş maraqlı tənqidi yazılarla çıxış edirdilər.

Anar haqqında, onun yaradıcılığının müxtəlif cəhətləri, bədii düşüncəsinin orijinallığı ilə bağlı çoxsaylı tədqiqat işləri, monoqrafik araşdırmalar, kitablar və digər bu kimi çeşidli təhlillər və yanaşmalarla zəngin olan mənbələr ortaya gəlmişdir. Burada bizim onların hamısını sadalamağa imkanımız olma da, bəzilərinin adlarını çəkmək istərdik. Onların sırasında Nurlana Əliyevanın "Anar – şəxsiyyət və sənətkar", Sabir Bəşirovun "Anar", Əsəd Cahangirin "Ağ qoç, qara qoç", Nizami Cəfərovun "Anar. Yazıçı, Mütəfəkkir-Alim", Əlisəfdər Hüseynovun "Kinomuzda Anar fenomeni", Südabə Sərvinin "Anar fenomeni – 75", Aytən Quliyevanın "Anar yaradıcılığında mənəvi-əxlaqi problemlər", Əmin Əfəndiyevin "Anar - Ömür yolu". Yaradıcılığı. Biblioqrafik soraq kitabı, Sona Xəyalın Anarla bağlı yazdığı "Anlamamaq dərdi", Gülxani Pənahın "Anar və folklor", Əzizxan Tanrıverdinin "Anar", Anara həsr olunmuş "Dünya miqyaslı ziyalımız Anar" və s. qeyd etmək olar.

* * *

Anarın diqqət mərkəzində əksər hallarda iri şəhərin kiçik adamlarının fərdi həyatı, onların ruhi-mənəvi aləmi dayanır və bütün bunun episentrindən həyatın axarının müxtəlif tərəfləri oxucuya ötürülür. Belə təsvirləri biz onun "Bayram intizarında", "Ötən ilin son gecəsi", "Asılqanda işləyən qadın", "Taksi və zaman", "Gürcü familiyası", "Mən, sən, o və telefon", eyni zamanda "Molla Nəsrəddin – 66"-ya daxil edilmiş satirik hekayələr silsiləsindəki nümunələrdən də görə bilərik.

Anarın xeyli dram əsərləri, o cümlədən "Telefonlu gecələr" Azərbaycan və ölkəmizin hüdudlarından kənarda olan teatrlarda uğurlu təcəssümünü tapmış, tamaşaçıların rəğbətini qazanmış səhnə əsərlərindəndir.

* * *

Fikrət Əmirovun bəstəkarlığı ilə "Nəsimi haqqında dastan" baletinin librettosu və Vasif Adıgözəlovun "Payımı aldım – dayımı çağır" musiqili komediyasının sözləri Anara məxsusdur.

Eyni zamanda Anarın qələmindən çıxmış neçə-neçə sənədli filmlər, "Evləri köndələn yar", "Narahatlıq", "Bu, Səttar Bəhlulzadədir", "Bu, Cavaddır", "Daş saatın səsi", "Dədə Qorqud dünyası", "Çinarın həyatı" kimi televiziya əsərlərinin ssenariləri vardır.

Anarın ssenarisi əsasında "Yer. Dəniz. Alov. Səma", "Ötən ilin son gecəsi", "İmtahan", "Əlaqə", "Otel otağı", "Cavid ömrü", "Şəfəq müjdəçisi", "Üzeyir ömrü" və "Qəm pəncərəsi" kimi ikiseriyalı maraqlı əsərlər onun quruluşçu rejissorluğu ilə səhnə həllini tapmışdır.

"Mən, sən, o və telefon" hekayəsi əsasında "Mosfilm"də "Hər gecə saat 11-də" filmi ortaya qoyulmuşdur.

Bundan başqa Anarın fərdi yaradıcılıq obrazı rejissor Ramiz Həsənoğlunun ssenarisi əsasında "Anarla üz-üzə" və "Bir an Anarla" adlı televiziya filmində yaradılmışdır. Eyni zamanda Emin Sabitoğlu, Xəyyam Mirzəzadə və Cavanşir Quliyev kimi bəstəkarlarımız Anarın sözlərinə uğurlu mahnılar bəstələmişlər.

Beləliklə, böyük Azərbaycan ədibi Anarın yaradıcılığına geniş kontekstdə nəzər salarkən görürük ki, o, milli ədəbiyyatımızın inkişafına çeşidli yönlərdən əsaslı və pozitiv təsir göstərməyi bacaran zəngin təfəkkür daşıyıcılarındandır. Odur ki, biz Anar yaradıcılığına ardıcıl və sistemli olaraq müraciət etməli, onu müxtəlif istiqamətlərdən təhlil etməyə çalışmalıyıq.



*Elvin İNTİQAMOĞLU*

**GÜL KİMİ SEVMƏK**

Düzün qızılgülləri,
solanların verin mənə –
Təravətli olanların yar aparsın,
qalanların verin mənə...

Özüm əkmişəm, özüm:
Əllərimi səpmişəm,
Ömrümü tökmüşəm su istəyəndə...
Qoymayın,
Qoymayın yad əl dəyə –
Ləçəklərin gizlədin,
tikanların verin mənə...

Daha həsrətdən saralıb,
Vərəqlərin arasında quruyub xatirələr –
Qızılgülün gül qoxuyan
zamanların verin mənə...

## GƏLİŞ ÇAĞI

İndi gəlsən, ömrümü
təpədən dırnağacan
dərd içində görərsən –
Dərdin az çağında gəl...

Yazım baxışlarından,
saçından, gülüşündən –
Sözün söz çağında gəl...

Payızda gəlsən, yerə
sarı ümidlər düşər –
İlin yaz çağında gəl...

Qışın oğlan çağında
üşüyərsən, donarsan –
Qışın qız çağında gəl...

## DÜNYAYA GƏLƏNDƏ

Mən dünyaya gələndə –
Oğul sahibi oldu
adın belə bilmədiyim iki nəfər...
Heç kim mənim gözləməyib gəlişimi
onlar qədər...

Mən dünyaya gələndə –
Sıfır yaşın içindəydim,
dərd sıfırın içiydi...
Məndən qabaq doğulmayan körpələr
Vaxtca məndən kiçik idi...

Mən dünyaya gələndə –
Vaxtı bitmiş beş insanın
ölüm düşdü payına...
Mən doldurdum yerlərini –
Bir nəfər bərabər oldu
beş nəfərin sayına...

## ANAN BİLMİR

Uşaq vaxtı anam mənə
yemək yedizdirəndə
üstümə dağıdardım,
anam əsəbləşərdi...
İndi öz əllərimlə qəm yeyirəm,
yerə-göyə dağıdıram...
Anam bilmir!

Səkkiz martda
əlimdə gül
"Ana" şeiri oxuyardım...
İndi ona oxuduğum şeirləri
mən yazıram...
Anam bilmir!

Evə gec gələrdim, darıxdığından
qucaqlayıb qoxlayardı:
İndi üstümdən siqaret iyi gəlir...
Anam bilmir!

Yalan nəsə deyəndə mən
Allaha and içməyimi istəyərdi...
İndi anamın canına and içirəm...
Anam bilmir!

## ÜÇ PARÇA

Kağız parçasında şeirlər gəzir,
Şeir sətir-sətir əsrlər gəzir –
Dilimdə bitməmiş sətirlər gəzir,
içimdə söz parçası var...

Qapqaradı ağıl dişi dərdimin,
Gözündən yaş gəlir kişi dərdimin –
Yavaş-yavaş yatır şişi dərdimin,
üstündə buz parçası var...

Bəxtimdən toz-duman çəkilmir hələ:
Yağış da yağmır, su da gəlmir hələ –
Küçəmizə gələn yar bilmir hələ
qolunda toz parçası var...

## ÖLÜMDƏN BİR GÜN QABAQ

Öləcəyim günü bilsəm,
ölümümdən bir gün qabaq
Allahın mənə verdiyi
illərə qurban kəsərəm –
Ömrümün qalan hissəsin
düz tən ortadan kəsərəm...

Elə özüm düzəldərəm
divardakı öz şəklimi:
qoymaram qızım şəklimin
tozun göz yaşıyla silə,
qoymaram oğlum şəklimin
çərçivəsin hazırlaya –
İstəmirəm qızım məni
toz izindən,
oğlum məni
çərçivədən xatırlaya...

Örtərəm kirpiklərimi,
gözüm öyrəşsin sabaha,
bəlkə də mən sabah bu vaxt
heç nə görməyəcəm daha...

Öləcəyim günü bilsəm,
ölümümdən bir gün qabaq
ölümdən şeir yazaram!

## QADINSIZ ŞƏRAB

İlk dəfə içdiyim şərab
ilk dəfə sevdiyim qadın qədər qalıb yadımda...

Xəyalımda üzbəüz durub əvvəlki qadınla,
indiki sərxoşluğum –
İçəndə doldururam
həyatımda olmayanın boşluğun...

Qadın sevgisinin mükəmməlliyin
gülüşündən anladım,
gözlərindən oxudum –
Bir qədəh də süzün mənə,
istəmirəm unudum...

Məndən sənə
aldığım qızılgülün solan ləçəyi qaldı,
Səndən mənə
bir şüşəlik xatirə –
O da qızılgülün ətri azaldıqca azaldı...

## DÖRD NƏFƏR

İnsanlara
öz dərdimi danışmaq istəyirdim –
Halıma dördü ağladı...
Üzümdəki kədərdən,
gözümdəki yaş izindən tanıdı –
Kor məni gördü ağladı...

Kordan kor-peşman ayrılıb
karı gördüm –
O da qəmli görünürdü,
eşitmişdi ürəyimdən keçənləri...
Kar da kara gəlmədi,
lal da lal-dinməz dayanıb başladı təsəlliyə:
məyus olma,
sən də unut unudub gedənləri...

Ölmüş ümidlərimlə dənizə sarı gəldim –
yusun təsəlliləri,
bir nəfər də tapılsın suların arasından...
Çiynimə əl toxundu:
dostum, hazırlaş gedək –
məni Allah qaldırıb əlil arabasından...



*Ədalət SALMAN*

## MƏMMƏD ARAZ MİZANI

Niyə belə korşalıbdı söz silahımız,
Kürsülərdən şerimizin gəlmir harayı.
Kimlərinsə ucaltdığı imarətlərin
Kölgəsində, yoxsa, qalıb şeir sarayı?!

Həyat sıxır niyə halal, düz adamları,
Saf qəlblilər niyə belə hörmətdən düşür?
Gündən-günə unudulur söz adamları,
Şerimiz də gündən-günə qiymətdən düşür.

Günahkarıq, oxucumuz düşübsə küsgün,
Unutmayaq, yaxşı şeirin hər vaxt acı var.
Şerimizin şah vüqarı əyilib bu gün,
Məmməd Araz mizanına ehtiyacı var.

## BU, ŞEİR DEYİL

Qayğılar əlindən əsir-yesirəm,
Başım da açılmır şeir yazmağa.
Mən elə harasa hey tələsirəm,
Elə bil gedirəm məzar qazmağa.

Bir borcu ödəməz çəkdiyim fikir,
Bəs niyə min belə fikir çəkirəm?
Əkinçi torpağa orda dən əkir,
Mən öz ürəyimə dərd-qəm əkirəm.

Yox, ömür sürmədim, ömrü sürüdüm,
Gün də ağlamadım balalarıma.
Yetənin nazına dözdüm, çürüdüm,
Özüm səbəb oldum bəlalarıma.

Yaxşılar əl çəkməz yaxşılığından,
Pislər dərəcəkmi öz əkdiyini?
O halal, imanlı, pak adamların
Gördüm bu həyatda nə çəkdiyini.

Nə zaman yaşadım, axı, altmış il?
Bilmədim bu dünya ölüm-itimdi.
Yaxşı bax, oxucum, bu, şeir deyil,
Ruhumla çəkdiyim portretimdi.

## PAYIZ GƏLƏNDƏ

Təbiət yenə də qız kimi kövrək,
Elə, ömrümün də payız fəslidi.
Şimşək qılınc çəkir,
qorxaq uşaqtək
Göy də göz yaşını sanki axıdır, –
Payız gələndə...

Çəkilir sahildən insan ayağı,
Sevənlər sahildə gözə az dəyir.
Günəş öləziyir bir şam sayağı,
Günəş də elə bil tək qəribsəyir, –
Payız gələndə...

Şair düşüncəli olur təbiət,
Üzündən oxunur fikri, xəyalı.
Boşalır təbiət, dolur təbiət,
Gündə neçə dəfə dəyişir halı, –
Payız gələndə...

Kövrələr, qürbətdə dindirsən kimi,
Gecələr dərdini danışar Aya.
Ata ocağından köçən qız kimi
Quşlar da köç edər təzə yuvaya, –
Payız gələndə...

Dartar əlimizdən dəcəl nəvələr,
Qoymaz nəfəs dərək biz babaları.
Dəyişər fəsillər, yenə yaz gələr,
Gəlməz ömrümüzün bir də baharı, –
Payız gələndə...

## ÇATINCA

*Ağamir Cavada*

Neçə sifət görür, hiylədən keçir,
Öz halal qismətin sənə çatınca.
Ovçu toxuduğu cələdən keçir,
O quş da bir ovuc dənə çatınca.

Xeyirlə savaşdan əl çəkməyib şər,
Hələ çox qiyamət görəcək bəşər.
Dünya belə qalmaz, bir gün dəyişər,
İmana çatınca, dinə çatınca.

Dövrün gərdişindən bir az halıyam,
Dərdimi içimdə daşımalıyam.
Görən neçə il də yaşamalıyam,
İlahi, bir xoşbəxt günə çatınca?!

## AÇDIN BƏSİRƏT GÖZÜMÜ

Mənə verilən bu ömrü
Özüm üçün yaşamadım.
Özgənin dərdini çəkdim,
Öz yükümü daşımadım.

Tutdum gözü tox özümü,
Nə istədim, nə də umdum.
Açdın bəsirət gözümü,
Dünya malına göz yumdum.

Düşüb həqiqət aradım
Bu yalan, fani dünyada.
Elə bildim əbədiyəm
Ölümü ani dünyada.

Sən özün xeyirli elə,
Tanrı, mənim axırımı.
Gərək əvvəldən verəydin
Bu gec, sonrakı ağlımı.

...Bu günə də yenə şükür,
Bu da Tanrı qismətidi.
Qazancım var-dövlət deyil,
El-obanın rəğbətidi...

## NECƏDİ

Beyləqanda yaşayan qələm
dostum Hidayət Ağalara

Ay şair, qoy səndən bir xəbər alım,
O sizin tərəflər – Aran necədi?
Şeirdir şairin qaymağı, balı,
Şerə xor baxanla aran necədi?

Yıxır haqq dünyada haqsızlıq bizi,
De, çərxi-fələyin nədir qərəzi?
Şeytan əlindədir mizan-tərəzi,
Çəkən pis gündədir, alan necədi?

Zaman məngənətək qananı sıxır,
Eşidən tapılmaz ha qışqır, çığır.
Hər gün də qarşına bir məddah çıxır,
Söyləyir üzünə yalan, necədi?

Orda da qarğalar darğalıq edir,
Orda da vəzifə davası gedir?
Orda kim əl tutur, kim haya yetir,
Deyən var, ay kasıb, balan necədi?

Kimlər yağ içində böyrəktək üzüb
Şairə, şeirə hey dodaq büzüb.
Bilərmi, bəndədən əlini üzüb,
Allah ümidinə qalan necədi?

Şairlər bu yurdun deyən dilidi,
Döyünən nəbzidi, vuran əlidi.
Haqqı söyləyənə demə dəlidi,
Bir soruş, Ədalət Salman necədi?

## BU SƏHƏR BİR GÖZƏL ÇIXDI QARŞIMA

Bu səhər bir gözəl çıxdı qarşıma,
İlahi nurundan yaranmışdı o.
Elə bil çiçəkdi,
şehlə yuyunub,
Mehlə sığallanıb daranmışdı o.

O qız başdan-başa sirdi, sehrdi,
Günəş sanki göydən enmişdi yerə.
Tanrının yazdığı lirik şeirdi,
Bəlkə rəhm sala daş ürəklərə.

Bu yazın nəfəsi üzümə dəydi,
Yaz özü çıxmışdı yolumun üstə.
Ağaran saçlarım gülüşməsəydi,
Alıb aparardım qolumun üstdə.

Elə bil bu səhər şah əsərini
Şəstlə göstərirdi bizə bir dahi.
...Çıxarıb qarşıma gözəllərini
Günaha batırma məni, İlahi.

***Cəlilabad***



*Sara SELCAN*

## ŞƏHİD BAYATILARI

Əzizinəm quş oldum,
Yad yağıya tuş oldum.
Çürüməyən torpağam,
Cənnətdə bihuş oldum.

Mən aşiq halə oldum,
Dağlarda lala oldum.
Muğanda doğulsam da
Vətənə bala oldum.

Əzizinəm bacılar,
Bitib getdi acılar.
Sizə Zəfər gətirdi
Mən qalxdığım Ucalar.

Əzizinəm həyan bax,
Dan yerinə oyan, bax,
Vətən üçün can verdim,
Sinəm qandı, dayan, bax.

Əzizim yaxın mənim,
Yad mənim, yaxın mənim.

Çağırıb oyatmayın,
Şirindi yuxum mənim.

Əzizinəm yad yağı,
Düşmən yağı, yad yağı.
Nəfəsimizlə kəsdik
Torpaqdan yad ayağı.

Əzizim, eylə məni,
Çağırma belə məni,
Tez solan bir çiçəyəm,
Cənnətdə iylə məni.

Əzizinəm yaş yanar,
Quru yanar, yaş yanar,
Anamın gözlərində
Ağlamaqdan yaş yanar.

## VƏTƏNİN DAN YERİ

Nə izzətlə qovuşduq
Vətənin dan yerinə.
Sinəsində açılıb
Lalələr qan yerinə.

Ayrılıqda dar oldun,
Soyuq oldun, qar oldun,
Sən həmişə var oldun
Ruhumda can yerinə.

Gün var dəyər min ayə,
Dodağımda din, ayə.
Qollarım cüt minarə,
Şeirim azan yerinə.

* * *

Külək insafsızca döyür dağları,
Dağların dadına bir sazaq gəlmir.

Gəlir, yad gəlir, yaxınlar gəlir,
Ürəyi sızladan o Uzaq gəlmir.

Torpaq nəfəsini çəkib dərinə,
Tumurcuq sevgilər doluya düşür.
Ruhumda çırpınır bahar həsrəti,
Bir ağrı sinəmin soluyla düşür.

Diləklər uçurram ovcumdan göyə,
Köhnə yaralardan qanayan qalıb.
Allah ölçüsündə saat neçədir,
Susmaq zamanına neçə an qalıb?

* * *

Nar mövsümü,
illərin əlində dənələnir ömür,
qıpqırmızı, gilə-gilə.

Eşq içində qıpqırmızı
Bağı çatlamış nar.

* * *

O zaman da beləydi,
Yumru, yupyumru,
Şəffaf, sulu kürənin içindən
Təpik atırdıq Tanrımıza
Ana bətnində.

* * *

Xatirələr oyadır
Yağışı bu gecənin.
Ovutmaq çətin olur
Mən ürəyi incəni.

İslanacam yenə də,
Qanadacam yaramı.

Dolanacaq gözlərim
Haraları, haranı.

Gecəyə dağılacaq
Soyuq kədər badəsi.
Unutmaq istəmirəm,
Yağışdır bəhanəsi.

* * *

Payız gizlinləri
Yarpaq toxunuşuyla sızlar,
Soyuqlar qanadar uzaq yaraları.
Hərdən bulud dilində susar
Keçmişin göy üzü,
İndinin uzaqları.
Yoxluq adında tablo çəkər gecələr
Könlümün xəyal divarına,
ovuclarımı üşüdər
İçimin sazaqları.

* * *

Çox şeyi bacarıram,
Hər şeyə yatmır əlim.
Olanların üsyanı
Bir qələmim, bir qəmim.

Keçənlərin adını
Unutmur ki sonralar
İçindəki nisgillər
Yiyəsini soraqlar.

Qaranlığa uzanır
Taleyin tərs yolları,
Ardını istəmirəm
Burda da kəs yolları.

* * *

Küləklərin Ana dediyi çöllər
Özünü gizlədib yovşan qoxusunda.
Atlar nəfəsinə toxunan sular
Bir axşam çin olar körpə yuxusunda.

Düzənlik azadlığı bitdiyi yerdə
Qoca dağların hökmü ucadır.
Lal çayların düşdüyü dərdə
Gurlayıb axanlar iki hecadır.

Düzənlik yolsuzdu, hər yer yoldu,
Hayana getsən, özün olursan,
Bir topa yovşana açılan sinə
Şairsənsə sözün olursan!

* * *

Durub bir şeir hönkürüm,
Söz yaşına qızınaq.
Yaşılca solanların
Göz yaşına qızınaq.
İsti-isti ağrılara
İsinmiş soyuq nəfəs.
Bu ucsuz-bucaqsız dünya
Necə də dar qəfəs!
Divarda
qonaq kölgə,
O da çıxıb gedəcək.
Bezəcək tənhalıq da,
Görərsən, bu gedişlə...

*Vaqif YUSİFLI*

# Akademikin yaddaş dünyası



“Yaddaşı olmayan ədəbiyyat – yalnız yaddaşı olmayan xalqın nəsibidir, siması olmayanın tarixi taleyi, zatı və nəsli, əqli və nəcabəti olmayanın alın yazısıdır. Üfüq, səma, göy – daş saxlamadığı kimi, mənəvi və əxlaqi boşluq da yaddaş saxlamır. Millət-genetik səviyyəsi, yaddaş – ağrı səviyyəsində dərk olunmuş vəhdətdən və bütövlükdən başqa bir şey deyildir. Yalnız yaddaş olan yerdə sabitlik və tamlıq var, nəsillər və əsrlər, ilahi və bəşəri dəyərlər və sərvətlər arasında əlaqə və estafet var” (Yaşar Qarayev).

Akademik Rafael Hüseynovun bütün yaradıcılıq fəaliyyəti: alimliyi, yazıçı-publisist araşdırmaları, sözə-sənətə estetik baxışları “nəsillər və əsrlər, ilahi və bəşəri dəyərlər – sərvətlər arasında” vəhdət yaradan Yaddaş fenomeni ilə bağlıdır. Yaddaşı “genetik səviyyədə” saxlayan və hifz edən hərəkətverici qüvvə sistemli dünyagörüşüdür. Bu dünyagörüşünün başlanğıcı Rafaelin dünyaya göz açdığı Kürdəmirdə qoyulubmu? “Hərdənbir Kürdəmirdən də ötə gərək adam, Kürdəmir də gərək keçə adamdan” (Ələkbər Salahzadə). 1971-ci ildən Rafaelin Bakı səfəri başlanır və o, ADU-nun şərqşünaslıq fakültəsinə daxil olur. Tələbə-şərqşünaslıqdan akademik-şərqşünaslığa qədər bu 53 ildə Rafael Hüseynov Azərbaycanın görkəmli şərqşünaslarından biri kimi böyük bir YOL keçir. “Hamımız yoldayıq. Hə yol qurtarır, nə arzular” (Rəsul Rza).

Rafael Hüseynovu bir insan kimi səciyyələndirən bir xüsusiyyəti mən onun dəyişməz, sabit xarakterində görürəm. Lap gənclik illərində Azərbaycan radiosunda “Nəğməli ömürlər” və “Axşam görüşləri” verilişlərindən tutmuş üç möhtəşəm “Vaxtdan uca”, “Min ikinci gecə”, “Məhsəti necə varsa” kitablarına qədər... XI əsrin görkəmli sufi şairi Baba Tahir Üryanidən tutmuş klassik Azərbaycan poeziyasının Nizami, Füzuli, Nəsimi kimi əbədiyaşar dahi şairlərinə qədər... XX əsrin Hüseyn Cavid, Mirzə Ələkbər Sabir, Rəsul Rza poetik dühalarından tutmuş son illərdəki “Vətənim” televeziya verilişlərində səsləndirilən klassik və müasir şeir örnəklərinə qədər... tükənməz axtarıcılıq

və bu axtarışları bədii-elmi portretlərə çevirmək şövqü onun həmin o sabit yaradıcılıq xarakterinin dəyişmədiyini sübut edir. Mövzular dəyişir, hər bir mövzuya yanaşma tərzi də müxtəlifliyi ilə seçilir, amma dəyişməyən nədir? – ədəbiyyata (onun keçmişinə və indisinə) sonsuz sevgilər... Rafael Hüseynov bu sevginin işığında X-XI əsrlərin böyük filosof şairi, sufi şeirinin görkəmli nümayəndəsi, əslən azərbaycanlı olan Baba Tahir Bakuvinin dar (yalnız elmi) bir tanıtmadan genişliyə – bizim əsrə gətirir – “Salam sənə günəş, parla daima” deyən, böyük yaradana mütləq həqiqət kimi boylanan (“Aləmi qılıncsız saldın nizama”) söyləyən, sufi şair olsa da, saf insanlara rəğbəti tükənməyən bir söz sahibini bizlərə təqdim edir.

Mən onun bu tükənməz yaradıcılıq sevgisini bayaq adını çəkdiyim üç möhtəşəm kitabında daha çox hiss etdim. XX əsr Azərbaycanın iki nəhəng sənətkarı – Hüseyn Cavid və Müslüm Maqomayev haqqında qələmə alınan bu iki sənədli (bədii-publisistik) roman (bu əsərlərə yalnız belə janr sferasından qiymət verə bilərəm – əslində, Anar müəllim bizdən əvvəl bu fikri söyləyib) yazıldığı illərdə yüz minlərlə oxucunun stolüstü kitablarına çevrildi. Anar müəllim yazırdı: “Cavidlər” məni sarsıtdı desəm, burada nə mübaliğə var, nə hissə qapılma. Bu sarsıntının ilk səbəbi – qələmə alınan hadisələrin, talelərin – antik faciələri xatırladan miqyas ölçüsüdür. Atanın, Ananın, Oğulun, Bacının qarşılarına çıxan sınaqlar – həm konkret insanların – böyük sənətkar Hüseyn Cavidin, onun həyat yoldaşı Müşgünaz xanımın, oğulları Ərtoğrulun, sonbeşikləri Turan xanımın – ömürlükləri, bəlalı həyat yollarıdır”. Hamı – əksər yazarlar çalışırlar ki, nədən söz açırlar, həqiqəti ifadə etsinlər, amma həqiqəti olduğu kimi, həm də bədii şəkildə əks etdirmək hamıya müyəssər olmur. Burada Fikrət Qocanın bir fikrini xatırlatmaq istəyirəm: “Rafael elə bil ki, Müslüm Maqomayevin, Hüseyn Cavidin ailəsində doğulub, o vəziyyətləri yaşayıb. Ona görə də belə təbii can yanğısı ilə danışır”. Rafael Hüseynov istəsəydi, Cavid yaradıcılığı haqqında çox sanballı bir elmi monoqrafiya da yaza bilərdi, çünki o, lap gəncliyindən Hüseyn Cavidi, onun yaradıcılığını çox yaxşı dərk edib, necə deyərlər, Cavidləşib. Amma hər bir böyük sənətkarı dərk etmək üçün ilk növbədə, onun həyatı, mühiti və yaşadığı Zaman, Vaxt dönəmində müxtəlif hadisələr – olaylar içərisində illərlə üzləşdiyi, xoşbəxtlikdən faciəyə aparan yolların keşməkeşliyi... bütün bunları Rafael Hüseynovun bir çox yazılarında izləyə bilərik. Onun Vaqif Mustafazadə haqqında “Başqa günlərin Vaqifi”, opera səhnəsində ən gözəl Leyli yaratmış Rübabə Muradovadan söz açdığı “Həsrət qatarı” yazılarını həyəcansız oxumaq mümkün deyil. Mən hər iki sənətkar haqqında çoxlu yazılar oxumuşam, amma Rafaelin bu yazılarının alternativi yoxdur. Baxın: “Naxçıvana gedən qatar Araz boyundan ötür. Rübabə xanım burula-burula axan Araza baxır. Arazın o tayından görülən yollara baxır, qəhərlənə-qəhərlənə “qatar oxuyur. Araz axır, qatar gedir və Rübabə xanım sabah bu qatarla yenə Bakıya qayıtmalıdır. Sabah radioda konserti var” (burada qeyd edim ki, məhz Rafael Hüseynovun təşəbbüsü ilə artıq ömrünün son

günlərini yaşıyan Rübabə Mutradovanın oxuduğu mahnılar lentə alındı və televiziyada səsləndirildi).

Rafael Hüseynovu həm də musiqi tədqiqatçısı kimi tanıyırıq. Onun bu sahədə ardıcıl fəaliyyəti daha çox ayrı-ayrı bəstəkarlar, görkəmli musiqi xadimləri və ifaçılarla bağlıdır. Burada uzun bir siyahı təqdim etmək fikrində deyiləm. Amma Maestro Niyazi haqqında qələmə aldığı portret yazılar xüsusilə tədqirə layiqdir. “Maestroya ağı”da başlamış “Niyazi və Həcər”, “Onların hər an görünən yeri” yazılarına qədər Niyazi canlı bir obraza çevrilir. Təkcə obrazamı? Yox, Niyazi bir mədəniyyət hadisəsi, təkrarı və bənzəri olmayan dünya şöhrətli dirijor kimi yaddaşımıza çökür. Mən onun ustad xanəndə Hacıbaba Hüseynov haqqında hazırladığı verilişə bir neçə dəfə baxmışam və Hacıbaba Hüseynovun obrazını məhz bu verilişdə izlədim. Rafaelin cəmi 27 il yaşamış ilk cazmenimiz Pərviz Rüstəmbəyova həsr olunmuş “Yarımçıq kəsilən solo” yazısını faciə-esse adlandırıram.

Rafael Hüseynov alim və yazıçı kimi fəaliyyətinə janr nöqteyi-nəzərdən yanaşsam, ədəbi-bədii portret formalarına meyil etdiyini görürəm. O, müasir Azərbaycan ədəbiyyatında ən kamil portret ustalarından biridir desəm, yanılmaram. Mən onun “525-ci qəzet”də ardıcıl dərc olunan bütün portret yazılarını oxumuşam. Bu yazıların hamısını səciyyələndirən bir problemi nəzərə çatdırmaq istəyirəm. Rafael Hüseynov İnsan və Zaman – Sənətkar və Zaman – Şəxsiyyət və Zaman paralellərinin bütün yazılarının məramına çevrilir. Təbii ki, bu yazıların heç birində şablon və standart ifadə üsullarına rast gələ bilməzsiniz. Əvvəla, ona görə ki, Rafael Hüseynov hər bir yazısında özünün orijinal üslub tərzini nümayiş etdirir. (“Üslub – bütün üslubların yaddan çıxarılması deməkdir” – Jül Renar). İkincisi, demək olar ki, bütün yazılarında təqdim etdiyi faktların əksəriyyəti yenidir, gizlin qatların, olayların açıqlanmasıdır. Burada yazının əvvəlində qeyd etdiyim YADDAŞ amilinin rolu danılmazdır.

Ulu Öndər Heydər Əliyev, onun şəxsiyyəti, görkəmli dövlət xadimi və insani keyfiyyətləri barədə qələmə aldığı silsilə yazılar məhz bu əlamətlərinə görə xüsusilə seçilir. Ulu Öndər haqqında həm onun öz sağlığında, həm də vəfatından sonra onlarla, yüzlərlə kitablar, məqalələr çap edilib və yenə yazılacaq. O yazıların hər biri Heydər Əliyevi – bu dünya şöhrətli nəhəng siyasətçini, yeni Azərbaycanın yaradıcısını bu və ya digər dərəcədə xarakterizə edir. Amma bu o demək deyil ki, Ulu Öndərin həyatı və şəxsiyyəti haqqında bütün həqiqətlər canlandırılıb. Rafael Hüseynovun Ulu Öndərə həsr etdiyi o silsilə yazılarında bizim bilmədiyimiz bir çox həqiqətlərlə qarşılaşırıq. Heydər Əliyevin həm sovet Azərbaycanında, həm də müstəqillik illərində bir rəhbər və dövlət xadimi kimi fəaliyyətinin müxtəlif aspektləri işıqlandırılır bu yazılarda. Bu işıqlandırmalarda əsas rolu YADDAŞ oynayır.

Rafael Hüseynov o şəxsiyyətlərin həyatına, keçdiyi ömür yoluna müraciət edir ki, həmin şəxsiyyətlər haqqında ya çox az yazılıb, ya da əksinə... Deyim ki, görkəmli folklor toplayıcısı – 100 il yaşamış Əbülqasım Hüseynzadə haqqında

bildiklərimiz şox azdır, R.Hüseynov bu boşluğu aradan qaldırır. Mirzə İbrahimovun “Gələcək gün” romanında prototip kimi seçilmiş 27 yaşlı inqilabçı – Milli hökumətin prokuroru Firudin İbrahimi haqqında da eyni sözü deyə bilərəm. Bəs haqqında çox danışılan, yazılan şəxsiyyətlər necə? – Rafael Hüseynov təzə söz deməyi qarşısına məqsəd qoyur – Rəsul Rza və Nazim Hikmət haqqında saysız-hesabsız elmi, publisistik, bədii mətnlər mövcuddur, amma Rafael Hüseynov onların həyatı, şəxsiyyəti və yaradıcılığı ilə bağlı elə faktlar açıqlayır ki, bu barədə təsəvvürləri genişləndirir. Və biz baxıb görürük ki, onun şəxsiyyətlərə həsr olunan yazılarında Bədii Obraz yaratmaq misssiyası ön plandadır – burada isə onun yazıçılıq məharəti üzə çıxır.

Sual olunur: istər “525-ci qəzet”dəki yazılarında, istərsə də televiziya verilişlərindəki çıxışlarında nəzərə çarpan bu yaradıcılıq ehtirası (başqa ad vermək mümkün olmadı) hardan gəlir? Əlbəttə, o yaradıcılıq ehtirasının mənbəyi sevgidir.

Mən Rafael Hüseynovun alimliyi ilə yazıçılığı arasında cox ciddi bir ayrılığın – fərqin mövcud olduğunu düşünmürəm. Onun “Məhsəti – necə varsa” monoqrafiyası və klassiklərə aid qələmə aldığı onlarla elmi yazılarda akademizmin bir üslub kimi irəliləyici mahiyyət daşıdığını görürəm. Bəli, o, ədəbiyyat tarixçisi kimi klassik Azərbaycan poeziyasının mötəbət tədqiqatçılarından biridir. Amma bu yöndə digər ədəbiyyatşünaslardan fərqlənir, bu fərqlilik onda təzahür edir ki, Rafael Hüseynov həmin yazılarda öz emosional-hissi münasibətini də gizlətmir.

Rafael Hüseynovun ardıcıl elmi və yazıçı-publisistik fəaliyyətini ardıcıl izləyən bir oxucu-həmkarı kimi hərdən fikirləşirəm: görəsən, onun gecəsi-gündüzü yoxmu, bu qədər maraqlı yazılar dərc etdirir? (üstəlik, televiziya verilişləri, Ədəbiyyat Muzeyindəki direktorluq fəaliyyəti, Milli Məclisdə deputat kimi iştirakı). Amma bu yazıların əksəriyyəti əslində, çoxdan yazılıb (o, bütün sənət adamları və digər şəxsiyyətlərlə dəfələrlə görüşüb, onların səsini yazıb, qeydlər aparıb və yaddaşına həkk edib), sadəcə, indi o zaman düşündüklərini yazılara köçürmək qalır.

Mən də Rafael Hüseynov haqqında bu yazıda illərdən bəri onun haqqında düşündüklərimi yazdım...

*Hacı Firudin QURBANSOY*



# POEZİYAMIZDA VİDEO-REPORTAJ EFFEKTİ

Əsl poeziya insanın duyğu üzvlərinin çoxuna eyni zamanda təsir edərək, onu təlqin olunan mühitin iştirakçısına çevirir. Bu vaxt təsvirlə yanaşı təqlidi səslərdən də istifadə olunur. Divan ədəbiyyatında bunun örnəkləri çoxdur. İzzəddin Həsənoğlu (1197-1260) məşhur qəzəlində boynu uzun, boğazı dar sürahidən maye süzülərkən çıxan "qül-qül" səslərini beytində verib:

***Mən ölsəm sən, büti-şəngül, sürahi eyləmə qül-qül,***
***Nə qül-qül? Qülqüli-badə. Nə badə? Badeyi-əhmər.***

Təsvirdə görünən predmetdən xaric olunan səsi eynilə göstərmək zahiri təqliddir. Gizli təqlidlər də var. Bu vaxt səslərin köməyilə predmetin qollaqrafik virtual təsviri yaradılır. Təqlidi yaradan səslər: əsən külək – "u", "y", "s", "z"; xışıltı – "ğş", "xş"; ildırım – "şş", "şq"; axar su – "s", "ş"; dəniz dalğası – "kş", "aş"; quş civitisi – "c", "ç", "ş" və s. kimi səslər olan misralarda obyektin adı çəkilməsə də, obrazı əyaniləşir.

Mövlanə Məhəmməd Füzuli (1484-1556) səs təqlidindən daha çox yaz fəslinin təsvirlərində istifadə edib.

***Güli-ruxsarına qarşu, gözümdən qanlu axar su,***
***Həbibim, fəsli-güldür bu, axar sular bulanmazmı?***

Beytdə təsvir edilən təsvirlə yanaşı, "s", "z", "ş", "u" küylərinin alletrasiyası həm zəif küləyin əsməsini, həm də suların axma səslərini bizə çatdırır. Başqa bir qəzəlinin beytində şair gizli təqliddən yararlanıb:

***Aləmi şeyda qılar, gər olsa gözdən həm nihan,***
***Bir pərivəş kim, səri-zülfün səbadan saxlamaz.***

Gözlərdən gizlində qalsa da, bir pəri üzlünün saçlarının ətrini səhər küləyi ətrafa yaydığı üçün aləm dəli-divanə olub, – mənzərəsinin təsvirini vermək üçün şair "ş", "s", "z" cinas səslərinin ahəngindən ustalıqla istifadə edib. Həm səhər küləyin narın axması, həm yarpaqların xışıltısı, həm də ora-bura qaçışan adamların vahimə səsləri beytdə hifz olunub.

Mövlanə Məhəmməd Füzulinin ustad sənətkarlığından yaradıcı şəkildə bəhrələnən Mikayıl Müşfiq (1908-1938) Azərbaycan poeziyasında video-reportaj effektini yaradıb. 1920-30-cu illər covet dövrü ədəbiyyatında qaynar işlər gedən quruculuq sahələlərindən yazarkən şairlər operativ jurnalist müdaxiləsi ilə poetik vüsətin qovuşuğundan ibarət nümunələr ərsəyə gətirmişlər. Qələm yoldaşlarından fərqli olaraq, Mikayıl Müşfiq təsvir etdiyi hadisələrin həm də inter-küylərini çatdırmaqla, oxucu təəssüratını qabarıqlaşdıraraq, video-reportaj effektini yarada bilib.

Onun, 1930-cu ildə nəşr olunan "Küləklər" adlı ilk kitabındakı birinci şeirə nəzər salaq:

***Bəziniz qorxulu, bəziniz qorxusuz,***
***Bəziniz duyğulu, bəziniz duyğusuz,***
***Bəziniz uyğulu, bəziniz uyğusuz***
***Küləklər, küləklər,***
***Ey sərin küləklər!***
***Sizdə var qoxusu***
***Hər yerin küləklər.***

Şeirdən gətirdiyimiz nümunə şair "y", "u", "ü", "z", "ğ" səslərinin uyarlığı ilə müxtəlif tezlikli küləklərin əsib keçməsini təsvir edə bilib. Şeir başdan-başa külək səslərilə həmahəngdir. O zamanlar sovet ideologiyasına "yad" olan "təsirlərə" düşməkdən qorxu-ürkü kompleksinin yaşandığı üçün şair gizli ironiya ilə küləklərə mesaj çatdırır:

***Adlarkən sərhəddi müqəyyəd olun ha!***
***Hər iqlim daşıyor köksündə bir hava.***
***Hər yetən mühitə uymayın siz əsla!***
***Oxuyun burdakı***
***Şərqidən, küləklər,***
***Ki, olsun sizləri***
***Fərq edən, küləklər!***

Azərbaycan poeziyasında ilk dəfə olaraq, aşkar və gizli səs təqlidindən canlı təsvirləri göstərdiyi zamanı video-reportaj effektini yaradan Mikayıl Müşfiq hansı obyektə şairanə nəzərlərini yönəldirdisə, ərsəyə həm ictimai informasiya, həm də hissi-bədii ovqat ilə dolğun sənət əsərləri meydana gəlirdi. Təqlidi səslərin şeirdə işlənməsi ənənəsi şeirimizdə olsa da, səthi təsvirlərin yaradılmasına xidmət edib. Müşfiq hansısa hadisə zamanı baş verən prosesi qələmə alarkən, onu sadəcə, təsvir etməklə kifayətlənmir, təsviri təşkil edən sözlərin içindəki inter-küylərə uyğun səsləri də bədii mətnə daxil edir və video-reportaj effektini meydana gətirir. Müəyyən zaman kəsiyindən sonra video-reportaj effektli şeirlər kino-xronika təsiri bağışlayır.

Səsli kinonun təzə-təzə ərsəyə gəldiyi zamanda, video texnikası olmayan şəraitdə Müşfiq sözlərin ahəngdar cilası ilə müxtəlif ovqatları və təsvirləri daha qabarıq və daha təsirli yarada bilib.

"Yağış yağarkən" şeiri sanki video-kamera ilə çəkilən translyativ mənzərəni əks edir. Əvvəlcə narın yağan, sonra buludların toqquşmasından, ildırımla müşayiət olunan güclü yağışda quşların və adamların adekvat reaksiyasının təsviri verilib. İslanan quşlar "fırıl-fırıl" çırpınaraq yuvalarına uçuşur. Adamlar islanmaqdan qorxaraq evlərinə qaçışır. Təkcə balaca bir oğlan uşağı bu qorxaq fondan fərqlənir. Ayağını suda şappıldadıb ətrafa damcılar sıçradaraq, sanki yanidən yağış yağdırır. Bu vaxt ildırım təsirli yeni sözlər oxumağında davam edir.

***Yağış yağır, rəqs eləyir gur damcılar,***
***Sıra-sıra, inci-inci nur damcılar.***

***Göydə iki qara bulud toqquşaraq,***
***İldırımlar şaqqıldayır şaraq! Şaraq!***

***Quşlar uçur yuvasına fırıl-fırıl,***
***Şırıldaşır navalçalar şırıl-şırıl.***

***Çaxnaşmada göy üzündə ildırımlar,***
***Bir-birinə dəydi, baxın qaldırımlar.***

***Dönmələrdə durana bax, qaçana bax,***
***Qaldırımda o balaca oğlana bax!***

***Öz döşündən yeni sözlər toxuyaraq,***
***Ayağını şappıldadır oxuyaraq...***

Təsvirlərlə sinxron fon təqlidi səslərin, qarışıq inter-küylərin verilməsi güclü video-reportaj effektini yaradır. Burada poetik video-reportaj effekti bizə təsvir edilən mənzərəni görüb, qarışıq inter-küy səsləri eşitmək imkanı verir. Özümüzü sevinc gətirən bu gur yağışın altında çətirsiz, islanmış təsəvvür edə bilirik.

Başqa bir şeiri örnək alaq. "Yenə o bağ olaydı" adlı müstəzad şəkilli şeir ilə "Ağ dənizdə fırtına" ünvanlı şeirdə dəniz təsvirlərini müqayisə edək.

***Nə gözəldir səhərlər bizim böyük ruhumuz,***
***aşıb-daşan duyğumuz,***
***Şəklindəki sulardan baxaraq ilham almaq,***
***bu mavi şeirə dalmaq.***
***Dalğalar kimi qalxmaq, dalğalar kimi enmək,***
***bəzən hürküb çəkinmək.***
***Hər dalğa bir kişnəyən bəyaz yallı at kimi,***
***Bizim bu həyat kimi.***

Digər şeirdən misralar:

***Ağ dənizdə fırtına var, fırtına!***
***Ağ dənizi bir tufanlı böhran almış sırtına.***

***Coş dəniz, coşqun dəniz!***
***Daş dəniz, daşqın dəniz!***
***Aşqın dəniz,***
***Şaşqın dəniz!..***

Birinci nümunədə dəniz dalğalı olsa da, təhlükəli deyil, onun coşğunluğu adamda lirik ovqat yaradır. Dənizə sevgilinin şəkli düşdüyündən, o, daha sevimli olub. Ona görə də, "ş", "ç","s" təqlidi səsləri içində gizlədən söz düzümü sevimli dənizin şıltaqlığını təcəssüm etdirir.

İkinci parça isə super güclü dövlətlərin siyasi avantüralarına tuş gəlmiş Balkan yarımadasındakı ölkələrin üsyankar ovqatının təsviridir. Hadisələrin gərginliyini göstərmək üçün 1930-cu ildə yazılmış şeirində şair dənizin sönməyən fırtınalı dalğalarının əzəmətli səsini göstərə bilib.

Qarla müşayiət olunan soyuq qış küləyinin səsini "Dilənçi" adlı şeirdə "s", "z" və "ş" səslərinin harmoniyasında aydın eşidirik.

***Sərt, soyuq bir qış gecəsi; səma bəyaz, yer bəyaz,***
***Uğuldayan küləklərlə sarsılmada sokaklar.***
***Hər kimin ki, qanadı var, çovğun olsa darılmaz,***
***Fəqət yenə bu sokakdan qısılmada sokaklar.***

Müşfiq "Rekonstruksiya" və "Zəfər səsləri" adlı şeirlərində yaşadığı zamanının sürət səslərini verməyə nail olub. "Rekonstruksiya"da zamandan daha tez sürətlə keçən çalışqan elin energetik vüsətinin səsi duyulur.

***Yürüdük, qarşımızda əyildi qarlı dağlar,***
***Yürüdük, aramızdan silinsin qolçomaqlar.***
***Yürüdük, arxamızca şaxələndi sementlər,***
***Dəyişməzmi bu halda bütün temperamentlər?!***
***Yürüdük avtolarla; elektriklərlə biz,***
***Yürüdük, sayəmizdə qucaqlaşdı dağ, dəniz,***
***Yürüdük, üstümüzdən çəkildi hər qaraltı,***
***Yürüdük, tunellərlə doldu dağların altı.***
***Yürüdük, küçələrdə hürküşdü çəlik atlar.***
***Yürüdük, üfüqləri qızartdı plakatlar.***
***Yürüdük, ənginlərə çəkdik dəmir dirəklər.***
***Dirəklərdə tutuşdu, yandı qızıl ürəklər.***
***Yürüdük, çöllər boyu raylar axdı, uzandı,***
***TürkSib yollarında yatan ellər oyandı.***
***Yürüdük, hər zərrəmiz oldu bizim avtomat,***
***Bu yürüşə Amerka özü belə qaldı mat!***

"Yürüdük" söz-cümləsi ani keçən böyük sürətin təsvirilə yanaşı, tez ötüb gedənin vıyıltı küyünü də özündə ehtiva edir. "Zəfər səsləri" adlı şeirdə getdikcə artan, heç bir zaman ölçüsünə ekvivalent olmayan sürətin səsləri gəlir.

***Gediriz,***
***Gediriz, gediriz,***

***Getməyir, uçuruz,***
***uçuruz...***
***Uçmayır, bir şimşək olub da çaxırız.***
***Axırız-axırız.***

Xatirələrdən bilirik ki, Mikayıl Müşfiq gözəl tar çalırdı. Mizrabı simlərə vuranda, azacıq tarın dəri üzünə də dəyir, simlərin sədalarıyla qarışıq ahəngdarlıqla ürək döyüntüsü effekti verir.

"Tar" adlı şeir çalınan tarın sədaları üzərində qurulduğundan, onun hər hansı hissəsini ayrıca oxuduqda belə, tarın ifa sədalarını eşidirik.

***Çarparaq "Çargah"ın divardan-divara***
***Yolçunu yolundan eyləmiş avara.***
***Çalxanmış dərələr, təpələr,***
***Səs vermiş səsinə ləpələr.***

"Ç", "ş", "s" səsləri mizrabın simlərə toxunmasını, "d", "t" sədaları tarın üzündən səs dalğasının yayılmasını əks etdirir.

"Xalça" adlı şeirdə Müşfiq sexdə toxucuları iş başında, inter-küylərlə bərabər təsvir edir. Şeirdə "d" səsinin tez-tez səslənməsi həvənin hanadakı ilmələrə vurulmasından çıxan, "s" və "z" səsləri isə qayçıyla artıq tiftiklərin kəsilməsindən xaric olan səsi əks edir:

***İşçi qız, toxuduğun o divar xalçasında***
***Heyran oldum ürəkdən işlədiyin sənətə.***
***Bir gözəllik əsəri verdin bəşəriyyətə.***

***Böyüklüyün çoxuna məchul ikən əvvəllər***
***Vurduğun xalıların, qız, ən bahalısında***
***Meydana çıxdı bu gün səndəki məchul hünər.***

Avtomobildən ətrafı seyr edərkən bir-birinin ardınca düzülən teleqraf dirəkləri xüsusi nəzərə çarpır. Bu dirəklər mis məftillərlə bir-birinə bağlanır. Teleqraf telləri bir baxış nöqtəsindən simli musiqi alətinə də bənzəyir. "Teleqraf telləri" adlı şeir 20-30-cu illər avtomobilinin o qədər də rahat olmayan yollarda irəliləmə ritmini və Morze əlifbasıyla işləyən aparatın səsini özündə ehtiva edir:

***Bilinməz şu dibsiz çöllərdə nə bəklər***
***Yan-yana düzülmüş bu şeytan dirəklər.***
***Bunların sırtına durmadan hey yüklər***
***Dərdini gizlicə.***
***Teleqraf telləri.***
***Hər sabah, hər gecə***
***Teleqraf telləri...***

***Diliniz bir nöqtə, ağzınız bir cizgi***
***Ruhunuz bir öylə köpüklü dəniz ki...***
***Bakınca sizə biz düşünüb deriz ki:***

***Ellərin dilmancı***
***Teleqraf relləri,***
***Həm şirin, həm acı***
***Teleqraf telləri.***

Şeir başdan-başa deyilən ritmin üzərində qurulduğundan, eyni zamanda poetik video-reportaj effektini əks etdirir.

Dostum, şair Akif Əhmədgil ötənlərdə heç bir elmi sübut və faktiki dəlil gətirmədən, guya Mikayıl Müşfiqin Səməd Vurğun (1906-1956) yaradıcılığının təsirilə şeirlər yazdığını iddia edən "məqalə" ilə çıxış edib. Cavab yazmamağı xahiş etdi, mən də yazmadım. Bu, absurd iddia idi, böyük tədqiqə ehtiyac yoxdu, elə atüstü onu deyə bilərəm ki, əslində, məqalə müəllifinin dediyinin əksi prosesi gedib. Təkcə bu fakt yetər ki, Mikayıl Müşfiqin Azərbaycan poeziyasına gətirdiyi poetik video-reportaj effektindən qələm yoldaşları ən yaxşı əsərlərini yazarkən geniş bəhrələnib.

Süleyman Rüstəm (1906-1989) "Çapayev" adlı şeirini ilk dəfə "Kommunist" qəzetinin 15 dekabr 1934-cü il 291 saylı nömrəsində, daha sonra "Ədəbiyyat qəzeti"nin 1 mart 1935-ci il 7-ci sayında çap etdirib. Şeir bütövlüklə "ç" səsinin cinası üzərində qurulub. Çınqıl daşlı çayın sahili ilə çaparkən, nallardan çıxan səsin ahəngdarlığı poetik video-reportaj təsiri buraxır.

***Çınqıl daşlı çaylardan Çapayev çapa-çapa,***
***Keçib biçir çöllərdə çar canavarlarını.***

Səməd Vurğun 1948-49-cu illərdə yazdığı "Muğan" poemasının "Mingəçevir qəhrəmanı" adlı on birinci nəğməsində təsvirlə müşayiət olunan təqlidi səslərdən istifadə edib:

***Car çəkir çarxların çaxnaşıq səsi,***
***Car çəkir, qışqırır nəhəng motorlar...***

Mingəçevirdə su elektrik stansiyası tikintisi vaxtı toz-torpaqlı işin necə böyük vüsətlə getdiyi anların poetik video-reportaj sayəsində qabarıq təsvirlərini Səməd Vurğun verə bilib.

Mikayıl Müşfiqin yaratdığı poetik video-reportaj effekti hadisələrin daha aşkar, əlçatar və qabarıq qavranılmasına xidmət edir.

*Mario PYUZO*

# XAÇ ATASI*



♦ *Roman*

## *II hissə*

Həyətdən kabinetə şən, heyrətli qışqırıq səsləri doldu, otaqdakıların üçü də təəccübləndi. Soni Karleoni pəncərəyə söykənib bayıra baxdı, dərhal üzü açıldı, cəld qapıya yeridi.

– Conidir, Coni! Sizə dedim ki, toya mütləq gələcək?

Heygen pəncərəyə yaxınlaşdı.

– Hə, özüdür, – Dona çöndü, – xaç oğlunuzdu. Çağırım gəlsin?

– Yox, lazım deyil, – Don dedi və: – Qoy qonaqları əyləndirsin, sonra gələr. Görürsən də, yaxşı oğuldu, – Heygenə gülümsədi.

Qısqanclıqdan Heygenin ürəyi sıxıldı, quru səslə:

– Bu iki ildə birinci dəfədi gəlir, – dedi. – Yəqin yenə işə düşüb, yardım istəyəcək.

– Bəs kimin yanına getsin? Xaç Atasından istəməlidir də...

Coni Fonteyni bağa girəndə ilk olaraq Koni gördü, dərhal yerindən sıçradı, heyrətlə qışqırdı:

– Cooniiiiiiii!

Qız gəlin olduğunu unudub onun üstünə şığıdı, boynundan sallandı.

Coni Fonteyn Konini möhkəmcə qucaqlayıb özünə sıxdı, üzündən öpdü. Bir əli ilə Koninin belindən tutub o biri əliylə qabağına qaçanları salamladı, köhnə dostlarıydı. Coni onlarla bir yerdə böyümüşdü Vest Sayd küçəsində. Koni onu bəy-gəlin masasına tərəf dartdı, ərinin yanına. Sarışın bəyin açıq-aşkar incidiyini görəndə (yəni, artıq günün qəhrəmanı mən deyiləm!) Conini gülmək tutdu; öz cazibə qüvvəsini işə saldı, bəyin əlini ürəkdən sıxıb onun şərəfinə şərab qədəhini başına çəkdi.

Estrada səhnəsində oturan musiqiçilərdən tanış səslər gəldi:

– Hey, Coni, gəl bir mahnı oxu bizimçün!

***– Əvvəli jurnalımızın ötən sayında***

Coni başını qaldırıb səs gələn tərəfə baxdı, Nino Valenti səhnədən ona gülümsəyirdi. Coni Fonteyn sıçrayıb taxtadan düzəldilmiş səhnəyə cumdu, Ninonu bağrına basdı. Əvvəllər onlar ayrılmaz dost idilər, birlikdə oxuyur, birlikdə qızlarla əylənir, gəzirdilər. Sonralar Coni radioda oxumaq üçün işə düzəldi, məşhur oldu, daha sonra isə o, filmə çəkilmək üçün Hollivuda getdi. Bir-iki dəfə Ninoya zəng vurdu, sadəcə, çənə vurmaq üçün və söz verdi ki, yerli klubların biriylə danışacaq, Ninoya qulaq assınlar, görsünlər hansı istedadın yiyəsidi. Lakin bunu etmədi. İndi Ninonu görən kimi onun əvvəlki gülüşləri, sırtıq və kinayəli atmacaları, kefli sifəti qayıtdı.

Nino mandolini dınqıldatdı. Coni əlini onun çiyninə qoyub:

– Gəlinin şərəfinə! – dedi və ayağını yerə döyərək sevgi haqqında Siciliya mahnısını oxumağa başladı.

Coni oxuya-oxuya Nino da mahnının kupletlərinə uyğun ifadəli bədən hərəkətləri edirdi. Gəlin qürur duyğusuyla qızardı, qonaqlardan bir dəstəsi gur uğultuyla mahnını bəyəndiklərini ifadə etdilər. Axıra yaxın izdihamdan ayaq tappıltıları qopdu, hər kupletin mənalı nəqəratını müğənniylə bahəm oxumağa başladılar. Sonra fasiləsiz alqış səsləri gəldi. Coni boğazını arıtlayıb yeni bir mahnı oxumağa hazırlaşdı.

Burda hamı onunla fəxr edirdi. Coni özgə deyildi, həmyerliydi, məşhur müğənni olmuşdu, filmlərə çəkilirdi, kino ulduzu olmuşdu; ən füsunkar qadınlar belə onun üstündə dava edirdilər. Və o, üç min mil yol qət edib toya gəlməklə Xaç Atasına olan ehtiramını bir daha sübut etdi. O, hələ də Nino Valenti kimi köhnə dostları sevir. Burdakı adamların çoxu hələ uşaqlıqdan Coninin Ninoyla bir yerdə mahnı oxuduğunu görmüşdü. Heç kimin yuxusuna belə girməzdi ki, vaxt gələcək, bu uşaq əlli milyon qadının qəlbini fəth edəcək.

Coni Fonteyn taxta səhnə döşəməsindən gəlinin oturduğu masaya əyilib Konini qucağına aldı, onu Ninoyla öz arasında otuzdurdu. Müğənnilər azca əyilib bir-birlərinə baxdılar. Nino mandolinanı dınqıldatdı, simlərdən boğuq, gülüş doğuran səslər qopdu. Köhnə adətləriydi, şücaət göstərmək üçün belə zarafatları səhnədə edirdilər; bunu sevgidə birincilik qazanmaq uğrunda edirdilər. Səsləri bir-birinə qarışdı, nəqəratı gah biri, gah da o biri daha ucadan oxuyurdu. Coni incə bir üsulla imkan verdi ki, Nino öz səsiylə mahnını axıra qədər oxusun, onu üstələsin, bununla da qalib kimi gəlinin əlindən tutsun. Coni özü isə gözəl səsini bilərəkdən öldürdü. Sonda gurultulu alqış sədaları, qışqırıqlar altında hər üçü səhnədə bir-birini qucaqladı, toy iştirakçıları daha bir mahnı tələb etdilər.

Təkcə Don Karleoni evinin qapısı ağzında durub özünü nəsə narahat hiss edirdi. Xaç Atası qonaqların xətrinə dəyməsin deyə, bir qədər yumşaq yumorlu, lakin qərəzsiz səslə dilləndi:

– Mənim xaç oğlum üç min mil gəlib, bizə şərəf verib, amma heç kim fikirləşmir ki, axı o hələ boğazını yaşlamayıb!

Coni Fonteynə dərhal şərab dolu qədəhlər uzadıldı. O, hər bir qədəhdən bir qurtum içib özünü xaç atasının üstünə atdı, onlar qucaqlaşdılar. Coni onun qulağına nəsə pıçıldadı və Don Karleoni onu kabinetinə apardı.

Coni içəri girəndə Tom Heygen əlini ona uzadıb salamlaşdı, Coni soruşdu:

– Tom, necəsən?

Lakin sorğu səmimi deyildi. Heygen bu soyuqluğu duyub bir qədər incisə də, çiyinlərini qısdı. O, Don Karleoninin zərbəyə davamlı qalxanıydı, belə şeylərdən çox görmüşdü.

Coni Fonteyn üzünü Dona tutdu.

– Toy dəvətnaməsi gələndə, öz-özümə dedim: "Aha, xaç atam daha mənə hirsli deyil. Arvadımdan ayrılandan sonra düz beş dəfə zəng vurmuşam, ha vaxt zəng elədimsə, Tom gah deyirdi evdə yoxdu, gah da deyirdi məşğuldu. Bilirəm, mənə qəzəblisiniz.

Don sarı Streqa şüşəsindən iki stəkana içki süzdü.

– Ötüb keçənlər yaddan çıxıb... Hə, indi de görüm, sənə nə kimi kömək edə bilərəm? Yoxsa, sən o qədər varlı və məşhur olmusan ki, daha köməyə ehtiyacın yoxdu?

Coni sarı məhlulu başına çəkib stəkanı təzədən doldurmaq üçün Donun qabağına qoydu, özünü sırtıq kimi aparmağa çalışdı.

– Xaç atam, yox, varlı deyiləm. Mən günü-gündən batıram. Siz düz deyirdiniz, gərək mən arvadımı və uşaqlarımı atmayaydım, əxlaqsız qızla evlənməyəydim. Sizi qınamıram, düz eləmisiz, mənə qəzəbiniz tutub.

Don çiyinlərini qısdı.

– Mən səndən ötrü narahat oldum, vəssalam, axı sən mənim xaç oğlumsan!

Coni otaqda var-gəl eləməyə başladı.

– Mən o qəhbəyə görə başımı itirmişdim. Hollivudun ən böyük ulduzu, mələk kimi gözəl. Bilirsiz, çəkilişlər bitəndən sonra o, nələr edir? Əgər qrimçi onun sifətini yaxşıca qrimləyirsə, çəkilişdən sonra onunla yatağa girir. Operator nəsə uğurlu bir rakurs tapırsa, tualetə dartıb ona verir. O, hər kəslə yatmağa hazırdır. Sağa-sola paylayır, cırıq əski kimi, lap şeytana da verər...

Don Karleoni onun sözünü kəsdi.

– Öz ailən necədi? Necə yaşayırlar?

Coni ah çəkdi.

– Onların qayğısına qalıram, – dedi. – Biz ayrılanda mən Cinniyə və uşaqlara məhkəmədə kəsilən vəsaitdən də artıq verdim. Həftədə bir dəfə gedib görürəm uşaqları, onlarsız darıxıram. Hərdən az qala dəli oluram.

Coni yenə stəkanı boşaltdı.

– İkinci arvadım isə mənə gülür, qısqanclığımı anlaya bilmir, mənə gerizəkalı kimi baxır, mənə köhnə adam deyir. Mənə deyir ki, sən italyanlar kimi hərəkət edirsən, sənin mahnıların da bir qəpiyə dəyməz. Gələndə ona yaxşıca ilişdirdim, düzü, sifətinə vurmadım, heyfim gəldi, filmə çəkilir axı! Böyrünə, ayaqlarına, əllərinə vurdum, lap uşaq kimi döydüm onu.

Coni siqar yandırdı.

– Bax belə, xaç atam. İndi heç yaşamağa da həvəsim yoxdu.

Don Karleoni dedi:

– Bunlar kömək ediləsi mümkün olmayan ağır dərdlərdi...

Don bir qədər susduqdan sonra soruşdu:

– Səsində nə problem var?

Coni Fonteynin sifətindən şöhrət və taleyin ərköyün fürsətlərindən qidalanan təkəbbürü bir andaca yox oldu. Coni sanki sınmışdı, dedi:

– Xaç atam, mən daha oxuya bilmirəm. Mənim boğazıma nəsə olub, həkimlər bilmirlər nədir bu.

Heygen də, Don da təəccüblə ona baxdı. Axı Coni belə olmamışdı heç vaxt, möhkəm idi. Fonteyn davam elədi:

– Mənim iki filmim böyük pullar gətirdi. Mən artıq ulduz olmuşdum. İndi isə məni kinodan qovurlar. Kinostudiya sahibinin məni görməyə gözü yoxdu. İndi məndən heyfini çıxmaq üçün əlinə girəvə düşüb.

Don Karleoni acıqla soruşdu:

– Bəs o adam niyə səni sevmir?

– Mən liberal təşkilatları müdafiə edirdim, onlar üçün mahnı oxuyurdum, siz bunları bilməmiş deyilsiz; axı siz də bunu xoşlamırdınız. Hə bax, elə o Cek Voltsa da mənim çıxışlarım xoş gəlmədi. O məni kommunist adlandırdı. Lakin onun cəhdlərinə baxmayaraq bu yarlıq mənə yapışmadı. Sonra elə alındı ki, bir gecə mən onun qızını, yəni özü üçün qoruyub saxladığı "adamuşka"sını bir gecəliyə apardım, elə bircə gecəliyə. Əslində, o qız özü məni apardı. Nə edə bilərdim axı? İndi də bu qəhbə ikinci arvadım məni evdən qovur. Cinni və uşaqlar məni qəbul etməyəcəklər. Ayaqlarına düşüb yalvarsam belə. Mən daha oxuya bilməyəcəm. Ah, mən neyləyim, hə, Xaç Atası?

Don Karleoninin sifəti buz kimi dondu, orda şəfqət hissindən əsər-əlamət belə yox idi, həqarətlə dedi:

– İlk növbədə özünü kişi kimi aparmalısan!

Don qəzəbdən qəflətən tanınmaz hala düşdü, bağırdı:

– Kişi ol, bildin, kişi! – deyə masanın üstündən əyilib sərt hərəkətlə Coni Fonteynin saçlarından tutub dartdı.

– Lənət sənə kor şeytan! Bu qədər mənim əlimin altında olasan, gedib oralarda arvad kimi aparasan özünü! Nədi, sən Hollivudun nacins kuklasısan bəyəm? Arvad kimi ağlamağına bax bunun: "mən nə edim? Nə bilim, ah, vay, mən nə edəcəm?"

Donun qeyri-adi hərəkətləri və yamsılamaları elə qəfil, gözlənilmədən baş verdi ki, Heygen və Coni təəccübdən gözlərini bərəldib güldülər. Don Karleoni isə bundan məmnun qalmışdı. Bir anlıq düşündü ki, görəsən bu xaç oğlunu nə üçün bu qədər ürəyinə yaxın buraxıb?! Görəsən öz doğma oğlanları onun bu cür hərəkətinə necə baxardılar? Santino yəqin hirslənib burun sallayardı, həftələrlə atasını danışdırmazdı. Fredo yaralanmış it kimi gəzərdi, Maykl söyuq bir təbəssümlə çıxıb evdən gedərdi, aylarla evə gəlməzdi. Amma bu Coni – ora bax e, necə də sevimlidi! Gör dişlərini necə ağardır, var gücüylə özünü toparlamağa çalışır ki, Xaç Atasının nə demək istədiyini göydə tutsun!

Don Karleoni davam elədi:

– Sən studiyanın gözü qabağında onun məşuqəsini aparırsan, özü də elə bir adamın ki, səndən yüz dəfə güclüdür, hələ bir şikayət də edirsən ki, səndən xoşu gəlmir, nə bilim, səni işdən qovurlar?! Sözə bax e! Sən ailəni atırsan, uşaqlarını atasız qoyursan ki, o qancıqla evlənəsən, sonra da gəlib ağlayırsan ki, bəs, məni evə buraxmazlar, nə bilim uşaqlarım məni qəbul eləməz, filan-beşməkan! Sənin o cındanı döyməyə ürəyin gəlmir, filmə çəkildiyinə görə ona yazığın gəlir, hələ bir gəlib deyirsən ki, o cında sənə gülür, hə?! Sən elə axmaq kimi yaşamısan! Məlum məsələdir ki, axmağın aqibəti elə belə olur!

Don Karleoni bir anlıq susdu, sonra təmkinlə soruşdu:

– Heç olmasa indi mənim məsləhətimə qulaq asmaq istəyirsən?

Coni Fonteyn çiyinlərini çəkdi.

– Mən Cinniylə yenidən ailə qura bilmərəm, hər halda, onun istədiyi şəkildə evlənə bilmərəm. Mən kart oynayıram, içirəm, subay dostlarımla vaxt keçirib əylənirəm, bunlarsız yaşaya bilmərəm. Gözəl qadınlar məndən ötrü ölür, onlara yox deyə bilmirəm. Bütün bunlardan sonra Cinninin yanına yorğun-arğın, əzilmiş kimi gedəndə özünü oğraş kimi hiss edirsən. Yəni, yenidən Cinniylə o həyatı yaşamaq istəmirəm, yox, yox, heç bir halda, istəmirəm...

Don Karleoni çox nadir hallarda özündən çıxırdı, bu dəfə də qəzəbini içində boğdu.

– Sənə deyən var ki, get yenə evlən? Nə istəyirsən elə. Uşaqlarına yaxşı ata olmaq istəyirsən, elə bu yaxşı haldı. Əgər kişi uşaqlarına yaxşı atalıq eləmirsə, o, əsl kişi deyil. Bir halda ki, belədi, onda təkid elə ki, onların anası sənin şərtlərini qəbul eləsin. Harda yazılıb ki, sən uşaqlarını hər gün görə bilməzsən? Harda yazılıb ki, sən onlarla bir kümün altında yaşaya bilməzsən? Harda yazılıb ki, sən öz həyatını özün istədiyin kimi yaşaya bilməzsən?

Coni Fonteyn güldü.

– Xaç Atası, indikilər köhnə italyan arvadları kimi deyil. Cinni buna dözə bilməz.

İndi də Don sözlərinə zəhər qatdı:

– Çünki sən özünü vecsiz və qırışmal kimi aparmısan. Bir arvadına məhkəmənin təyin etdiyi məbləğdən daha çox vermisən, o birinin sifətində qançır qoymamısan ki, kinoya çəkilir. Sən öz hərəkətlərinlə qadınlara tabe olmusan. Bu dünyada qadınlar səlahiyyət sahibi deyillər, halbuki, əlbəttə, onlar müqəddəslər kimi cənnətə düşəcək, kişilər isə cəhənnəmə... Biz cəhənnəm odunda yanacağıq. Və bir də... mən bütün bu illər ərzində səni izləmişəm, – deyə indi Don ciddiyyətə keçdi, – əlbəttə, sən nümunəvi xaç oğulluğu olmusan. Sən heç vaxt mənə hörmətsizlik eləməmisən. Bəs öz köhnə dostlarına necə? Bir il biriylə dostluq edirsən, o biri il başqasıyla dostluq edirsən... O italyan oğlan vardı ha, kinoda maraqlı rollara çəkilmişdi, sən onunla da əlaqəni kəsmisən, hə də, axı sən məşhursan! Ya da bax o birisiylə, lap köhnə dostun vardı, məktəbdə bir yerdə oxumuşdunuz, bir yerdə də mahnı oxuyurdunuz, Ninonu deyirəm. O, dərddən içir, bəxti gətirməyib həyatda, amma indiyə kimi heç kim ondan bir şikayət eşitməyib; gecə-gündüz işləyir, yük maşını sürür,

çınqıl daşıyır, şənbə günləri də öz mahnılarını oxuyur, camaatı əyləndirir beş-on dollara. O, sənin əleyhinə bir kəlmə belə danışmayıb. Məgər sən ona kömək edə bilməzdin? Niyə kömək etməyəsən? Axı o, yaxşı oxuyur!

Coni Fonteyn bir qədər süstlə cavab verdi:

– Xaç Atası, axı onun lazımi istedadı yoxdu. Normal oxuyur, düzdü, lakin böyük səhnə üçün deyil...

Don Karleoni gözlərini yerə dikdi, sanki bir anlıq yumdu, sonra:

– Oğlum, – dedi, – axı sən də göydən düşmədin?! Görürsən, artıq böyük səhnələr üçün də yaramırsan. İstəyirsən səni də işə düzəldim? Ninoyla birlikdə yük maşınıyla çınqıl daşıyarsan!

Coni dinmədi, Don davam elədi:

– Dostluq hər şey deməkdi. Dostluq istedaddan üstündür. Dostluq hakimiyyətdən də güclüdür. Dostluq demək olar ki, ailəyə bərabərdir. Bunu heç vaxt yaddan çıxartma. Əgər sən dostluqdan ətrafına divar ucalda bilsəydin, bu gün mənim yanıma gəlib kömək istəməzdin. İndi mənə de görüm, niyə oxuya bilməzsən? Axı sən bayaq bağda yaxşı oxudun, Nino kimi oxudun.

Heygen və Coni bu acı sözlərə gülümsədilər. İndi Coni də gərək təmkin və dözüm göstərəydi. Dedi:

– Boğazım artıq yerində deyil, səsim zəifləyib. Mən bir, ya iki mahnı oxuyuram, artıq oxuya bilmirəm, saatlarla oxumaq mümkün deyil, onda səsim bütün günü xırıldayır. Məşqlərdə, səsyazma studiyasında görürəm ki, səsimin gücü çatmır, zəifləyir, batır, boğazıma nəsə olub.

– Hmmmm. Görünür, sənin qadınlarla problemin var. Üstəlik, səsin də sözünə baxmır. İndi o Hollivuddakı problemini izah elə mənə. O adam niyə və harda səni incidir? Nə üçün sənə işləməyə icazə vermir?

Don artıq əsas məsələyə keçdi.

– O, doğrudan da böyük adamdı, – Coni dedi, – kinostudiyanın sahibidi. Prezidentin məsləhətçisidi, kino vasitəsilə hərbi təbliğat məsələlərinə baxır. Bir ay bundan qabaq ekranlaşdırmaq üçün hay-küylü bir roman aldı. Roman best-sellerdir, kitab əla satılır. Romanın əsas qəhrəmanı eynilə mənim tipimdir. Heç mənə o filmdə aktyorluq da lazım olmaz, özüm özümü oynayaram da. Orda heç oxumaq da gərək deyil. Mən hətta Akademiyanın mükafatını da qazana bilərəm. Hamı bilir bunu. Hamı bilir ki, mən elə o rol üçün yaranmışam. Mən yenə kino ulduzu ola bilərəm, aktyor kimi. Amma o it oğlu Cek Volts mənə həmin rolu vermir, mənimlə ədavət edir. Mən hətta çox aşağı qiymət təklif etdim, demək olar ki, havayı oynayacağımı bildirdim, mümkün olmadı, imtina etdi. Studiyada şayiə buraxıb, deyib ki, əgər mən gedib onun dalını hamının yanında öpsəm, o zaman mənə o rolu vermək barədə düşünə bilər.

Don Karleoni əlini yellətməklə bu emosional cəfəngiyyatın sonluğunu dinləmək istəmədi. Ağıllı adamlar belə işgüzar problemlərin həlli yollarını hər zaman tapa bilirlər. O, əlini xaç oğulluğunun çiyninə qoydu.

– Görürəm ki, tamam ruhdan düşmüsən, – dedi, – düşünürsən ki, sən heç kimə lazım deyilsən, heç kim də sənin barəndə fikirləşmir, eləmi? Düz tapdımmı? Və sən çox arıqlamısan. Görünür, çox içirsən, yata bilmirsən? Həb atırsan?

Don narazı halda başını yellətdi, sonra davam elədi:

– İndi mənə qulaq as, mənim dediklərimə əməl elə. İstəyirəm ki, sən bir ay burda, bizim evdə qalasan. Yaxşı yeyəsən, istirahət edəsən, yatasan, özünə gələsən. Mənim yanımda qal, mənim üçün də xoş olar ki, sən burdasan. Və sən bəlkə məndən, sənin xaç atandan bir şeylər öyrəndin, dünya, həyati məsələlər barədə biliklər əldə etdin. Bunlar, bilmək olmaz, sənə Hollivudda da lazım olacaq. Amma burda heç bir içki-filan, əyyaşlıq, qadınlarla gəzmək olmayacaq! Bir ay ötər, sən də bəlkə Hollivuda qayıdarsan, o zaman sənin o yekəqarın rəisin, nədir o, o alçağı deyirəm, hə, o da sənə həmin işi verər, arzuladığın rolu oynayarsan. Danışdıq?

Coni Fonteyn inana bilmirdi ki, Donun belə bir nəhəng gücü olsun. Doğrudur, hələ indiyə kimi elə bir hal olmayıb ki, onun Xaç Atası söz versin, amma yerinə yetirməsin.

– O əclaf C. Edqar Huverin yaxın dostudur, – Coni ürəkləndi. – Sizin sözünüzə baxarmı heç?

– O, iş adamıdır, – Don mülayim səslə cavab Verdi. – Mən ona elə bir təklif verəcəm ki, ondan imtina edə bilməyəcək.

– Hə, deyim ki, artıq çox gecdi, bütün müqavilələr bağlanıb, bir həftədən sonra çəkilişlər başlayır. Heç nə alınmayacaq.

– Get, get, dostlarının yanında ol. Qonaqlar səni gözləyir. Bu iş mənlikdir.

Xaç Atası Coni Fonteyni qapıya tərəf itələdi. Heygen yazı masasının arxasında oturub bloknotuna qeydlər edirdi. Don dərindən nəfəs alıb soruşdu:

– Daha nə qaldı?

– Solozzoyla görüşü bir daha təxirə salmaq olmaz. Gərək bu həftə onunla görüşəsiniz, – Heygen qələmini yazmaq üçün bloknotun üstünə tutdu.

Don çiyinlərini qısdı.

– Toyu artıq yola vermişik, indi nə vaxta istəyirsən təyin elə.

Cavab Heygenə iki şey deyirdi: ən əsası buydu ki, Vircil Solozzoya rədd cavabı veriləcəkdi. İkincisi, bir halda ki, Don Karleoni qızının toyuna qədər cavab verməmişdi, deməli, güman edir ki, rədd cavabından sonra pis hadisələr baş verə bilər. Ona görə də ehtiyatla soruşdu:

– Klemenzaya deyim ki, öz adamlarını gətirib evdə yerləşdirsin?

Don tələsik cavab verdi:

– Nədən ötrü? Mən toya qədər cavabımı verməmişəm, çünki belə bir əlamətdar günün üstünə xırda bulud da düşməməlidir, evdən uzaqda olsa da... Bundan başqa, mən qabaqcadan bilmək istəyirdim ki, o, mənimlə nədən danışacaq. Artıq bunu bilirik, bizə etmək istədiyi təklif mənfur və alçaq təklifdir.

Heygen dedi:

– Deməli, imtina edirsiz?

Don başıyla "hə" işarəsi verdi.

– Məncə, biz bunu müzakirə etməliyik, ailə toplantısında. Rədd cavabından qabaq, – Heygen dedi.

– Belə düşünürsən? – Don gülümsədi. – Yaxşı, müzakirə edərik. Sən Kaliforniyadan qayıdandan sonra. Sabah Kaliforniyaya uç və Coninin işini həll elə.

Studiyanın sahibiylə danış. Solozzoya da de ki, Kaliforniyadan qayıdandan sonra onunla görüşəcəm. Sonra nə qaldı?

Heygen rəsmiyyətlə bildirdi:

– Xəstəxanadan zəng vurmuşdular. Sizin müşaviriniz Abandando can verir, yəqin ki, səhərə qalmayacaq. Ailə üzlərinə xəbər verilib ki, onunla vidalaşmağa gəlsinlər.

* * *

Cenko Abandando xəstəxanada yatandan bəri son bir ildə Heygen onun vəzifəsini icra edirdi. İndi Tom gözləyirdi ki, Don Karleoni bu vəzifəni daimi ona tapşıracaq. Ənənəyə görə, müşavir vəsiffəsində elə bir adam olmalıydı ki, həm ata, həm də ana tərəfdən yüz faiz italyan olsun. Və bu vəzifənin icrasını müvəqqəti də olsa, Toma tapşıranda artıq narazılıqlar yaranmışdı. Həm də yaşı da yol vermirdi – cavan idi bu vəzifə üçün, cəmi otuz beş yaşı vardı; hələ təcrübə toplamalıydı, yaxşı müşavir üçün tələb olunan bacarıq və qabiliyyətlərə yiyələnməliydi.

Don Karleoni heç nə demədi, sadəcə, soruşdu:

– Bəylə gəlin nə vaxt yola düşür?

Heygen saatına baxıb dərhal cavab verdi:

– İndilərdə toy tortunu kəsəcəklər, sonra da bir yarım saat... ora-bura... və... (birdən nəsə yadına düşdü)... Hə, yeri gəlmişkən, sizin kürəkən barədə. Ona bir vəzifə tapşıracağıq? Ailə işlərinə cəlb edəcəyik onu?

Donun acıqlı cavabı Heygeni çox təəccübləndirdi.

– Heç vaxt! – deyə ovcuyla masaya vurdu. – Heç vaxt! Ailəsini dolandırmaq üçün ona nəsə bir iş tap, yaxşı dolana bilsin. Lakin ailə biznesini heç vaxt ona etibar eləmə. O birilərə də – Soniyə, Fredoya, Klemenzaya da bunu de!

Don susdu.

– Oğlanlarımın üçünə də de ki, onlar mənimlə xəstəxanaya gedəcəklər, yazıq Cenkoyla vidalaşmağa. Sonuncu dəfə ona ehtiramlarını bildirsinlər. Qoy Fredo yekə maşını götürsün, Conidən də soruş, bəlkə o da xüsusi iltifat göstərib gəldi bizimlə.

Don Heygenin baxışlarındakı sualı sezdi.

– Sənsə elə bu axşam Kaliforniyaya uç. Sənin işin var, xəstəxanaya Cenkonun yanına gedə bilməzsən. Amma mən xəstəxanadan qayıdana kimi heç yerə getmə, səninlə söhbətim olacaq. Aydındı?

– Aydındı, – Heygen dedi. – Fredo maşını saat neçəyə hazırlasın?

– Qonaqlar gedəndən sonra. Cenko məni görməmiş ölməyəcək!

– Senator zəng eləmişdi, üzrxahlıq dilədi ki, şəxsən özü gələ bilmədi, amma əlavə etdi ki, siz bunu anlaşıqla qarşılayarsınız. Yəqin, o, cavan oğlanları nəzərdə tutur, Federal Təhqiqat Bürosundan olan... evinizin qarşısında veyillənirdilər, bura gələn maşınların da nömrələrini yazırdılar. Hədiyyə də göndərib, xüsusi kuryerlə.

Don başını tərpətdi. Senatora toya gəlməməyi məsləhət görən özü olduğunu deməyi lazım bilmədi.

– Necədi, qiymətli hədiyyədi?

Heygenin german-irland cizgiləri qəribə bir italyan təəssüratı yaratdı, təsdiq işarəsiylə:

– Antik gümüşdür, əntiqə bir şeydi! – dedi. – Uşaqlar satmalı olsalar, baha qiymətə gedəcək. Bunu əldə etmək üçün senator xeyli axtarmalı olub. Onun kimi adamlar üçün əşyanın nadir əntiq olması əsasdı, qiyməti əhəmiyyətli deyil.

Don Karleoni məmnunluğunu gizlətmədi. Senaor kimi böyük adamın ona qarşı ehtiram göstərməsi diqqətəlayiq idi. Senator Luka Brazi kimi Donun biznes strukturunun möhkəm sütunlarından biriydi, bu hədiyyəsi ilə o da öz dəyişməz sadiqliyini yenidən təsdiq etmişdi.

* * *

Coni həyətə girən kimi Key Adams onu tanıdı, əməlli-başlı heyrətləndi.

– Mənə niyə deməmişdin ki, Coni Fonteyn sizinlə tanışdır? – Maykla dedi. – İndi əmin ola bilərsən, mütləq sənə ərə gələcəm...

– İstəyirsən səni də tanış edim onunla? – Maykl soruşdu.

– Yoox, indi yox! – Key dərindən ah çəkib nəfəs aldı. – Üç il bundan qabaq mən ona vurulmuşdum. Hər konserti üçün Nyu-Yorka gedirdim, hər konsertdən sonra da dəli kimi gəzirdim. Heyrətamiz oxuyur!

– Sonra tanış edərəm səni onunla...

Coni ikinci mahnıdan sonra Don Karleoninin ardınca kabinetə girəndə Key üz-gözünü turşudub dedi:

– Amma mənə demə ki, Coni Fonteyn kimi nəhəng ulduz da atandan kömək istəyəcək!

– Coni onun xaç oğulluğudur! – Maykl dedi. – Atam olmasaydı, o, belə nəhəng ulduz olmazdı. Heç vaxt!

Key Adams sevincindən bilmədi neyləsin.

– Vallah, deyəsən mən daha bir gözəl tarixçə eşidəcəm!

Maykl başını tərpətdi.

– Bu tarixçəni danışa bilmərəm.

– Yox, danış, heç kimə demərəm.

Maykl tarixçəni danışdı, ciddi tonda söylədi, fəxarət hissini yaşamadan danışdı, heç bir izahat-filan vermədən söylədi və yalnız bunu dedi ki, səkkiz il bundan öncə onun atası daha çılğın idi. Xaç oğulluğunun problemini öz problemi kimi qəbul edirdi, dərhal işə qarışıb onu həll edirdi. Tarixçənin mahiyyətini iki kəlmə ilə də söyləmək olar: səkkiz il bundan qabaq Coni populyar caz ansamblında çox böyük uğurla oxuyurdu. O, radio dinləyiciləri arasında ulduz olmuşdu. Bədbəxtlikdən, hansısa Les Haley Coniylə müqavilə bağlayır, onu öz şəxsi marağı naminə beşillik, necə deyərlər, icarəyə götürür. Təzə başlayan müğənnilərlə belə hərəkətlər edirdilər, onları oxudur, gələn pulların çoxunu isə ciblərinə qoyurdular.

Don Karleoni özü şəxsən işə qarışdı, onunla danışıqlar apardı. O, Les Haleyə iyirmi min dollar təklif etdi, əvəzində Coni Fonteynlə bağladığı müqavilənin ləğv edilməsini istədi. Haley razılaşdı, amma bu şərtlə ki, Coninin qazancının əlli faizini götürəcək. Don Karleoni güldü, bu dəfə təklif etdiyi məbləği yarıyadək azaltdı, yəni on min! Ansamblın rəhbəri görünür belə işlərdən uzaq adam imiş, bu məbləğin dəyərini də əməlli-başlı anlamamışdı. Haley Donun bu təklifinə də rədd cavabı verdi.

Ertəsi gün Don şəxsən Les Haleylə görüşdü, onu iki dostu – şəxsi müşaviri Cenko Abandando və Luka Brazi müşayiət edirdi, başqa şahidlər yox idi. Don Karleoni Les Haleyə bir sənədə qol çəkdirməyə nail oldu. O sənədlə ansamblın rəhbərinin Coni Fonteynin fəaliyyəti ilə bağlı bütün səlahiyyətləri əlindən alınır, Haley bütün iddialarından əl çəkirdi. Don Karleoni onu sənədə qol çəkməyə məcbur etdi – tapançasını çıxarıb Lesin alnına dayadı, çox kəskin və ciddi tərzdə dedi ki, ya qol çəkməlisən, ya da bu saat beynini tökəcəm. Və Les Haley sənədə imza atdı. Don Karleoni sonra silahı cibinə qoydu, təklif etdiyi on min dollarlıq çeki Haleyə verdi.

Yerdə qalanı isə tarixdir. Coni Fonteyn və onun oxuduğu mahnılar Amerikada böyük sensasiya doğurdu. Coninin iştirakıyla Hollivudun iki müzikli kinostudiyaya görünməmiş gəlir gətirdi. Onun valları milyonlar qazandırdı. Coni arvadından boşandı, halbuki uşaqlıqdan arvadını tanımış və sevmişdi, ondan olan iki uşağını da atdı, sonra gedib Hollivudun ən gözqamaşdırıcı və sarışın kinoulduzu olan gözəlçəsiylə evləndi. Və tezliklə bildi ki, bu gözəlçə fahişədir, kimə gəldi verir. Başladı içkiyə, əyyaşlıq eləməyə; qumar oynadı, fahişəxanalara getdi, qadınlarla gəzdi. Beləliklə, səsini itirdi, onun vallarına sifariş azaldı. Kinostudiya onunla yeni müqavilə bağlamaqdan imtina etdi. Bircə çıxış yolu qaldı – öz Xaç Atasının yanına qayıtmaq. Bax, budur, o, indi burdadı.

Key fikirli-fikirli dedi:

– Bəs sən atanı qısqanmırsan ona? Söylədiklərindən görünür ki, atan həqiqətən xeyirxahdır. Başqaları üçün çox şeylər edir, – burnunu salladı, – lakin, əlbəttə, qanundankənar metodlarla edir bunları...

Maykl ah çəkdi.

– Kənardan, əlbəttə, belə görünür. Lakin gör sənə nə deyirəm: Arktika qütbünün tədqiqatçılarının qaydasını bilirsən? Adətən onlar Şimal Qütbünə gedəndə qət etdikləri məsafələr arasında – arxada ərzaq ehtiyatları saxlayırlar; bunu hər ehtimala qarşı edirlər – birdən sonradan onların özlərinə lazım oldu. Mənim atamın xeyirxah işləri də buna bənzəyir. Ona borclu olan hər kəs üçün elə bir zaman gələr ki, Don onun qapısını döyə bilər, o zaman gərək ödəyəsən nəsə...

Qaş qaralana yaxın ortaya toy tortu gəldi. Bihuş olan kim, alqışlayıb bəhbəh deyən kim, yeyib-içən kim, deyib-gülən kim... Bir sözlə, məclis təxminən yarım saat da çəkdi. Hava artıq qaralmışdı. Nazorinin şəxsən bişirdiyi piroq kremlərlə naxışlanmışdı. Gəlin öz sarışın əriylə çıxıb getməmişdən qabaq acgözlüklə o piroqlardan bir neçəsini götürdü. Don qonaqları nəzakətlə yola

saldı, eyni zamanda gördü ki, içində FTB-nin agentləri olan qara üstübağlı maşın artıq yoxdur.

Nəhayət, evin qabağında sonuncu avtomobil, uzun "Kadillak" dayanmışdı, sükan arxasında Fredi oturmuşdu. Don tələsik və yaşına uyğun olmayan çevik addımlarla qabaq oturacaqda əyləşdi, Soni, Maykl və Coni arxa oturacağa yerləşdilər. Don Karleoni Maykla çönüb dedi:

– Sənin dostun, o qızı deyirəm, özü gedə biləcək şəhərə?

– Tom dedi ki, təşkil edəcəm, aparacaqlar.

Don Karleoni razılıqla başını geri çəkdi. "Yaxşıdı, Heygen sağ olmuş, hər şeyi çatdırır."

Benzin talonu hələ də qüvvədəydi. Manhettenə aparan Belt Parkway-də maşınlar az-az gözə dəyirdi. Bir saat keçməmiş, "Kadillak" yolu buruldu, Fransız xəstəxanasının yerləşdiyi küçəyə çıxdı. Yolda Don Karleoni kiçik oğlundan soruşdu ki, dərsləri necə gedir, Maykl başını tərpətdi. Soni atasına sarı qabağa əyildi:

– Coni deyir ki, Hollivuddakı problemlə sən məşğul olacaqsan, – dedi. – Bəlkə elə mən də ora baş vurum, köməyə, hə?

– Bu axşam ora Tom gedəcək. Köməkçiyə ehtiyac olmayacaq. Çətin problem deyil, – Don qısa cavab verdi.

Soni Karleoni güldü.

– Coni hesab edir ki, sənin gücün çatmayacaq, ona görə fikirləşdim ki, bəlkə mən də lazım oldum...

Don Karleoni Coni Fonteynə döndü.

– Niyə şübhə edirsən? – soruşdu. – Məgər sənin xaç atan sözünün üstündə duran adam deyil? Haçandan məni axmaq hesab edirsən?

Coni gərgin halda üzr istədi.



– Xaç Atası, o adam ki var, studiyanın rəhbəri, həqiqətən, iri balıqdı! Onu heç nə ilə ələ ala bilməzsən! Hətta pulla da! Əlləri uzundu, hara desən girir. Mənə də nifrət edir. Təsəvvür edə bilmirəm ki, bu işi necə düzəldəcəksən...

Don qılıqla gülümsədi, dedi:

– Mən də sənə deyirəm ki, o rolu alacaqsan! – və zarafatyana dirsəyi ilə Maykla toxundu. – Hə, Maykl, sən nə deyirsən, xaç oğlumun işi düzələcək, ya yox?

Maykl başını yellətdi. O, atasının bu işin öhdəsindən gələ biləcəyinə bir an da olsun şübhə etmirdi.

Xəstəxananın qapısına çatanda Don Karleoni Mayklın qolundan tutdu. Onlar o birilərindən bir az arxada qaldılar.

– Kolleci qurtar, gəl evə, danışarıq, – Don oğluna dedi. – Səninçün bir şey fikirləşmişəm, məncə, xoşun gələcək.

Maykl heç nə demədi. Don acıqla mızıldadı.

– Mən bilirəm sən nə fikirləşirsən. Sənə pis bir şey təklif etmərəm. Bu, xüsusi bir iş olacaq, baxarsan, bəyənəcəksən. Hələ ki öz yolunla get, axı sən kişisən! Amma təhsilini başa vuran kimi gəl, oğul atanın yanına gələr.

Cenko Abandandonun doğmaları, arvadı və üç qızı qara geyinmişdilər. Kökəlmiş qara qarğalar kimi hospitalın ağ daş döşənmiş dəhlizinin küncünə toplaşmışdılar. Liftdən çıxan Don Karleonini görən kimi sanki ixtiyarsız olaraq sığınacaq tapmış kimi ona doğru yürüdülər. Ana qara donda doğrudan da həşəmətli və boylu-buxunlu görünürdü, yanındakı qızları kök və ətli-qanlıydılar. Missis Abandando ağlaya-ağlaya yüngülvari Don Karleoninin yanağından öpdü, içini çəkib hüznlə dedi:

– Ah, gərək nə qədər müqəddəs adam olasan ki, qızının toy günündə bura gələsən! Əziyyət çəkmisiz...

Don Karleoni bu təşəkkürə fikir vermədi.

– O mənim dostumdu, özü də iyirmi il mənim sağ əlim olub! Onu ehtiramla yad etmək mənim borcumdu!

Don dərhal anladı ki, bir azdan dul qalacaq bu qadın hələ də dərk eləmir ki, əri heç səhərə salamat çıxmayacaq. Cenko Abandando bu xəstəxanada yatırdı, xərçəngə mübtəla olmuşdu, artıq bir ilə yaxın idi ki, əziyyət çəkirdi, arvadı da onun ölümcül xəstəliyinə adi həyat hadisəsi kimi baxmağa öyrəşmişdi. Bu gün sadəcə vəziyyətin növbəti pisləşməsi halı yaşanırdı. Qadın hıçqıra-hıçqıra dedi:

– Get, içəri get, o səni gözləyir, elə bayaqdan səni soruşurdu. Yazıq özü toya gəlməyə hazırlaşırdı, həkim qoymadı. Dedi, madam ki belədi, Don yəqin özü bura gələcək – gör e, belə bir gündə, qızın toy-büsatlı günündə! – amma mən inanmadım buna. Görünür, kişilər biz qadınlardan daha yaxşıdı, onlar dostluğun mənasını daha yaxşı anlayırlar. Keç, keç içəri, səni görüb sevinəcək!

Həkim tibb bacısıyla birgə Cenko Abandando üçün ayrılmış xüsusi palatadan çıxdı. Həkim cavan, ciddi və elə ilk günlərdən əmr etməyə alışmış adam idi, daha doğrusu, anadan olandan varlı-karlı adam təəssüratı bağışlayırdı. Xəstənin qızlarından biri utana-utana soruşdu:

– Doktor Kennedi, indi içəri keçə bilərik?

Doktor Kennedi xəstəyə baş çəkməyə gəlmiş toplumu narazı baxışlarıyla süzdü. Bu adamlar məgər bilmirlər ki, xəstə ölüm ayağındadı, niyə yığışıblar bura? Görmürlər ağrılardan əziyyət çəkir? Qoymurlar adamı rahat ölsün e! Doktor bir anlıq düşündü.

– Ən yaxın adamı girə bilər, – həkim nəzakətlə dilləndi, görünür, o, yaxşı tərbiyə görmüş adam idi. Və dərhal gördü ki, xəstənin arvadı və qızları kisəyəoxşar smokinq geyinmiş dolu bədənli, gödəkboylu ağır kişiyə sarı döndülər, sanki onun qərarını gözləyirdilər.

Ağır adam dilləndi, səsindən yüngül italyan tələffüzü hiss edildi.

– Hörmətli doktor, xəstənin can verməsi doğrudur? – Don Karleoni soruşdu.

– Bəli, – həkim dedi.

– Deməli, siz onun üçün daha heç nə edə bilmirsiz. Onda biz bu yükü özümüz çəkərik, onu sakitləşdirərik. Gözlərini bağlayarıq. Onu dəfn edərik, ödənişlərini də edərik, daha sonra isə arvad-uşağının qayğısına qalarıq, onları darda qoymarıq.

Missis Abandando bu acı və sərt həqiqətləri nəhayət dərk etdi, hönkür-hönkür ağlamağa başladı. Həkim Kennedi çiyinlərini çəkdi. Kənddən gəlmiş adamlara bunu izah eləmək mümkün deyildi. Bununla yanaşı, etiraf etmək lazım idi ki, bu ağır kişinin sözlərində primitivlik olsa da, özünəməxsus məntiq vardı. Onun həkim kimi rolu doğrudan da artıq bitmişdi, burda həkimlik bir şey qalmamışdı. Yenə də soyuqqanlı bir nəzakətlə cavab verdi:

– Zəhmət olmasa, bir dəqiqə gözləyin. Qoy tibb bacısı xəstəyə lazımi yardımı etsin, sonra tibb bacısı sizi özü çağıracaq içəri...

Kennedi onlardan aralandı, dəhliz boyu ağ xalatının ətəkləri yellənə-yellənə çıxıb getdi.

Tibb bacısı palataya girdi, xəstə yanına gələnlər dəhlizdə gözlədilər. Nəhayət, palatanın qapıları taybatay açıldı, tibb bacısı göründü, pıçıltıyla bildirdi:

– O, ağrılardan və yüksək qızdırmadan sayıqlayır, çalışın onu həyəcanlandırmayasınız. Həyat yoldaşından başqa hamıya yalnız bir dəqiqə icazə verilir.

Tibb bacısı palatadan çıxanda Coni Fonteyn özünü onun yanına verdi, qız Conini dərhal tanıdı, yerində dondu, gözləri bərəldi. Coni dodaqucu ona gülümsədi, düşündü ki, qız qəşəngdi, gələcəkdə ona lazım ola bilər və elə bu düşüncələrlə də hamının arxasınca palataya girdi.

Cenko Abandando uzun müddət ölümlə çarpışmışdı; indi bilirdi ki, artıq sondur və o, xəstəxana çarpayısında həyatının son anlarını yaşayır. Cenko əriyib çöpə dönmüşdü, onun qara gur saçlarından bir-iki xırda tel qalmışdı. Don Karleoni ürək-dirək verdi.

– Cenko, əziz dostum, bax gör kimləri gətirmişəm, oğlanlarımı! Gəliblər sənə dəyməyə, gör hələ daha kim gəlib – Hollivudddan Coni! Tanıdın Conini?

Xəstə iltifatla başını qaldırıb minnətdarlıq dolu işıldayan gözlərini Dona dikdi. Cavanlar onun sümüyü çıxmış əllərinə toxundular, sığalladılar. Arvadı və

qızları çarpayısının böyründəydilər, yanaqlarından öpürdülər, qollarını sığallayırdılar. Don köhnə dostunun əlini sıxdı, mehribancasına dedi:

– Hə, di tez sağal, dur ayağa, birlikdə gedərik İtaliyaya, vətənə, kəndə gedərik. O şərab dükanının qabağında boççi oynayarıq, atalarımız kimi...

Abandando başını razılıqla tərpətdi. İşarə verdi ki, hamı çarpayıdan aralansın, sonra o biri sümüklü əliylə Dondan möhkəm yapışdı. Nəsə demək istəyirdi, Don Karleoni başını aşağı əydi, stulu çəkib yaxın oturdu. Cenko Abandando nəsə rabitəsiz sözlərlə uşaqlıq çağlarından danışdı. Birdən onun kömür kimi qara gözləri yaşardı, pıçıldamağa başladı. Don daha da yaxın oturdu. Otaqdakılar gördülər ki, Don başını tərpədə-tərpədə ağlayır, gözlərindən yaş süzülür, heyrət etdilər. Otağa dolan kəsik-kəsik pıçıltılar getdikcə aydın eşidilməyə başladı. Abandando çox böyük səylə və əzablı güclə başını balışdan qaldırdı, sümük barmağını Don Karleoniyə tutub "Xaç Atası, Xaç Atası!" deyə həyəcanla çağırdı, – "məni xilas elə, yalvarıram, qurtar məni ölümdən! Bədənim, sümüklərim yanır, artıq hiss edirəm ki, qurdlar mənim beynimi gəmirir. Xaç Atası, məni sağalt, sən güclüsən, mənim bədbəxt arvadımın göz yaşlarını qurut! Karleonidə biz uşaq vaxtı oynayırdıq, indi sən məni ölməyə qoyma. Mən qorxuram, qorxuram ki, günahlarıma görə cəhənnəmə düşəm."

Don dinmirdi. Abandando davam elədi:

– Bu gün sənin qızının toyudur, sən mənim xahişimi yerə sala bilməzsən.

Don sakit-sakit danışdı, sözləri aydın tələffüz edirdi ki, bu küfrlü və qara dumanı yarıb xəstəyə çatsın.

– Əziz köhnə dostum, mənim belə bir gücüm yoxdu. Əgər qüdrətim olsaydı, inan mənə, Allahın özündən daha çox mərhəmət göstərərdim sənə. Lakin sən ölümdən qorxma, qorxma ölümdən, cəhənnəmə düşməkdən də qorxma. Kilsədə hər səhər-axşam sənin üçün dualar oxunacaq, sənin arvadın və uşaqların ruhuna dualar oxuyacaqlar. Bağışlanmağın üçün bu qədər dualardan sonra Allah necə qıyar səni cəzalandırmağa?

Xəstənin üzünə arsız təbəssüm qondu, dedi:

– Eləmi? Siz onunla danışmısız?

Cavab soyuq oldu, Donun səsində təskinlik yox idi.

– Küfr danışma! Barışmalısan.

Abandando başını balınca qoydu, onun gözlərində tüğyan edən ümid qığılcımı söndü. Tibb bacısı palataya girdi və içəridəkiləri adi qaydada bayıra çıxartmağa başladı. Don Karleoni ayağa durdu, lakin Abandando əlini ona uzatdı.

– Xaç Atası, – xəstə dedi, – mənim yanımda dur, ölümü qarşılamaqda mənə kömək elə. Əzrayıl səni mənim yanımda görsə, bəlkə çəkindi, mənə möhlət verdi... Bəlkə də sən özün ona qulaqburması verdin, hə?

Abandando dostuna göz vurdu. İndi o, demək olar ki, Donu ələ salırdı, ya da biyar-biyar zarafat edirdi.

– Axı, necə olsa, siz onunla qan qohumusunuz, – davam elədi, sanki birdən qorxdu ki, Donun xətrinə dəyər, dostunun əlindən tutdu, – qal burda, əlini ver

mənə. Biz o kaftar alçağın dərsini verərik, necə ki başqalarının da dərsini dəfələrlə vermişik! Xaç Atası, məni atıb getmə!

Don işarə elədi ki, onları tək buraxsınlar. Hamı bayıra çıxdı. Don Karleoni dostunun nazik əlini geniş ovcuna aldı, ona nəvazişlə, ümidverici təskinlik verdi, onun ölümünü gözlədi. Elə bil Don Karleoni həqiqətən dostunun həyatını bəşər övladının ən qəddar, amansız və alçaq düşməni Əzrayılın pəncəsindən qurtarmaq istəyirdi.

* * *

Koni Karleoninin toyu yaxşı sonluqla qurtardı. Karlo Rizzi bəylik vəzifəsini bacarıqla və dürüst yerinə yetirdi, eyni zamanda gəlinin ağzına kimi dolmuş pul kisəsiylə də maraqlanmağı unutmadı. Hədiyyələrlə birlikdə məbləğ iyirmi min dollardan çox yığılmışdı. Gəlin isə əksinə, pul kisəsindən daha çox bakirəliyini itirməyə maraqlıydı. Lakin pul kisəsini əldə etmək üstündə bəy Koninin gözünün altını göyərtməli oldu.

Lüsi Mançini evə qayıdıb Soninin zəngini gözləyirdi. Əlbəttə, Soni ona zəng vurmağa tələsəcək, onunla görüş təyin edəcəkdi. Nəhayət, qız özü ona zəng vurdu, dəstəyin o biri üzündən qadın səsi gəldi, Lüsi dərhal dəstəyi asdı. Axı o, hardan biləydi ki, Soniylə həmin günün yarım saatlıq şəhvət dolu həzzindən sonra artıq evdə söz-söhbət gəzir! Onları qınayıblar, şaiyələr dolaşmağa başlayıb ki, Santino Karleoni özünə təzə qurban tapıb, doğma bacısının rəfiqəsini "qarmağına" salıb.

Ameriqo Bonasera həmin gecə dəhşətli yuxu gördü; gördü ki, Don Karleoni onun dəfn bürosuna gəlib, xüsusi formadadır, ağır fəhlə əlcəkləriylə güllələrdən deşik-deşik olmuş meyitləri onun qapısına boşaldır və çəmkirir: "Ameriqo, yadında saxla, ağzından bir söz çıxmasın, bunları da cəld dəfn elə getsin!" O, yuxuda elə bərkdən inildədi ki, arvadı onu silkələyib ayıltmalı oldu.

– Hey, bu nədi belə, – arvadı donquldandı, – toydan gələndən bəri dəhşətli yuxular görürsən?!

* * *

Poli Qatto və Klemenza Key Adamsı Nyu-York Siti hotelinə apardı. Maşın iri və rahat idi, onu Qatto sürürdü. Klemenza arxada oturdu, Keyi isə qabaq oturacaqda əyləşdirdilər. Az sonra Keyə məlum oldu ki, onu yola salanlar inanılmaz dərəcədə ekzotik adamlardı. Bu adamlar Bruklin ləhcəsində danışır, kinodakı personajlar kimi jarqondan istifadə edirdilər. Onlar Keyə xüsusi ədəblə yanaşırdılar. Yolboyu Key gah Qatto ilə, gah da Klemenza ilə mırt vururdu; görəndə ki, onlar Maykl barədə inanılmaz səmimiyyət və hörmətlə danışırlar, xeyli təəccübləndi. Maykl onu inandırmışdı ki, guya o, atasının aləminə yad adamdı, amma Klemenza öz yoğun tenor səsiylə onu inandırmağa çalışır ki, guya Maykl Donun oğlanları arasında ən şanslı adamdı, Klemenza qəti əmindir ki, atasından sonra məhz Maykl ailə işlərinə rəhbərlik edəcək.

– Bə o hansı işlərdi belə? – Key sadəlövhcəsinə soruşdu.

Poli Qatto dərhal çönüb qıza baxdı, rolu burdu. Arxa oturacaqdakı Klemenza təəccüblə cavab verdi:

– Bəyəm Maykl sizə deməyib? Mister Karleoni Amerikada ən böyük zeytun idxalçısıdı, İtaliyadan bura zeytun yağını o gətirir. Artıq müharibə qurtarıb, işlər yaxşı gedəcək, gərək möhkəm dayanasan. Don Karleoniyə də elə Mayk kimi ağıllı oğul lazımdı.

Hotelə çatanda Klemenza bildirdi ki, Keyi hotelin içinə, inzibatçı masasına qədər ötürməlidir. Key etiraz etmək istədi, lakin Klemenza sadəcə dedi:

– Şef dedi ki, sizi sağ-salamat düz hotelin içinə qədər aparım. Mən bunu etməliyəm.

Qız inzibatçı masasından otağın açarını aldı və Klemenza onu liftə kimi ötürdü, gözlədi ki, qız liftə girsin. Key ona əl edib gülümsədi, Klemenzanın da ona səmimiyyətlə gülümsəməsindən məmnun qaldı. Yaxşı ki, Key onun təzədən inzibatçının masasına qayıtmasını görmədi. Klemenza inzibatçıdan soruşdu:

– Bu qız hansı adla sizdə qeydiyyatdan keçib?

İnzibatçı onu soyuq nəzərlərlə süzdü. Klemenza əlində bürmələdiyi yaşıl əskinası masanın üstüylə inzibatçıya tərəf sürüşdürdü, inzibatçı pulu cəld götürüb bildirdi:

– Mister və Missis Karleoni kimi.

Poli Qatto maşında dedi:

– Pis qız deyil.

Klemenza mırtıldadı:

– Həəə, qızdı! “Əlbəttə, hələ evlənməyiblərsə...” Bunu da ürəyində dedi. – Səhər mənim dalımca tez gəl. Heygen bizə tapşırıq verib, onu təcili yerinə yetirməliyik!

* * *

Belə alındı ki, yalnız bazar günü gecə Tom Heygen arvadını öpüb xudahafizləşdi və hava limanına getdi.

İcazə vərəqini (onu Pentaqonun qərargahından bir general hörmət əlaməti olaraq vermişdi) göstərib çətinlik çəkmədən Los-Ancelesə uçan ilk təyyarə reysinə bilet aldı.

Tom Heygen üçün çətin və ağır gün arxada qalmışdı, lakin ona uğur gətirmişdi. Gecə saat üçdə Cenko Abandando vəfat etdi. Don Karleoni xəstəxanadan qayıdandan sonra bildirdi ki, Heygeni rəsmi olaraq özünə yeni müşavir təyin edir. Bu, hər şeydən öncə o demək idi ki, Heygen innən belə varlı olacaq, onun güclü fiqur olacağına da şübhə yox idi.

Don köhnə və kök salmış ənənəni pozdu: keçmişdənqalma belə bir ənənə hökm sürürdü ki, yalnız köklü siciliyalı müşavir ola bilər və Heygenin Donun ailəsində böyüyüb tərbiyə alması da ənənəni dəyişə bilməzdi. Bu məsələdə yalnız qan və kök rol oyanıyırdı. Bu mühüm vəzifəni yalnız soykökü Siciliyadan olan, mafiya üzvlərinin susmaq kodeksinin tələblərinə riayət edə bilən adama etibar etmək olardı. Belə bir qayda bütün donların imperiyasında mövcud idi.

Ailə klanının başında Don Karleoni dururdu. O, bütün ailə biznesinə rəhbərlik edir, onun siyasətini müəyyən edirdi. Onun tapşırıq və əmrlərini yerinə yetirənlər arasında üç bufer və ya sədd vardı; beləliklə, heç bir iz-filan lap yuxarıya, yəni başçıya gətirib çıxara bilməzdi. Bir şərtlə: əgər müşavir xəyanət etməsəydi! Həmin bazar günü Don Karleoni Ameriqo Bonaseranın qızını şikəst edən iki yeniyetmə oğlanla necə davranmaq barədə tapşırıqlarını təfərrüatına qədər verdi. Lakin Don tapşırıq və əmrləri Tom Heygenə verdi, necə deyərlər, şahidsiz-filansız, təkbətək. Gündüz Heygen də Klemenzaya göstərişlərini şahidsiz-filansız verdi, onunla təkbətək söhbət elədi. Klemenza da Poli Qattoya əmri icra etməyi tapşırdı. Bundan sonra Poli Qattonun vəzifəsi lazımi adamları tapmaq, ona verilən əmrin dəqiq yerinə yetirilməsinə çalışmaq idi. Nə Poli Qatto, nə də onun adamları heç vaxt bilməyəcəkdilər ki, tapşırıq nədən ötrüdür, onun ilk mənbəyi hardan gəlir. Bunu müəyyən etmək üçün, yaxud da bu işdə Donun əlinin olmasını aşkara çıxarmaq üçün gərək zəncirin hər hansı bir halqasında nankorluq və ya xəyanət baş versin. Belə hal heç vaxt olmamışdı; onun baş verməyəcəyinə zəmanəti kim verə bilərdi ki? Bir sözlə, elə bu vəziyyətdən də çıxmağın yolunu qabaqcadan düşünmüşdülər: zəncirin ən əsas halqalarından biri yox olmalıydı!

Bundan başqa, müşavir sözü həqiqətən öz müstəqim mənasını daşıyırdı; yəni, Donun müşaviri onun birinci köməkçisi və ikinci başı demək idi. Həm də ona ən etibarlı və ən yaxın dost hesab olunurdu. Donun vacib işgüzar səfərləri zamanı onun avtomobilini sürür, iclas zamanı lazım gələndə gedib onun üçün təzə siqar, kofe ya da buterbrod alıb gətirən adam olurdu. Müşavirin demək olar ki, hər şeydən, Donun ən xırda özək və strukturunda baş verənlərdən məlumatı vardı. Yalnız o, müşavir, yeganə fiqur idi ki, istəsəydi Donu məhv etmək imkanına malik idi. Donla bağlı belə bir xəyanət heç vaxt baş verməmişdi, hər halda, Amerikada məskunlaşmış nüfuzlu Siciliya ailə klanlarının tarixində belə hal baş verməmişdi. Bu, gələcəyi olmayan variant idi; digər tərəfdən, hər hansı bir müşavir bilirdi ki, etibarlı və dürüst xidmət ona var-dövlət gətirəcək, hakimiyyət və hörmət gətirəcək. İşdir, təsadüfi bədbəxtlik baş versə, onun arvadı və uşaqlarının qayğısına qalacaqlar, özü də onlar müşavirin sağlığında olduğundan daha yaxşı yaşayacaqlar, əlbəttə, yalnız sədaqətli və dürüst xidmət müqabilində.

Elə hallar da olurdu ki, müşavir Donun adından açıq şəkildə çıxış etməliydi; eyni zamanda o, şefinin kölgədə qalmasının da qeydinə qalmalıydı. Məhz bu işdən ötrü Heygen Kaliforniyaya uçurdu. Tom dərk edirdi ki, müşavir vəzifəsində onun gələcək taleyi daha çox bu tapşırığı necə yerinə yetirməsindən asılıdır.

Ailə biznesi standartları baxımından Coni Fonteynin müharibə filmində rol alacağı, yaxud almayacağı xırda məsələydi. Ən vacib məsələ gələn cümə günü Vircil Solozzoyla görüşün təşkil edilməsiydi. Heygen bilirdi ki, Don üçün bu məsələlərin ikisi də eyni dərəcədə vacibdir, yaxşı müşavir onların ikisini də həll etməlidir.

Təyyarənin gövdəsi azca titrədi. Onsuz da canında həyəcan yaşayan Heygen narahat olmağa başladı, sakitləşmək üçün bələdçidən martini xahiş elədi. Yola

çıxmamışdan öncə Tom Don Karleonidən və Conidən kinoprodüser Cek Voltsa aid bütün təfərrüatlı məlumatları almışdı. Verilən bütün məlumatlardan belə qənaətə gəlmişdi ki, Cek Voltsu yola gətirmək mümkün olmayacaq. Bununla belə, o, Donun Coniyə verdiyi vədi də unutmadı: Don öz vədini mütləq yerinə yetirəcək, Tomun buna qətiyyən şübhəsi yox idi. Deməli, onun vəzifəsi Voltsla əlaqə qurmaq və danışıqlara başlamaq idi.

Heygen oturacağı arxaya itələdi, kürəyini kresloya rahat dayayıb fikirlərini cəmləşdirməyə çalışdı. Ona verilən bugünkü məlumatları saf-çürük eləməyə başladı: Cek Volts Hollivudun ən nəhəng üç kino prodüserindən biridir; onun öz şəxsi studiyası var, onlarla tanınmış aktyor onunla müqavilələr bağlayıb. O, ABŞ Prezidenti yanında Hərbi informasiyalar üzrə Məsləhət Şurasının üzvüdür, orada kinomatoqrafiya bölməsinə rəhbərlik edir. Sadə dillə desək, Volts müharibə filmlərinin təbliğatına kömək edir. Ağ evdə ziyafətlərdə olub. Hollivuddakı evində C.Edqar Huveri qəbul edib. Lakin bunların heç biri səsləndiyi kimi təsirli görünmür, bunlar hamısı rəsmi əlaqələrin göstəriciləridir. Voltsun şəxsi siyasi gücü və ya nüfuzu yoxdur, başlıcası ona görə ki, o, mürtəce baxışlara malikdir, o, Allahlıq iddiasındadır, hakimiyyət hərisidir, öz hakimiyyətindən bildiyi kimi istifadə etməyi xoşlayır, bununla isə düşmənlərinin sayının artdığının fərqinə varmır.

Heygen dərindən nəfəs aldı. Yox, Cek Voltsla cənə-boğaz eləmək, onu ram eləmək müşkül məsələdi. Heygen portfelini açdı; kağız götürüb qeydlər aparmaq istədi, lakin çox yorulmuşdu, yenə martini istədi və öz həyatı barədə düşünməyə başladı. O, heç nəyə görə peşman deyildi, bəxti gətirmişdi və özünü xoşbəxt hiss edirdi. On il bundan öncə özünə bu yolu seçməli olduğu səbəbinin fərqinə varmadı. Vacib olan buydu ki, bu yol onun üçün doğru yol idi. O, uğur qazanmışdı. Uğura doğru irəlilədiyi yolda hər kəs özünü necə hiss edirsə, Tom da özünü eləcə hiss edirdi, həyat onun üçün maraqlı olmuşdu.

Otuz beş yaşlı Tom Heygen hündürboy, qısa saçlı, adi görünüşlü gənc idi, xarici görkəmi diqqəti cəlb etmirdi. Hüquqşünas təhsili almışdı, diplom alandan sonra ixtisası üzrə üç il işləmişdi. Bu gün onun əsas vəzifəsi Karleoni ailəsinin leqal biznesi, zeytun yağının Amerikaya gətirilməsiylə bağlıydı.

O, həmyaşıdı Soni Karleoni ilə dostlaşmışdı. Heygenin anasının gözləri görmürdü. Onun on bir yaşı olanda anası öldü. Onsuz da içkiyə qurşanan atası daha tez-tez sərxoşluq etməyə başladı. Atası dülgər idi, işgüzar adam idi, həyatı boyu pis iş tutmamışdı. Amma içkiyə qurşanmaqla ailəsini məhv elədi, çox keçmədi ki, özü də məhv oldu. Tom Heygen yetim qaldı, küçələrdə dolaşdı, dəhlizlərdə gecələdi. Kiçik bacısını böyütmək üçün yad əllərə verdilər, özünə isə yiyə duran olmadı. 1920-ci ildə Amerika cəmiyyəti belə oğlan uşaqlarının xeyriyyə məqsədilə götürüb saxlanmasıyla məşğul olmurdu. Heygenin də gözləri zəifləməyə başlamışdı. Qonşular pıçıldaşırdılar ki, bu xəstəlik oğlana anasından keçib, buna görə də yoluxucudur, onlara da keçə bilər. Adamlar Tomdan qaçırdılar. On bir yaşlı Soni Karleoni mərhəmətliydi, ürəyiyumşaq uşaq idi, dostunu evə gətirdi, təkidlə dedi ki, evdə Tomu qəbul eləsinlər. Toma isti

yeməklər verdilər, tomat sousuyla spagetti yedirtdilər; o, bu yeməklərin dadını heç vaxt unutmurdu. Uşağa açılıb-bükülən çarpayıda yer saldılar və o, Sonigildə gecələməli oldu.

Don Karleoni heç bir sorğu-sual eləmədən, müzakirəsiz-filansız onun evdə qalmasına təbii hal kimi icazə verdi, yetim uşağı ailənin himayəsinə götürdü. Don şəxsən özü uşağı xüsusi həkimə apardı və Tom Heygenin gözlərini sağalt-dılar. Don Tomu kollecə qoydu, sonra universitetin hüquq fakültəsində oxut-durdu. Bununla belə, o, uşağa ata kimi yox, onun qəyyumu kimi baxdı. O, Toma heç vaxt nəvaziş göstərmədi, amma qəribə də olsa, öz doğma oğullarından daha çox Tomun fikirləriylə hesablaşırdı. Don heç vaxt ona valideyn hökmünü diktə etmirdi. Heygen kollecdən sonra hüquqşünas ixtisasına yiyələnməklə sərbəst seçim etdi. Tom bir dəfə Don Karleonidən eşitmişdi: “Əlində portfeli olan bir hüquqşünas əli silahlı yüz quldurdan daha çox oğurlaya bilər”.

Soni və Fredi orta məktəbi bitirəndən sonra Don Karleoninin böyük narazı-lığına baxmayaraq, atalarının yoluyla gedəcəklərini bildirdilər. Yalnız Maykl kol-lecə daxil oldu. O, Perl Harbor faciəsindən sonra Yaponiya ilə müharibədə iştirak etmək üçün dərhal dəniz donanması piyada qoşunlarına yazıldı.

Vəkil diplomunu alandan sonra Heygen italiyalı gənc qızla evləndi. Qızın valideynləri Nyu-Cersidə məskunlaşmışdılar. Arvadı da kolleci bitirmişdi. O za-manlar qızlar üçün bu nadir hadisə idi. Karleonigildə təşkil edilən toydan sonra Don ona bütün işlərində kömək etməyə hazır olduğunu bildirdi: onun vəkil ofisini mebellə təmin etmək, ona müştəri göndərmək, hətta daşınmaz mülkiyyətin alqı-satqısı işlərində başlanğıc üçün ona hər cür kömək göstərməyə qədər hər şey eləyəcəyini bildirdi.

Tom Heygen cavabında başını itaətlə aşağı əydi, dedi:

– Mən sizə işləmək istərdim.

Don təəccüb elədi, lakin onun məmnun qaldığı üzündən oxunurdu.

– Bilirsən mən hansı işlər görürəm? –Don soruşdu.

Heygen başıyla təsdiq elədi ki, bilir. Əslində isə o, Don Karleoninin əsl gücünü bilmirdi. Tom həqiqətən bu on il ərzində, Cenko Abandandonun xəstələnməyinə qədər, bilmirdi ki, Don əslində nə işlər görür. Buna baxma-yaraq, bildiyini başıyla təsdiq elədi, Don Karleoninin gözlərinin içinə baxdı:

– Mən sizin oğlanlar kimi olmaq, sizin üçün işləmək istəyirəm, – bununla demək istədi ki, valideyn tapşırıqlarına sözsüz əməl edən övlad olmaq istəyir. O zaman Don evinin kandarına ayaq basandan bəri qəyyumluq etdiyi Heygenə ilk dəfə ata nəvazişi göstərdi; məhz o zaman Donun insanı anlamaq bacarığı barədə əfsanələr dolaşmağa başlamışdı. O, cəld Heygeni qucaqlayıb özünə sıxdı, bundan sonra onunla demək olar ki, doğma övladı kimi davrandı; hərdən yaddan çıxartmasın deyə, Heygenə xatırladırdı: “Öz valideynlərini heç vaxt unutma!”

***(Ardı var)***



# Kitab rəfi




**MAHCAMAL**
**HƏLƏ DƏ GEC DEYİL**
**BAKI, “TƏHSIL”, 2024**

“Hələ də gec deyil...” şairə Mahcamalın oxucularla ikinci görüşüdür. Mahcamal xanım poeziyaya, muğamata dəyər verən, ənənəyə sadiq qalan Abşeron ədəbi mühitinin istedadlı yetirmələrindəndir.

O, bir şair kimi, əsasən, özünü, Vətənə, torpağa bağlılığını, klassik şairlərimizə, çağdaş həmkarlarına məhəbbətini çoxsaylı qəzəlləri, təxmisləri, məsnəviləri, müxəmməsləri, mürəbbeləri ilə ifadə edir. Oxuculara təqdim olunan bu kitab Mahcamal xanımın könül təranələridir.




**RƏFAİL TAĞIZADƏ**
**QARABAĞ – HƏSRƏTDƏN ZƏFƏRƏ**
**BAKI, “FÜYUZAT”, 2023**

Kitabda tanınmış şair, publisist, esseist Rəfail Tağızadənin müxtəlif vaxtlarda yazdığı Qarabağla bağlı həsrət və zəfər yazıları yer alıb. Oxuduqca ağrını, həsrəti, göz yaşlarını görməklə bərabər, Qələbə sevincinin səsini də eşidəcəyik.

***REDAKSİYA HEYƏTİ:***
**Ağasəfa, Afaq Məsud, Azad Yaşar, Asim Yadigar, Elçin, Emin Piri, Elşad Barat, Əli Əmirli, Firuzə Məmmədli, Firuz Mustafa, Firudin Qurbansoy, Məmməd Oruc, Mustafa Çəmənli, Nərgiz Cabbarlı, Novruz Nəcəfoğlu, Paşa Əlioğlu, Paşa Qəlbinur, Rafael Hüseynov, Rəfail Tağızadə, Rəhilə Qeybullayeva, Rüstəm Kamal, Seyran Səxavət, Südabə Ağabalayeva, Vahid Əziz, Vaqif Yusifli, Vaqif Bəhmənli, Vilayət Quliyev, Vüsal Nuru**